# Mənim Padşahlığım
## bu dünyadan deyil



# Mənim Padşahlığım
# bu dünyadan deyil

**«İndiki şər dövrdə»**
**Səmavi Padşahlığın mahiyyəti**

**Devid V. Berkot**

*İsa demişdi: «Mənim Padşahlığım bu dünyadan deyil.*
*Əgər Mənim Padşahlığım bu dünyadan olsaydı,*
*xidmətçilərim Yəhudi başçılarına təslim edilməməyim uçun döyüşərdi,*
*amma indi Mənim Padşahlığım buradan deyil».*

Yəh. 18:36

Azərbaycan dilində dərc olunmuş bu kitab üçün naşirin müqəddiməsi.

Orijinalda kitabın adı: *The Kingdom That Turned the World Upside Down*

© David Bercot, THE KINGDOM THAT TURNED THE WORLD UPSIDE DOWN, 2003. İngilis dilində bu kitabı bu nəşriyyatdan əldə etmək olar: «Scroll Publishers Co.», P.O. Box 122, Amberson, PA 17210.

© Grace Press, Inc., azərbaycan dilinə tərcümə, 2017

# Azərbaycan dilində dərc olunmuş bu kitab üçün naşirin müqəddiməsi

Devid Berkot erkən məsihçilərin inamlarına aid bir neçə kitabın müəllifidir; o həmçinin 704 səhifəlik «Erkən məsihçilərin inamlarının lüğəti»ni tərtib etmişdir.

O, «Mənim Padşahlığım bu dünyadan deyil» kitabında Allahın Padşahlığının mahiyyətinə aid bir çox tədqiqat illəri ərzində formalaşmış öz əqidələri ilə bölüşür.

Bir çox müjdəçilər daxil olmaqla, əksər məsihçilərin Allahın Padşahlığını və Padşahlıq qarşısında öz öhdəliklərini dərk etməmələri Berkotu narahat edirdi. Əslində, bu kitab İngiliscə danışan auditoriya üçün yazılmışdır.

Bir məsihçi naşiri kimi, bu təlimin tərəfdarı olan kilsənin təlimi ilə böyümədiyi halda, Allahın Kəlamının tədqiqatı nəticəsində bu əqidələrə gəlmiş şəxsə biz dəyər veririk.

Azərbaycan dilində oxuyan auditoriyaya bu kitabı təqdim etmək imkanına görə minnətdarıq. Dua edirik ki, bu kitab bir çox adama yer üzündə Allahın, həqiqətən, bu dünyadan olmayan Padşahlığının vətəndaşları kimi yaşamağa kömək etsin. *«Beləcə Rəbbimiz və Xilaskarımız İsa Məsihin əbədi Padşahlığına girmək səlahiyyəti sizə bol-bol ehsan ediləcək»*.

I hissə

# Fərqli dəyərlərə malik olan Padşahlıq

# 1

# MÜQƏDDƏS MÜHARİBƏ?

1099-cu ilin 8 iyul günü cümə günü idi. İsti səhra günəşi cındır geyimli və taqətdən düşmüş ruhanilərə rəhmsiz idi. Onlar böyük çarmıxları və möminlərin sümüklərini daşıyaraq Yerusəlimin divarlarının ətrafında yürüş edirdilər.

Ruhanilərin ardınca 1200 taqətdən düşmüş, ayaqyalın səlibçi cəngavər və təxminən 11 000-ə yaxın susuzluqdan və aclıqdan əldən düşmüş piyada, dənizçi və kəndli gedirdi. Şəhəri müdafiə edən müsəlmanlar bu nümayişə nifrətlə gülürdü, iştirakçıları masqaraya qoyurdular. Cındır paltarlı, əldən düşmüş bu xristianları daha da çox təhqir etmək və alçaltmaq üçün müsəlmanlar xaçları murdarlayaraq şəhər divarlarından asırdılar.

Təhqirlərə və rişxəndlərə baxmayaraq, yürüş iştirakçıları Zeytun Dağına çatıb dayandılar. Orada yepiskoplardan biri onlara nəsihət sözləri ilə m üraciət edir: «İndi biz Rəbbimizin səmalara qalxdığı yerdə dayanmışıq. Təmizlənməyimiz üçün daha bundan artığını edə bilmərik. Beləliklə, hər birimiz öz qardaşını bağışlasın, onda Rəbb də bizi bağışlayar»[1]. Sonra o, öz peyğəmbərliyini onlara xatırladır: əgər onlar özlərini həlimliklə təmizləməkdə davam etsələr, növbəti cümə günü Yerusəlim məhv olacaq.

Əgər müsəlmanlar yepiskopun nitqini eşitsəydilər, çətin ki, narahatlıq hissi keçirərdilər. Yeddi günə Yerusəlim şəhərini ələ keçirmək? Bu, mümkün deyil. Yürüş iştirakçıları Yerusəlimin ətraf yerlərinə çatmazdan əvvəl Yerusəlimin müsəlman hakimi İftixar şəhər divarlarının xaricindəki bütün su quyularını zəhərləyib torpaqla doldurmuşdu. Səlibçilərin yalnız bir su mənbəyi olduğundan onlar susuzluqdan böyük əzab çəkirdilər. Bundan başqa, İftixar bütün ev heyvanlarını divarların daxilinə gətirməyi əmr etməklə şəhəri ərzaqla bol təchiz etdi. Yürüş iştirakçıları isə aclıqdan taqətdən düşmüşdülər. Yerusəlim uzun müddət mühasirəyə qarşı durmağa hazır idi. Ərzaqlarına qənaət etmək və xəyanətdən özünü qorumaq üçün İftixar bütün xristianları şəhərdən sürgün etdirmişdi. Yəhudilərin də əksəriyyəti şəhəri tərk etmişdi.

Beləliklə, İftixarı və onun əsgərlərini yürüş iştirakçıları az narahat edirdi. Sudan, ərzaqdan, silahdan bol olduqları halda, onlar alınmaz şəhər divarları ilə də müdafiə olunurdular. Düşmən qarşısında onların qüvvəsi də çox üstün idi. 60 000 silahlı əsgər şəhəri müdafiə edirdi! Bundan başqa, Misir qoşunları onların köməyinə gəlirdi. Bəs, yürüş iştirakçıları necə? Pis təchiz edilmiş 13 000-dən də az adam. Həmçinin yürüş iştirakçıları özgə torpaqda vuruşurdular və vətənləri Fransadan çox fərqli olan səhranın yüksək hərarətinə adət etməmişdilər. Bəli, onlar çox gülünc vəziyyətdə idilər.

Lakin beş gün sonra daha istehza səsləri eşidilmirdi. Müsəlmanların təəccübünə səbəb olaraq, yürüş iştirakçıları Yerusəlimin divarlarına tərəf irəliləyərək bir neçə nəhəng taxtanı mühasirə qülləsinə tərəf diyirlədib gətirdi. Bu nəhəng qurğunu onlar gəmiləri sökərək gizlicə taxtadan qurmuşdular. Hər bir qüllə orta əsr ordusunun ehtiyac duyduğu hər bir şey ilə təchiz edilmişdi: katapult, taran,

ayrılan körpü və şəhərin müdafiəçilərinin üzərinə oxları yuxarıdan aşağı yağdırmaq üçün hündür meydança. Bundan başqa, hər mühasirə qülləsinin daxilində kiçik frank orduları var idi; divar dağılan kimi onlar şəhərə hücum etməyə hazır idilər.

Qorxunc mühasirə qüllələrini görən müsəlman müdafiəçiləri qüllələrin qarşısında olan divarın hissələrini möhkəmlətməyə başladılar. Yürüş iştirakçıları isə hücumdan əvvəl gecə ikən qüllələrin bəzilərini yavaşca sökdülər və Yerusəlimin az möhkəmləndirilmiş divarlarının təxminən 1,6 km yaxınlığında qurdular. Bu, istənilən şəraitdə ağlasığmaz bir hərəkət idi, onların vəziyyətində isə bu, qeyri-adi bir hərəkət oldu. Cümə axşamı səhər, iyulun 14-də, Yerusəlim mənzərəsinə yumşaq səhər şəfəqi saçanda müsəlman müdafiəçiləri son dərəcə heyrətləndilər. Onlar gecə qüllələrin bəzilərinin yerlərini dəyişdiklərinə inana bilmirdilər.

Bütün gecə çalışan hücumçuların əksəriyyətinin gücü artıq tükənmişdi. Hər halda, həmin gün birgə dua ilə başlandı. Səlibçilər Allahın onların yorğun bədənlərinə zəruri qüvvəni verəcəyinə ümid edirdilər. Duadan sonra yürüş iştirakçıları Yerusəlimə öz hücumlarını başladılar. Yürüş iştirakçıları Allaha tərif qışqırıqları ilə ağır qüllələri yavaş-yavaş diyirlədib Yerusəlimin divarlarına yaxınlaşdırdılar. Eyni zamanda, katapultla şəhər divarlarına və evlərə nəhəng daşlar tullayırdılar. Mühasirə qüllələri şəhər divarlarına çatanda onların ağır taranları da Yerusəlimin qədim divarlarını atəşə tutmağa başladı. Yürüş iştirakçıları mühasirə qüllələrinin başından qatranda, mumda və kükürddə yanan taxta tirləri atmağa başladılar. Bunlar da divarların daxilində taxta istehkamları odlayırdı.

Müsəlman müdafiəçiləri isə mühasirə qüllələrinə alovlu tirləri ataraq onları yandırmağa çalışırdılar, katapultla

qayalar tullayırdılar. Bütün gün boyu hər iki tərəfdən tirlər və oxlar yağdırılırdı. Yürüş iştirakçıları cəsarətlə vuruşdular, ancaq bir addım belə, irəliləyə bilmədilər. Onların mühasirə qüllələrinin bəziləri dağılmışdı, biri isə tamamilə yanmışdı. Gecə düşəndə hər iki tərəf vuruşmağı dayandırdı.

Cümə günü, səhər, iyulun 15-də, səlibçilər hücumlarını yenilədilər. Bu gün, yepiskopun peyğəmbərliyinə görə, onlar şəhəri ələ keçirəcəkdilər. Ancaq buna ehtimal az idi. Hamısı yuxusuz gecələrdən və əvvəlki günün döyüşündən taqətsiz vəziyyətə düşmüşdü. Günorta səlibçilər tamamilə ruhdan düşdülər. Onlar tam yorulmuşdular, heç bir irəliləyiş də olmurdu. Düşmən sayca həddindən çox üstün, Yerusəlimin divarları isə alınmaz göründü.

Nəhayət, onlar hücumu dayandırdılar və məsləhətə yığışdılar. Döyüşçülərin təxminən yarısı faydasız mühasirəni dayandırmağa və yalandan peyğəmbərliklər edən yepiskopu dara çəkməyə hazır idi. Onlar hələ də məsləhətləşərkən, Zeytun dağında bir cəngavər qalxanını yelləyərək irəliləmək işarəsini verdi. Bu vaxt adamlar cəsarətlənməyə başladılar və hücumlarını yenilədilər. Taranlar yenə şəhər divarlarını dəlməyə başladı, səlibçilərdən bəziləri isə hücum nərdivanı və kəndirləri ilə divarlara qalxmağa başladılar.

Əlavə müdafiə kimi şəhər müdafiəçiləri şəhər divarlarının daxilindən ot və pambıq ilə dolu torbaları üst-üstə yığmışdılar. Lakin Bulonski Qodfridin rəhbərliyi altında oxatanlar bu torbaları yandırmağa müvəffəq oldular. Küləyin istiqaməti dəyişəndə tüstünün nəhəng buludları müsəlman müdafiəçilərini boğmağa başladı. Yanğın və tüstü onları divarlardan uzaqlaşmağa məcbur etdi.

Bu andan istifadə edərək Qodfrid öz qülləsinin uzun ayrılan körpüsünü cəld açdırdı və onun adamları

qorxmadan divarların üzərinə qalxdılar. Bir neçə dəqiqə içində onlar divarın bu hissəsini ələ keçirdilər, bu da digər səlibçilərə nərdivanlarla divara qalxmağa imkan verdi. İşğalçıların bəziləri şəhər darvazalarından birinə çatıb onu aça bildilər. Səlibçilər açılan darvazalardan çay kimi şəhərə sürətlə axın etdilər.

Sayca üstün olduqlarına baxmayaraq, müsəlmanlar heyrət və çaşqınlıq içində geri çəkildilər. Hələ bir neçə saat əvvəl bu səlibçilər taqətsiz görünürdülər, indi isə onlar şəhərə dəstə-dəstə axın edirdilər! Müsəlmanlar nizamsızcasına geri çəkilirdilər. Bütün şəhər təlaşa düşdü, hamı xilas olmağa çalışırdı. Səlibçilər nə qadınlara, nə uşaqlara mərhəmət etdi – qarşılarına çıxanların hamısını qətlə yetirirdilər.[2]

Səlibçilər özlərini Baala ibadət edənləri məhv edən Yehunun ordusu ilə müqayisə edirdilər. Yürüş iştirakçılarından biri bu dəhşətli qırğını belə təsvir edib:

> «Şəhərin küçələrində qalaqlarla kəsilmiş baş, əl və ayaq görmək olurdu. Yol ilə getmək üçün adamların və atların cəsədlərini tapdalayıb keçmək məcburiyyətində idik. Ancaq bunların hamısı dini ayinlərin icra edildiyi Süleymanın məbədində baş verənlərlə müqayisədə heç nə idi. Orada nə baş verdi? Həqiqəti söyləsəm, inanmazsınız. Buna görə də elə bunu deyəcəyəm: Süleymanın məbədində və qapısında qan at üstündə oturan adamların dizlərinə qədər çatırdı. Həqiqətən, bu yerin dinsizlərin qanı ilə dolması Allahın ədalətli və ecazkar mühakiməsi oldu! Məbəd uzun müddət onların küfrlərindən əziyyət çəkirdi. Şəhər meyit və qan ilə dolmuşdu».[3]

Elə bilirsiz ki, növbəti gün səlibçilər əksəriyyəti kiçik uşaqlar olan 100 000-ə yaxın adamı məhv etdiklərinə peşman oldular? Xeyr, heç az da olsa, peşman olmadılar.

Onların Padşahının – Rəbb İsa Məsihin onlara bu qələbəni verdiyinə və indi sevinclə onlara gülümsədiyinə əmin idilər. Axı Roma papası özü bütün sadiq Katolikləri Müqəddəs Torpağı imansızlardan azad etməyə çağırmışdı. O, Səlib yürüşünə gedən hər kəsin günahlarının tam bağışlanmasına onları inandırmışdı. Beləliklə, bizim şahidimiz davam edir:

> «Şəhəri ələ keçirəndən və Müqəddəs Qəbirdə zəvvarların ibadətini görəndən sonra başa düşdük ki, bütün əziyyət və çətinliklərimiz hədər yerə olmadı. Onlar sevinclə şadlanaraq Rəbbə yeni ilahiləri necə də şövqlə oxuyurdular! Allaha ürəkdən qələbə və şadlıqla tərif duaları edirdilər. Bunu sözlərlə ifadə etmək qeyri-mümkündür. Yeni gün! Yeni sevinc! Yeni və əbədi sevinc! Bizim fədakar zəhmətimiz hamını yeni sözlərə və yeni mahnılara ilhamlandıraraq başa çatdı». Güman edirəm ki, bu gün bütün gələcək dövrlərdə məşhur olacaq, çünki zəhmətimizi və kədərimizi sevincə və şənliyə döndərdi. Bu gün bütün xristian dininə bəraət qazandırdı, bütpərəstliyi təhqir etdi, imanımızı yenilədi. *"Bu günü Rəbb yaratdı, Onda sevinib şadlıq edək"*, çünki bu gün Rəbb adamlarına Özünü göstərdi və onlara xeyir-dua verdi».[4]

İsa bu qırğını zəfər bayramına səbəb hesab edirdimi? Doğrudanmı, səlibçilər Allahın Padşahlığını genişləndirirdilər? Yoxsa onlar Allahın Padşahlığına böyük zərər yetirirdilər?

Bu hadisələrdən təxminən 1100 il əvvəl İsa yer üzündə sevgi Padşahlığını qurmuşdu. Onun rəiyyətləri bir-birinə göstərdikləri sevgi ilə tanınmalı idilər. Onlar sevgini yalnız bir-birinə deyil, hətta düşmənlərinə də göstərməli idilər. Onların Padşahı Özü bu barədə belə demişdi: «... *Mən həlim və qəlbdən itaətkaram*» (Mat.11:29). Bu qeyri-adi

Padşahlığın ilk rəiyyətləri o dövrün dünyasını alt-üst etmişdilər. Onlar bunu qılınc ilə deyil, həqiqət sözləri və sevgi əməlləri ilə etdilər. Bəs onda məhəbbət və həlimlik Padşahlığına mənsub olduqlarını iddia edən bu adamlar Yerusəlim sakinlərinə qarşı qırğında iştirak edərək o uzaq torpaqda nə edirdilər?

Bu, uzun hekayədir. Ancaq mütləq ondan bəhs etmək lazımdır, çünki mənim və sizin əbədi taleyimiz dünyanı alt-üst edən bu Padşahlığın tarixi ilə möhkəm bağlıdır.

# 2

# Allahın yer üzündə qurduğu Padşahlıq

Növbəti fəsillərdə biz Allahın Padşahlığının dünyəvi padşahlıqlardan tam fərqlənən prinsiplərə və dəyərlərə malik olmasından danışacağıq. Lakin Allahın Padşahlığını tam başa düşmək üçün əvvəlcə Onun yer üzündə qurduğu yeganə Padşahlığa nəzər salmalıyıq.

Müqəddəs Yazılarda yer üzündə qurulacaq bu Padşahlıq barədə Çıxış Kitabında yazılıb. Burada Allah İsraillilərə müraciət edir: *«Əgər sözümə diqqətlə qulaq asıb əhdimə riayət etsəniz, siz bütün xalqlar arasından Mənə məxsus xalq olacaqsınız. Bütün yer üzü Mənimdir; siz isə Mənə xidmət edən kahinlər padşahlığı, müqəddəs millət olacaqsınız»* (Çıx.19:5-6).

Allah İsraillilərə xüsusi kahinlər padşahlığı olmağı təklif etdi. İsraillilər də Onun təklifini qəbul etdilər. Onlar Allah ilə Sina dağında əhd bağladılar. Əksər əhdlər kimi, bu əhd də ikitərəfli idi. Əgər İsraillilər Allahın səsinə qulaq asıb itaət etsələr, onda onlar *«kahinlər padşahlığı, müqəddəs millət»* olacaqlar (Çıx.19:6). Digər padşahlıqlar kimi, İsrailin də padşahı və qanunları olmalı idi. Hərçənd onların Padşahı, Qanun verəni və Hakimi Allah Özü olmalı

idi (Çıx.33:22). İsrail padşahlığının qanunu Musa vasitəsilə Allahın verdiyi Qanun idi.

Bütün bu xüsusiyyətlərə baxmayaraq, İsrail padşahlığı yer üzündə qurulmuş padşahlıq idi və bir çox xüsusiyyətlərlə digər padşahlıqlara bənzəyirdi. O, coğrafi ərazidə yerləşirdi, onun adamları müəyyən etnik mənsubiyyətə malik idi; qılınc, nizə və ox ilə silahlanmış əsgərlərlə öz padşahlıqlarını müdafiə edirdilər. Digər padşahlıqlar kimi, İsraillilər da qılınc ilə öz ərazilərini genişləndirdilər. İsraillilərin Qanunu onlara bütlərə sitayiş etməyi qadağan edirdi və yalnız bununla İsraillilər ətraf millətlərdən fərqlənirdi.

Hətta Allahın İsraillilərə vəd etdiyi xeyir-dualar belə, dünyəvi, maddi xeyir-dualar idi:

> *«Əgər Allahınız Rəbbin sözlərinə yaxşı-yaxşı qulaq asıb… riayət etsəniz, … doğulan övladlarınız, torpağınızın məhsulları, heyvanlarınızın, mal-qara və qoyun-keçilərinizin balaları artımlı olacaq. Səbət və xəmir təknələriniz bərəkətli olacaq… Rəbb anbarlarınıza, əl atdığınız hər işə «Bərəkətli olsun!» deyə əmr verəcək və Allahınız Rəbb sizə verəcəyi torpağa bərəkət yağdıracaq, … sizi bolluq içərisində yaşadacaq. … Rəbb torpağınıza yağışı vaxtlı-vaxtında yağdıracaq və bütün zəhmətinizə bərəkət vermək üçün göylərdən zəngin xəzinəsini açacaq. Siz bir çox millətlərə borc verəcək, lakin heç kimdən borc almayacaqsınız»* (Qanun.28:1-12).

Lakin maddi olan təkcə xeyir-dualar deyildi. İsraillilər əhdi pozsalar, cəzaları da dünyəvi, fiziki olacaq:

> *«Rəbb ölkənizə yağış əvəzinə toz-torpaq yağdıracaq. Siz həlak olana qədər göydən üzərinizə bunlar yağacaq. Rəbb sizi düşmənlərinizin önündə məğlub edəcək…* (Qanun.28:24,25). *Zəmiyə çox toxum səpib, az yığacaqsınız, çünki onu çəyirtkə yeyib qurtaracaq. Üzüm bağları*

*salacaq, becərəcəksiniz, lakin üzümündən dərməyəcək, şərabından içməyəcəksiniz, çünki onlara qurd düşəcək»* (ayələr 38,39).

Gördüyümüz kimi, qədim İsrail padşahlığı adi dünyəvi padşahlıq olub. Onun quruluşu başqa millətlərə aydın idi, çünki bir çox aspektdə onların padşahlığına bənzəyirdi. Əsas fərq ondan ibarət idi ki, başqa millətlər onların üzərində onların Allahının olduğunu güman edirdilər: İsrail öz Allahına ibadət edəndə Allah onlara rifah göndərirdi; İsrail günah edəndə onların Allahı cəza verərək onlara quraqlıq və aclıq göndərirdi. Əsas fərq dövlətin quruluşunda deyil, din və mənəvi məsələlərdə olub.

Lakin qədim İsrail padşahlığı əslində dünyəvi padşahlıq olub və bu, Allahın son məqsədi olmayıb. Bu padşahlıq İsraillilər daha böyük bir şeyə – bu dünyadan olmayan bir Padşahlığa gətirməli idi.

# 3

# Fərqli bir Padşahlıq

B.e. 30-cu ili istənilən başqa il kimi başlamışdı. Yəhudi kahinləri məbəddə gündəlik qurbanları təqdim edirdilər. Kəndlilər öz sahələrində işləyirdi, qadınlar kiçik çaylarda paltar yuyurdular. Balıqçılar qurumaq üçün öz torlarını Qalileya dənizinin sahillərində asırdılar. Lakin gözlənilmədən onların həyatına Yəhya peyğəmbər daxil oldu! Dəvə yunundan hazırlanmış paltarda, dəri qurşaqlı Yəhya başqalarından çox fərqlənirdi. O, Allahın Padşahlığının yaxınlaşmasını xəbər verirdi!

Allahın Padşahlığı yaxınlaşır? Yəhudilər üçün bu, Məsihin gəlməsi və Roma əsarətinin devrilməsi demək idi. Yəni onlar tezliklə bir millət kimi, müstəqil olacaqdılar. Təəccüblü deyil ki, Yəhyanın yaydığı xəbər hamını həyəcanlandırırdı. Adamlar bu Padşahlığa hazırlaşmaq üçün nə etməli olduqlarını bilmək üçün onun yanına axışmağa başladılar.

Lakin Yəhya İsanı onların çoxdan gözlədiyi Məsihi kimi təqdim edəndə əksər Yəhudilər inanmadı: «Nazaretli İsa? O, gözlədiyimiz Məsihə heç bənzəmir. O, döyüşçü deyil. Yəhudiləri Roma əsarətindən azad etmək üçün heç ordunu təşkil etməyə də cəhd etmir. O, Romalılara qarşı danışmır da».

Bəs İsa nə barədə danışırdı?

Mən bu sualı siz oxuculara vermək istəyərdim. Sizcə, İsa nə barədə danışırdı? Adamın xilasa olan ehtiyacından? Allahın bəşəriyyətə olan sevgisindən? Yenidən doğulmaq ehtiyacından? Yaxud bizi satın almaq üçün həyatını qurban verəcəyindən?

İsa, əlbəttə, bunların hamısı barədə danışırdı. Bunlar çox mühüm həqiqətlərdir. Lakin bunların heç biri Onun təliminin mövzusu deyildi. Müqəddəs Yazılar yalnız bir dəfə İsanın yeni doğulma haqqında danışdığını qeyd edir, o da Nikodim ilə şəxsi söhbətində. İsa yalnız bir dəfə bizim uğrumuzda qurban olacağı barədə söyləyir. «Xilas» sözündən yalnız beş və ya altı dəfə istifadə edir.

İsa ilk növbədə və daim **Allahın Padşahlığı** barədə öyrədirdi. Müjdələrdə təxminən yüz dəfə Padşahlığın adı çəkilir. Bundan başqa, İsanın ibrətli məsəllərinin çoxu Padşahlıq haqqında idi. Doğrudan da, İsa yer üzünə göndərilməsinin səbəbinin Padşahlıq haqqında vəz etməsinin olduğunu demişdi: *«Mən o biri şəhərlərə də Allahın Padşahlığının Müjdəsini yaymalıyam,* ***çünki Mən bunun üçün göndərilmişəm****»* (Luka 4:43). Biz bu barədə çox eşitmirik, elə deyilmi? Biz həmişə eşitmişik ki, İsanın yer üzünə gəlişinin məqsədi bizi günahlarımızdan xilas etməkdir. Bəli, bu, Onun gəlişinin məqsədlərindən biri olub. Ancaq bu, İsanın yeganə məqsədi deyildi.

İsa hər yerə gedib Allahın Padşahlığı haqqında vəz edirdi.

> *«O vaxtdan İsa vəz edib belə deməyə başladı: «Tövbə edin! Çünki* ***Səmavi Padşahlıq*** *yaxınlaşıb»* (Mat.4:17).
>
> *«İsa bütün Qalileyanı gəzir, onların sinaqoqlarında öyrədir,* ***Səmavi Padşahlığın Müjdəsini*** *vəz edir, xalq*

*arasında hər cür xəstəliyə və hər cür naxoşluğa şəfa verirdi»* (Mat.4:23).

*«Camaat bu barədə xəbər tutub Onun ardınca düşdü. İsa onları xoş qarşıladı, onlara* ***Allahın Padşahlığından*** *danışdı və şəfaya möhtac olanları sağaltdı»* (Luka 9:11).

*«İsa bütün şəhər və kəndləri gəzib-dolaşaraq onların sinaqoqlarında təlim öyrədir,* ***Səmavi Padşahlığın Müjdəsini*** *vəz edir, hər cür xəstəliyə və hər cür naxoşluğa şəfa verirdi»* (Mat.9:35).

Maraqlıdır ki, İsanın vəzlərinin əsas mövzusu Allahın Padşahlığı olduğuna baxmayaraq, bu gün, demək olar ki, Padşahlıq barədə heç danışılmır. Bu gün ən çox nədən vəz edilir? Şəxsi xilas barədə, elə deyilmi? Allahın Padşahlığı barədə isə vəz edilmir.

## Həvarilər nə barədə vəz edirdilər

Siz deyə bilərsiniz: «Yaxşı, İsa Padşahlıq haqqında vəz edirdi, amma Öz şagirdlərinə Padşahlıq deyil, yenidən doğulma və xilas haqqında vəz etməyi tapşırdı, düzdür?» Düz deyil. İsa Öz şagirdlərinə səlahiyyət verərək onları göndərəndə onlara Padşahlıq haqqında vəz etməyi tapşırdı.

Vəzə aid Onun tapşırığına fikir verin:

*«Getdiyiniz yerlərdə «S****əmavi Padşahlıq*** *yaxınlaşıb» deyə vəz edin»* (Mat.10:7).

*«Onları göndərdi ki,* ***Allahın Padşahlığını*** *vəz edib xəstələri sağaltsınlar»* (Luka 9:2).

*«Xəstələrə şəfa verin və onlara deyin: «****Allahın Padşahlığı*** *sizə yaxınlaşıb»* (Luka 10:9).

Lütfən, başa düşün ki, bunlar fikrimi sübut etmək üçün mətndən təcrid etdiyim bir neçə sətir deyil. İsa

şagirdlərini vəz etməyə göndərəndə hər dəfə onlara Padşahlıq haqqında vəz etməyi tapşırırdı.

Atasını dəfn edəndən sonra İsanın ardınca gəlməyə söz verən şagirdi xatırlayırsınızmı? İsa ona nə cavab verdi? *«Qoy ölülər öz ölülərini dəfn etsin. Sənsə get, **Allahın Padşahlığını** bəyan et»* (Luka 9:60).

Məni səhv başa düşməyin: yenidən doğulmağa və xilasa ehtiyacımızı mən qətiyyən kiçiltmirəm. Bunlar Müjdənin mühüm aspektləridir və bunlar Allahın Padşahlığına girişi mümkün edir. İsa Öz davamçılarının xilas və yenidən doğulma haqqında Padşahlıqdan ayrı vəz etmələrini heç vaxt istəməyib. Padşahlıq Müjdənin ayrılmaz və mühüm aspektidir. Biz adamlara Padşahlıq haqqında heç nə demədən xilasdan danışanda İsa Məsihin Müjdəsini vəz etmirik.

İsa hansı Müjdənin dövrün sonunda bütün dünyada vəz ediləcəyini demişdi? *«**Səmavi Padşahlığın** bu Müjdəsi bütün millətlərə şəhadət olmaq üçün bütün dünyada vəz ediləcək»* (Mat.24:14). Bu gün Müjdə bütün dünyada vəz edilir, lakin o, Padşahlığın Müjdəsidirmi?

## Allahın Padşahlığı nədir?

Hər bir padşahlıq dörd əsas hissədən ibarətdir: (1) hakimdən və ya hakimlərdən; (2) rəiyyətlərdən; (3) ərazidən və ya idarə edilən vilayətdən; (4) qanunlardan. Allahın Padşahlığı da hakimdən, rəiyyətlərdən, ərazidən və qanunlardan ibarətdir. Lakin Allahın Padşahlığı yer üzündəki padşahlıqlardan fərqli olduğuna görə bu dörd əsas hissə tam unikaldır.

Əvvələn, Allahın Padşahlığı yer üzündə hakimə malik deyil. Onun hakimi səmalardan idarə edən İsa Məsihdir. Yer üzündəki padşahlıqlar vaxtaşırı öz hakimini və siyasətini dəyişir. Lakin İsa və Onun siyasəti əbədi olaraq

dəyişmir. «*İsa Məsih dünən, bu gün və əbədi olaraq eynidir*» (İbr.13:8).

Allahın Padşahlığının rəiyyətləri kimdir? Yəhudilər? Xeyr. İsa Yəhudilərə olduqca aydın dedi: «*Allahın Padşahlığı sizdən alınıb onun məhsullarını yetişdirəcək bir millətə veriləcək*» (Mat.21:43). İsa Padşahlığı hansı millətə verəcəkdi? Romalılara? Britaniyalılara? Amerikanlara? Xeyr, bunların heç birinə Padşahlıq verilməyəcəkdi, çünki Müqəddəs Yazılarda deyilir: «*Artıq Yəhudi ilə Yunan, qulla azad, kişi ilə qadın arasında fərq yoxdur. Çünki hamınız Məsih İsada birsiniz. Əgər Məsihə aidsinizsə, deməli, İbrahimin nəslindənsiniz və vədə görə varissiniz*» (Qal.3:28,29).

Buna görə də, həqiqətən, yuxarıdan doğulan və Məsihə mənsub olan bizlər hamımız bu Padşahlığın rəiyyətləriyik. Biz Allahın vədinin varisləri, Onun yeni milləti olduq. Həvari Peter qeyri-yəhudi məsihçilər barədə yazır: «*Amma siz seçilmiş nəsil, Padşahın kahin dəstəsi, müqəddəs millət, Allaha məxsus olan xalqsınız. Sizi qaranlıqdan Öz heyrətamiz nuruna çağıran Allahın çox gözəl işlərini elan etmək üçün seçilmisiniz. Bir zamanlar xalq deyildiniz, amma indi Allahın xalqısınız. Bir zamanlar mərhəmət tapmamışdınız, indi isə mərhəmət almısınız*» (1Pet.2:9-10).

Beləliklə, Allahın Padşahlığının rəiyyətləri müqəddəs millət, kahinlərin padşahlığı olmağa çağırılmışdılar. Vaxtı ilə İsraillilər də müqəddəs həyata çağırılmışdılar (Çıx.19:5,6). Lakin padşahlıq onlardan alındı və yuxarıdan doğulmuş imanlılara verildi. Bu xalq salehlik bəhərini gətirəcəkdi.

Başqa padşahlıqlardan fərqli olaraq, Allahın Padşahlığının unikal aspekti odur ki, onun rəiyyətləri müəyyən ərazidə deyil, bütün yer üzünün xalqları arasında yaşayırlar. Bu xüsusiyyət Allahın Padşahlığı üçün daimi münaqişələrə səbəb olmuşdur, çünki onun vətəndaşları iki müxtəlif

padşahlıqda – dünyanın padşahlığında və Allahın Padşahlığında yaşayırlar.

İsa Samariyalı qadına demişdi: «*Artıq o zaman yetişir ki, Ataya nə bu dağda, nə də Yerusəlimdə ibadət edəcəksiniz*» (Yəh.4:21). Allahın Padşahlığının yer üzündə paytaxtı və ya ibadət üçün müqəddəs yeri yoxdur.

İsanın yer üzündə yaşadığı dövrdə bunların hamısı nə yəhudilərə, nə də qeyri-yəhudilərə aydın idi. Digər padşahlıqlar kimi, İsraillilərin padşahlığı da müəyyən coğrafi ərazidə yerləşirdi. İsraillilərin hüzur çadırı və ya məbədləri müəyyən bir yerdə idi. Min il ərzində məbədin yeri Yerusəlim olub. Hər bir padşahlığın paytaxtı var, Allahın Padşahlığının isə paytaxtı yoxdur.

## «Allahın Padşahlığı sizin daxilinizdədir»

İsa çox heyrətamiz sözlər danışırdı. Bir gün isə O, fariseylərə tam heyranedici bir söz dedi: «*Fariseylər İsadan "Allahın Padşahlığı nə zaman gələcək?" deyə soruşanda İsa onlara cavab verdi: "Allahın Padşahlığı müşahidə ilə gəlməz. Adamlar 'bax, o, buradadır', yaxud 'oradadır' deməyəcəklər, çünki budur, Allahın Padşahlığı sizin daxilinizdədir"*» (Luka 17:20,21).

**Daxilimizdə** olan nə Padşahlıqdır? Həqiqətən, İsa tamamilə yeni, əvvəllər mövcud olmayan bir şeyi təmsil edirdi. Bu, sadəcə, bir yeni padşahlıq deyildi. Bu, Yəhudilərin və qeyri-yəhudilərin əvvəllər eşitmədikləri, başqa padşahlıqlardan tamamilə fərqlənən yeni bir növ padşahlıq idi. Bu, «daxildə olan» Padşahlıq idi.

Siz fikirləşə bilərsiniz: «Bəli, başa düşürəm. İsa **real** bir padşahlıq deyil, **ruhani** Padşahlıq haqqında danışırdı». Xeyr, İsa real Padşahlıq haqqında danışırdı. İsraillilərin qədim padşahlığı real deyildimi? Onun real padşahları, real rəiyyətləri, real qanunları var idi. Qədim İsrail padşahlığı

kimi, Allahın Padşahlığı da real idi. Allahın Padşahlığının da real Padşahı, real rəiyyətləri və real qanunları var. Onun ərazisi bütün yeri əhatə edir, baxmayaraq ki, yerin əhalisinin əksəriyyəti bu Padşahlığın vətəndaşları deyil.

«Allahın Padşahlığı daxilinizdədir» deyəndə İsa nəyi nəzərdə tuturdu? Erkən məsihçi yazıçısı Tertullian yazırdı: «Bunu başa düşməyənlər varmı? «Daxilinizdədir» sözü «əlinizdədir» deməkdir. Yəni siz Allahın əmrlərini eşidir və icra edirsinizmi?»[5] Özünü Allaha həsr etməyə hazır olan hər kəs Allahın Padşahlığının vətəndaşı ola bilər. Bu Padşahlığın vətəndaşı olmaq üçün insan harayasa səyahət etməməli və ya heç bir məbləğ ödəməməlidir.

Bu gün Yunan dili üzrə alimlərin bir çoxu hesab edirlər ki, Luka 17:21 «sizin daxilinizdə» deyil, «sizin aranızda» tərcümə edilməlidir, çünki bu söhbət zamanı Padşah və Onun bəzi rəiyyətləri Padşahlığın gəlişi barədə sual verən bu dini rəhbərlərin arasında dayanmışdılar. Padşahlıq onların arasında idi, ancaq onlar bunu başa düşmədilər.

İsa «daxilinizdə» və ya «aranızda» sözünə hansı məna verməsindən asılı olmayaraq, prinsip eyni olaraq qalırdı. Onun Padşahlığı heç bir milli sərhədlərə, yer üzündə heç bir padşaha və heç bir silahlı qüvvəyə malik deyildir. Onun rəiyyətləri bu dünyanın xalqları arasında yaşayır, lakin dünya bu Padşahlığı görə bilmir. Allahın Padşahlığının vətəndaşı olmaq hər kəsə mümkündür. Faktiki olaraq, Allahın adamlarını bu Padşahlığın rəiyyətləri edən onların daxilində yaşayan Müqəddəs Ruhdur.

## Allahın Padşahlığı yaxınlaşıb

Bəzi məsihçilər Allahın Padşahlığının gələcəkdə olacağına inanırlar. Ancaq xeyr, Allahın Padşahlığı artıq indi buradadır. Həvari Paul Kolosselilərə yazırdı: *«O, bizi zülmət hakimiyyətindən xilas edib Öz sevimli Oğlunun Padşahlığına*

*köçürtdü»* (Kol.1:13). Paul keçmiş zamanda danışır, çünki Allah bizi Öz Padşahlığına artıq köçürmüşdür. Allah bizi Öz Padşahlığına biz öləndən sonra deyil, yenidən doğulanda köçürür.

Qəribə olsa da, məsihçilərin bir çoxu Allahın Padşahlığının yer üzündə real mövcud olduğunu başa düşmür. Onlar heç Allahın Padşahlığının nə olduğunu bilmirlər. Fariseylər kimi, onlar da Allahın Padşahlığını görmür və buna görə də özlərini Padşahlığa həsr etməyə tələsmirlər.

# 4

# Bəs siz özünüzü Padşahlığa həsr etmisinizmi?

Amerika Birləşmiş Ştatlarının vətəndaşları olmaq istəyən əcnəbilər növbəti andı verməlidirlər:

> «And içərək elan edirəm ki, mən bu günə qədər vətəndaş olduğum istənilən xarici hökmdara, hakimə, dövlətə və ya müstəqil hakimiyyətə sədaqət və hər hansı vəfalılıqdan tamamilə imtina edirəm; Amerika Birləşmiş Ştatlarının Konstitusiyasını və qanunlarını dəstəkləyəcəyəm və bütün xarici və daxili düşmənlərdən müdafiə edəcəyəm, Amerika Birləşmiş Ştatlarına səmimi olaraq sədaqətli olacağam, qanun tələb etdikdə Birləşmiş Ştatları silah ilə müdafiə edəcəyəm, qanun tələb etdikdə Birləşmiş Ştatların silahlı qüvvələrində mülki xidməti yerinə yetirəcəyəm; qanun tələb etdikdə mülki rəhbərliyin altında milli əhəmiyyətli işi yerinə yetirəcəyəm; boyun qaçırmadan və yayınmaq məqsədini güdmədən bu öhdəlikləri üzərimə götürürəm; Allah mənə kömək etsin».[6]

Əksər başqa hökumətlər kimi, Birləşmiş Ştatlar da vətəndaşlarına neytraliteti saxlamaq imkanını verməyəcək. Bir xarici hökumətə sadiqliyi qoruyub saxlayan ABŞ

vətəndaşları Birləşmiş Ştatlara loyallıqları və sədaqətlərini iddia edə bilməzlər. Heç bir hökumət buna imkan verməz. Vətəndaşlıq üçün müraciət edən hər kəsdən hökumət tam loyallığı tələb edəcək.

Buna görə də, təəccüblü deyil ki, Padşah İsa Onun Padşahlığının vətəndaşı olmaq istəyənlərdən oxşar sadiqliyi tələb edir. Əslində, İsa daha böyük sadiqliyi tələb edir:

> «*Mənimlə olmayan Mənə qarşıdır və Mənimlə yığmayan dağıdır*» (Mat.2:30).
>
> «*Atasını, ya anasını Məndən artıq sevən kəs Mənə layiq deyil. Oğlunu, ya qızını Məndən artıq sevən də Mənə layiq deyil. Çarmıxını götürməyib ardımca gələn kəs də Mənə layiq deyil. Canını qoruyan kəs onu itirəcək, Mənim uğurumda canını itirənsə onu qoruyacaq*» (Mat. 10:37-39).
>
> «*… Eyni tərzdə sizdən hər biriniz bütün əmlakından əl çəkməsə, Mənim şagirdim ola bilməz*» (Luka 14:33).

Birləşmiş Ştatlar öz vətəndaşlarından onların əmlaklarından əl çəkmələrini tələb etmir. Ancaq İsa bunu tələb edir. İsanın Padşahlığında yarımçıq sadiqlik ola bilməz. İsa ikinci dərəcəli olmağa razı deyil. İsa hər şeyi tələb edir. Məhz buna görə İsa Onun padşahlığına qoşulmaq istəyənlərə əvvəlcə hərtərəfli düşünməyi məsləhət edir:

> «*Sizlərdən kimsə bir qüllə tikmək istəyirsə, əvvəlcə oturub onun xərclərini hesablamaz ki, görsün onu qurtarmaq üçün pulu çatacaq, ya yox? Çünki qüllənin təməlini qoyub işi qurtara bilməsə, bunu görənlərin hamısı onu ələ salıb deyəcək: "Bu adam tikintiyə başlayıb qurtara bilmədi"*» (Luka 14:28-30).

İsa başlayıb tamamlaya bilməyəcəyimizi istəmir:

*«Kotanı tutub geriyə baxan Allahın Padşahlığına layiq deyil»* (Luka 9:62).

Əgər biz bu Padşahlığın mənasını və mahiyyətini, həqiqətən, başa düşürüksə, o, bizim üçün hər şeydən daha çox qiymətli olacaq:

*«Səmavi Padşahlıq tarlada gizlədilən bir dəfinəyə bənzəyir. Tapan adam onu gizlətdi, sevinclə gedib **bütün varını** satdı və o tarlanı satın aldı. Yenə Səmavi Padşahlıq gözəl mirvarilər axtaran bir tacirə bənzəyir. O, çox dəyərli olan bir mirvari tapanda gedib **bütün varını** satdı və onu satın aldı»* (Mat.13:44-46).

Hətta dünyada olan padşahlıqlar müharibə vaxtında vətəndaşlarından öz ailələrindən çox ölkələrinə sadiqliyi tələb edir. Müharibədə elə olur ki, atalar öz oğullarına qarşı vuruşur, doğma qardaşlar bir-birini öldürürlər. Faktiki olaraq, hərbi vəziyyətdə dünyəvi hökumətlər vətəndaşlarını özlərini lazım gəldikdə ölkəyə qurban verməyə çağırır. İstənilən hökumət öz vətəndaşlarından belə sədaqəti gözləyir.

İsa da bundan azını gözləmir. Niyə? Çünki Onun Padşahlığı **həqiqi** Padşahlıqdır. Dünyəvi padşahlıqlardan fərqli olaraq, Allahın Padşahlığı **həmişə** müharibə vəziyyətindədir (Ef. 6:12). İsa demişdi:

*«Düşünməyin ki, yer üzünə sülh gətirməyə gəlmişəm. Mən sülh deyil, qılınc gətirməyə gəlmişəm. Çünki Mən oğulu atasından, qızı anasından, gəlini də qayınanasından ayırmağa gəlmişəm. İnsanın düşməni öz ev əhli olacaq»* (Mat.10:34-36).

İsa da çılğın vətənpərvərlərin müharibə vaxtı öz ölkələrinə göstərdiyi belə və ya bundan da böyük sadiqliyi, sevgini və öhdəliyi Öz vətəndaşlarından tələb edir. Allahın

Padşahlığının vətəndaşı olmaq əyləncə və oyun deyil, çox ciddi məsələdir. «*Öz canını sevən kəs onu itirər, bu dünyada canı üçün qayğı çəkməyənsə onu əbədi həyat üçün qoruyar*» (Yəh.12:25).

## İtaətkarlıq

II Dünya müharibəsi ərzində Birləşmiş Ştatlar hökuməti bir çox mal və ərzağın satışına məhdudiyyət qoymağa məcbur oldu. Əvvəlcə məhdudiyyət yalnız rezinə, sonra isə yanacağa qoyuldu. Çox müddət keçmədi ki, hökumət şəkərə, qəhvəyə, ət, yağ, konservlər, noxud, paxla və başqa məhsulların satışına da məhdudiyyət qoydu. Axırda hökumət ayaqqabı və paltar kimi malların satışına da məhdudiyyət qoydu. [7]

Özünü böyük vətənpərvər adlandıran, lakin neft emal edən zavoddan yanacaq oğurladığı yerdə tutulan adam barədə nə deyərdiz? Bu adam bir çox başqa hərbi qanunları da pozursa, onda necə? Onu əsl vətənpərvər adlandırmaq olarmı? Çətin ki! Onu ikiüzlü, fırıldaqçı və hətta satqın adlandırmaq olar.

Məsihin Padşahlığında da bu belədir. İsa müxtəlif qanunları qoyub və bu qanunların hamısı hərbi dövrün qanunlarıdır, çünki biz ruhani müharibədə yaşayırıq. Qanunları pozanda biz satqın oluruq, yeni vətənimizi sevmədiyimizi göstəririk. Biz Onun Padşahlığındakı həyatdan zövq almaq istəyirik, ancaq istənilən çətinliklərə və ya narahatlıqlara düçar olmaq istəmirik. İsa Öz padşahlığına dair saxta vətənpərvərliyi dərhal tanıyır, Ona göstərilən süni sevgini dərhal görür.

## Allahın Padşahlığında qanunlar varmı?

Ola bilsin, «məsihçilər üçün heç bir qanun yoxdur» deyildiyini eşitmisiniz. Bir çox vaiz deyir: «Musanın

Qanunu bizə aid deyil. Biz qanun altında deyil, lütf altındayıq». Əgər bu, belədirsə, onda İsanın bu bəyanatlarını izah edin:

> *«Əgər Məni sevirsinizsə, əmrlərimə riayət edəcəksiniz»* (Yəh.14:15). *«Kim əmrlərimə bağlı qalıb onlara riayət edirsə, Məni sevən odur. Məni sevəni Atam sevəcək. Mən də onu sevib Özümü ona zahir edəcəyəm»* (ayə 21). *«Kim Məni sevsə, sözümə riayət edər, Atam da onu sevər və Biz onun yanına gəlib onunla məskən salarıq. «Məni sevməyənsə sözlərimə riayət etməz…»* (ayələr 23-24).
>
> *«Əgər əmrlərimə riayət etsəniz, Mənim məhəbbətimdə qalacaqsınız, necə ki Mən Atamın əmrlərinə riayət edərək Onun məhəbbətində qalıram» (Yəh.15:10). «Əgər sizə əmr etdiyim şeylərə əməl etsəniz, siz Mənim dostlarımsınız»* (ayə 14).

Bizə heç bir əmr verilmir? Sadəcə, lütf? İsa belə demirdi! İsa Məsihin təlimindən başqa, bizim üçün daha nə əhəmiyyətlidir? Qanunlar və əmrlərin olmadığı yerdə heç bir padşahlıq da yoxdur. Padşahlıq olmayan yerdə İsa da yoxdur. İsanın sadə sözlərini ləğv edən istənilən ilahiyyat və ya istənilən şərh sistemi Məsihdən deyil. Ölümündən əvvəl İsa əmrlərinə riayət etməyi şagirdlərinə ona görə dəfələrlə təkrar etmirdi ki, sonra Onun əmrlərinin olmadığını desinlər.

## Qaya üzərində tikmək gərəkdir

Dağüstü Vəzinin sonuna yaxın İsa xəbərdarlıq etdi: *«O gün bir çoxları Mənə deyəcək: "Ya Rəbb, ya Rəbb, biz Sənin adınla peyğəmbərlik etmirdikmi? Sənin adınla cinləri qovmurduqmu? Sənin adınla bir çox möcüzələr yaratmırdıqmı?" Onda Mən onlara bəyan edəcəyəm: "Ey qanunsuzluq edənlər, Mən sizi heç vaxt tanımamışam, Məndən uzaq olun!"»*

(Mat.7:22-23). Yəni İsa qanunsuzluq edən imanlını rədd edəcək. Mənim lüğətimdə «qanunsuz» – «qanunun səlahiyyəti tərəfindən tənzimlənməyən»dir.[8] Qanunsuzluq edən o məsihçilərdir ki, onlar İsanın qanunlarını və ya əmrlərini tanımır və ya onlarla yaşamaqdan imtina edirlər.

İsa Öz vəzini bu sözlərlə tamamladı:

> *«Beləliklə, bu sözlərimi eşidib onlara* ***əməl edən hər kəs*** *öz evini qaya üzərində quran ağıllı adama bənzəyir. Yağış yağar, sellər gələr, yellər əsər və o evə hücum edər. Amma ev uçmaz, çünki təməli qaya üzərində qurulub. Bu sözlərimi eşidib onlara* ***əməl etməyən hər kəs*** *isə öz evini qum üzərində tikən ağılsız adama bənzəyir. Yağış yağar, sellər gələr, yellər əsər və o evə hücum edər. Ev uçar və onun yıxılması bir müsibət olar»* (Mat.7:24-27).

Aydındır ki, qaya üzərində evi qurmağın yeganə yolu – İsanın sözlərini **yerinə yetirməkdir**. Əks halda, ev qum üzərində qurulmuş olur. Hər şey sadə və aydındır.

## Padşahlığın dəyərləri

Əllinci illərdə böyüyərək, mən kommunistlərin dəyərlərindən fərqli olan «Amerikan dəyərləri» haqqında çox eşidirdim. Amerikan dəyərləri – dini azadlıq, söz azadlığı, mətbuat azadlığı, hüquq prosedurlarının azadlığı və xalq qarşısında məsul olan seçilmiş nümayəndələr.

Oxşar şəkildə, İsanın da Padşahlığı öz prinsiplərinə malikdir. Növbəti fəsillərdə biz bu dəyərlərə əsaslanan Padşahlığın bəzi qanunlarına nəzər salacağıq. Bu Padşahlığın dəyərləri əksər adamlara mənasız görünəcək, çünki onların çoxu insan dəyərlərinin tam əksliyidir. Ancaq ən vacibi odur ki, bu Padşahlığın dəyərləri **əbədidir**. Əbədiyyət baxımından bütün şeylər tamamilə fərqli olur.

Bu, müxtəlif hərarətlərdə kimyəvi maddə $H_2O$-nun xüsusiyyətlərinin dəyişməsinə oxşayır. Bu maddə 0 və 100 dərəcə arasında olanda biz onu su adlandırırıq. Bu, borudan axan, susuzluğu yatıran, adamların üzdüyü çaylarda axan mayedir. 0 dərəcədən aşağı $H_2O$ tamamilə fərqli xüsusiyyətlərə malik olur. Əvvəllər içə bildiyiniz $H_2O$-nu siz indi yeyə bilərsiniz. Əvvəllər üzə bildiniz $H_2O$-nun üzərində siz indi gəzə bilərsiniz.

Bu, əbədilik ilə də eynidir. Əbədilik baxımından mülkiyyət, istedadlar, fəaliyyətlər, dəyərlər və prinsiplər – hər şey tamamilə yeni xüsusiyyətləri üzərinə götürür. Dünyəvi nöqteyi-nəzərdən xeyir-dua hesab olunan şeylər əbədi baxımdan lənətdir. Allahın Padşahlının vətəndaşları üçün əbədilik yalnız əsas deyil, **yeganə əhəmiyyətli məsələdir**. Qalan məsələlərin hamısı son nəticədə əhəmiyyətsiz olur.

Bu səbəblə, Padşahlığın qanunları və dəyərləri fərqli, hətta inqilabidir, çünki onlar əbədiliyin qanunları və dəyərləridir. Əlbəttə ki, onlar yer üzündəki qanun və dəyərlərdən fərqlənir!

## Dünyagörüşünün dəyişməsi

Allahın Padşahlığında yaşamaq və onun prinsiplərinə uyğun hərəkət etmək üçün dünyagörüşümüz dəyişməli, həyatı yenidən dərk etməliyik.

Məsələn, Kopernik Yer kürəsi və başqa planetlərin Günəşin ətrafında fırlandığını postulat kimi qəbul edəndə elmdə ən məşhur paradiqma dəyişikliklərindən biri baş verdi. Alimlər Kopernikin heliosentrik modelini qəbul edəndən sonra onlar yer kürəsinin hərəkəti haqqında əvvəlki ehtimallarının çoxunu dəyişməli oldular. Oxşar şəkildə, Lui Paster və başqa alimlərin o xəstəliklərin

səbəbinin mikrobların olduğunu aşkar etməsi tibbi təcrübəni tam dəyişdirdi.

Yazıçı Frank Kox Birləşmiş Ştatlar Hərbi-dəniz İnstitutunun jurnalında düşüncənin dəyişilməsinə dair əla bir nümunə gətirir:

> «Tədris eskadronuna təyin edilmiş iki xətti gəmi bir neçə gün ərzində ağır hava şəraitində dənizdə olmuşdu. Mən aparıcı xətti gəmidə xidmət edirdim və gecə düşəndə körpüdə növbə çəkirdim. Dumana görə görünüş pis idi, buna görə də kapitan bütün fəaliyyətləri izləmək üçün körpüdə qaldı.
>
> Qaranlıq düşəndən bir az sonra körpünün qanadında duran müşahidəçi məlumat verdi: «Sağ borta işıq yaxınlaşır». «O, bizim üstümüzə gəlir, yoxsa yan keçir?» – deyə kapitan ucadan soruşdu.
>
> Müşahidəçi cavab verdi: «Düz üstümüzə gəlir, kapitan». Yəni biz o gəmi ilə toqquşa bilərdik.
>
> Kapitan rabitəçiyə əmr etdi: «Gəmiyə xəbər verin: biz üz-üzə gəlirik. Səmtinizi 20 dərəcə dəyişməyi məsləhət görürəm».
>
> Cavab səs gəldi: «Səmti 20 dərəcə dəyişməyi **sizə** məsləhət görürəm».
>
> Kapitan bir daha əmr verdi: «Xəbər ver: mən – kapitanam. Səmtinizi 20 dərəcə dəyişməyi xahiş edirəm».
>
> Cavab gəldi: «Mən – ikinci sinif dənizçisiyəm. Daha yaxşı olar səmti **siz** 20 dərəcə dəyişəsiniz».
>
> Qan vurdu kapitanın başına: «Xəbər ver: mən **xətti gəmiyəm**. Səmtinizi 20 dərəcə dəyişməyi tələb edirəm».
>
> Buna belə cavab gəldi: «Mən mayakam».
>
> … Biz səmti dəyişdik».[9]

Padşahlığa daxil olmaq və Padşahlıqda qalmaq üçün düşüncəmizi radikal olaraq dəyişməliyik! Padşahlığın

yeni vətəndaşları kimi, biz aşkar edirik ki, adi gəmilər hesab etdiklərimiz əslində mayaklardır. Əgər biz Padşahlığın, həqiqətən, vətəndaşlarıyıqsa, dünyagörüşümüz tam dəyişəcək.

## Bunlar, sadəcə, gözəl səslənən hikmətli sözlər deyil

Dünyəvi qanun və prinsiplərə tamamilə zidd olan Padşahlığın qanun və prinsiplərinə nəzər salmazdan əvvəl gəlin buna fikir verək: çoxumuz İsanın inqilabi təlimlərini o qədər eşitmişik ki, bunlar bizim üçün adi olub. İsanın təlimləri bayağı mülahizələrə və yaxşı aforizmlərədək azaldılmışdır. Biz «Bəxtiyarlıq təlimi», «Qızıl qayda» haqqında danışırıq. Bunlar haqqında fikirləşmək ancaq həddindən artıq ciddi və ya hərfi qəbul edilməyən yaxşı bir şeyə çevrilib.

Mənim Müqəddəs Kitabımda Dağüstü Vəzin ilk yeddi ayəsi gözəl şeir kimi poetik formatda çap olunub. Poeziya? Həmin gün İsa Ona qulaq asmağa gəlmiş izdihama şeir danışmırdı. İsa adamların evə gedərkən Onun gözəl nitq bacarığı haqqında danışmaqlarını istəmirdi. Xeyr. İsa onlarda həyatlarının təməlini dəyişmək arzusunu oyatmaq istəyirdi. İsa onlara yeni dəyərlər və qanunlar ilə birlikdə yeni həyat vermək istəyirdi.

Növbəti səhifələrdə biz yeni Padşahlığın bir neçə dəyərinə və qanunlarına nəzər salacağıq. Ancaq izah edərək biz onları genişləndirməyəcək və mənasını dəyişməyəcəyik. Biz onları olduğu kimi qəbul edəcəyik. İsanın qanunları bizə toxunacaqmı? Əlbəttə!

# 5

# Var-dövlətə münasibətimizi dəyişmək

İlk öncə gəlin İsanın inqilabi qanunlarından birinə nəzər salaq. O, əksər insanların axtardığı var-dövlətə və rifaha aiddir. Dünyəvi hökumətlər vətəndaşlarına nadir hallarda var-dövlət yığmağı qadağan edir. İsanın qanunları isə qadağan edir. Padşahımız bizə əmr etmişdir: «*Yer üzündə özünüzə xəzinələr yığmayın. Orada güvə və pas onları məhv edər, ya da oğrular girib oğurlayar. Bunun yerinə özünüzə göydə xəzinələr yığın. Orada nə güvə, nə pas onları məhv edər, nə də oğrular girib oğurlayar*» (Mat.6:19,20).

Nə? Mən var-dövlət yığa bilmirəm? Niyə? İsa izah edir: «*Çünki xəzinən haradadırsa, ürəyin də orada olacaq*» (Mat.6:21). İsa adamların həyatında ikinci dərəcəli yerdə olmaq istəmir. Əvvəlki fəsildə biz bu barədə danışmışdıq. İsa deyir: «*Heç kim iki ağaya qulluq edə bilməz. Çünki ya birinə nifrət edib o birisini sevəcək, ya da birinə bağlı qalıb o birisinə xor baxacaq. Siz həm Allaha, həm də sərvətə qulluq edə bilməzsiniz*» (Mat.6:24).

Beləliklə, İsa bizim yeganə Rəbbimiz olmalıdır. Əksər dünyəvi hökumətlər bizim sərvətə xidmət etməyimizə etiraz etmir; təkcə vətən qarşısında öhdəliklərimizi yerinə

yetirək. Müharibə vaxtında isə dünyəvi hökumət də ölkə maraqlarını sərvət qayğısından üstün tutmağı tələb edir. Hökumət kişiləri orduya çağırır və bunun onların sərvətinə təsiri haqda fikirləşmir. Belə vaxtlarda ilk növbədə milli təhlükəsizlik, ikinci növbədə isə digər maraqlar olmalıdır.

Allahın Padşahlığı da adamlardan bunu, amma əslində bundan da **çoxunu** tələb edir. Artıq qeyd etdiyim kimi, Allahın Padşahlığı həmişə müharibə vəziyyətindədir. Maddi maraqlar **həmişə** bizim Padşahlıq qarşısında öhdəliklərimizlə münaqişədə olacaq.

Onda biz öz işimizi tərk etməliyik? Xeyr, bu, mütləq deyil. İsa izah edir:

> *«Buna görə sizə deyirəm: «Nə yeyəcəyik?» və ya «Nə içəcəyik?» deyə canınız üçün, «Nə geyinəcəyik?» deyə bədəniniz üçün qayğı çəkməyin. Can yeməkdən, bədən isə geyinməkdən daha vacib deyilmi? Göydə uçan quşlara baxın: onlar nə əkir, nə biçir, nə də anbarlarda saxlayır. Amma Səmavi Atanız onları yedizdirir. Siz onlardan daha qiymətli deyilsinizmi? Hansı biriniz qayğı çəkməklə ömrünü bir anlıq belə, uzada bilər?*
>
> *Nəyə görə geyim üçün qayğı çəkirsiniz? Görün çöl zanbaqları necə böyüyür: onlar nə zəhmət çəkir, nə də ip əyirir. Lakin sizə bunu deyirəm ki, bütün cah-calalı içində olan Süleyman belə, bunlardan biri kimi geyinməmişdi. Ey imanı az olanlar, bu gün olub sabah ocağa atılan çöl otunu Allah belə geyindirirsə, sizi geyindirəcəyi daha da yəqin deyilmi?*
>
> *Beləliklə, «Nə yeyəcəyik?», «Nə içəcəyik?» və ya «Nə geyəcəyik?» deyə qayğı çəkməyin. Çünki bütpərəstlər bütün bu şeyləri axtarırlar. Doğrudan da, Səmavi Atanız bütün bunlara ehtiyacınız olduğunu bilir. Ona görə də siz əvvəlcə Allahın Padşahlığını və Onun salehliyini*

*axtarın. Onda bunların hamısı sizə əlavə olaraq veriləcək»* (Mat.6:25-33).

İsa demirdi ki, biz özümüzü və ailələrimizi maddi cəhətdən təmin etməməliyik. O qeyd edirdi ki, biz ilk növbədə Allahın Padşahlığını axtarmalıyıq. Onun Padşahlığında qalmaq istəyiriksə, işimiz və bütün başqa məsələlər ikinci dərəcəli olmalıdır.

Əvvəl Onun Padşahlığını axtarsaq, İsa bizə nə söz verir? Maddi rifah? Xeyr. O, sadəcə olaraq, Allahın bizim qida, geyim və sığınacaqda başlıca ehtiyaclarımızı qarşılayacağına söz verir.

## Sərvətə tam fərqli yanaşma

O maddi cəhətə gəldikdə isə, Allahın Padşahlığı nəinki fərqli **qanunlara** – tam fərqli **dəyərlərə** malikdir. *«Nə bəxtiyarsınız, ey yoxsullar! Çünki Allahın Padşahlığı sizindir»* (Luka 6:20). Bizlərdən çoxu o qədər «Bəxtiyarlıq təliminə» öyrəşmişik ki, daha İsanın verdiyi radikal, inqilabi bəyanatı anlamırıq.

Kasıb olmaq xeyir-duadır? Kim buna inanar? Mən bir daha sualı verirəm: «Buna kim ürəkdən inanar?» Kasıb məsihçinin evinin yanından keçəndə ürəyimizdə «xeyir-duaya bax! Gör Allah bu ailəyə necə xeyir-dua verib» deyirikmi? Gəlin düzünü deyək. Çox az adam belə deyər, çünki kasıblığın xeyir-dua olmasına əslində inanmırıq.

Əksinə, bir çox məsihçi dəfələrlə mənə gözəl evlərini və bol mülkiyyətini göstərib deyib: «Bax, gör Rəbb bizə nə vermişdir!» Bu halda mən sual vermək istəyirəm: «Doğrudan? Axı niyə O, bunu etdi? Görəsən, niyə Allah sizə lənət göndərdi?» Biz nə vaxt oyanıb İsanın sözlərinə inanacağıq? O deyirdi: *«Vay halınıza, ey varlılar! Çünki artıq təsəllinizi*

*almısınız»* (Luka 6:24). Var-dövlət xeyir-dua deyil, tələdir. Salehlikdə kasıblıq lənət deyil, xeyir-duadır.

Tərcümə yazır: «Nə bəxtiyardır ruhən yoxsullar! Çünki Səmavi Padşahlıq onlarındır». Yunan dilində isə «ruhən» sözü yoxdur. Bir çox nəşrlərdə bu söz fərqli hərflərlə əlavə olunur.

Gəminin əslində mayak olduğunu anlamaq üçün biz düşüncəmizi tam dəyişməliyik. Padşahlıqda qalmaq istəyiriksə, var-dövlətə münasibətimizi də dəyişməliyik.

> *«Əlindəki ilə kifayətlənərək mömin olmaqsa böyük qazanc mənbəyidir. Çünki dünyaya heç bir şey gətirməmişik və oradan heç bir şey də götürə bilmərik. Yeməyimiz və paltarımız varsa, bunlarla kifayətlənirik. Zəngin olmaq istəyənlər isə sınağa və tora düşərlər; insanı məhvə və həlaka aparan bir çox axmaq və ziyanverici ehtiraslara batırlar. Çünki hər cür pisliyin kökü pulpərəstlikdir. Kimlərsə bu həvəslə imandan azıb öz-özlərinə sanki bıçaq soxmuş kimi çox əzab verdilər»* (1Tim.6:6-10).

## Dünyəvi padşahlıqdakı kasıbın Allahın Padşahlığındakı kasıbla müqayisəsi

Beləliklə, əgər mən kasıbamsa, demək olar ki, həyatım yalnız buna görə Məsihə məqbuldur? Xeyr, çünki, sadəcə, kasıb olmaq kifayət deyil. Kasıb olmağımız əvvəlcə Allahın Padşahlığını axtardığımızı gösərmir. Luka 6-da qeydə alınan çöldə söylədiyi vəzdən fərqli olaraq, Dağüstü Vəzində İsa bir az fərqli ifadədən istifadə etdi: *«Nə bəxtiyardır* ***ruhən**** *yoxsullar! Çünki Səmavi Padşahlıq onlarındır»* (Mat.5:3). «Ruhən yoxsul» ifadəsi Müqəddəs Yazılarda daha heç bir yerdə istifadə edilmir. Bir çox müasir şərhçi fikirləşir ki, bu ifadənin mənası «həlim» və ya «fağır»dır. Bəlkə də.

* Burada Yunan dilində "ruh" sözü istifadə olunur.

Lakin II əsrdə yaşayan məsihçi rəhbərlərindən biri İsgəndəriyyəli Kliment bu ifadəni başqa cür şərh edirdi: «Nə bəxtiyardır *daxildən yoxsul olanlar*».[10] Yəni var-dövlətindən asılı olmayaraq, onların ürəkləri maddi rifaha bağlı deyil. Axı adam kasıb və eyni zamanda, xəsis də ola bilər. Doğrudan da, bu dünyanın kasıblarının əksəriyyəti «ruhən yoxsul» deyil. Onlar bütün ürəkləri ilə Allahın Padşahlığına deyil, var-dövlətə can atırlar.

Dünyəvi kasıblıq seçim deyil. Dünyada yaşayan kasıbların əksəriyyəti mümkün qədər çox maddi şeyləri əldə etməyə çalışırlar. Onlar zənginlərə, orta sinfə aid olanlara paxıllıq edirlər. Var-dövlət əldə etmək arzuları elə güclüdür ki, imkanları çatmadığı halda onlar borc ilə əldə edirlər. Bu dünyada yaşayan bəzi kasıblar, bəzi zənginlər də elə, ləyaqətsiz davranır və hətta oğurlayırlar. Adətən, onlar borclarını ödəməmək üçün başqa yerə köçürlər. Bəzən dünyəvi kasıblar zənginlər kimi, ən dəbli paltarları geymək və ya cazibədar avtomobil sürmək istəyirlər. Həqiqət budur ki, zənginlər kimi, onlar da pulu sevirlər.

Adi tənbəl və ya məsuliyyətsiz adamlar da dünyəvi kasıblara aiddirlər. Onlar var-dövlət qazanmağa can atmasalar da, kilsənin, valideynlərin, öz dostlarının və ya hökumətin çiyinlərində yükə çevrilirlər. (Mən qoca, xəstə və əlil adamlar barədə danışmıram). Bəzən onlar pulsuz olurlar, çünki pullarını qumara, siqaretə, narkotiklərə və buna bənzər istiqamətlərə xərcləyirlər. Özlərini məsihçi adlandıran dünyəvi kasıblar Padşahlıq üçün çox az çalışırlar. Onlar var-dövlət üçün çalışmasalar da, Məsih üçün də çalışmırlar.

Dünyəvi kasıblıqdan fərqli olaraq, Padşahlıqdakı kasıblıq **şüurlu seçimdir**. Padşahlıqdakı kasıbların bəziləri əvvəllər varlı məsihçilər olub, ancaq ehtiyacı olana kömək etmək üçün var-dövlətlərini paylayıblar. Başqaları əvvəllər

də kasıb olub və kasıb qalmağı arzulayırlar. Padşahlığın yoxsulları yalnız zahirdən deyil, daxildən də yoxsuldurlar. Onların ürəkləri var-dövlətə deyil, Padşahlığa yönəlir. Padşahlıqdakı yoxsullar imkanlı adamlara paxıllıq etmirlər, çünki yoxsulluğu, həqiqətən, xeyir-dua hesab edirlər. Xeyir-duasız yaşayan zənginlərə paxıllıq etmək nəyə gərəkdir?

Padşahlıqdakı yoxsullar tənbəl deyil, əməksevərdirlər. Vəziyyətlərindən asılı olaraq, ailələrinin ehtiyaclarını qarşılamaq üçün onlar uzun müddət və çoxlu işləyirlər. Onlar Müqəddəs Yazıların təlimini yaxşı bilirlər: «*Kim işləmək istəmirsə, yemək də yeməsin*» (2Sal.3:10). Lakin ailələrini təmin etmək üçün səy göstərdiklərindən asılı olmayaraq, onlar həmçinin Padşahlıq üçün də çalışırlar.

Padşahlıqdakı yoxsullar xəsis deyillər. Onlar imkanları çatmayanda almırlar, istehlak mallarını kreditə almırlar. Öz öhdəliklərini yerinə yetirirlər, çünki sözünüzdə «bəli» – bəli, «xeyr» – xeyrdir. Padşahlıqdakı yoxsullar Müjdəçilikdən dolana bilərlər (1Kor.9:14); öz Padşahlarına xidmətdə səylə çalışmaqları Allaha məqbuldur. Padşahlıqdakı yoxsullar valideynlərinin, dostlarının və ya sosial təminatın hesabına yaşamırlar (mən qoca, xəstə və əlil adamlar barədə danışmıram). Onlar başqalarına yük olmurlar.

## Zəngin kəs «ruhən yoxsul» ola bilərmi?

Nəzəri baxımdan, «ruhən yoxsul» bu dünyanın rifahlarının nisbi bolluğuna malik ola bilər. Yəni var-dövlət onun sahibi deyil, xidmətçisidir. «Ruhən yoxsul» olan həvari Paul yaxşı nümunədir. O, Filipililərə yazırdı: «*Ehtiyaca düşdüyüm üçün bunları söyləmirəm, çünki hansı şəraitdə yaşasam, ondan razı qalmağa alışmışam. Mən məzlumluğun da, bolluğun da nə olduğunu bilirəm. İstər tox, istər ac, istər bolluq, istər ehtiyac içində olum, hər şəraitdə, hər vəziyyətdə*

*razı qalmağın sirrini öyrənmişəm»* (Fil.4:11,12). Həm bolluqda, həm də yoxsulluqda Paul var-dövlətə bağlı deyildi. Lazım gələndə o, heç bir tərəddüd etmədən var-dövlətdən imtina edirdi.

Məncə, Paulun bolluğunu «zənginlik» adlandırmaq çətindir. Hamımız başa düşürük ki, zəngin adam üçün «ruhən yoxsul» vəziyyətində qalmaq çox çətindir. İsa demişdi: *«Xəzinən haradadırsa, ürəyin də orada olacaq»* (Mat.6:21). Bu dünyada xəzinəmiz varsa, ürəyimiz ona bağlı olacaq; onu qoruyub-saxlamaq barədə fikirləşəcəyik. Məhz bu səbəbdən İsa demişdi: *«Dəvənin iynə gözündən keçməsi varlı adamın Allahın Padşahlığına daxil olmasından asandır»* (Mat.19:24).

Əvvəlki fəsildə qeyd etdiyimiz kimi, İsa bizə olduqca aydın şəkildə dedi: *«Eyni tərzdə sizdən hər biriniz bütün əmlakından əl çəkməsə, Mənim şagirdim ola bilməz»* (Luka 14:33). Açıq-aydındır: əmlak nə qədər böyük olsa, ondan əl çəkmək də o qədər çətin olacaq. Özümüzü «ruhən yoxsul» hesab edərək özümüzü aldada bilərik, ancaq İsanı – heç vaxt. Hətta özümüz bilməsək də, İsa xəzinəmizin harada olduğunu bilir.

Beləliklə, zəngin adamın Allahın Padşahlığına qarşı mövqeyi nədir? İsa demişdi: *«Dəvənin iynə gözündən keçməsi varlı adamın Allahın Padşahlığına daxil olmasından asandır»* (Mat.19:24). Adamların əksəriyyətinin düşüncəsinə zidd olaraq, rifah xeyir-dua deyil. Rifah ilə Allahın xeyir-duasını bir sıraya qoyan adam köhnə dəyər sistemi ilə yaşayır, onun düşüncəsi hələ dəyişməmişdir. Allahın Padşahlığında yoxsullar bəxtiyar hesab olunur, zənginlər isə iynə gözündən keçməsi çətin olan dəvəyə bənzədilir!

Zəngin məsihçilərin ümid yeri qalırmı? Bəli. İsa onlara az da olsa, ümid verdi. Zəngin adamın Padşahlığa daxil olmasının çətinliyi barədə eşidən şagirdlər təəccübləndilər və

sual verdilər. «Bunu eşidən şagirdlər çox təəccüblənərək dedilər: *"Elə isə, kim xilas ola bilər?"* İsa onlara baxıb dedi: *"Bu, insanlar üçün qeyri-mümkündür, amma Allah üçün hər şey mümkündür"*» (Mat.19:25,26).

Beləliklə, Allahın müdaxiləsinin sayəsində zənginlərə ümid qalır. Ancaq bu kiçik azlığa aid ola biləcəyini zənn edən adamlar özlərini aldadırlar. Bunu, doğrudan da, istəyən hər bir zəngin İsanın dəyərləri ilə yaşayanların ön sıralarında olmalıdır:

> *O zaman Padşah sağındakılara deyəcək: «Ey sizlər, Atamın xeyir-dua verdiyi adamlar! Gəlin, dünya yaranandan bəri sizin üçün hazırlanmış olan Padşahlığı irs alın. Çünki ac idim, Mənə yemək verdiniz; susamışdım, Mənə su verdiniz; qərib idim, Məni qəbul etdiniz; çılpaq idim, Məni geyindirdiniz; xəstə idim, qayğımı çəkdiniz; zindanda idim, yanıma gəldiniz»* (Mat.25:34,35).
>
> *Padşah da cavab verib onlara deyəcək: «Sizə doğrusunu deyirəm: siz bu ən kiçik qardaşlarımdan birinə etdiyinizi Mənə etmiş oldunuz»* (ayə 40).

Beləliklə, pulu əbədi dəyərə malik olan yaxşı sərmayə qoymağın yeganə yolu budur: yemək vermək, geyindirmək, xəstələrə, yoxsullara və həbsdə olanlara baş çəkmək. Bütün zəngin məsihçilər Allahın Padşahlığında qalmaq istəyirsə, bu xidmət onlar üçün əsas olmalıdır, çünki bu, İsa üçün əsas xidmətdir.

Mənə qəribə gəlir ki, Müjdəyə inanan məsihçilər kasıblara xidmət etməyə adətən ikinci dərəcəli əhəmiyyət verirlər, çünki insanların xilasına istiqamətlənməyən xidmət dəyərsizdir. Yaxşı olar nəyin dəyərli olub-olmamasını müəyyən etməyə İsaya imkan verək. İsanın sözlərinə görə, ehtiyacda olanlara xidmət əsasdır. Faktiki olaraq, Padşahlığı miras alanları və almayanları məhz bu xidmət

müəyyən edir. Yoxsullarla bölüşmək İsanın Müjdəsini vəz etmək kimi vacibdir.

## Özünü yoxlama

Əksər məsihçilər iddia edirlər ki, Padşahlıq onların həyatında, həqiqətən, birinci yeri tutur. «Əlbəttə, yer üzündə də var-dövlətim var. Ancaq bu, mənim üçün heç bir əhəmiyyət kəsb etmir. Ürəyim bu dünyəvi sərvətə deyil, İsaya məxsusdur». Bizlərdən çoxu bunu deyir, elə deyilmi?

Bəlkə, siz də belə deyirsiniz. Bu, həqiqət ola bilər. Ancaq adamın ürəyi etibarsızdır. Məhz buna görə biz hamımız vaxtaşırı özümüzü yoxlamalı və ürəklərimizin başında əslində nəyin olduğunu müəyyən etməliyik. Bu sadə suallar sizə kömək edə bilər.

**Əgər siz ailə başçısısınızsa, bir vərəq götürüb cavabları yazın:**

1. Pul qazanmağa həftədə neçə saat sərf edirsiniz (yola sərf etdiyiniz vaxt daxil olmaqla)?
2. Həftədə neçə saat maddi mülkiyyətin alınmasına sərf edirsiniz və ona qayğı göstərirsiniz?
3. Allahın Padşahlığına hər həftə neçə saat həsr edirsiniz? Mən Müjdəçilik etməyi, xəstəyə baş çəkməyi, yoxsullara yemək və paltar verməyi, dua və ünsiyyət etməyi, Allahın Padşahlığının yayılmasını, yaxud ailənizin ruhani ehtiyaclarına sərf etdiyiniz vaxtı nəzərdə tuturam.

İndi isə Padşahlığın marağı üçün sərf olunan saatın miqdarı ilə sizin gündəlik işə və maddi marağınıza sərf etdiyiniz saatın miqdarını müqayisə edin. Sizin vaxtınızın böyük hissəsi nəyə gedir? Təbii ki, müəyyən dünyəvi iş zəruri ehtiyacları təmin etmək üçün vacibdir. Sizin

vəziyyətinizdən asılı olaraq, çox güman ki, öz ehtiyaclarınızı təmin etmək üçün hər gün çoxlu zəhmət çəkməli olursunuz. Amma hər bir məsihçi özündən soruşmalıdır: İsa mənim yalnız **ilk zəruri əşyalara** və ya komfort həyat tərzinin təmin olunmasına işləyib-işləmədiyimi deyəcəkmi?

Padşahlıq ilə iş arasında seçim olanda nəyə üstünlük verirsiniz? İşə görə ibadəti tez-tez buraxırıqmı? İşdən sonra Padşahlıq üçün çalışmağa gücümüz qalırmı? Padşah və Onun Atası ilə gündə 10 dəqiqə vaxt keçirəndən sonra öhdəliyimizi yerinə yetirilmiş hesab edirikmi?

**Əgər siz evdar qadınsınızsa, özünüzə bu sualları verin:**

1. Ərim zəruri ehtiyacları qarşılamaq üçün kifayət olan maaşı gətirsə, razı olacağammı? Yaxud xoşbəxt olmağım üçün o, daha çox qazanmalıdır?
2. Ərimin qazandığından daha çox pul xərcləyirəmmi?
3. Pulun azlığına görə ərimə şikayətlənirəmmi?
4. Ərimin deyil, mənim **ürəyim** hansı sərvətə bağlıdır?

Ərlər çox vaxt arvadlarının maddi rifaha bağlılıq yükünü daşıyırlar; belə hallarda onlar bir işdən daha yüksək maaşlı digər işə keçirlər. Bu isə arvadların ruhani həyatına zərbə yetirir. Arvad ərinin həddindən çox məşğul olduğundan şikayət etməyə başlayır, onun xərclərini ödəməyə və istəklərini yerinə yetirməyə çalışdığını unudur.

Buna görə də, əgər siz məsihçisinizsə, Padşahlığın maraqları ilk növbədə olmalıdır. Özünüzü Padşahlığa həsr etmisinizsə, əriniz əsas ehtiyaclarınızın qarşılanması ilə qane olduğunuzu bilməlidir. Bunu təkcə sözlə deyil,

əməldə göstərin. Yaşayışınız, xərcləriniz və xahişləriniz bunu əks etdirməlidir.

### Bu, hələ başlanğıcdır

İsanın bu təlimi düşüncəmizin xeyli dəyişməsini tələb edir, elə deyilmi? Allahın Padşahlığının dəyərləri bu dünyanın dəyərlərinə ziddir. Var-dövlət yalnız başlanğıcdır. Allahın Padşahlığında qalmağımız üçün daha çox dəyişiklik etməliyik.

Lakin ruhdan düşməyin! İsa bizdən həddindən artıq ağır işlər tələb etmir. Onun köməyi ilə biz hər şeyi edə bilərik.

# 6

# Düzlüyün yeni standartı

*«Yenə qədim zamanlarda adamlara «Yalandan and içmə, amma andlarını Rəbbin önündə yerinə yetir» deyildiyini eşitmisiniz. Mənsə sizə deyirəm ki, heç and içmə, nə göyə, çünki o, Allahın taxtıdır; nə yerə, çünki yer Onun ayaqlarının altındakı kətildir; nə də Yerusəlimə, çünki ora böyük Padşahın şəhəridir. Başına da and içmə, çünki sən hətta bir dənə saçı belə, ağ və ya qara edə bilməzsən. Ancaq sözünüzdə «bəli»niz bəli, «xeyr»iniz xeyr olsun. Bundan qalanı şər olandandır»* (Mat.5:33-37).*

Beləliklə, İsa Öz rəiyyətlərinə açıq dedi ki, onlar and içməməlidirlər. And içərək adamlar nahaq yerə Allahın adını çəkirlər. Bu isə ciddi günahdır.

Lakin İsa yalnız bu səbəblə şagirdlərinə and içməməyi söyləmədi. İsa düzlüyün tamamilə yeni, inqilabi standartını təsis edirdi. Həm Yəhudi, həm də digər qədim xalqlarda and içmək çox adi məsələ idi. Ticarət, dini və hökumət işlərində adamlar çoxlu and içirdilər.

Adamlar niyə çoxlu and içirdilər? Çünki bir-birinə etibar etmirdilər.

---

* Anda aid bu təlim həmçinin Yaqubun Məktubunda qeyd olunur: "Qardaşlarım, nə göyə, nə yerə, nə də başqa bir şeyə and için. Qoy sizdə «bəli»niz bəli, «xeyr»iniz xeyr olsun ki, mühakiməyə düşməyəsiniz" (5:12).

«Hər şeydən əvvəl, qardaşlarım, nə göyə, nə yerə, nə də başqa bir şeyə and için. Qoy sizdə «bəli»niz bəli, «xeyr»iniz xeyr olsun ki, mühakiməyə düşməyəsiniz» (Yaq.5:12).

Məsələn, Yəhudeyada birinci əsrdə yaşayan Levi Ben-Yozef bazara gedir. O, gözəl bir qızıl üzük görür və onu almaq istəyir, ancaq üzük çox bahalıdır. Üzük, həqiqətən, təmiz qızıldandırsa, o qiymətə dəyər. Beləliklə, Levi satıcıdan soruşur:

— Bu, təmiz qızıldır?

— Bəli, təmiz qızıldır, – deyə satıcı cavab verir.

— Hə… Əminsiz? – deyə Levi üzüyü dişləyərək yoxlayır.

— Əlbəttə.

— Dəqiq?

— Əlbəttə! Bu üzüyü düzəldən zərgəri şəxsən tanıyıram. Üzük təmiz qızıldandır, – deyə satıcı sakitcə cavab verir.

Levi yenə də şübhələnir. O bilir ki, doğma qardaşına da inanmaq olmaz. Buna görə də üzüyün çəkisini müəyyən etməyə çalışır, diqqətlə baxıb cızıqların altında sadə metalı görməyə çalışır. Yavaş yavaş Levi inanmağa başlayır, ancaq o, hələ də əmin deyil. Nəhayət, Levi satıcıya deyir:

— Məbədin adına and iç ki, bu üzük təmiz qızıldır.

Satıcı Levinin xahişi ilə and içir. İndi Levi arxayın olub üzüyü alır, çünki Allahdan qorxan heç bir Yəhudi yalan danışaraq məbədə and içməz.

Qədim dünyada adi günlər belə keçirdi. Adamlara etibar az idi. O vaxt nə baş prokuror, nə də yalançı satıcıları cəzalandıran hökumət idarələri mövcud idi. Buna görə də cəmiyyətdə and içirdilər və əksər adamlar yalandan and içməkdən qorxurdular. Hətta qeyri-yəhudilər andlara hörmətlə yanaşırdılar, çünki yalan anda görə allahların

cəzasından qorxurdular. Nəticədə, andlar ticarətdə və hökumət strukturlarında zəruri bir hissəyə çevrildi. Andlar cəmiyyətin həyati fəaliyyətinə kömək göstərirdi.

Hər halda, and iki növ düzlüyün mövcud olmasını təsdiq edirdi. Düzgünlüyün bir növündən gündəlik həyatda, digər növündən isə and içəndə istifadə edirdilər.

İsa isə Öz Padşahlığında iki növ düzgünlüyə yol vermir. Şagirdlərinə and içməyi qadağan edərək, İsa düzlüyün yeni standartını təqdim etdi. Onlarda «bəli» sözü bəli, «xeyr» sözü xeyr olmalı idi. Həqiqi məsihçinin sözü and kimi etibarlıdır.

## Həqiqəti sevənlər

Düzlük və həqiqət ticarət, qanun və hökumət ilə məhdud deyil. İsa Pilata demişdi: «*Mən həqiqət barədə şəhadət etmək üçün doğulub dünyaya gəldim. Həqiqətdən olan hər kəs Mənim səsimə qulaq asar*» (Yəh.18:37). İsa «həqiqətdən» olan kəslərə Öz Padşahlığına daxil olmağa imkan verəcək. Həqiqət sevgisi ürəklərimizi tam doldurmalıdır. Biz, həqiqətən, Ruhdan doğulmuşuqsa və Ruhda yaşamaqda davam ediriksə, həqiqəti sevəcəyik, çünki İsa Müqəddəs Ruhu «həqiqət Ruhu» (Yəh.14:17) adlandırır.

Sizcə, tanıdığınız məsihçilərdən* neçəsi Allahım Padşahlığının nümunəvi standartına uyğun yaşayır? «Bəli» sözü bəli, «xeyr» sözü xeyr olan neçə məsihçi tanıyırsınız? Bir məsihçi sizə nə isə deyəndə siz həmişə ona tam etibar edirsinizmi? Əminsiniz ki, bu, yalan və ya şişirdilmiş şayiə deyil?

* “Məsihçı” deyəndə özlərini xristian dininə aid edənləri nəzərdə tuturam. Onlaq əsl imanlı olmaya da bilərlər. «Padşahlığın məsihçiləri» deyəndə İsanın Padşahlıq haqqında təliminə uyğun yaşayan adamları nəzərdə tuturam.

Bir məsihçi sizə söz verəndə ona tamamilə etibar edə bilirsinizmi? Əlbəttə, gözlənilməyən vəziyyətlər də yarana bilər, məsələn, yol qəzası. Yoxsa onun «bəli» sözü «bəlkə»-dir?

Bu kitabda «məsihçi» haqqında danışanda mən məsihçi olduqlarını etiraf edən kəslərdən danışıram. Onlar həqiqi məsihçilər ola və ya olmaya da bilərlər. «Padşahlığa mənsub olan məsihçilər» deyəndə mən İsanın Padşahlığının təlimləri ilə yaşayan məsihçilərdən danışıram.

## İşimizdə düzlük

Məsihçi bir işdə çalışırsa, bütün dünya bilməlidir ki, onun yerinə yetirdiyi iş tamamilə insaflı və düzgün olacaq. Bu, belə olmalıdır. Lakin sizin həyat təcrübəniz mənim təcrübəmlə eynidirsə, onda bu, belə deyil. Təəssüf ki, özlərini məsihçi adlandıran əksər adamlar əslində Padşahlığın həqiqi nümayəndələri deyillər. Onların düzlüyü dünyada olan düzlükdən az fərqlidir.

Belə məsihçilər vergi ödəməmək üçün öz gəlirlərini müntəzəm olaraq gizlədirlər, həm rəhbərliyə, həm də müştərilərə yalan danışırlar, borclarını verməkdən yayınırlar. Mən özüm hüquqşünasam; əvvəllər şəhərimizin mərkəzi küçəsində vəkillik firmam olub.* Öz müştərilərimə vicdanla xidmət etməyə çalışırdım, onlar da mənə vaxtında ödəyirdilər. Yadımdadır, yalnız dörd nəfər mənim haqqımı aldadıb vermədi. Bunların hamısı da məsihçilər idi! Mən nominal məsihçilərdən danışmıram. Bunların dördü də öz imanlarından çox ucadan danışırdı.

* Müəllif Padşahlığın prinsiplərini dərk etməzdən hüquq üzrə təhsil alıb əvvəl vəkil oldu. Hal-hazırda o, bu prinsiplərə uyğun yaşayır və yalnız vəsiyyətnamələr, mülkiyyət məsələləri ilə məşğul olur, bu da, Padşahlıq prinsiplərinə zidd deyil.

## Məsihçi ədəbiyyatında ləyaqətsizlik

Bir çox məsihçilərin ləyaqətsizliyi yalnız onların işində deyil, həmçinin yazdıqları ruhani kitablarda da görünür. Oxucu məsihçi müəllifin kitabını əlinə götürürsə, yazılanlara etibar edə bilməlidir. Ancaq əslində bu, belə deyil.

Mayk Varnke məşhur məsihçi komediyalarının müəllifidir. 1972-ci ildə nəşr edilmiş «İblisani satıcı» («The Satan Seller») kitabının milyonlarla nüsxələri satıldı. Mayk Varnke məsihçi dünyasında populyar oldu, «Ailə diqqət mərkəzində» və «700 Klub» kimi televiziya tamaşalarında çışıx etməyə başladı. Öz kitabında Varnke əvvəllər narkoman olduğundan, sonra isə şeytani sektaya işə qəbul edildiyindən danışır. Tezliklə o, şeytani sektada baş kahin vəzifəsinə qədər qalxır, dəhşətli ayinləri və orgiyaları idarə edir. Daha sonra Varnke kitabda bildirir ki, gizli şeytan məzhəbinin filiallarında üç şəhərdə onun 1500 davamçısı olub. Bu, çox maraqlı kitabdır.

Lakin 1992-ci ildə «Təməl daşı» («Cornerstone») müjdəçi jurnalı «İblisani satıcı: Mayk Varnkenin kədərli hekayəsi» adlı məqaləni dərc etdi. Sənədlərlə təsdiq edilən dəlillərlə Mayk Varnkenin uydurduğu bəyanatları ifşa olunur; həmçinin onun ciddi günahlarda təqsirkar olduğu qeyd edilir. Məsələn, o, heç vaxt həyata keçməmiş layihələr üçün pul toplayırdı; xidmət etdiyi dövrdə ciddi əxlaqsızlıq edirdi.[11] Təəssüf ki, müasir məsihçi musiqi sənayesinin xadimləri bunu bilərək problemi həll etmək üçün Müqəddəs Kitaba uyğun heç bir tədbir görmədilər.

Biz fikirləşə bilərik ki, bu ədəbsiz fırıldaqçını ifşa etdiyi üçün bütün məsihçilər «Təməl daşı» jurnalına çox minnətdar olmalı idilər. Doğrudan da, bir çox məsihçi təhqiq işləri üçün «Təməl daşı»na təşəkkür edirdi. Lakin jurnala və onun redaktorlarına həmçinin Varnkeni ifşa etdikləri üçün onları mühakimə edən digər məsihçilərdən məktublar

axın kimi gəlirdi. Bunlardan bir çoxları yazırdı: «Maykın şəhadəti yalan olsa da, bir çox insanı Məsihə gətirdi».

«Təməl daşı» jurnalının təhqiq məqaləsinə cavab olaraq aldığı məktublardan bir neçəsini qısaldılmış formada sizə çatdırırıq:

> «Mayk Varnke haqqında məqaləniz mənə böyük təəssürat bağışlamadı. Siz dünyəvi mətbuat kimi davrandınız. Mayk Varnkenin həyatında baş verənlər pisdir, ancaq siz çox uzağa getdiniz! Məgər Müqəddəs Kitab öyrətmir ki, hansı niyyətlə olursa olsun – əsas Məsihin təbliğ edilməsidir?
>
> Siz bu adamı ittiham edirsiniz, onu fırıldaqçı adlandırırsınız, amma demirsiniz ki, onu dəstəkləmək və onun üçün dua etmək gərəkdir. Məsih hətta zinada tutulan qadını ittiham etmədi. Məgər nüfuzlu adamın günahına Allah fərqli yanaşır? Yaxşı olar öz həyatınıza diqqət yetirəsiniz? Bəli, cənablar, mən çox qəzəblənmişəm. Mən özüm xidmətçiyəm və kəskin tənqidin nə olduğunu bilirəm. Siz bağışlamadan danışdınız; niyə ittiham etmək əvəzinə qardaşı dəstəkləmirsiniz? Bu barədə fikirləşin! Siz səhv edəndə Allah sizi ittiham edirmi?»[12]

Başqa oxucu yazdı:

> «Niyə siz Mayk Varnkeni qaralamağa çalışırsınız? O təsəvvür edə bildiyinizdən daha çox adamı xilasa gətirmişdir. İki dostum ilə birgə onun imanlı cəmiyyətində təşkil olunmuş konsertində idik; mən və hər iki dostum Rəbbi tanıdıq. Siz bilirsiniz ki, İblis Mayka şər atacaq, çünki o, Maykdan qorxur. Lütfən hərəkətlərinizi izah edin».[13]

Şəxsən məni Mayk Varnkenin biabırçı fırıldaqçılığından çox özlərini məsihçi adlandıran oxucuların münasibəti dəhşətə gətirir. Bəs, düzlüyə məhəbbət, yalana

nifrət haradadır? Əgər Mayk, həqiqətən, tövbə edibsə, biz onu bağışlamalıyıq. Ancaq bu, o demək deyil ki, biz onun ləyaqətsizliyini ört-basdır etməliyik. Söhbət bir az səhv etmiş adamdan getmir. Bu – Varnkeyə yüz minlərlə dolları gətirən qəsdən edilmiş ləyaqətsizlikdir. Mayk Varnke çox nümunədən biridir.

1980-ci illərdə mənim həyat yoldaşım ilə birgə mən bir neçə il ərzində qeyri-kommersiya məsihçi kitab dükanını idarə edirdik. «Ağlayan külək» («Crying Wind») adlı bir kitab o vaxt olduqca məşhur idi. Kitab bir Amerikan qadınının Məsihə gəlməsi barədə diqqətəlayiq hekayəsindən bəhs edirdi. Yeganə problem o idi ki, naşir onun şəhadətinin həqiqi olmadığını bildi və kitabın nəşri dayandırıldı. Sonralar mən özüm də öyrəndim ki, diqqətəlayiq şəhadətlərin və möcüzə haqda hekayələrin bir çoxu tamamilə yalan və ya şişirdilmişdir.

Məsələn, «İblisin gizli fəaliyyəti» adlı kitabında Lauren Stratford şeytan sektasını tərk edib məsihçi olduğundan danışır. Kitabda sektada ikən onunla guya baş vermiş hadisələr təsvir edilir. Məsələn, o, dəfələrlə zorlanmış olduğunu, doğduğu bir neçə körpənin dini mərasimdə qurban verildiyini iddia edir. Lakin onun sözlərini araşdıran şəxslər kitabda vəfat etmiş anasını, kitaba görə, onda olmayan bacısını, keçmiş ərini, müəllimlərini tapdılar və hamısı kitabda yazılanların yalan olduğunu dəlillərlə təsdiq etdilər.[14] Nəticədə, nəşriyyat «İblisin gizli fəaliyyəti» kitabını geri götürdü… və müəlliflik hüququnu başqa naşirə verdi.

Bu nümunələr aysberqin üzdə olan hissəsidir. Fakt odur ki, bugünkü məsihçilik nominal kilsələrin mühitində çiçəklənən yalanları dəstəkləyir. Televiziyada vəz edənlər barədə heç danışmıram. Onların yalanı və qüsurları bir çoxlarına məlumdur. Hətta bəzi vəz edən müjdəçilər Xoş Xəbərin yayılması naminə yalan danışmağı doğruldurlar.

Məsələn, hətta çox hörmətli müjdəçilər öz auditoriyalarında tanışlarını oturdurlar. Tövbəyə çağırış səslənəndə saxta «tövbə» edənlər ayağa qalxır və irəli çıxaraq özlərini elə göstərirlər ki, sanki ilk dəfə Məsihi qəbul edirlər. Bununla onlar çəkinənlərə tövbə üçün qarşıya çıxmaqda cəsarətli olmağa kömək edirlər. Başqa sözlə, məqsəd vasitəyə haqq qazandırır.

Ancaq bu, dünyanın dəyər sistemidir. Allahın Padşahlığında bizi məqsədə çatdıran vasitələr məqsədin özü qədər əhəmiyyətlidir. Allahın Padşahlığının məqsədlərinə nail olmaq üçün dünyanın vasitələrindən heç vaxt istifadə etmirik. Sizcə, İsanı dinləyənlərin arasında Onun Öz yalançı adamları var idimi?

Hər yerdə məsihçilər arasında ruhani ləyaqətsizlik müşahidə olunur. Bir çox müjdəçi hiylənin bütün növlərindən istifadə edərək sponsorlarına çoxlu yeni imanlılar barədə məlumat verir. Sıravi məsihçilər isə qərəzli ideala uyğunlaşmaq üçün şəhadətlərini çox vaxt bəzəyirlər.

## Saxta şəfalar

Çox güman ki, kilsələrdə daha geniş yayılmış yalan «möcüzəvi» şəfa haqqındadır. İsa və Onun həvariləri xəstələrə şəfa verirdilər. Əslində, şəfa Padşahlıq haqqında xəbərlə əlaqəli idi. İsanın bu gün də adamlara şəfa verdiyinə mən də inanıram. Lakin şəfa xidməti bir çox şərəfsiz fırıldaqçıları cəlb edir.

Bu səhnəni təsəvvür edin: şəfa xidmətini icra edən müjdəçi böyük izdiham qarşısında dayanır. O, əlil kreslosunda oturan yaşlı xanıma yaxınlaşır və uca səslə ona əmr edir: «Dur və gəz!» Qadın kreslodan tutaraq yavaş-yavaş zəif və titrəyən ayaqları üstünə qalxır. Nəhayət, o, əlil kreslosunu buraxır və öz gücü ilə düz durur. Auditoriya həyəcan içində donub qalır, şükür səsləri eşidilir. Bundan

sonra isə daha təəccüblüsü baş verir. Qadın yavaş-yavaş birinci addımı, sonra ikinci, üçüncü addımı atır… Bütün adamlar ayağa qalxır, əllərini göyə qaldırıb Rəbbə şükür edirlər. Möcüzə baş verdi!

Möcüzə? Əksər adamlar başa düşmürlər ki, əlil kreslolarında oturan adamların çoxu gəzə bilir. Anamın səksəndən çox yaşı var; yavaş da olsa, gəzə bilir. Amma xəstəxanaya və ya böyük marketə gedəndə onun çoxlu yeriyəcəyini bilərək əlil kreslosunu götürürük ki, yorulanda oturub istirahət edə bilsin. Anamın əlil kreslosundan qalxıb gəzdiyini görən kəs bunun möcüzə olduğunu fikirləşə bilər, ancaq bu, möcüzə deyil.

Şəfa verən müjdəçilər əksər hallarda ədəbsizcəsinə yalandan istifadə edirlər. Bəzi məşhur «şəfa» müjdəçiləri əlil kreslosu ilə yalanı «təkmilləşdiriblər». 1980-ci illərdə şəfa müjdəçiləri U. V. Qrant və Peter Popoff öz ayaqları üstündə auditoriyaya daxil olan yaşlı adamlara əlil kreslolarını təklif edirdilər. Bu əlil kreslolarının rəngi, modeli tamamilə eyni idi. Sonra köməkçilər bu əlil arabalarında olan yaşlı adamları auditoriyanın ön sırasına sürüb gətirirdilər. Beləliklə, şəfa verənlər bilirdi ki, bu əlil kreslolarında oturan adamlar gəzə bilirlər və onların hamısı öz ayaqları ilə auditoriyaya daxil olmuşdu. Sonra bu ləyaqətsiz şəfa verənlər bu adamları durub gəzməyə çağıranda, elə bil möcüzə baş verirdi. Hətta U. V. Qrant «şəfa» tapmış adamlardan onu əlil arabasında zalda sürməyi xahiş edirdi.[15]

Bu kələk ilə qənaətlənməyən Peter Popoff şəfa proqramını başlamazdan əvvəl arvadı Elizabeti adamların yanında oturub onlarla söhbət etməyə göndərirdi. Qadın onların dediklərinin hamısını qeyd edirdi, sonra isə video müşahidə və radio ötürücüsü aparatları ilə təchiz edilmiş, yaxınlıqda dayanan vaqona yollanırdı. Əri qulağına adamlar üçün görünməz qədər kiçik olan radio taxırdı. Auditoriyada baş

verənləri video müşahidə sistemi ilə görən Elizabet Popoff ərini auditoriyada müxtəlif adamlara istiqamətləndirirdi, onların adlarını, yaşadıqları yeri, xəstəliklərini deyirdi. Əri sıraların arası ilə keçərək adamların adlarını çəkirdi, Allahdan onların şəfa alacaqları haqda vəhy aldığını deyirdi. Bir gün milli televiziyada onun kələkləri aşkara çıxarıldı, lakin bu, onu dayandırmadı.[16]

Qrant ilə Popoffa aid ən kədərli odur ki, onları məsihçilər deyil, aqnostiklər ifşa etdilər. Artıq qeyd etdiyim kimi, müasir məsihçilik ləyaqətsizliyin artmasına imkan yaradır. Məsihçilər saxta möcüzələri ifşa etmək istəmirlər. Onlar bu möcüzələrin həqiqi olmasına inanmaq istəyirlər, çünki adətən müasir şəfa müjdəçiləri rifah və asan iman Müjdəsini vəz edirlər, onların «möcüzələri» isə onların müjdəsinin həqiqiliyini sübut edir.

Şübhəsiz, bu «şəfa» tərtibatçıları və onları dəstəkləyənlər Məhşər Günündə İsaya cavab deyəcəklər:

> *«"Ya Rəbb, ya Rəbb, biz Sənin adınla peyğəmbərlik etmirdikmi? Sənin adınla cinləri qovmurduqmu? Sənin adınla bir çox möcüzələr yaratmırdıqmı?" Onda Mən onlara bəyan edəcəyəm: "Ey qanunsuzluq edənlər, Mən sizi heç vaxt tanımamışam, Məndən uzaq olun!"»* (Mat.7:22-23).

Beləliklə, möcüzələrin olub-olmaması imanlının İsaya həsr olunmasını sübut etmir. Möcüzələri həm həqiqi, həm də yalançı məsihçilər edirlər. Ancaq həqiqi məsihçi heç vaxt saxta möcüzəni etməyib. Möcüzələr Allah qarşısında imanlının təmiz olmasını sübut etmir. Saxta möcüzələr şəxsin xidməti arxasında Məsihin dayanmadığını sübut edir, çünki İsa heç vaxt ikiüzlü olmayıb və yalan işlətməyib.

# 7

# Padşahlığın nikah və boşanmaya aid qanunları

*«Kim Mənə görə büdrəməsə, nə bəxtiyardır!» (Mat.11:6).* İsa bu sözləri deyəndə bilirdi ki, Onun təlimlərini eşidən adamların əksəriyyəti **büdrəyəcək**. İsanın təlimlərini eşidib büdrəyənlər daha İsa haqda eşitmək istəmir və həmişəlik dünyaya gedirlər. Bəziləri isə büdrəyib dünyəvi kilsəyə qoşulurlar. Dünyəvi kilsə öyrədir ki, İsa əslində dediyini nəzərdə tutmurdu. Onlar belə kilsəni tapana qədər axtarırlar. Bu gün belə kilsəni tapmaq çətin deyil. Ancaq İsanın təlimlərini dəyişməyən kilsəni tapmaq olduqca çətindir.

Bu gün əsasən boşanma və sərvət haqqında İsanın təlimi büdrəməyə səbəb olur. Biz var-dövlət haqqında İsanın təlimini artıq müzakirə etdik. İndi isə gəlin görək boşanma haqqında İsa nə deyir:

> *«Kim arvadını boşayarsa, ona talaq kağızı versin» deyilmişdir. Mənsə sizə deyirəm ki, cinsi əxlaqsızlıqdan başqa bir səbəbə görə arvadını boşayan hər kəs onu zinaya sövq edir. Boşanmış qadınla evlənən də zina edir»* (Mat.5:31,32).

Olduqca aydındır, elə deyilmi? Kim cinsi əxlaqsızlıqdan (porneia) başqa bir səbəbə görə arvadını boşayırsa, ərə getdiyi halda onu zinaya sövq etdiyinə görə məsuliyyət daşıyır. Çünki əgər qadın təkrar ərə gedirsə, hər ikisi – o və onun yeni əri zina edəcəklər.

## Musanın Qanununa uyğun boşanma

Allahın Padşahlığının boşanmaya aid qanununu tam anlamaq üçün gəlin əvvəlcə görək Musanın Qanunu boşanmaya aid nə öyrədir. İsa boşanma haqda danışmağa başlayanda dedi: ««Kim arvadını boşayarsa, ona talaq kağızı versin» deyilmişdir». İsa Qanunun Təkrarı Kitabına istinad edirdi:

> *«Kimsə bir qadını alıb, evlilik zamanı onda ləyaqətsiz bir şey tapdığı üçün qadını bəyənməzsə, talaq kağızı yazıb əlinə verərək evindən çıxararsa, evdən çıxmış qadın sonra başqa kişiyə ərə gedə bilər. O biri kişi də onu bəyənməzsə, ona talaq kağızı yazıb əlinə verərək evdən çıxararsa və yaxud onu alan kişi ölərsə, onu evdən çıxarmış əvvəlki əri onu təkrar özünə arvad edə bilməz, çünki qadını ləkələmişdir. Bu, Rəbbin hüzurunda iyrəncdir…»* (Qanun.24:1-4).

Beləliklə, Musanın Qanununa görə, ər arvadında «ləyaqətsiz bir şey» tapdısa, boşana bilərdi. Bəs, bu sözlər nəyi nəzərdə tutur? Bəzi yəhudi Qanun müəllimlərinə görə, bu, hər şey ola bildirdi. İsa isə kişiyə arvadı ilə yalnız əxlaqsızlıq (porneia)* səbəbi ilə boşanmağa icazə verdi.

---

* Əsrlər ərzində qərbdə yaşayan məsihçilər “pornia” sözünün mənası haqda mübahisələr edirdilər. Roma Katolik kilsəsi bu sözün izahını belə verirdi: “Əhdi-Ətiqin qaydalarına zidd olan qohum və ya qan qoyumlar arasında nikah”. Erkən məsihçilər isə bunu uzun müddət davam edən zina hesab edirdilər.

*Əsrlər boyu bu «porneia» sözü haqda qərbli məsihçilər arasında qızğın mübahisələr keçirdi. Roma katolik Kilsəsi tarixən bunu qan qohumluğu və ya nikah qohumluğu olan adamlar arasında nikah barədə Levililər Kitabında yazılan qanunları pozan nikahlara aid edirdi. İlk məsihçilər bunu uzun müddət davam edən zina hesab edirdilər.

Bəs arvad ərindən boşana bilərdimi? Doğrusu, Allah heç vaxt qadına ərindən boşanmağa icazə verməyib. Bu, sizə qəribə gəlirsə, Müqəddəs Kitabda boşanmaya aid bütün ayələri bir daha oxuyun. Görəcəksiniz ki, Əhdi-Ətiqdə yalnız ərin arvad ilə boşanmasından yazılıb. Heç bir istisna yoxdur.

Kembric Universitetindən yəhudi professor İzrael Abrahams Əhdi-Ətiq dövründə Yəhudilərin boşanması haqqında belə demişdi: «Yəhudi qanununda boşanma əvvəldən axıra qədər həmişə ərin hərəkəti olub. Müqəddəs Kitabda boşanma termini olan «ibkeaç işşah»ın mənası «arvadı göndərmək»dir. Dildə «əri göndərmək» ifadəsi ümumiyyətlə yoxdur. Qadın cinsində feli sifət «geruşah» – «qovulmuş qadın» boşanmış arvada aiddir. Kişi cinsində analoji söz yoxdur». [17]

## Qanunda verilən boşanma çərçivəsini İsa genişləndirdimi?

İndi icazə verin sizdən soruşum: İsa fariseylərə boşanma haqda deyərkən Qanunun verdiyi boşanma çərçivəsini genişləndirdi, yoxsa məhdudlaşdırdı?

Məncə, hamı mənimlə razılaşar: məhdudlaşdırdı. Arvadında ləyaqətsiz bir şey tapan ərə İsa yalnız zina edən arvadı ilə boşanmağa icazə verdi. Bundan başqa, Musanın Qanunu boşanmış qadına təkrar ərə getməyə icazə verirdi. İsa isə bunu qadağan etdi: *«Boşanmış qadınla evlənən də*

*zina edir»* (Mat.5:32). O həmçinin boşanmadan sonra kişiyə təkrar evlənməyi də qadağan etdi: *«Arvadını boşayıb başqası ilə evlənən kəs arvadına münasibətdə zina edir»* (Mar.10:11).

Beləliklə, Qanunun mümkün etdiyi boşanma hallarını İsa artırmadı. Əksinə, O, bunları xeyli azaltdı. Qəribədir, amma bu gün bəzi kilsələr İsanın boşanma Qanununu genişləndirdiyini öyrədirlər. Siz soruşa bilərsiz: «Doğrudan? Necə genişləndirdi?» Faktiki olaraq, tanıdığım kilsələrin əksəriyyəti belə öyrədir: kişi əxlaqsızlıq səbəbi ilə arvadından boşana bilər və arvad da eyni səbəblə ərindən boşana bilər. İsa belə demişdimi? Məgər İsa qanunu genişləndirərək arvadlara da boşanmağa icazə verdimi? Xeyr, icazə vermədi. İsa boşanma yolunu genişləndirmədi. Əksinə, O, demək olar ki, boşanma yolunu tam bağladı və ər üçün yalnız dar cığır qoydu.

## Arvadlar və boşanma

«İsa arvadlara ərləri ilə boşanmağa icazə verən başqa mədəniyyətdə yaşasaydı, bəlkə də, icazə verərdi», – deyə siz fikirləşə bilərsiniz. Yaxşı, biz bu haqda çox mübahisə etməyəcəyik. Çünki həm Yunan, həm də Roma qanunları arvada ər ilə boşanmağa icazə verirdi. Yəhudeyada, Qalileyada bir çox Romalılar və Yunanlar yaşayırdı; Yəhudilər arasında da bir çox yeni fikir tərəfdarları* var idi.

Məhz buna görə İsa başqa yerdə yenə boşanma mövzusuna müraciət edir. Bu dəfə İsa həm ərə, həm də arvada deyir: *«Arvadını boşayıb başqası ilə evlənən kəs arvadına münasibətdə zina edir. Ərindən boşanıb başqasına gedən qadın da zina edir»* (Mark10:11,12). Heç bir istisna yoxdur.

---

* İudaizmi qəbul edənlər.

Bu, niyə belə vacibdir? Çünki bu gün boşanmaların əksəriyyəti ərlərin deyil, arvadların təşəbbüsü ilə baş verir. Birləşmiş Ştatlarda (hər ştatda vəziyyət fərqlidir) 67-75%,[18] İngiltərədə isə 70% boşanmaya qadınlar təşəbbüs edirlər.[19]

Bu statistika bütün boşanmaları ehtiva edir. Kiçik uşaqları olan ailələrdə isə qadınların təşəbbüsünü göstərən bu faiz daha yüksəkdir.

Ötən iyirmi iki il ərzində mən torpaq mülkiyyəti üzrə vəkil işləmişəm. Torpağın mülkiyyət hüquqlarını tədqiq edərək bir neçə min boşanma işinə baxmışam. Fikir vermişəm ki, bu boşanmaların ondan doqquzuna arvadlar təşəbbüs ediblər. Orta milli statistika göstəricisi ilə müqayisədə niyə bu sahədə boşanma faizi bu qədər yüksəkdir? Səbəb budur ki, mən yalnız torpaq mülkiyyətinə malik olan şəxslərin boşanma işlərinə baxmışam. Bu mülkiyyət sahiblərinin adətən otuz yaşı **və balaca uşaqları var idi**.

«Bu çəkmələri geyinmək gərəkdir və ya niyə əksər hallarda qadınlar boşanmaya təşəbbüs edirlər» adlı məqalədə Marqaret Brininq yazır: «Uşaqlar nikahın ən əhəmiyyətli hissəsidirlər. Buna görə də, böyük ehtimal var ki, yeganə qəyyum olacağına ümid edən tərəf boşanmaya təşəbbüs edəcək».[20] Qadınlar boşanmağa tələsirlər, çünki övladları üzərində qəyyumluğu itirməkdən qorxmurlar.

Nominal kilsə isə bu şərə gözlərini yumur. Bir neçə il əvvəl mən Texasdan, bir kilsə rəhbərindən məktub aldım. Məktubda o, səbəbləri araşdırmadan hər iki tərəfin razılığı ilə boşanmaya aid Texas qanunlarına qarşı fikrini bildirirdi. Boşanmaya qarşı çıxan kilsə başçılarının mövcud olması məni sevindirdi, çünki son zamanlar müjdəçi kilsələri bu barədə susurlar. Lakin sonra o, məktubda davam edirdi: hər iki tərəfin razılığı ilə boşanma qadınlarla uşaqların hüquqlarını tapdalayır.

Qadınlarla uşaqların? Bu müasir Don Kixot hesab edirdi ki, ərləri boşandığına görə kilsələrimizdə olan minlərlə boşanmış qadın bu vəziyyətdədir. Həqiqəti araşdırmadan o fikirləşirdi ki, ərlər arvadlarını atıb laqeydcəsinə öz yollarına davam edirlər.

Məncə, əksər kilsələr boşanmanı belə başa düşürlər. Bugünkü boşanmaların reallığı onları tamamilə maraqlandırmır. «Arvad-uşaqlarını atan» kişiləri kilsədə rəhbərlərin danladıqlarını eşitmişəm, sanki boşanma təşəbbüsünü atalar edirlər. Kilsə rəhbərləri tənha anaları məzlumlar, qəhrəman qurbanlar və ruhani dul qadınlar hesab edirlər, baxmayaraq ki, məhz bu qadınlar boşanmağa təşəbbüs etmişlər.

Boşanma – mütləq qurbanlara gətirib çıxaran günahdır. Ərlər arvadlarından məhkəmə yolu ilə uşaqları alanda da günah olur. Bu gün milyonlarla ata və ana onlardan ayrı böyüyən uşaqlarını düşünərək ürəkdən kədərlənirlər. Buna baxmayaraq, kilsələrin nadir halda boşanma günahını və onun mənfi nəticələrini mühakimə etməyə cəsarəti çatır.

## Həvari Paul İsanın təliminə etiraz edirdimi?

Bəzi müasir İlahiyyatçılar iddia edirlər ki, İsadan fərqli olaraq, Paul boşanmağa icazə verirdi. Onlar hesab edirlər ki, Paul Musanın Qanunundan da çox boşanmağa icazə verirdi. 1Kor.7:10-15-ə istinad edərək, onlar Paulun arvadlara ərlərindən boşanmağa icazə verdiyindən danışırlar:

> *«Evli olanlara isə mən əmr edirəm, daha düzgün desəm, Rəbb əmr edir: qadın ərindən ayrılmasın. Ayrılırsa, ərsiz qalmalıdır, yaxud əri ilə barışmalıdır. Ər də arvadını boşamasın. Başqa hallarda isə Rəbb yox, mən deyirəm ki, əgər bir qardaşın iman etməyən arvadı var və arvad onunla yaşamağa razıdırsa, əri onu boşamasın.*

*Bir arvadın iman etməyən əri varsa və əri onunla yaşamağa razıdırsa, qoy arvadı ondan boşanmasın».*

Paul burada İsaya zidd olan bir söz deyirmi? Paul boşanmağı tövsiyə edirmi? Xeyr, etmir. Doğrudan da, bu ayələri müxtəlif tərcümələrdən oxuyanda Paulun boşanmadan danışdığı təəssüratı yaranır. Lakin müxtəlif tərcümələrdən aydındır ki, Paul həyat yoldaşı ilə boşanmadan deyil, ondan **ayrılmaqdan** danışır. Paulun istifadə etdiyi Yunan sözlərinin tədqiqi də bunu göstərir. Hər halda, Paul məsihçilərə həyat yoldaşlarından hətta ayrılmamağı məsləhət görür. Əgər ayrılmaq mütləqdirsə, onlara təkrar evlənmək qadağandır.

Arvad barədə danışarkən Paul «xoridzo» sözündən istifadə edir. Digər ayələrdə bu söz «boşanmaq» kimi deyil, «tərk etmək» və ya «ayrılmaq»[21] kimi istifadə edilir. Ərə aid isə Paul «afiimi» sözündən istifadə edir. Bu söz həm bu, həm də digər ayələrdə həmişə «ayrılmaq» kimi tərcümə olunur, «boşanmaq» kimi heç vaxt tərcümə olunmur.

Bu hər iki söz Mat.5:32-də İsanın boşanmaya aid istifadə etdiyi «apoluo» sözündən tamamilə fərqlidir.

1Kor.7:10-15-də «xoridzo» və ya «afiimi» sözlərinin «boşanma» kimi tərcümə edilməsi üçün nə tarixi əsas, nə də Kəlama əsas yoxdur.

Bu hissənin sonuncu ayəsində Paul deyir: *«İman etməyən ayrılırsa, qoy ayrılsın. Qardaş, ya da bacı belə hallarda məcburiyyət qarşısında deyil. Allah sizi sülhdə yaşamağa çağırıb»* (1Kor.7:15).[22] Burada Paul məsihçilərə imansız həyat yoldaşlarından boşanmağa icazə verirmi? Xeyr. Bütün bu hissədə həvari boşanmaqdan deyil, gələcəkdə təkrar nikaha girmək hüququ olmadan həyat yoldaşından **ayrılmaqdan** danışır. Axırda o deyir ki, əgər imansız həyat yoldaşından ayrılmaq istəyirsə, qoy ayrılsın. İmanlı tərəf imansız həyat

yoldaşının ardınca getməyə məcbur deyil; amma təkrar evlənmək hüququ da ona verilmir.

Allahın Padşahlığında İsa həm Padşah, həm də Qanunvericidir. Onun həvariləri **heç vaxt** öz Padşahlarının əmrlərinə zidd olmayıblar. İsa yalnız ərlərə kiçik istisnaya imkan verirdi, Onun həvariləri də buna uyğun öyrədirdilər.

## «İkisi bir bədən olacaq»

İsa əmrləri verəndə bunların səbəbini bizə izah etməməlidir. Lakin boşanma barədə söhbətlərinin birində İsa bu məsələdə Öz ciddi təliminin izahını verir:

> *«Oxumamısınız ki, Yaradan başlanğıcdan "onları kişi və qadın olaraq yaratdı" və dedi: "Buna görə də kişi ata-anasını tərk edib arvadına qovuşacaq və ikisi bir bədən olacaq"? Artıq onlar iki deyil, bir bədəndir. Buna görə də qoy Allahın birləşdirdiyini insan ayırmasın»* (Mat.19:4-6).

Bu gün nikah haqqında bir çox məsihçi kitabları «nikah partnyorluğu» barədə yazırlar. Ancaq İsa heç vaxt nikahı partnyorluq kimi təsvir etmirdi. İsa nikah barədə «bir bədən» kimi danışırdı və bu, olduqca fərqlidir. Qanuna görə, iki nəfər partnyor olanda, onlar bir-birindən ayrı şəxs olaraq qalırlar. Əgər partnyorların mülkiyyətində bir kəs etinasızlıqla zədə aldısa, zərər çəkmiş şəxs partnyorların birinə qarşı iddia irəli sürə bilər. Qanun partnyorları əməkdaşlıq edən, **ayrı-ayrı** iki adam hesab edir.

Lakin iki şəxs ittifaq və ya birlik yaradırsa, bu, başqa məsələ olur. Qanuna görə, onlar daha ayrı-ayrı şəxslər hesab olunmurlar. Əgər ittifaqın mülkiyyətində bir kəs etinasızlıqla zədə aldısa, zərər çəkmiş şəxs partnyorlara qarşı deyil, ittifaqa qarşı iddia irəli sürəcək. Qanuna görə, bu ittifaq yeni orqan hesab olunur.

Nikahı partnyorluq deyil, ittifaq hesab etmək lazımdır. Kişi və qadın nikaha daxil olanda yeni orqanizm yaranır. Onlar partnyorlar deyil, çünki bir bədəni təşkil edirlər. Dünya ər ilə arvadı partnyor hesab edə bilər. İsa onlarla belə davranmır. İsanın sözlərinə görə, ər ilə arvadı nikahda kim birləşdirir? Allah. Beləliklə, nikaha daxil olaraq, kişi və qadın əbədiliyin sahəsinə daxil olurlar. Mən nikahın əbədi olduğunu demirəm. Nikah insanın deyil, Allahın təsis etdiyi qurumdur. Allah birləşdirir, insan isə ayırmağa çalışır.

## Boşanma tarixdə

Mən yeni bir söz danışmıram. İlk məsihçilər, eləcə də reformasiyadan əvvəl yaşamış məsihçilər İsanın təlimini məhz belə başa düşürdülər. Təəssüf ki, islahatçıların bəziləri nikah və boşanmanı kilsənin məsuliyyətindən çıxarıb dünyəvi hakimlərin öhdəliyinə vermək üçün çox çalışdılar. Hətta Reformasiyadan sonra belə, müjdəçi məsihçilər arasında boşanma nadir hal olub. Hər şey 1950–1960-cı illərdə dəyişdi.

Bu illərdə nə baş verdi? Dünya boşanma qanunlarına öz münasibətini dəyişdi. Müxtəlif ştatlar boşanmanı asanlaşdırmaq üçün qanunlarını dəyişdi. Boşanma artıq sosial damğa deyildi. Dünya dəyişəndən sonra nominal kilsə də dəyişdi. Başqa sözlə, əgər qeysər boşanmanı səhv hesab edərək onu qadağan edirsə, onda boşanma səhvdir. Ancaq İsa boşanmanı səhv hesab edərək onu qadağan edirsə, onda… hər şey o qədər də pis deyil. Nominal kilsələr sahiblərinin kim olduğunu olduqca aydın göstərmişdir. Bu, İsa deyil.

## Bugünkü müjdəçi kilsədə boşanma

1999-cu ildə məşhur «Barna Tədqiqat Qrupu»nun prezidenti və banisi Corc Barna müxtəlif dini qruplarda

boşanma hallarının hesablamalarını apardı. O aşkar etdi ki, ruhdan doğulduqlarına əmin olan Amerikan məsihçiləri arasında boşanma faizi ümumi Amerikan əhalisinin boşanma faizindən daha yüksəkdir.[23] Əlbəttə ki, bir çox qeyri-məsihçi cütü kəbin kəsmədən birlikdə yaşayır. Buna görə də bunların ayrılması boşanma kimi statistikaya daxil olunmadı. Hər halda, «ölüm bizi ayırana qədər» bir-birinə sadiq olmağa and içən dünyəvi cütlər müjdəçi məsihçilər kimi eyni ehtimalla, yaxud daha da böyük ehtimalla andını yerinə yetirirlər.

«Barna Tədqiqat Qrupu» məsihçi təşkilat olmasına baxmayaraq, onun nəticələri bir çox məsihçilərin etirazına və tənqidinə səbəb oldu. Lakin cənab Barna öz məlumatını müdafiə etməkdə davam edirdi. Tənqidin cavabında o dedi: «Ruhdan doğulmuş məsihçilərin* daha çox boşanmasını aşkar etmək ağır olsa da, bu, artıq uzun müddətdir ki, belə davam edir».[24] Layihənin rəhbəri Meq Flammanq qeyd etdi: «Məsihçilərin fərqli həyat yaşadıqlarını və cəmiyyətə müsbət təsir göstərdiyini sizə söyləməyi çox istərdik… amma boşanma sahəsində onlar dünyəvilər kimi olaraq qalırlar».[25]

«Barna Tədqiqat Qrupu»nun nəticələri hökumət orqanlarının statistikası ilə təsdiq edilir. Məsələn, Amerikanın istənilən başqa hissəsindən çox boşanma faizi Müjdə Qurşağında† daha yüksəkdir (Nevada ştatı istisna olmaqla).[26] Faktiki olaraq, fundamentalist məsihçilərin az sayda olduğu Yeni İngiltərəyə nisbətən, Müjdə Qurşağında boşanma faizi daha yüksəkdir.[27]

---

* Tədqiqat özlərini yenidən doğulmuş hesab edən kəslərin arasında aparılmışdır.

† ABŞ-nın cənubunda və orta qərbində yerləşən ərazi; burada əhalinin əksəriyyətini fundamental xristianlar təşkil edir.

Bu fakt isə müjdəçi Amerikan məsihçilərinə, doğrudan da, xəcalət verməlidir: Ruhdan doğulmuş məsihçilər arasında boşanma faizi özlərini ateist hesab edən Amerikanların boşanma faizindən xeyli yüksəkdir.[28] Artıq qeyd etdiyimiz kimi, Ruhdan doğulmuş məsihçilərin boşanma faizi Amerikan cəmiyyətinin boşanma faizi ilə eynidir və ya daha yüksəkdir. Qəribə təsadüf ondadır ki, Asiya Amerikanları (həm məsihçi, həm də qeyri-məsihçi) arasında boşanma faizi ümumi Amerikan göstəricisindən xeyli aşağıdır.[29] Bundan savayı, Asiyalı Amerikan cütləri nadir hallarda nikahsız birlikdə yaşayırlar. Bunu necə başa düşmək olar? Necə olur ki, Asiya mədəniyyəti Müqəddəs Ruhun imanlının həyatında edə bilmədiyi işi görür? Bəlkə, problemin kökü ondadır ki, özlərini Ruhdan doğulmuş imanlı hesab edən məsihçilərdə heç Müqəddəs Ruh yaşamır?

Daha eyibli həqiqət odur ki, Birləşmiş Ştatlarda müjdəçi məsihçilər arasında boşanma faizi bütün Kanada dövlətinin boşanma faizindən iki dəfə yüksəkdir, o halda ki, Kanada ABŞ kimi Müqəddəs Kitab əsaslı məsihçi ölkəsi deyil.[30] Ən pisi isə budur: Amerikan müjdəçi məsihçilər arasında boşanma faizi Çinin boşanma faizindən 6 dəfə, İtaliyanın boşanma faizindən 18,5 dəfə və Şri-Lankanın boşanma faizindən 33 dəfə çoxdur. [31]

Mən Amerikanın Cənubunda yaşayıram; burada müjdəçi məsihçilər arasında boşanma o qədər adi məsələdir ki, boşanma ilə məşğul olan vəkillər «sarı vərəqlər»də reklamlarını məsihçiliyin simvolu olan balıq işarəsi ilə qeyd edirlər. Bu, dükanında donuz əti satan yəhudinin öz reklamında Davudun ulduzunu yerləşdirməsi kimi bir şeydir.

Boşanma haqqında söhbət düşəndə məsihçilər çox vaxt mənə sual verirlər: «Bəs vəziyyət belədirsə…?» Bəli, nikahı ağır yükə çevirən bir çox çətin vəziyyətlər

mövcuddur. Ancaq vəziyyət birinci əsrdə də, onuncu və ya on doqquzuncu əsrdə də eyni idi. Onda niyə iyirmi birinci əsrin məsihçiləri istisna hüququna malik olduqlarını hesab edirlər, o halda ki, bütün başqa əsrlərin məsihçiləri nikah və boşanma məsələlərində İsanın təlimlərinə uyğun yaşayırdılar?

## İnciyirsiniz?

Mən başa düşürəm ki, bu fəsildə dediklərim cəmiyyət üçün qəbuledilməzdir. Ola bilsin, bir çoxlarının xətrinə elə dəymişəm ki, bu kitabı tullamağa hazırdırlar. Lakin bunu etməzdən əvvəl xahiş edirəm, söylədiklərimi özünüz insafla tədqiq edin. Boşanmanı doğruldan kitabın axtarışına yollanmayın. Bu, çətin deyil.

Xeyr, mən, həqiqətən, **düzgün** tədqiqi nəzərdə tuturam. Bir qədər düz tədqiq edin. Əhdi-Ətiqdə boşanma haqqında söylədiklərimi yoxlayın. Sonra boşanma haqqında İsanın sözlərinin hamısını oxuyun. Musanın Qanununda boşanmaya icazə verən halların sayını İsa artırdı, yoxsa xeyli azaltdı?

Əgər dediklərim həqiqətdirsə, onda inciyərək, siz **məni deyil**, İsa Məsihin xətrinə dəyirsiz. Sevdiyinizi güman etdiyiniz İsa, bəlkə, heç həqiqi İsa deyil? Əgər biz **əsl** İsaya xidmət etmiriksə, onda çətin ki, əbədi həyatı miras alaq. İsa həqiqəti demişdi: «Kim Mənə görə büdrəməsə, nə bəxtiyardır!»

II hissə

# Böyük manea

# 8

# Düşmənlərimi sevmək?

Artıq qeyd etdiyim kimi, İsanın var-dövlətə, and içməyə və boşanmaya aid təlimləri əksər adamlar tərəfindən çətin başa düşülür və bir çoxlarını dilxor edir. Lakin bunlar kilsələrin Padşahlığın yolunu geniş miqyasda rədd etməsinin əsas səbəbi deyil.

Ən böyük maneə – bir üzümüzə şillə vurana o birini də çevirmək, düşmənlərimizi sevməkdir. Məhz bu səbəblə mən bu mövzuya kitabımın bütün bölməsini həsr etmişəm. Gəlin əvvəlcə İsanın sözlərinə diqqət yetirək:

> *«Göz əvəzinə göz, diş əvəzinə diş» deyildiyini eşitmisiniz. Mənsə sizə deyirəm ki, pis adama qarşı durma. Əksinə, sağ üzünə şillə vurana o birini də çevir. Səni məhkəməyə verib köynəyini götürmək istəyənə üst paltarını da ver. Kim səni min addım yol getməyə məcbur edirsə, sən onunla iki min addım yol get. Səndən bir şey diləyənə ver, səndən borc istəyəni geri qaytarma»* (Mat.5:38 42).

Bu, həqiqətən, inqilabi təlimdir! Nə yəhudilər, nə də qeyri-yəhudilər belə yaşayırdı. Təəssüf ki, əksər məsihçilər də bu gün belə yaşamır.

## Müqavimət göstərməmə və sülh yaratma

Yuxarıda oxuduğumuz əmrlər bizi passiv rəftara çağırır: pisliyə müqavimət göstərmə, o biri üzünü çevir, səni məhkəməyə verib köynəyini götürmək istəyənə üst paltarını da ver. Əgər kimsə səni onunla min addım yol getməyə məcbur edirsə, iki min addım get. Səndən bir şey diləyənə ver. Bu əmrləri həyata tətbiq etməyin yolu **pisliyə müqavimət göstərməməkdir**.

Ancaq İsanın təliminin həmçinin **fəal** tərəfi də var:

> *«"Qonşunu sev və düşməninə nifrət et" deyildiyini eşitmisiniz. Mənsə sizə deyirəm ki,* ***düşmənlərinizi sevin, sizi təqib edənlər üçün dua edin. Belə ki siz göylərdə olan Atanızın övladları olasınız.*** *Çünki O, günəşini həm pislərin, həm yaxşıların üzərinə doğurur, yağışını da həm salehlərin, həm də saleh olmayanların üzərinə yağdırır. Əgər sizi sevənləri sevirsinizsə, nə mükafatınız olacaq? Vergiyığanlar da belə etmirmi? Əgər yalnız qardaşlarınızı salamlayırsınızsa, başqalarından artıq nə etmiş olursunuz? Bütpərəstlər də belə etmirmi?* ***Ona görə də Səmavi Atanız kamil olduğu kimi siz də kamil olun****»* (Mat.5:43-48).

Beləliklə, müqavimət göstərməmək və özünü qisasdan saxlamaq kifayət deyil. Biz məsihçilər hərəkət etməyə – əvvəllər düşmən hesab etdiyimiz adamları sevməyə çağırılmışıq. Kiminsə bizə nifrət etdiyini biliriksə, səbəbini aydınlaşdırmalıyıq. Ola bilsin, biz barışa bilərik və əvvəllər düşmən olan kəs indi dostumuza çevrilər. İsa demişdi:

> *«Buna görə də qurbangah qarşısına qurbanını gətirdiyin zaman yadına düşsə ki, qardaşının sənə qarşı bir şikayəti var, qurbanını qurbangahın qarşısında qoy, get, əvvəlcə qardaşınla barış və ondan sonra gəl, qurbanını təqdim et»* (Mat.5:23,24).

Beləliklə, Padşahlığın vətəndaşları kimi, biz ətrafda olan adamlarla barışmağımız üçün əlimizdən gələni etməliyik. İsa demişdi: ***«Nə bəxtiyardır sülhyaradanlar! Çünki onlar Allahın övladları adlanacaq»*** (Mat.5:9). İşdə, qonşularla və dostlarla gündəlik həyatda çox vaxt inciklik, mübahisə və münaqişələr yaranır. Belə vəziyyətdə biz barışıq üçün birinci addımı atmalıyıq. Hətta əgər düzgünlüyümüzdə əmin olsaq belə, bunu etməliyik.

## Gündəlik həyatda İsanın təlimləri

Təəssüf ki, pisliyə müqavimət göstərməmək bizə xas deyil, bu, bizim günahlı təbiətimizə tam ziddir! Biz buna daim öyrənməliyik.

Mən balaca uşaqların oyununu müşahidə edərək bunu başa düşdüm. Bir uşaqda oyuncaq varsa, başqa uşaq onun oyuncağını mütləq almaq istəyir. Birinci uşaq «əziz dost, götür, mənim oyuncağım ilə oyna» deyə özü təklif edirmi? Çətin ki. İkinci uşaq adətən qapır, birinci uşaq da var qüvvəsi ilə oyuncağı tutur. Adətən hər ikisi çığırır, bəzən dalaşır və hətta bir-birini dişləyirlər.

Şəxsən mən şərə müqavimət göstərmədən başqa yanağımı çevirəndə cismim buna çox etiraz edir. Hər halda, pisliyə müqavimət göstərməmək təbiətimdə yoxdur və buna meyilli də deyiləm. On dörd il əvvəl mən ailəmlə birlikdə indi yaşadığımız kənd evinə köçdüm. Köçəndən bir az sonra fikir verdik ki, ətraf meşələrdə və çöldə Amerika canavarı* və baxımsız itlər veyllənir. Bizim bir neçə keçimiz var idi; itlərdən və canavarlardan onları qorumaq üçün möhkəm hasarlı yer ayırmağı qərara aldıq.

Dörd tərəfdən metrə yarım hündürlüyündə hasar tikdirdik. Buna baxmayaraq, bir dəfə səhər çağı biz hürən itlərin və mələyən keçilərin səsinə oyandıq. Həyətə çıxıb

* İt ailəsinə aid yırtıcı məməli, canavardan xeyli kiçik ölçüdədir.

gördük ki, itlər necə isə içəri daxil olub keçilərə hücum etdilər. Var gücümüzlə keçilərin köməyinə tələsdik. Bizi görən itlər hasardan tullanaraq qonşu sahəyə qaçıb getdilər. Keçilərimizdən biri bu vəhşi hücumun nəticəsində öldü, biri də neçə gün özünə gələ bilmirdi, dəhşətdən heç yemək də yemirdi.

Hadisə səhər erkən baş verdiyindən biz hücum edən itləri yaxşı görə bildik, ancaq güman etdik ki, bunlar baxımsız itlər idi. Beləliklə, biz dairə müdiriyyətinə zəng edib onlardan kömək istədik. Bizə bir neçə «dişsiz» tələ verdilər. Bunlar itin ayağını zədələmədən tutub saxlayır. Müdiriyyət əməkdaşları tutduğumuz itləri aparacaqlarına söz verdilər.

Gecə tələləri qurduq, növbəti səhər isə həyəcanlı səs bizi yenə tezdən oyatdı. Evdən tələsik çıxıb gördük ki, itlər yenə keçilərin yanındadır.

İtlərə diqqətlə baxıb başa düşdük ki, bunlar baxımsız deyil, qonşumuzun itləridir. Bizi görən kimi itlər cəld qaçıb getdilər. Təkcə tələyə düşən it qaça bilmədi. Ona yaxınlaşanda gördüm ki, qorxudan tir-tir əsir, lap ölümcül vəziyyətə düşüb.

Onda mən arxasınca toz qaldıraraq bizə tərəf gələn maşını gördüm. Sürücü tez maşından çıxdı, dərhal tələyə düşmüş itinə tərəf qaçdı.

«Həə, bu sizin itinizdir?» – deyə sakitcə soruşdum.

«Bəli, mənimdir» – deyə o, qaşqabaqla tələni açıb iti azadlığa buraxmağa mənə kömək etdi. – «Bunu bilin: münasibətimiz tam pozula bilər. Şəhərdən kəndə elə ona görə köçdüm ki, itlərim sərbəst qaça bilsinlər».

Birinci fikrim ona etiraz etmək idi: «Hə, elə mən də keçilərimin sərbəst gəzişməsi üçün kəndə köçdüm», yaxud «Gəlin razılığa gələk: siz itlərinizi bizim həyətə, biz isə keçiləri sizin həyətə buraxmayacağıq». Sonra isə mən

İsanın pisliyə müqavimət göstərməməyə aid sözlərini yada saldım. Bu vəziyyətdə İsanın nə edəcəyini dəqiq bilirdim, buna görə də sevinclə cavab verdim: «Yaxşı, təklifini de gəlsin».

Əvvəllər üzünü görmədiyim qonşu mülayim cavabımı eşidib bir qədər təəccübləndi. Qaşqabağı açıldı, sakitləşib dedi: «Hasarınızın dibi və üstü ilə elektrik məftili sala bilərsiniz. O, itləri ürküdəcək».

«Belə də edəcəyəm, tələləri də qaytaracağam», – deyə öz-özümə bir qədər təəccüb edərək cavab verdim.

Keçilərimi müdafiə etmək üçün əlavə xərc çəkməli idim. Ürəyimdə bu ədalətsizliyə görə bir az narazı idim. Ancaq bu kiçik problemi İsanın istədiyi kimi həll etdim.

## Müqəddəs Kitabdan nümunələr

Pisliyə müqavimət göstərməmək və düşmənlərimizi sevmək – bəlkə də, bunlar İsanın ən çətin və ən inqilabi təlimləridir. Bu, dünyanın öyrətdiyinə tam ziddir. Şər adama müqavimət göstərməmək? Valideynlərimiz, məktəblərimiz, hökumətlərimiz və hətta kilsələrimiz bizə tamamilə zidd olanı təlqin edirlər: öz hüquqlarınız üçün mübarizə edin! Xuliqanı yerinə otuzdur! Səni incitməyə heç kəsə imkan vermə! Bizə nümunə gətirilən qəhrəmanlar heç də təvazökar deyillər. Onlar öz mövqelərini qətiyyətlə müdafiə edir, düşmənlərinə fəal sürətdə müqavimət göstərirlər.

Pisliyə müqavimət göstərməmək – sadəcə, ilahiyyat təlimi deyil, həyat tərzidir. Bu, adamların münasibətlərində və ümumiyyətlə, cəmiyyətdə görünməlidir. Lakin pisliyə müqavimət göstərməmək iradəsiz adam olmaq deyil. İsa və Paul pisliyə müqavimət göstərməyən adamlar idi; onlardan heç biri iradəsiz və ya qorxaq deyildi. Onların hər ikisi olduqca təkidli və səmimi olub. Onların hər

ikisi kiməsə ziyan yetirmək əvəzinə zərər çəkməyi seçirdi. Onların hər ikisi fiziki cəhətdən şərə müqavimət göstərmədən şərə qarşı çıxırdı.

Baxın, Paul neçə dəfə döyüldü və daş-qalaq edildi? Paul silahlana bilərdi, bir qrup cangüdənlərlə birgə səyahət edə bilərdi. Ancaq o, bu barədə heç fikirləşmirdi. Paul yer üzündə yaşamış ən igid adamlardan biri idi, ancaq o, şərə fiziki qüvvə ilə müqavimət göstərmirdi. Bir dəfə Paul demişdi: *«Cismən həyat sürsək də, cismani təbiətə görə döyüş aparmırıq. Ona görə ki döyüş silahlarımız cisimdən düzəldilən silahlar deyil, qalaları dağıdan ilahi qüvvəyə malik silahlardır»* (2Kor.10:3-4). Paul yeni növ döyüşçü – fərqli dəyərləri olan Padşahlığın döyüşçüsü olub.

## Məhkəmə prosesləri

Çox vaxt izdiham Paulu döyür, onu daşlayırdı. Roma vətəndaşı kimi, o, ona qarşı qeyri-qanuni vuruşanları təqsirləndirərək özünü müdafiə edə bilərdi. Ancaq Paul bunu etmirdi. O, başqa yanağını çevirirdi. İsa «Səni məhkəməyə verib köynəyini götürmək istəyənə üst paltarını da ver» demişdi. Yəni kimsə bizə məxsus olanı alırsa, onu qaytarmaq üçün məhkəməyə müraciət etməməliyik. İsa həmçinin demişdi: *«Səndən bir şey diləyənə ver»* (Mat.5:42).

Eyni zamanda, Paul bir dəfə qamçılanma cəzasından canını qurtardı; o, Roma yüzbaşısından soruşdu: *«Məhkum olmamış Roma vətəndaşını qamçılatmağa icazəniz varmı?»* (Həv.22:25).

Bununla Paul məsihçilərin təqib zamanı özlərini müdafiə etmələrinin münasibliyini göstərir.

Korinflilərə Məktubunda Paul İsanın təlimini təkrarladı:

> *«Sizlərdən birinin başqası ilə iddiası varsa, müqəddəslərin qarşısında yox, haqsızların qarşısında mühakimə olunmağa cəsarəti çatarmı?»* (1Kor.6:1). *«Mən bunu sizi utandırmaq üçün deyirəm. Yəni öz bacı-qardaşlarınız arasında hakim olmaq üçün sizlərdən bir nəfər müdrik adam tapılmadı? Amma qardaş qardaşla məhkəməyə gedir, üstəlik imansızlar qarşısında! Əslində bir-birinizi məhkəməyə çəkməyiniz sizin üçün artıq tam məğlubiyyətdir. Əvəzində haqsızlığa qatlaşmaq daha yaxşı deyilmi? Aldanıb, dözmək daha yaxşı deyilmi?»* (ayələr 5-7).

Təxminən iyirmi il əvvəl məhkəmə istintaqı ilə İsanın təlimləri arasında fərqi anladım. Bir məsihçi kimi öz qardaşımla məhkəmədə çəkişə bilmərəmsə, onda digər məsihçi ilə məhkəmədə çəkişən qardaşımı vəkil kimi necə təmsil edə bilərəm? Düzgün yol olduqca aydındır.

Digər tərəfdən, bu, mənim peşəmdir. Əgər mən məhkəmə proseslərində iştirak etməsəm, onda daha nə qalır? Yalnız vəsiyyətnamələr, mülkiyyət hüquqlarına aid aktların tərtibatı. Bunlar isə ən maraqlı və ya ən sərfəli sahələr deyildir. İmanım zəif olduğuna görə qərar qəbul etmək mənə çətin idi. Ancaq İsaya itaət etməli olduğumu bilirdim. Beləliklə, mən məhkəmə proseslərində və İsanın təliminə zidd olan digər hüquqi sahələrdə vəkil kimi iştirak etməkdən imtina etdim.

## Bəs müharibə olsa necə?

Bunu başa düşmək vacibdir: İsanın pisliyə müqavimət göstərməməyə aid təlimləri Onun yalnız bütün təlimlərini qəbul etmiş şəxs üçün mənalı olur. Məsələn: «*… sizdən hər biriniz bütün əmlakından əl çəkməsə, Mənim şagirdim ola bilməz*» (Luka 14:33). Biz hər şeydən əl çəkəndən sonra mübarizə aparmaq üçün daha səbəb qalmır, elə deyilmi?

Bizim həyatımız haqda İsa demişdi: ***«Canını qoruyan kəs onu itirəcək, Mənim uğrumda canını itirənsə onu qoruyacaq»*** (Mat.10:39).

İsa Pilata belə demişdi: *«Mənim Padşahlığım bu dünyadan deyil. Əgər Mənim Padşahlığım bu dünyadan olsaydı, xidmətçilərim Yəhudi başçılarına təslim edilməməyim üçün döyüşərdi, amma indi Mənim Padşahlığım buradan deyil»* (Yəh.18:36). Beləliklə, bizim padşahlığımız fiziki cəhətdən özünü müdafiə edə bilirsə, onda o, bu **dünyaya məxsusdur**, elə deyilmi? Biz şəxsi mülkiyyət, ev, millət haqqında danışa bilərik – məna eynidir. Bu dünyada payımız varsa, onu qorumaq üçün mübarizə aparmağa məcbur olacağıq. İsanın təlimlərini dünyəvi səlahiyyətə, milli qürura, mülkün qorunmasına uyğunlaşdırmağa çalışırıqsa, bunun qeyri-mümkünlüyünü anlayırıq. Biz bir-birinə zidd olan iki şeyi uyğunlaşdırmağa çalışırıq.

On doqquzuncu əsrin məsihçi müəllifi Adin Ballou dövlətlərin hərbi qanunları ilə İsanın Padşahlıq haqqında təlimlərini bir-birinə uyğunlaşdırma cəhdlərinin mənasız olduğundan satirik məqaləsində yazırdı:

> «İsa Məsih pislik edənlərə müqavimət göstərməyi, göz çıxaranın gözünü çıxarmağı, diş qıranın dişini qırmağı, qantökənin qanını tökməyi, qətl edəni qətlə yetirməyi mənə qadağan edir.
>
> Hökumətim isə məndən tam əksini tələb edir; xarici və daxili düşmənlərinə qarşı istifadə edilən dar ağacı, tüfəngi və qılıncı özünümüdafiə ilə əsaslandırır. Nəticədə, ölkə dar ağacları, həbsxanalar, silah anbarları, hərbi gəmilər və əsgərlərlə təchiz edilir.
>
> Bu bahalı qətl cihazlarını biz saxlayır və lazımi hallarda istifadə edirik. Eyni zamanda, *bizə nifrət edənləri bağışlayırıq, lənətləyənlərə xeyir-dua veririk, düşmənləri sevirik, nifrət edənlərə xeyirxahlıq edirik*. Bu məqsədlə

bizim üçün dua edən və müqəddəs qətlə səmalardan xeyir-dua diləyən məsihçi keşişlərimiz var. Sözlərlə əməllər arasında bütün ziddiyyətləri görərək mən həm imanı etiraf etməyi, həm də ölkəni idarə etməyi davam edirəm; *imanlı məsihçi və hökumətin sadiq vətəndaşı olduğuma görə* özümlə fəxr edirəm. Pisliyə müqavimət göstərməmək haqda bu mənasız anlayışla razılaşmaq istəmirəm. Nüfuzdan imtina edə bilmirəm, ölkənin idarəsini əxlaqsız adamların əlində qoyub gedə bilmirəm. Konstitusiya deyir: hökumət müharibəni elan etmək hüququna malikdir. Mən bununla razılaşıram, bunu dəstəkləyirəm və bunu dəstəkləyəcəyimə and içirəm. Eyni zamanda, mən məsihçiyəm. Müharibə də məsihçinin öhdəliyidir. Məgər yüz minlərlə qonşunu qırmaq, qadınları zorlamaq, şəhərləri dağıdıb yandırmaq, hər cür amansızlıqlar etmək məsihçinin vəzifəsi deyilmi? Bütün bu incəqəlbliliyi rədd etməyin vaxtı çatıb. Bu – haqsızlığı bağışlamağın və düşmənləri sevməyin ən həqiqi yoludur. Əsas bunu sevgi ruhunda etməkdir. Əsassız qətldən daha düzgün məsihçi yolu ola bilməz».[32]

Əvvəlki fəsildə biz gördük ki, özlərini «müjdəçi məsihçilər» adlandıranlar dünyadakı adamlara nisbətən daha çox boşanırlar. Pisliyə müqavimət göstərməmək də eynidir. Qüvvə ilə şərə müqavimət göstərməyə gələndə «müjdəçi məsihçilər»in döyüşkənliyi olur doğru, bu dünya olur yalan. Birləşmiş Ştatlar müharibəyə getməyi götür-qoy edəndə, «müjdəçi məsihçilər» həmişə mətanətlə hərbi əməliyyatın xeyrinə səs verməyə tələsirlər.

Mən bu kitabı yazarkən, Birləşmiş Ştatlar diktator Səddam Hüseyni devirmək üçün İraq ilə müharibəyə başladı. Dərhal yerli kilsələr dua evlərinin həyətlərində Amerika bayraqlarını qaldırmağa başladılar. Kilsələrin elan lövhələrində şüarlar yazıldı: «Allah Amerikaya xeyir-dua versin»,

«Qoşunumuz üçün dua edin». Ancaq mən bir dəfə də «İraq xalqı üçün dua edin» lövhəsini görmədim. Bəli, müharibənin məqsədi diktatoru hakimiyyətdən devirmək idi, lakin bunun üçün İraqın adi vətəndaşları – kişilər, qadınlar, uşaqlar və körpələr ölməli idi. Ancaq heç bir kilsə bu barədə fikirləşmədi və onlar üçün dua etməyi bizə xatırlatmadı.

# 9

# Bəlkə...?

Əgər siz əksər məsihçilərə aidsinizsə, pisliyə müqavimət göstərməmək və düşmənləri sevmək anlayışı sizə yenidir. Ola bilsin ki, öz-özünüzə deyirsiniz: «Bəli, amma bəlkə…?». Buna görə də gəlin «bəlkə» və buna bənzər digər sualların bəzilərinə nəzər salaq.

Sual:

*Bəs kimsə evinizə soxulub arvad-uşaqlarınıza pislik etmək istəsə necə? Əlbəttə ki, siz sakit dayanıb buna baxmayacaqsınız?!*

Bu sual ailələrini qorumaq instinkti güclü olan kişilərdə yaranır. Lakin Padşahlığın vətəndaşı bu suala İsanın əmrlərinin pozulmasına aid istənilən başqa suala cavab verdiyi kimi eyni cavab verməlidir.

İcazə verin sizə sual verim: hökumətiniz İsa Məsihdən imtina edib İblisə qurban təqdim etməyi sizdən tələb etsə, əks halda arvadınızı zorlayıb uşaqlarınızı öldürsələr, nə edərsiniz? Səmavi Padşahlığın vətəndaşı cavabı dəqiq bilir. İsa demişdi: əgər biz ailələrimizi Ondan çox seviriksə, Onun şagirdləri ola bilmərik. Həmçinin İsa demişdir: «***Kim insanlar qarşısında Məni inkar etsə, Mən də onu göylərdə olan Atamın qarşısında inkar edəcəyəm***» (Mat.10:33).

Bəs, Məsihi inkar etməyin əvəzinə, hökumət məndən qonşumu öldürüb arvadını zorlamağı əmr edəcək? Bunu etməsəm arvad-uşağımı öldürəcəklər, onda necə? Bu vəziyyət İblisə qurbanı təqdim etməkdən fərqlənirmi? Bir halda mən Məsihdən sözdə, digər halda isə Məsihdən əməldə inkar edirəm.

Bəs xarici hökumət Birləşmiş Ştatların bir şəhərinə bomba atmağı və ya Amerikan prezidentini öldürməyi mənə sifariş versə, əks halda onlar arvad-uşağımı öldürsə, onda necə? Mən nə etməliyəm? Mən fikirləşirəm ki, əksər Amerikanlar arvad-uşağını əzaba, hətta ölümə təslim edərlər, amma vətəninə xəyanət etməzlər.

Beləliklə, söhbət İsaya sadiqlikdən gedəndə vəziyyət nə üçün dəyişir? İsanın pisliyə müqavimət göstərməmək haqda təlimləri olduqca aydındır. Ya İsadan, ya da ailəndən imtina etməlisən. Əlbəttə, bu çox çətin seçimdir, amma həyatımı Məsihə həsr edəndə mən bu seçimi artıq etdim.

Məgər bu, o deməkdir ki, mən ailəmi müdafiə etməyəcəyəm? Əlbəttə ki, yox. Ailəmin təhlükəsizliyini təmin etmək üçün ən düzgün tədbiri artıq görmüşəm: mən ailəmi İsanın əllərinə etibar etmişəm. Bu, sadəlövh etibar deyil. Padşahlıqda on minlərlə başqa imanlılar var ki, qılınclarını döyüb oraq ediblər, ailələrinin təhlükəsizliyini İsaya həvalə ediblər. İsa nə vaxtsa ailələrimizə heç bir zərərin gələ bilməyəciyini söz verməmişdir. Amma mən bunu deyə bilərəm: Padşahlığa mənsub olan ailələrə cinayətkarlar nadir halda zərər yetirirlər; indi mən imana görə təqibdən danışmıram.

1988-ci ilin may ayında ağır cinayətkar olan qaçaq Stiven Roy Karrın hekayəsi yadıma düşür. O, Pensilvaniya ştatında pisliyə müqavimət göstərməyən menonit ailəsində polisdən gizlənirdi. Karr Florida ştatından qaçmışdı və böyük oğurluq üstə axtarılırdı. O, Appalaçi dağlarında gizlənirdi,

onu azadlıqdan məhrum etməyə çalışan hər kəsi öldürməyə hazır idi. Sonra o, iki turist qadına rast gəldi; onlara atəş açaraq birini öldürdü, digərini ağır yaraladı.

Cinayət yerindən qaçaraq, Karr atılmış sement qarışdıran bir çəlləyi tapdı; ondan qayıq kimi istifadə edərək çay ilə uzun yol gedib Çester və Ester Uiverlərin fermasına gəlib çıxdı. Mühafizəkar menonitlər olan Uiverlər cütünün nə televizoru, nə də radiosu var idi. Beləliklə, onlar qaçaq cinayətkar və qətl haqqında heç nə eşitməmişdilər. Karr onlardan yemək və qalmağa yer istədi, onlar da onu məmnuniyyətlə qəbul etdilər. Karr Uiverlərin evində beş gün ərzində qaldı, heç nə oğurlamadı, onlara zərər yetirmədi. Karr onların evində hələ də qalardı, ancaq sonra polis onu həbs etdi.[33]

## «Araba» imanı

Məsihçi müəllifi və mühazirəçi Vinkey Pratney bir dəfə XIX əsrin məharətli kəndirbazı Şarl Blonden haqqında maraqlı hekayə danışmışdı. Öz qabiliyyətini nümayiş etdirmək üçün Blonden Niaqara şəlaləsinin üzərindən 335 metr uzunluğunda kəndir çəkdi. Nəhəng izdihamın qarşısında böyük hünərlə mürəkkəb hərəkətlər edərək kəndirin üstündə gəzirdi. Bir dəfə kəndirin ortasında o hətta əks istiqamətdə kəlləmayallaq tullanıb geri qayıtdı. Blonden xilas kəmərindən istifadə etmirdi.

Möhtəşəm tamaşanın şahidi olan bir qəzet müxbiri böyük ehtiramla kəndirbaza dedi: «Mərc gəlirəm ki, bu kəndirin üstündə etmədiyiniz hərəkət qalmayıb».

— Sizcə, qarşımda araba sürərək bu kəndiri keçə bilərəm? – deyə Blonden müxbirdən soruşdu.

— Əlbəttə! Mən əminəm, siz bunu edə bilərsiniz.

— Sizcə, arabaya bir nəfəri mindirib onu kəndirlə o taya keçirə bilərəm? – deyə Blonden müxbirdən soruşdu.

— Şübhəsiz!

Müxbirin düz gözlərinin içinə baxıb Blonden soruşdu:

— Arabaya minərsiz?

— Hım-m-m…

Əsl inam – Məsihin «arabasına minmək»dir. Başqa inam əslində inam deyil, boş sözlərdir. Əksər məsihçilər Allahın qüdrətli olduğunu yekdilliklə etiraf edirlər. Onlar deyirlər ki, Allahın iradəsi olmadan kainatda heç nə baş verə bilməz; «Allahın mələkləri məni qoruyur!» bamperlərini öz avtomobillərinin şüşəsinə yapışdırırlar. Ancaq onlar heç vaxt arabaya minməzlər, çünki Allaha ailələrinin təhlükəsizliyini həvalə etmirlər.

Təəssüf ki, hər il məsihçi ailələri öz silahlarından ölüm və zərərlə qarşılaşırlar, çünki Allaha etibar etmirlər. Çox faciəvi hadisə bir neçə il bundan əvvəl baş vermişdi: ər-arvad uzun müddət səyahət edəndən sonra evə qayıtdı.

Valideynləri evdə olmayan müddət ərzində onların qızı rəfiqəsinin evində qalırdılar. Lakin ata-anasının gəlişinə yaxın qız onlara sürpriz hazırlamaq istədi; gəlib yataq otağındakı dolabın içində gizləndi. Valideynlər evə gələndə dolabdan gələn səsi eşitdilər. Bunun soyğunçu olduğunu fikirləşərək atası dolu tapançasını çıxarıb yavaş-yavaş dolaba yaxınlaşdı. Dolabın qapısı qəfildən açılanda atası instinktiv olaraq çaxdı. Qızına atəş açdığını dərhal başa düşdü, ancaq artıq çox gec idi. Ölərək, qızı pıçıldadı: «Səni çox istəyirəm, ata».

Bu hadisə təsadüf və ya nadir hal deyil. Evdə olan silahın gözləmədiyiniz «qonağın» əvəzinə ailə üzvünü öldürəcəyinin ehtimalı 22 dəfə çoxdur.[34] Şərə silahdan daha təhlükəsiz üsulla müqavimət göstərmək olar.

Bir neçə il əvvəl məsihçi dostlarım Desio və Oliviya Atlantada moteldə qalırdı. O vaxt şəhərdə bir neçə silahlı qarət və qətl baş vermişdi. Soyğunçuluqlar zamanı

cinayətkarlar öz qurbanlarına üzü üstə döşəməyə uzanmağı əmr edir və arxadan onlara atəş açırdı. Beləliklə, Desio sayıq idi.

Mülayim oktyabr axşamlarından birində Desio və Oliviya bir-birini gözləyərək, motel otağının qapısını açıq qoydular. Qəfildən iki silahlı içəri keçdi və onlara döşəməyə uzanmağı əmr etdi. Desio tərəddüd etdi, sonda isə diz üstündə durub dua etməyə başladı; soyğunçulara müqavimət göstərməyin yolunu tapmaq üçün dua etməyi fikirləşirdi.

Kürsüdə oturan həyat yoldaşı Oliviya isə bunun Hellouin zarafatı olduğunu düşünərək heç ayağa da qalxmadı. Quldurlardan biri silahını ona tərəf tutub döşəməyə uzanmağı ona əmr etdi. Bunu etmək əvəzinə qadın uca səslə «İsa məni sevir» ilahi nəğməsini oxumağa başladı; kürsüdən ayağa qalxıb iki gənc adama yavaş-yavaş yaxınlaşmağa başladı. Onlardan biri tapançasını onun üzünə tutub çaxmağa hazırlaşdı. Ancaq qadının ona tərəf irəliləməyə və oxumağa davam etməsini görüb qəfildən yoldaşına çığırdı: «Bunlar ağılsız imanlılardır! Getdik buradan!» Bu sözlərlə onlar çıxıb getdilər.

İllər boyu mən dua, ilahi nəğmə və ya şəhadətin cinayətkarları tərk-silah etməsi barədə çox hekayə eşitmişəm və şəhadət oxumuşam. Allahın hər şeyə qadir olmasına inanmırsınızsa, Onun böyüklüyü barədə ilahi nəğmələr oxumağın heç bir mənası yoxdur.

Sual:

*Bəs, Hitler necə?*

Əslində, mən bu sualı pisliyə müqavimət göstərməməyi öyrədən məsihçilərə vermək istərdim: Bəs, Hitler necə? Bütün məsihçilər İsanın təliminə riayət etsəydilər, Hitler

heç nə edə bilməzdi. Niyə? Çünki Hitlerin ordusundakı əsgərlərin çoxu özlərini məsihçi hesab edirdi. Onlar ya könüllü, ya da Alman ordusuna çağırılaraq öz ölkələrinə xidmət edirdilər. Eyni yolla onlara qarşı vuruşan Britaniyalı və Amerikan məsihçi əsgərlər də. Məsihçilər İsanın təliminə riayət etsəydilər, Hitlerin şəri heç vaxt baş verməzdi. Planlarını yerinə yetirmək üçün onun kifayət qədər əsgəri olmazdı.

Bütün məsihçilər İsanın təlimlərini yerinə yetirsəydilər, bəlkə də, dünyada müharibə olmazdı. Bunlar boş sözlər deyildir. B.e.ə. 27-ci ildən b.e. 180-ci ilinədək Roma İmperiyasında Paks (Sülh) Romana adlanan sülh dövrü bunun təsdiqidir. Paks Romana Roma İmperiyasının ən sülhlü dövrü olub. Aralıq dənizi ölkələrinin Avropa sivilizasiyasının başlanğıcından bugünkü günədək sülhün davam etdiyi ən uzun dövrdür. Paks Romana ərzində imperiya sərhədlərinə müvəffəqiyyətli basqın olmayıb. Yəhudilərin üsyanı kimi bir neçə daxili ədavət olub. Ancaq Romalıların arasında heç bir vətəndaş müharibəsi olmayıb.

Paks Romananın səbəbi nə oldu? Roma İmperiyasının qüdrətli orduları? Xeyr, Roma İmperiyasının qüdrətli orduları IV və V əsrlərdə olub, bu vaxt da ki, sülh olmayıb. Məhz IV və V əsrlərdə barbarlar, nəhayət, İmperiyanı işğal etdilər.

Paks Romana yaxşı hakimlərin bacarıqla ölkəni idarə etmələrinin nəticəsi idimi? Əlbəttə, bu dövr ərzində Qeysər Avqust və Mark Aureli kimi bir neçə çox istedadlı imperator olub. Lakin Kaligula, Neron və Domitian kimi dəhşətli zalımlar da olub. Amma hətta bu zülmkarların hakimiyyətləri dövründə də Romada sülh olub.

Bəs, Paks Romana dövrü digər dövrlərdən necə fərqlənirdi? Dünyəvi tarixçilər bu suala aydın cavab verə bilmirlər. Şəxsən mən güman edirəm ki, Sülh Şahzadəsi olan

Oğlunu bu dünyaya göndərməzdən əvvəl Allah Özü Aralıq dənizi ölkələrinə sülhü göndərmişdi. Məncə, istənilən insan ordularının köməyi olmadan, Allah bu sülhü yaratdı. Mən güman edirəm ki, məsihçilər qılıncdan istifadə etməməklə, pisliyə müqavimət göstərməməklə, sülhsevər həyat ilə və öz duaları ilə sülhü qoruyub saxladılar.

Ancaq bu, yalnız mənim şəxsi fikrim deyil. Paks Romana vaxtında yaşamış erkən məsihçilər də Paks Romananın Allahın müdaxiləsinin nəticəsi olduğuna inanırdılar. Məsələn, Origen Romalılara demişdi: «İsanın gəlişindən sonra təvazökar ruhun quruluşa təsiri olmasaydı, düşmən intiqamını qadağan edən sülh Müjdəsi yer üzünə necə yayıla bilərdi?»[35]

Digər erkən məsihçi yazıçısı Arnobi qeyd etmişdi:

> «Məsihin adı bu dünyada bəyan ediləndən sonra müharibələr azaldı. Bunu sübut etmək çətin deyil. Əslində, qəzəbli ehtirasların məhdudlaşdırılması nəticəsində müharibələrin sayı xeyli **azaldı**. …Nəticədə, naşükür dünya artıq uzun müddətdir ki, sülhdə yaşayır. Bu, Məsihin gətirdiyi məziyyətdir. Onun sayəsində adamların vəhşi qəzəbi yumşalmışdır; onlar qan tökmək niyyətlərini yığışdırmışlar. Faktiki olaraq, bütün adamlar… Onun faydalı və sülhsevər qaydalarına bir müddət riayət etsəydi… bütün dünya sülh və sakitlikdə yaşayardı. Adamlar poladdan sülh məqsədləri üçün istifadə edərdi, danışıqları pozmadan xoşbəxt ahəngdə birləşərdi».[36]

## Pisliyə müqavimət göstərməməklə ölkəni necə müdafiə etmək olar

Bu gün özlərini məsihçi adlandıran bir çoxları Allahın Padşahlığında yaşayan və ölkəni silahla müdafiə etməyən məsihçiləri tənqid edirlər. Maraqlıdır ki, erkən məsihçilər

də qılınc ilə Roma İmperiyasını müdafiə etmədiklərinə görə tənqid olunurdular. Origen yazırdı:

> «Dualarımız müharibəni qızışdıran bütün cinləri məğlub edir. Bu cinlər həmçinin adamları andlarını və sülhü pozmağa sövq edirlər. Beləliklə, vuruşmaq üçün çölə çıxan adamlardan çox biz padşahlara faydalıyıq. Biz həzlərə nifrət edərək fədakarlıqla saleh dualar edirik. Beləliklə, padşah uğrunda heç kəs bizim kimi yaxşı mübarizə aparmır. Düzdür, biz onun əmri ilə vuruşmuruq, hətta o, bizə əmr etsə belə, döyüşə getmirik. Lakin salehlərin xüsusi ordusunu təşkil etdiyimiz halda Allaha dualar edərək padşahın maraqları uğrunda mübarizə aparırıq.
>
> Əgər padşah ölkəmizin müdafiəsinə ordularımızı aparmağımızı istəsə, o bilməlidir ki, biz bunu da edirik. Lakin biz adamların qarşısında və ya şöhrətpərəstlik üçün bunu etmirik. Kahinlərdən səmalara yüksələn dualar kimi, ürəklərimizdən sirli dualar həmvətənlərimiz üçün göylərə qalxır. Beləliklə, məsihçilər başqalarından çox öz ölkələrinə xeyir gətirirlər».[37]

Allahda tam təvəkkül böyük nəticələrə malikdir! O, sivilizasiyanın başlanğıcından bəri mövcud olmuş ən uzun davam edən sülh dövrünü Aralıq dənizi ölkələrində yaratmışdır. Əgər o, bütün döyüşkən xalqlara qarşı dayana bildisə, Hitleri də dayandıra bilərdi. Bundan başqa, Hitler heç vaxt hakimiyyətə gələ də bilməzdi.

Kimsə etiraz edə bilər: «Eşitməmisiniz ki, şərin yayılması üçün yaxşı adamların heç nə etməməsi kifayətdir?» Problemin mahiyyəti də elə bundadır. İnam və etibar haqqında bizim dindar sözlərimizə baxmayaraq, əksər məsihçilər duanı fəaliyyətsizlik hesab edirlər. Onlar hesab edirlər ki, silahı əlimizə almasaq, şəri başqa heç nə dayandıra bilməz.

Bu gün özlərini məsihçi adlandıran bütün adamlar pisliyə müqavimət göstərmədən və düşmənlərini sevərək yaşasalar, onda nə olar? Bütün kilsə bəşəriyyətin Müdafiəçisi olan Allaha etibar edib duanın gücünə inansa, onda necə? İlk üç əsr ərzində bütün kilsə bunu edirdi və nəticədə bütün dünya sülhdə yaşayırdı. Şübhə etmirəm: əgər bu gün Kilsə onlardan nümunə götürsəydi, Paks (Sülh) Avropa və ya Paks (Sülh) Amerikana olardı.

Səhvi səhv ilə düzəltmək qeyri-mümkündür, eləcə də şər heç vaxt şər ilə məğlub edilə bilməz. Şeytani üsullar ilə iblis qovula bilməz. Yalnız Məsihin təlimlərini icra edərək şərə səmərəli müqavimət göstərmək olar.

Sual:

*Məgər İsanın sözləri şəxsi qisasa aid deyilmi? Dövlətin əmri ilə edilən hərəkətlərə İsanın sözləri aiddirmi?*

Bəzi məsihçilər hesab edirlər ki, kiminsə pisliyinə pislik etmək günahdır. Lakin dövlətin əmrinə itaət ediriksə, İsanın təlimini pozmuruq. Bu fikir Adin Ballounun «Cinayəti xeyirxahlığa çevirmək üçün neçə nəfər gərəkdir?» adlı kitabçasını mənə xatırladır. Müəllif sual verir:

> «Allahın əmrlərini ləğv etmək və Onun qadağan etdiklərini qanuniləşdirmək üçün neçə nəfər gərəkdir? Şəri ədalətə çevirmək üçün neçə nəfər gərəkdir? Bir nəfər öldürməməlidir. Əgər o öldürsə, qatil olur. İki, on, yüz nəfər özbaşına qətl etməməlidir. Əgər onlar qətl edirlərsə, bu, qatillik adlanır.
>
> Ancaq hökumət və ya millət istədikləri qədər öldürə bilər və bu, qətl deyil. Bu ədalətlidir, zəruridir, tərifəlayiqdir və düzgündür. Yalnız razılığa gəlmiş kifayət qədər adam gərəkdir; onda saysız-hesabsız insanların ölümü cinayət olmayacaq. Bəs bunun üçün neçə nəfər gərəkdir? Əsl məsələ də elə bundadır.

> Oğurluq, soyğunçuluq və bütün başqa cinayətlər ilə də eynidir. Bir və ya bir neçə nəfər adam oğurlayanda böyük cinayət olur. Lakin bütün millət bunu edirsə, onun hərəkəti təkcə məqbul deyil, olduqca hörmətli olur. Beləliklə, bütün millət böyük miqyasda qarət edər və hərbi güclə bütöv şəhəri məhv edər; bu, cinayət deyil. Onlar bunu cəzasız edər, hətta din xadimlərini onlar üçün dua etməyə də çağıra bilərlər. Həqiqətən, adamların sayı möcüzə yaradır! Məğrur kütlə Yaradan Allahın qanunlarını ləğv edə bilər! Görəsən, bunun üçün neçə nəfər gərəkdir?».[38]

Dövlətin əmri ilə bütlərə sitayiş etməyim düzgündürmü? Başqa sözlə, şəxsən bütlərə sitayiş etmək günahdır; lakin dövlətin əmri ilə bütlərə sitayiş etməyim münasib olur? **Şəxsən** mənə fala baxmaq günahdır; lakin **dövlətin** əmri ilə bunu edirəmsə, məqbuldur? Şəxsən mənə zina etmək günahdır; lakin dövlətin əmri ilə bunu edirəmsə, məqbuldur? Şəxsən mənə boşanmaq günahdır; lakin dövlət qanunla mənə boşanmağa icazə verirsə, Allah bunu qəbul edirmi?

Deyək ki, bir ölkənin rifahı naminə hökumət abort etməyi qadınlara əmr edir. Ola bilsin ki, ölkənin əhalisi həddindən çoxdur və hökumət doğum əmsalını azaldaraq bu problemi həll etməyə ümid edir. Beləliklə, bu ölkədə yaşayan məsihçi qadın Rəbb qarşısında öz övladını öldürəcəkmi? Bu, yolverilməzdirsə, onda hökumətin öz vətəndaşlarına müharibədə başqalarını öldürməyi əmr etməsindən bunun fərqi nədədir?

İsa pisliyə müqavimət göstərməmək və düşmənlərimizi sevmək haqqında təlimini verəndə şəxsi hərəkət ilə dövlətin əmri arasında fərqi qoydumu? Xeyr, qoymadı. Əhdi-Ətiqin Qanunu ayrı-ayrı adamlara deyil, dövlət miqyaslı məsələlərə aid idi. İsanın təlimi isə bu Qanunu əvəz

etdi. Yadınızdadırsa, İsa təlimini başlayaraq dedi: «*Göz əvəzinə göz, diş əvəzinə diş» deyildiyini eşitmisiniz*» (Mat.5:39). Adamlar bu sözləri haradan eşidə bilərdilər? Əlbəttə ki, Musanın Qanunundan. Bu sözlər Qanunda üç dəfə təkrar olunur.

Birinci dəfə bu sözlər Çıxış Kitabında qeyd olunur:

> «*Adamlar dalaşanda bir hamilə qadın ona dəyən zərbədən uşaq salarsa və başqa ziyan ona dəyməsə, o qadının ərinin tələbi ilə təqsirkar adam hakimlərin təyin etdiyi məbləğdə cərimə ödəməlidir. Əgər qadına ziyan dəyibsə, təqsirkar adam can əvəzinə can, göz əvəzinə göz, diş əvəzinə diş, əl əvəzinə əl, ayaq əvəzinə ayaq, yanıq əvəzinə yanıq, yara əvəzinə yara, zədə əvəzinə zədə ödəsin*» (Çıx.21:22-25).

Lütfən, hakimlərin bu məsələyə cəlb olunmasına fikir verin; bu, şəxsi intiqam deyildi.

İkinci dəfə bu sözlər Levililər Kitabında qeyd olunur: atası Misirli, anası isə İsrailli olan bir nəfər Allahın adına lənət edirdi. İsraillilər Allahdan nə etmək lazım olduğunu soruşanda O cavab verdi:

> «*Rəbbin adına küfr edən hər kəs öldürülməlidir.* ***Bütün icma*** *onu daşqalaq etsin... Başqa bir adamın canını alan hər kəs öldürülməlidir... Bir adam başqa adamı yaralayarsa, o nə cür edibsə, ona da belə edilsin: sınıq əvəzinə sınıq, göz əvəzinə göz, diş əvəzinə diş; o adama nə cür yara vurubsa, ona da belə yara vurulsun... Musa İsrail övladlarına bunu dedi. Lənət edəni düşərgədən kənara çıxarıb daşqalaq etdilər...*» (Lev.24:16-23).

Məgər bu ayələrdə şəxsi təşəbbüsdən söhbət gedir? Xeyr! Cəzada bütün İsrail xalqı iştirak etməli idi.

Üçüncü dəfə bu sözlər Qanunun Təkrarı Kitabında qeyd olunur:

*«Əgər bir yalançı şahid pis məqsədlə birini təqsirləndirərsə, aralarında münaqişə olan iki adam Rəbbin hüzurunda, o dövrdə xidmət edən **kahinlərin** və **hakimlərin** qarşısında dayansın. **Hakimlər** yaxşı-yaxşı araşdırsınlar. Əgər şahid yalançıdırsa, soydaşlarına qarşı yalandan şahidlik etmişsə, onda soydaşına etmək istədiyini onun öz başına gətirin. Beləliklə, aranızdan pisliyi atın. Qalanları da bunu eşidib qorxacaq və bir daha bu cür pislik etməyəcəklər. Belə adama rəhm etməyin, can əvəzinə can, göz əvəzinə göz, diş əvəzinə diş, əl əvəzinə əl, ayaq əvəzinə ayaq ödənsin»* (Qanun.19:16-21).

Bu ayələr yenə də şəxsi qisas haqda danışmır. Bu hadisədə həm kahinlər, həm də hakimlər iştirak edirdilər.

Beləliklə, pisliyə müqavimət göstərməməyə aid İsanın təlimi şəxsi intiqama deyil, xalqın və məhkəmənin qisasına aiddir. «Gözə göz» prinsipi məhz buna aid idi. İsanın təlimi bu qaydanı əvəz etdi.

Sual:

Bəs, biz bir əldə iki qarpız tuta bilərikmi? Orduda əsgər paltarında olanda mən artıq bir fərd kimi qətl edə bilmərəm. Qətli mən deyil, xidmət etdiyim dövlət edir. Romalılara Məktub 13-cü fəslə əsasən, dövlətə qılıncı verən Allahdır.

Bu dəlil yaxşı səslənir, çünki əksər məsihçilər Allahın Padşahlığını hələ də real mövcud olan hökumət kimi dərk etmirlər.

Məsələn, güman edək ki, bir Amerikan vətəndaşı 1930-cu illərdə Almaniyada yaşayırdı. O, Alman ordusuna səfərbər olundu. (Bəli, hökumətlər qeyri-vətəndaşlar olan daimi sakinlərini orduya çağırmaq hüququna malikdir). Deyək ki, bu Amerikan Alman ordusuna qəbul edildi və sonra II Dünya müharibəsi döyüşlərindən birində öz

Amerikan yoldaşlarını öldürürdü. Daha sonra, deyək ki, o, Amerikan qüvvələri tərəfindən girov götürüldü və məhkəmə istintaqına cəlb edildi.

Məhkəmədə o, öz müdafiəsinə belə dəlilləri gətirir: «Bilirəm, Amerikan vətəndaşı olduğum halda həmvətənlərimə qarşı silahla döyüşməyə haqqım yoxdur. Lakin mən Alman ordusuna səfərbər edildim. Beləliklə, başqa Amerikanları öldürən artıq mən deyildim. Bu, Birləşmiş Ştatlara qarşı qanuni müharibə aparan Alman hökumətidir».

Sizcə, Birləşmiş Ştatların vətəndaşları və hökuməti bu dəlilləri qəbul edərlər? Əlbəttə ki, yox! Onda niyə biz İsanın belə dəlilləri qəbul edəcəyinə ümid edirik?

Bu yaxınlarda buna bənzər bir hadisə baş verdi. Bir neçə il əvvəl Birləşmiş Ştatlar Əfqanıstanın Taliban rejiminə qarşı müharibə edirdi. Bir dəfə Taliban mübarizlərinə qoşulmuş Amerikan vətəndaşı Jon Volker Lind girov düşdü. İndi təsəvvür edin ki, cənab Lind məhkəmədə müdafiə olunaraq bu sözləri deyir:

«Mən, Jon Volker Lind, fərdi Amerikan vətəndaşı kimi, başqa Amerikan vətəndaşına heç vaxt zərər yetirmərəm. Bəli, mən Taliban ordusuna qoşuldum. Ancaq o vaxt ordu Birləşmiş Ştatlar ilə müharibə etmirdi. Orduya qoşulandan sonra etdiyim bütün hərəkətlər mənim deyil, Taliban hökumətinin hərəkətləridir. Mən şəxsən Birləşmiş Ştatlara qarşı vuruşmurdum. Mən Taliban ordusunun bir hissəsi olaraq vuruşurdum. Buna görə də mən təqsirkaram».

Sizcə, Amerikan hakimi bu sözləri qəbul edəcəkmi? Mən də onun qəbul etməyəcəyini hesab edirəm.

Əslində, pisliyə müqavimət göstərməməyi rədd edən məsihçilər İsanın qeysərə tabe olmasını istəyirlər. Yəni İsa etiraf etməlidir ki, Onun qanunlarını qeysərin istəyi ilə pozmaq olar. Bəs qeysər bunu etməyə razı olarmı? İsa bunu

tələb edirsə, qeysər İsanın tələbi ilə öz qanununu pozmağa icazə verəcəkmi?

Deyək ki, cənab Lind özünü belə müdafiə edərdi: «Mən, Jon Volker Lind, bir Amerikan vətəndaşı kimi, başqa **Amerikan vətəndaşa** heç vaxt zərər yetirməzdim. Əlbəttə ki, bu, düzgün olmazdı. Birləşmiş Ştatlara qarşı, sadəcə, bir **müsəlman** kimi vuruşurdum. Allaha sədaqətim məndən bütün imansızları öldürməyi tələb edir. Buna görə də İslamın davamçısı olaraq, mən Amerikanları öldürürdüm. Ancaq mən bunu bir fərd kimi və ya bir Amerika vətəndaşı kimi deyil, beynəlxalq İslam birliyinin üzvü kimi edirdim. Buna görə də mən təqsirsizəm».

Sizcə, məhkəmədə bu sözləri həqiqət kimi qəbul edərdilərmi? Əlbəttə, yox. Birləşmiş Ştatlar hökuməti öz vətəndaşlarına dini mənsubiyyətlərindən asılı olmayaraq, bir-birini öldürməyə icazə verməz. Əgər bir Amerika vətəndaşı digərini öldürürsə, o, qətldə təqsirləndiriləcək. Onun dininin qətli tələb etməsi faktı onun hərəkətlərini doğrulda bilməz.

Əgər hökumətimiz **dini** fərqləri səbəbindən öz vətəndaşlarına bir-birini öldürməyə icazə vermirsə, niyə güman edirik ki, İsa Öz vətəndaşlarına **siyasi** və ya **milli** fərqləri səbəbindən bir-birini öldürməyə icazə verəcək?

# 10

# Məgər Müqəddəs Yazılarda yazılmayıb...?

Bu çox illər ərzində pisliyə müqavimət göstərməməyi inkar edən məsihçilər bu təlimə «zidd olan» ayələri izah etməyi məndən xahiş edirdilər.

Beləliklə, gəlin bu ayələrin bəzilərinə nəzər salaq.

Sual:

İsa dedi ki, dünyaya sülh gətirmək üçün deyil, qılınc gətirmək üçün gəlib. Bu sözləri deməklə O, müharibələri qanunilaşdirmədimi?

Həqiqətən, İsa demişdi: *«Düşünməyin ki, yer üzünə sülh gətirməyə gəlmişəm. Mən sülh deyil, qılınc gətirməyə gəlmişəm»* (Mat.10:34). Bəli, bu cümləni mətndən çıxarıb oxusaq, elə məna çıxar ki, İsa Öz davamçılarını Padşahlıq uğrunda qılıncla döyüşməyə çağırır. Lakin bütün mətni oxuyanda aydın olur ki, İsa bunu nəzərdə tutmur.

Faktiki olaraq, bu sözlər İsanın vəz etməyə göndərdiyi on iki həvarisinə verdiyi təlimatların bir hissəsidir. Gəlin bütün mətnə baxaq:

*«Budur, sizi qurdlar arasına quzular kimi göndərirəm. Ona görə də* ***ilan kimi müdrik və göyərçin kimi məsum olun****. İnsanlardan özünüzü gözləyin. Çünki onlar sizi məhkəmələrə çəkəcək, sinaqoqlarında qamçılayacaqlar»* (Mat.10:16-17).

*«Qardaş qardaşı, ata övladını ölümə təslim edəcək. Övladlar ata-anasına qarşı çıxıb onları edam etdirəcəklər. Mənim adıma görə hamı sizə nifrət edəcək. Amma axıracan dözən xilas olacaq. Sizi bir şəhərdə təqib edəndə başqasına qaçın…»* (ayələr 21-23).

*«Bədəni öldürüb canı öldürə bilməyənlərdən qorxmayın. Həm canı, həm bədəni cəhənnəmdə məhv edə bilən Allahdan qorxun»* (ayə 28).

***«İnsanlar qarşısında Məni iqrar edən hər kəsi Mən də göylərdə olan Atamın qarşısında iqrar edəcəyəm»*** (ayə 32).

*«Düşünməyin ki, yer üzünə sülh gətirməyə gəlmişəm. Mən sülh deyil, qılınc gətirməyə gəlmişəm. Çünki Mən oğulu atasından, qızı anasından, gəlini də qayınanasından ayırmağa gəlmişəm. İnsanın düşməni öz ev əhli olacaq. Atasını, ya anasını Məndən artıq sevən kəs Mənə layiq deyil. Oğlunu, ya qızını Məndən artıq sevən də Mənə layiq deyil. Çarmıxını götürməyib ardımca gələn kəs də Mənə layiq deyil.* ***Canını qoruyan kəs onu itirəcək, Mənim uğrumda canını itirənsə onu qoruyacaq****»* (Mat.10:34-39).

Bu mətndən görünür ki, İsa Öz həvarilərini Padşahlıq uğrunda silahla döyüşməyə çağırmır. Əksinə, İsa həvarilərini qurdlar arasına quzular kimi göndərirdi. Quzular qurdları qılıncla öldürmürlər. Əksinə, qurdlar quzuları öldürürlər. İsa həvarilərinə Onun uğrunda ölməyə hazır olmağı deyirdi. Əgər onlar İsaya görə ölməyə hazır deyillərsə, onda onlar Ona layiq deyillər. İsa Öz şagirdlərinə mümkün olanda zorakılıqdan təkcə qaçmağa icazə verdi.

Qədim zamanlarda qılınc iki məqsədə xidmət etdi. Biz adətən qılıncın qətl üçün müharibədə istifadə olunması barədə düşünürük. Lakin kəsmək və ya bölmək üçün qılıncdan alət kimi də istifadə edirdilər. Müqəddəs Yazı deyir *«Allahın kəlamı… ikiağızlı qılıncdan da itidir, canla ruhu, oynaqlarla iliyi bir-birindən* ***ayıraraq*** *keçir…»* (İbr.4:12).

Mat.10:34-də İsa ayıran qılınc barədə danışmırmı? Növbəti ayədə İsa deyir: *«Mən oğulu atasından, qızı anasından, gəlini də qayınanasından ayırmağa gəlmişəm. İnsanın düşməni öz ev əhli olacaq»*.

Burada İsa anaların və qızların bir-birini öldürmək üçün qılınc qaldıracaqları barədə deyir? İsa məsihçilərə öz valideynlərini və uşaqlarını öldürməyə icazə verdimi? Yaxud İsa Padşahlığın Müjdəsinin ailədə ayrılıq yaradacağını deyirdi?

Məncə, çoxumuz razılaşar ki, İsa ailədəki ayrılıqdan danışırdı. Ailəmiz bizi mirasdan məhrum edə və bizi təqib edə bilər. Lakin ailəmizi Rəbdən üstün tutsaq, Ona layiq olmayacağıq.

İndi isə gəlin Matta 10-cu fəsildə İsanın prioritetlər haqqında öyrətdiklərinə fikir verək. O demişdi: *«Oğlunu, ya qızını Məndən artıq sevən də Mənə layiq deyil»* (37-ci ayə). İsa bizə doğma övladlarımızı Ondan çox sevməyə icazə vermirsə, necə güman edə bilərik ki, biz ölkəmizi Ondan çox sevə bilərik?

Sual:

Vəftiz olunmağa gələn əsgərlərə Vəftizçi Yəhya qılıncı kənara qoymağı və ya ordunu tərk etməyi nə üçün demədi?

Gəlin bu ayəni birlikdə oxuyaq:

*«Vergiyığanlar da vəftiz olunmaq üçün onun yanına gəlib soruşdular: «Müəllim, biz nə edək?» Yəhya onlara dedi: «Sizə tapşırılan məbləğdən artıq vergi yığmayın». Bəzi əsgərlər də gəlib ondan soruşdular: "Bəs biz nə etməliyik?" Yəhya da onlara cavab verdi: "Heç kimdən zorla pul almayın, nahaq yerə ittiham etməyin, aldığınız maaşla kifayətlənin"»* (Luka 3:12-14).

Burada Yunanca «diaseio» sözü «zorla pul almayın» kimi tərcümə edilib.[39] Hərfi tərcümə isə belədir: «kobudcasına silkələməyin». Ola bilsin, Vəftizçi Yəhya adamlara zülm etməməyi və öldürməməyi də əsgərlərə demişdi.

Lakin «diaseio» sözünün mənasından asılı olmayaraq, Yəhya Əhdi-Cədid deyil, Əhdi-Ətiq peyğəmbəri olub. Hətta o, yeni Padşahlığın rəiyyəti də olmayıb. Biz bunu İsanın şagirdlərinə dediyi sözlərindən bilirik: *«»Sizə doğrusunu deyirəm: qadından doğulanlar arasında Vəftizçi Yəhyadan daha üstün olan meydana çıxmayıb. Amma Səmavi Padşahlıqda ən kiçik olan ondan üstündür»* (Mat.11:11). Həmçinin, İsa demişdi: *«Qanun və Peyğəmbərlər Yəhyanın gəlişinə qədər idi. O vaxtdan bəri Allahın Padşahlığının Müjdəsi yayılır…»* (Luka 16:16).

Başqa sözlə, Yəhya İsa üçün yolu hazırlayan sələf idi. Onun tövbə haqda vəzinin əksəriyyəti İsanın təlimindən bir çox mövzuları əks etdirirdi. Lakin buna baxmayaraq, o, birinci **məsihçi** peyğəmbəri deyil, sonuncu **Yəhudi** peyğəmbəri olub. Allah Padşahlığın Müjdəsini izah etmək üçün Yəhyanı göndərməmişdi.

Sual:

Nə üçün İsa Roma yüzbaşısına ordunu tərk etməyi əmr etmədi? Həmçinin Müqəddəs Kitab yazmır ki, imana gələndən sonra Korneli hərbi xidməti tərk etdi.

Əvvəlcə gəlin yüzbaşıya aid olan ayələrə nəzər salaq:

*«İsa Kefernahuma girərkən bir yüzbaşı Ona yaxınlaşıb yalvardı: «Ya Rəbb, xidmətçim iflic olub evdə yatır, çox iztirab çəkir». İsa ona dedi: «Mən gəlib ona şəfa verəcəyəm». Yüzbaşı cavab verərək dedi: «Ya Rəbb, mən layiq deyiləm ki, Sən mənim evimə girəsən. Ancaq bir söz söylə, onda xidmətçim sağalacaq» (*Mat.8:5-8*). «İsa yüzbaşıya dedi: «Get, qoy sənin imanına görə olsun». Yüzbaşının xidmətçisi də o saat sağaldı»* (Mat.8:13).

İsa bu adamın sənəti haqqında heç nə demədi: nə tərifl ədi, nə də pislədi. Faktiki olaraq, mətndəki əsas məsələ bu adamın **yüzbaşı** olması deyil, **qeyri-yəhudi** olmasıdır. Məhz buna görə İsa qeyd etdi: *«Sizə doğrusunu deyirəm: İsraildə heç kimdə belə böyük iman görmədim»* (Mat.8:10). Bu hadisə tezliklə qeyri-yəhudilərin Müjdəyə İsraildən daha yaxın olacaqlarını xəbər verirdi.

Roma yüzbaşısı və quyunun yanında İsanın Samariyalı qadınla görüşü çox oxşardır. Qadın nikahda olmadığı bir nəfərlə yaşayırdı. İsa bu kişini tərk etməyi ona əmr etmədi. Onda İsanın nikahsız birgə yaşamağa icazə verdiyini demək olar?

Korniliyə gəldikdə isə, Müqəddəs Yazılar onun imana gəlməsindən sonrakı həyatı barədə heç nə demir. Məsihçi olandan sonra Kornilinin qılıncdan istifadə etməsi barədə heç bir məlumat yoxdur.

Əslində, Müqəddəs Yazılar yeni imanlıların sonrakı həyatı barədə az yazır. Çoxlarınız mənimlə razılaşar ki, yeni imanlılar Kəlama uyğun olmayan peşələrini dəyişirdilər. Məsələn, bir çox fahişə İsaya inanmışdı. Müqəddəs Yazılar onların gələcək həyatı barədə yazmasa da, güman edirik ki, onlar əxlaqsızlığı tərk etdilər (Mat.21:31,32).

Sual:

*İsa zor işlədərək pul xırdalayanları məbəddən qamçı ilə qovmadımı?*

Gəlin bu barədə oxuyaq:

> *«Yəhudilərin Pasxa bayramı yaxınlaşırdı. İsa Yerusəlimə getdi. Məbədin həyatində öküz, qoyun, göyərçin satanların və sərrafların oturduğunu gördü. İplərdən bir qamçı düzəldib hamını qoyun və öküzlərlə birgə məbədin ərazisindən qovdu, sərrafların masalarını çevirib pullarını yerə tökdü, göyərçin satanlara da dedi: "Bunları buradan götürün. Atamın evini bazara döndərməyin"»* (Yəh.2:13-16).

Beləliklə, İsa qamçı ilə kimi vururdu? Ayələr bu barədə aydın demir. Qoyunlar adətən öz çobanlarının ardınca gedirlər. İsa qoyun və öküzləri məbəddən necə çıxara bilərdi? Möcüzə edə bilərdi, ancaq bu dəfə möcüzə etmədi. Onda məbəddən heyvanları çıxarmağın ən məntiqi yolu onları qamçı ilə qovmaq idi. İsanın adamları qamçı ilə döyməsi barədə bir dəlil yoxdur.

Hər halda, bu hadisə pisliyə müqavimət göstərməmək mövzusunu daha da aydınlaşdırır. İsa nümayiş etdirdi ki, pisliyə müqavimət göstərməmək günaha qarşı çıxmamaq demək deyil. Əlbəttə, Allahın Oğlu olan İsa bizdən çox səlahiyyətə malik idi. Həvarilər alverçiləri məbəddən heç vaxt qovmurdular.

Sual:

*Ola bilsin ki, pisliyə müqavimət göstərməmək İsanın erkən təlimləri olub. Axı sonralar O, Özü şagirdlərinə qılınc almağı tapşırır.*

Bu ayələr Luka 22:35-36-dadır:

> *«Sonra şagirdlərə dedi: "Mən sizi kisəsiz, torbasız və çarıqsız göndərəndə bir şeydə korluq çəkmisinizmi?" Onlar cavab verdilər: "Heç bir şeydə". Onda İsa onlara dedi: "İndi isə kisəsi və torbası olan bunları götürsün. Qılıncı olmayan da öz paltarını satıb qılınc alsın"».*

İlk baxışdan elə görünür ki, bu ayə pisliyə müqavimət göstərməmək haqda İsanın əvvəllər verdiyi təlimlərə ziddir. Ancaq biz bu fəslin qalan hissəsini oxusaq, görəcəyik ki, bu, belə deyil. Həvarilərinə qılınc almağı söyləyəndən dərhal sonra İsa izah etdi: *«Çünki sizə deyirəm: bu yazılmış olan "Üsyankarlara tay tutuldu" sözü Məndə tam yerinə yetməlidir. Çünki Mənim barəmdə yazılanlar tamam olur»* (Luka 22:37). Beləliklə, İsa Öz sözlərini izah etdi. Qılınclar Yeşaya 53:12-də yazılan peyğəmbərliyi yerinə yetirmək üçün alınmışdı: «Üsyankarlara tay tutuldu».

Növbəti ayə məsələni daha da aydınlaşdırır: *«Onlar dedilər: "Ya Rəbb, budur, burada iki qılınc var". O isə onlara dedi: "Bu, kifayətdir"»* (Luka 22:38). Aydındır ki, İsa həvarilərinə silahlı toqquşmaya hazırlaşmağı əmr etməmişdi, çünki 12 nəfərin müdafiəsi üçün iki qılınc kifayət deyildi. Lakin Əhdi-Ətiqin peyğəmbərliyinin yerinə yetirilməsi üçün iki qılınc kifayət idi.

Lukanın Müjdəsindən İsanın həbsi haqqında bəhs edən bu mətnin sonuncu hissəsi bu məsələni tam aydınlaşdırır: «İsanın ətrafında olanlar nə baş verəcəyini görəndə Ona dedilər:

> *«İsanın ətrafında olanlar nə baş verəcəyini görəndə Ona dedilər: "Ya Rəbb, bəlkə, qılıncla vuraq?" Onlardan biri baş kahinin qulunu vurub sağ qulağını qopartdı. Lakin İsa dedi: "Bəsdir, eləməyin". Sonra qulun qulağına toxunaraq onu sağaltdı»* (Luka 22:49-51).

Gördüyünüz kimi, İsa axırda şagirdlərinə bu iki qılıncdan özünümüdafiə üçün də istifadə etməyə icazə vermədi. İsa hətta qılıncın yaraladığı qulağa şəfa verdi.

İsa qılınclardan əyani vəsait kimi istifadə edərək təlim verdi. Tezliklə bəşər tarixində ən böyük cinayət baş verməli idi. Allahın günahsız Oğlu yalan böhtan nəticəsində həbs ediləcək, Ona əzab veriləcək və O öldürüləcəkdi. Məsihçilərə bir dəfə qılıncdan istifadə etmək icazəsi verilsəydi, onlar bunu məhz indi etməli idilər! Ancaq İsa şagirdlərinə qılınc ilə nə Onu, nə də özlərini müdafiə etməyə icazə vermədi. Əvvəllər şərə müqavimət göstərməməyi şagirdlərinə öyrədəndə İsa məhz bunu nəzərdə tutdurdu. Hətta ən böyük cinayət baş verəndə belə, qılıncdan istifadə etmək olmazdı.

Matta öz Müjdəsində İsanın Peterə dediyi sözlərə daha bir təfsilatı əlavə edir: *«Qılıncını yerinə qoy, çünki qılınc çəkənlərin hamısı qılıncla məhv olacaq. Yoxsa elə düşünürsən ki, Atamdan yardım istəyə bilmərəm? İstəsəm, dərhal Mənə on iki legiondan artıq mələk göndərər»* (Mat.26:52-53). Allahın bizi müdafiə etməsi üçün Onun kifayət qədər mələkləri var. Tertullian bu barədə belə deyir: «Rəbb Peteri tərk-silah edərkən, hər birimizi tərk-silah etdi».[40]

*«Qılınc çəkənlərin hamısı qılıncla məhv olacaq»* sözləri ilə İsa nə demək istəyir? Bu bəyanat İsanın daha əvvəl söylədiyi sözlərinə çox oxşardır: *«Canını qoruyan kəs onu itirəcək, Mənim uğrumda canını itirənsə onu qoruyacaq»* (Mat.10:39). Biz silaha və bu dünyanın qüvvəsinə etibar etsək, nəticədə məhv olacağıq, çünki etibarımız düzgün deyil.

Şagirdlərin özlərini müdafiə etmək üçün qılınc daşıdıqları və ya vuruşduqları barədə daha heç bir yerdə yazılmayıb. Həvarilərin İşləri Kitabında həvarilərin və

başqa məsihçilərin pisliyə müqavimət göstərməməsi çox aydın göstərilir. Məsihçilərə izdihamlar, Yəhudi rəhbərləri və qeyri-yəhudilər hücum edirdilər. Ancaq məsihçilər heç bir halda fiziki müqavimət göstərmirdilər. Stefan onu tutmuş izdihamdan özünü müdafiə etmirdi. Hətta ölüm anında o, düşmənlərinə məhəbbət göstərərək dedi: *«Ya Rəbb, bunu onlara günah sayma»* (Həv.7:60).

Həvarilərin İşləri Kitabı yazır ki, Stefanın ölümündən dərhal sonra *«Yerusəlimdə olan imanlılar cəmiyyətinə qarşı güclü təqib başladı...»* (Həv.8:1). Bəs, İsanın şagirdləri nə etdilər? Silahlı müqavimət göstərdilərmi? Xeyr. Luka bizə deyir: *«...Həvarilərdən başqa bütün imanlılar pərən-pərən düşüb Yəhudeya və Samariyanın hər tərəfinə yayıldılar»* (Həv.8:1). Təqib vaxtı İsa Öz davamçılarına yalnız qaçmağa icazə verdi. Onlar da elə bunu etdilər.

## İsanın təlimlərinin dəyişməzliyi

Dağüstü vəzdə Padşahlığın qanunlarının bir çoxunu izah edəndən sonra İsa dinləyicilərinə dedi: *«Beləliklə, bu sözlərimi eşidib onlara əməl edən hər kəs öz evini qaya üzərində quran ağıllı adama bənzəyir. Yağış yağar, sellər gələr, yellər əsər və o evə hücum edər. Amma ev uçmaz, çünki təməli qaya üzərində qurulub. Bu sözlərimi eşidib onlara əməl etməyən hər kəs isə öz evini qum üzərində tikən ağılsız adama bənzəyir»* (Mat.7:24-26).

Qaya olan təməl barədə fikirləşəndə onun sabitliyi və möhkəmliyi barədə düşünürük. Musanın Qanunu 1500 il ərzində mövcud idi, ancaq axırda müvəqqəti olduğu aşkar olundu; Allah onu əvəz etdi. İsanın təlimləri isə dəyişməzdir. Bu təlimləri bir neçə ildən sonra İsa və ya Onun həvariləri ləğv etsəydi, onlar belə dəyişməz olmazdı. Lakin İsanın təlimləri dəyişmir. İlk məsihçilər

üçün dəyişməz olduğu kimi, təlim bu gün də bizim üçün dəyişməzdir.

Kəlam deyir: «*İsa Məsih dünən, bu gün və əbədi olaraq eynidir*» (İbr.13:8).

# 11

# Bu dünyanın padşahlıqları

Mən Allahın Padşahlığı haqqında çox danışdım. İndi isə gəlin bu dünyanın padşahlıqları haqqında danışaq.

Kəlamda dünyanın padşahlıqlarının Allah tərəfindən idarə edilməsi haqda çox az yazılır. Əhdi-Ətiqdə biz İsraillilər ilə işləri olan Misir, Aşşur və Babil kimi padşahlıqlara Allahın təsir göstərməsi barədə oxuyuruq. Lakin Müqəddəs Kitabda bu dövr ərzində Çin, Hindistan, Yaponiya, Afrika və Amerika kimi dünyanın başqa ölkələri haqqında heç nə deyilmir.

Böyük ehtimal var ki, Allah Aralıq dənizi ölkələrində məsihçiliyin yayılmasını asanlaşdırmaq üçün Roma İmperiyasından istifadə etdi. Səyahəti mümkün və təhlükəsiz etmək üçün Romalılar bütün İmperiyada yaxşı yollar tikdirmişdilər.

Bəs nə üçün Çində Xan sülaləsi yarandı? Niyə Meksikada Astek padşahlığı yarandı? Nə üçün Hindistanda hakimiyyətə Şunqa sülaləsi gəldi və niyə orada Maurya sülaləsi devrildi? Ümumiyyətlə, Allahın dünyanın padşahlıqları üzərində idarəetməsinin olması haqda çox az bilirik. Hansısa millətin müharibədə qalib gəlməsi onun Allaha məqbul olmasını sübut etmir.

Buna baxmayaraq, Müqəddəs Yazıda Allahın dünyanın padşahlıqları üzərində idarəetməsinə aid beş prinsip qeyd edilir:

- Dünyanın bütün padşahlıqları üzərində ali səlahiyyət Allaha məxsusdur.
- Yer üzündə olan bütün hakimlər səlahiyyətlərini Allahdan alırlar.
- Allah dünyəvi padşahlıqlara nəzarət edir və bu, Onun Öz Padşahlığının idarəetməsindən asılı deyil.
- Bütün dünyəvi padşahlıqlar müvəqqətidir.
- İblis bu padşahlıqların işlərində böyük rol oynayır.

**1. Dünyanın bütün padşahlıqları üzərində ali səlahiyyət Allaha məxsusdur. A**llah padşah Navuxodonosorun ağlını və səlahiyyətini əlindən alanda bunu çox aydın şəkildə göstərdi.

Müqəddəs Yazılar bunun səbəbini belə izah edir: *«İndi yaşayanlar bunu bilsin: insan padşahlıqları üzərində Allah-Taala hökmranlıq edir, padşahlığı kimə istəyir, ona verir və insanlar arasında ən aşağı olanı onlara başçı qoyur»* (Dan.4:17).

Beləliklə, hər şey, doğrudan da, Allahın əlindədir. Məhz buna görə Padşahlığa mənsub olan məsihçilər bu dünyanın «hitler»lərindən qorxmurlar. Allah istənilən vaxt onları cilovlaya bilər. Onlar bir müddət ərzində hökm edə bilərlər, ancaq bu müddəti yalnız Allah müəyyən edir. Allahın hər şeyə qadir olmasına inanan məsihçilər duanın şərə qarşı ən təsirli silah olduğunu bilirlər.

**2. Yer üzündə olan bütün hakimlər səlahiyyətlərini Allahdan alırlar.** Pilat İsaya Onu çarmıxa çəkmək səlahiyyətinə malik olduğu barədə deyəndə İsa sakitcə cavab verdi: *«Əgər sənə yuxarıdan verilməsəydi, Mənim üzərimdə heç bir səlahiyyətin olmazdı»* (Yəh.19:11). Həvari Paul

demişdi: «*Hər kəs başçılıq edən hakimiyyətlərə tabe olsun. Çünki Allah tərəfindən təyin olunmayan hakimiyyət yoxdur; mövcud olan hakimiyyətlər Allah tərəfindən təyin olunub*» (Rom.13:1).

Beləliklə, Allah dünyəvi padşahlıqlara səlahiyyət verdi. Niyə? Paul izah edir «*yaxşı iş görənlər deyil, pis iş görənlər hökmdarlardan qorxmalıdırlar. İstəyirsənmi hakimiyyətdən qorxmayasan? Yaxşı iş gör, onda o, səni tərifləyər. Hökmdar sənin xeyrin üçün Allaha xidmət edir. Amma pis iş görürsənsə, qorx! Çünki o, əbəs yerə qılınc daşımır, Allaha xidmət edir ki, pis iş görəndən qisas alsın və Allahın qəzəbini onun başına gətirsin*» (Rom.13:3-4).

Allah padşahlara səlahiyyəti bəşəriyyətin günahkarlığı səbəbindən vermişdi. Anarxiyadansa zalım hökmdar yaxşıdır. İraq ilə bu yaxınlardakı müharibədə Qərb koalisiya qüvvələri Səddam Hüseynin ordularını tez məğlub etdi. Lakin Səddam Hüseynin hökumətinin dağılması ilə işğal qoşunlarının Bağdadda müvəqqəti hökuməti qurması arasında bir neçə gün fasilə oldu. Bu vaxt şəhərdə anarxiya oldu. Soyğunçular dükan və anbarları boşaldırdı, silahlı dəstələr avtomobilləri oğurlayırdı, adamlar isə köhnə düşmənlərindən qisas alırdı. Səddam Hüseynin rejimi xalqa nə qədər zidd olsa da, hökumətin olmamasından daha yaxşı idi.

Paul «Hökmdarlar Allahın xidmətçiləridir» (Rom.13:6) sözlərini yazanda Roma İmperiyasının başçısı böyük günahkar Neron idi. Buna görə də Paulun hökmdarı Allahın əməkdaşı və ya Allahın dostu hesab etdiyini zənn etməyin. Paulun burada istifadə etdiyi «xidmətçi» sözü «diakonos»dur. Paul demir ki, hakim şüurlu olaraq Allahın nümayəndəsi və ya əməkdaşıdır. Hakim Allahın o mənada xidmətçisidir ki, Allah onun üstündə Rəbdir.

Neron kimi, əksər padşah və hakimlər öz üzərində Allahın hakimiyyətini tanımırdılar. Çox vaxt onlar həm Allaha, həm də Onun adamlarına qarşı çıxırlar. Bu, qədim İsraildən və eləcə də, İsadan sonra da belə olub. Adətən hakimlər Allahın onlara verdiyindən daha çox səlahiyyəti əldə etməyə cəhd edirlər. Onlar «qeysərə məxsus olan» ilə kifayətlənmirlər. Onlar «Allaha məxsus olanı» da istəyirlər.

**3. Dünyəvi padşahlıqlar üzərində Allahın idarəsi Onun Öz Padşahlığı üzərində idarəsindən ayrı və fərqlidir.** İsa Pilata bunu izah edərək dedi: *«Mənim Padşahlığım bu dünyadan deyil. Əgər Mənim Padşahlığım bu dünyadan olsaydı, xidmətçilərim Yəhudi başçılarına təslim edilməməyim üçün döyüşərdilər, amma indi Mənim Padşahlığım buradan deyil»* (Yəh.18:36).

Yer üzündə olan bütün hökumətlər «bu dünyadandır». Bununla onlar Allahın Padşahlığına qarşı təzad təşkil edirlər. Yer üzündə olan heç bir padşahlıq Allahın Padşahlığı ilə birgə ola bilməz, çünki mahiyyətcə o, Allahın Padşahlığına tamamilə ziddir. Dünyəvi padşahlıqlardan birini Allahın Padşahlığı ilə birləşdirməyə cəhd etmək plastmasla gili birləşdirməyə cəhd etməyə bənzəyir. Onlar heç vaxt qarışmaz, çünki mahiyyətcə tam fərqlidirlər.

Amerikan məsihçiləri çox vaxt vətənpərvərliyi məsihçilik ilə səhv salırlar; onlar güman edirlər ki, Birləşmiş Ştatlar necəsə Allahın Padşahlığı ilə əməkdaşlıqdadır. Onlar Amerika dövlətini «Məsihçi ölkəsi» hesab edirlər. Lakin dünyanın digər ölkələri olan Fransa, Almaniya və ya Çin kimi, Birləşmiş Ştatlar da bu dünyaya aid olan ölkədir. Birləşmiş Ştatlar öz pullarında «Allaha etibar edirik» sözlərini çap edə bilər, amma əslində onlar öz ordularına, tanklarına və raketlərinə etibar edirlər.

**4. Bütün dünyəvi padşahlıqlar müvəqqətidir.** Dünyanın padşahlıqları mahiyyətcə Allahın Padşahlığına ziddir. Daniel öz peyğəmbərliyində bunu izah edir: *«O padşahların dövründə göylərin Allahı heç vaxt dağılmayan bir padşahlıq quracaq və bu padşahlıq başqa xalqın əlinə keçməyəcək. O, bütün əvvəlki padşahlıqları əzib-dağıdacaq, özü isə əbədi qalacaq»* (Dan.2:44).

Daniel demədi ki, Allahın Padşahlığı dünyəvi padşahlıqların bir və ya bir neçəsi ilə ittifaq quracaq. O demədi ki, yer üzündəki padşahlıqların bəziləri Allahın Padşahlığı ilə əməkdaşlıq edəcək. Xeyr. O dedi ki, Allahın Padşahlığı bu padşahlıqların hər birini əzib-dağıdacaq. Məsihçi hesab edilən istənilən ölkə də buna daxildir. Bu dünyanın padşahlıqları müvəqqətidir və axırda məhv olacaq.

**5. İblis dünyəvi padşahlıqların işlərində fəal iştirak edir.** Bunu ölkələrin əsrlər boyu davam etdirdiyi siyasəti təsdiq edir. Lakin bunun ən aydın təsdiqi Müjdədə qeyd olunur:

> *«İblis yenə İsanı çox yüksək bir dağa çıxartdı. Ona dünyanın bütün padşahlıqlarını və şan-şöhrətini göstərib dedi: "Əgər Sən yerə qapanıb mənə səcdə etsən, bütün bu şeyləri Sənə verəcəyəm". İsa dedi: "Rədd ol, Şeytan! 'Allahın Rəbbə səcdə et və yalnız Ona ibadət et' deyə yazılmışdır"»* (Mat.4:9,10).

Fikir verin ki, İsa İblisə dünyanın padşahlıqlarının hamısının verildiyinə etiraz etmir. Əgər İblis İsaya verə bilməyəcəyi bir şeyi təklif edirdisə, onda bu sınaq böyük olmazdı. Sonralar İsa İblisi «bu dünyanın hökmdarı» adlandırır (Yəh.12:31). Məsihin doğulmasından bir çox əsr əvvəl Danielin peyğəmbərlikləri açıqlamışdır ki, dünyəvi padşahlıqlar günahkar ruhların qüvvələri ilə idarə olunurlar (Dan.10:13,20).

Əlbəttə, Allahın izni olmasaydı, İblis dünya hökumətləri üzərində heç bir hakimiyyətə malik olmazdı. Yer üzündəki padşahlıqlar üzərində ali hakimiyyət İblisdə deyil, Allahdadır. Ancaq normal olaraq, dünyanın padşahlıqları Allahın yolu ilə deyil, İblisin yolu ilə gedirlər.

# 12

## İKİ PADŞAHLIQDA YAŞAMAQ

Allahın Padşahlığının vətəndaşı olmaq asan deyil. Xüsusilə də, bütün başqa padşahlıqlardan fərqli olaraq, Allahın Padşahlığının coğrafi ərazisi yoxdur. Məhz buna görə onun vətəndaşları həmişə iki padşahlıqda – dünyəvi padşahlıqda və Allahın Padşahlığında yaşayacaqlar. Məsihçilər bunlardan hansına itaət etməlidirlər?

Bu, xarici ölkədə yaşayan Birləşmiş Ştatların vətəndaşının vəziyyətinə bənzəyir. Fərz edin ki, Co adlı Birləşmiş Ştatların vətəndaşı Almaniyaya köçüb orada işləməlidir. Birləşmiş Ştatların vətəndaşı olduğuna görə Almaniyanın qanunlarına itaət etməməlidirmi? Xeyr. Əgər o, Almaniyada nəqliyyat qanunlarını pozsa, sadəcə, əcnəbi olduğuna görə bağışlanmayacaq. Co bankı qarət etsə, Alman qanunlarına görə məhkəməyə cəlb ediləcək və Almaniyada həbs ilə üzləşəcək. Bundan başqa, Almaniyada işləyən Co hətta Alman vergilərini də ödəməli olacaq.

Eyni zamanda, Alman qanununa görə, əcnəbi olan Co müxtəlif hüquqlara malikdir. Alman vətəndaşı kimi, o da qanun tərəfindən müdafiə olmaq hüququna malikdir. O, Alman məhkəmələri qarşısında iddialar irəli sürə bilər. Əmək qanunu Alman vətəndaşlarını müdafiə etdiyi kimi, Almaniyada işlədiyinə görə onu da müdafiə edir.

Allahın Padşahlığının vətəndaşları olan bizim də vəziyyətimiz faktiki olaraq, eynidir. Allahın Padşahlığının vətəndaşları olduğumuza baxmayaraq, yaşadığımız ölkənin qanunlarına itaət etməliyik. Müqəddəs Yazılarda bu barədə olduqca aydın deyilir:

> *«İnsanın yaratdığı hər quruma Rəbb naminə tabe olun; həm ali hakimiyyət olduğuna görə padşaha, həm də pislik edənləri cəzalandırmaq, yaxşılıq edənləri də tərifləmək üçün onun tərəfindən göndərilən valilərə tabe olun. Çünki Allahın iradəsi yaxşılıq edərək axmaqların cahilliyini susdurmanızdır»* (1Pet.2:13-15).

Allahın Padşahlığının vətəndaşları olan bizlər dünyəvi hökumətləri qanunsuz, düşmən qüvvələri hesab etməməliyik, çünki biz başa düşürük: dünyanın padşahlıqlarına hakimiyyəti verən Allahdır. Müqəddəs Yazılarda bu barədə aydın deyilir: *«Hər kəs başçılıq edən hakimiyyətlərə tabe olsun. Çünki Allah tərəfindən təyin olunmayan hakimiyyət yoxdur; mövcud olan hakimiyyətlər Allah tərəfindən təyin olunub. Buna görə də hakimiyyətə qarşı çıxan adam Allahın təyin etdiyinin əleyhinə çıxır və əleyhinə çıxan belələri özlərini mühakiməyə düçar edirlər»* (Rom.13:1,2).

İlk baxışdan elə görünə bilər ki, Allahın Padşahlığının vətəndaşı olan bizlər **Məsihə** itaətkar olmaqla bərabər, **Qeysərə** də itaətkar olmalıyıq. Yalnız **bir** padşahlığın vətəndaşları olan adamlarla müqayisədə, Allahın Padşahlığının vətəndaşları adətən dünyəvi hökumətlərin qanunlarına daha vicdanla itaət edirlər.

## İki padşahlığın qanunları arasında olan ziddiyyətlər

İndi isə gəlin Almaniyada yaşayan Amerikan Conun məsələsinə qayıdaq. Bəs, Almaniyanın qanunları Amerikanın qanunlarına zidd olsa, onda necə? Məsələn,

Almaniyanın qanunlarına itaət etmək üçün Co Amerikaya qarşı xəyanət hesab olunan bir hərəkəti etməyə məcbur olsa, onda necə? Bu vəziyyətdə Co qərara gəlməlidir: o, hansı ölkənin daimi vətəndaşı olmaq istəyir. Çünki konflikt meydana çıxanda, o, hər **iki** hökumətə itaət edə bilməyəcək. O seçməli olacaq.

Məsələn, Almaniya Birləşmiş Ştatlar ilə müharibəyə başlayır. Birləşmiş Ştatlar xarici ölkədə yaşayan Conu silahlı qüvvələrə səfərbər edə bilərmi? Əlbəttə. Alman vətəndaşı olmayan Conu Almaniya orduya səfərbər edə bilərmi? Bəli. Co Alman ordusuna gedib hərbi andı verə bilərmi? Bilməz, əgər o, Amerikan vətəndaşı olaraq qalmaq istəyirsə. O, iki ağaya xidmət edə bilməz. O qərara gəlməlidir: o, hansı hökumətin qanunlarına tam, hansına isə qismən itaətkar olacaq.

## Allaha məxsus olanı Allaha verin

Romalılara 13-dən ayələri yuxarıda oxuyaraq, bəzi adamlar hesab edirlər ki, ərazisində yaşadığımız dünyəvi hökumətlər üzərimizdə tam hakimiyyətə malikdir. Onlar güman edirlər ki, biz hökumətə hətta ölümədək sadiq olmalıyıq. Ancaq Müqəddəs Yazılar bu barədə belə demir.

Vergi barədə İsaya sual verən fariseylərə və Hirodçulara O, belə cavab verdi: *«Qeysərə məxsus olanı qeysərə, Allaha məxsus olanı Allaha verin»* (Mat.22:21).

Fikir verin ki, fariseylər və Hirodçular İsadan Allah barədə deyil, vergi barədə soruşdular. Lakin söhbəti Allaha tərəf yönəldən İsa bununla nümayiş etdirdi ki, onlar əbədiyyət barədə deyil, bu dünyanın problemləri barədə, birtərəfli düşünürlər. Bəli, onlar qeysərə vergiləri verməlidirlər. Niyə? Çünki onların sikkələrində qeysərin təsviri idi. O sikkələri Allah deyil, qeysər kəsirdi. Beləliklə, ona məxsus olanı ona verin.

Bəs, biz adamların üzərində kimin təsviri var? Qeysərın? Xeyr. Allah bizi **Öz** surətində yaratdı. Buna görə də biz Ona mənsubuq; Allah bizim həyatımız üzərində tam hüquqa malikdir. Qeysər isə yalnız özünün yaratdığı şeylərin üzərində hüquqlara malikdir. Qeysər bizim bədənimizi və canımızı yaratmamışdır. Beləliklə, qeysər bizim bədənimiz və canımız üzərində hüquqa malik deyil.

Romalılara 13-də Paul bizə başçılara və hakimiyyətlərə tabe olmağı deyir. Lakin sonra o, tabeliyin həddini müəyyən edərək deyir: «*Hər kəsə öz haqqını verin: vergi haqqı olana vergi, gömrük haqqı olana gömrük, qorxu haqqı olana qorxu, hörmət haqqı olana hörmət. Bir-birinizi sevməkdən başqa heç nədə heç kimə borclu qalmayın; çünki başqasını sevən Qanunu yerinə yetirmiş olur*» (Rom.13:7-8, həmçinin 1-6).

Fikir verin ki, Paul təkcə **dünyəvi** şeyləri sadalayır: vergi, gömrük, qorxu və hörmət. Bunların hamısı qeysərə aiddir. Lakin hökumətə itaət sahələrini təsvir edən Paul hərbi xidməti qeyd etmədi.

Əvvəlcədən qeyd etdiyim kimi, əksər dünyəvi hökumətlər «qeysərə məxsus olanla» kifayətlənmirlər. Onlar Allaha məxsus olanı da istəyirlər. Onlar güman edirlər ki, onlar öz vətəndaşlarının sədaqəti üzərində tam və qeyd-şərtsiz hüquqa malikdirlər. Hətta güman edirlər ki, vətəndaşlarının həyatı və hətta onların canı onlara məxsusdur. Tertullian bu barədə sual verirdi: «Hər şey qeysərə məxsusdursa, onda bəs, Allaha nə məxsusdur?»[41]

Həqiqətən, özlərini məsihçi adlandıranlar Allaha vermək üçün nə saxladılar? Onlar həyatları ilə risk edərək qeysərə pullarını, gəncliyini, ürəklərini və tam sədaqətini vermişdilər. Bəs, Məsihin Padşahlığına vermək üçün nə qalır? Yalnız bəzi qırıntı qalıqları: ondabirlər və həftədə bir neçə saat. Onlar güman edirlər ki, bu, İsaya kifayət olacaq!

## Qeysər Allaha məxsus olanı istəyəndə

Beləliklə, qeysərin qanunları Allahın qanunlarına ziddirsə, biz nə etməliyik? Biz yuxarıda gətirdiyimiz nümunədəki Amerikan Co kimi eyni vəziyyətdəyik. O, hansı ölkəyə tam sadiq olacağını qərara almalıdır: Almaniyaya və ya Birləşmiş Ştatlara. O, hər ikisinə tam sadiq ola bilmir. Oxşar şəkildə, Allahın Padşahlığının vətəndaşları da qərara almalıdır: onlar hansı padşahlığa tam sadiq olacaqlar: Allahın və ya qeysərin.

Həvarilər bu seçimi etmişdilər. İsa Padşahlığın Xoş Xəbərini vəz etməyi onlara əmr etmişdi. Lakin Yəhudi ağsaqqalları onları həbs edərək İsa haqqında vəz etməməyi əmr etmişdilər. Bu Yəhudi ağsaqqalları hökumətin qanuni təmsilçiləri idilər. Onların arasında Allah tərəfindən təyin olunmuş baş kahin də var idi. Hətta Roma hökuməti Yəhudi dini məsələlərində onların səlahiyyətini qəbul edirdi.

Ancaq bu, həvariləri dayandırmadı. Həvarilər İsanın əmrinə itaət edirdilər. Həvarilər İsanı öz Padşahları hesab edir və Ona tam sadiq idilər. Beləliklə, onlar Yəhudi ağsaqqallarına belə cavab verdilər: *«Özünüz qərar verin, Allaha deyil, sizə qulaq asmaq Allahın gözündə nə qədər doğrudur? Axı eşidib-gördüklərimizi deməyə bilmərik»* (Həv.4:19-20). Bundan sonra həvarilər yenə küçələrdə təbliğə davam etdilər.

Tezliklə onlar yenə tutuldular. Onlara sual verildi: *«Bu adla təlim öyrətməyi sizə qəti qadağan etmədikmi? Amma siz təliminizi bütün Yerusəlimə yaydınız və o Adamın qanını bizim boynumuza yükləmək istəyirsiniz». Peter və başqa həvarilər belə cavab verdilər: «İnsana deyil, Allaha itaət etmək daha vacibdir»* (Həv.5:28,29).

Biz onların nümunələrindən nə öyrənməliyik? Allahın Padşahlığının vətəndaşı olmaq istəyiriksə və Allahın Padşahlığının vətəndaşı olaraq qalmaq istəyiriksə, ilk növbədə

Onun Padşahlığına sadiq olmalıyıq; yer üzündəki hökumətlərin əmrləri Səmavi Padşahımızın əmrlərinə zidd olanda kimə itaət etməli olduğumuz haqda tərəddüd etməməliyik. Cavab həmişə eynidir: biz adamlara deyil, Allaha itaət etməliyik. Əgər biz Allahın Padşahlığının vətəndaşı olmaq istəyiriksə, üzərimizdə onun hakimiyyətini tanımalıyıq.

Bu dünyanın padşahlıqlarının Allaha münasibəti korporasiyanın dövlətə münasibətinə çox oxşardır. Korporasiya dövlətin qanunları sayəsində mövcuddur. Dövlət ona səlahiyyəti verməsəydi, onun heç bir səlahiyyəti olmazdı. Dövlət korporasiyanın bütün fəaliyyətini bəyənirmi? Xeyr. Korporasiya dövlətlə əməkdaşlıq edirmi? Xeyr. Lakin dövlət korporasiyaya səlahiyyət vermişdir. Buna görə də korporasiyanın işçiləri korporasiyaya itaət etməlidirlər.

Buna baxmayaraq, bu itaətkarlıq nisbidir. Əgər korporasiya işçilərinə qeyri-qanuni göstərişlər verirsə, dövlət işçilərdən korporasiyaya tabe olmamağı gözləyir. Əks təqdirdə, onlar cinayətə görə məsuliyyətə cəlb olunacaqlar. Korporasiyanın əmr verməsi onların qeyri-qanuni hərəkətlərini doğrultmur.

Allahın Padşahlığının qanunları ilə dünyəvi padşahlığın qanunları arasında ziddiyyət olanda da belə olur. Dünyəvi qanunlar həmişə Allahın qanunlarına güzəştə getməmәlidir. Bu, əksinə olmamalıdır. İsa bir ədəbsiz hakimin əmri ilə edilən günahı doğrultmayacaq, çünki bu, Onun əmrlərinə ziddir və Onun qanunlarına itaətsizlikdir.

Bu, ştatlardakı qanunların ABŞ-ın Konstitusiyasına münasibətinə bənzəyir. Hər bir ştat bir çox məsələlərin həllinə dair qanunları qəbul etmək səlahiyyətinə malikdir. Həmin ştatlarda yaşayan adamlar da o qanunlara itaət etməlidirlər. Bəs ştatın qanunu Konstitusiyaya ziddirsə, onda necə? Bu halda Konstitusiya ştatın qanunundan üstün hesab olunur. Bu, heç vaxt əksinə olmur. Eləcə də Allahın

qanunları da dünyəvi qanunlara zidd olanda həmişə üstün olur. Əgər qeysər bir, Allah isə digər əmri verirsə, Allahın qanunu insanın qanunundan üstündür. Bu, Allahın Padşahlığının əsas müddəalarından biridir.

## Düşmənləri sevmək barədə

Qeysərin bir çox qanunu Məsihin qanunlarına ziddir. İndi biz imana görə təqibdən danışmırıq. Məsələn, pisliyə müqavimət göstərməmək sahəsi. Məsələn, dünyəvi hökumət çox vaxt cavan oğlanları silahlı qüvvələrə səfərbər edir və onları silahları qaldıraraq ölkənin düşmənlərini öldürməyə göndərir. Bizim Padşahımız isə düşmənlərimizə nifrət etməyi deyil, sevməyi əmr etmişdir. Buddistləri, müsəlmanları, ateistləri öldürərək bunu onları sevdiyimizə görə etdiyimizi deyə bilmərik. Beləliklə, biz həm Məsihə, həm də qeysərə itaət edə bilmərik.

Məsihin qanunları bizə **dinsizləri** öldürməyə icazə vermirsə, **məsihçi qardaşlarımızı** da öldürməyi qadağan edir. Lakin ötən 1700 il ərzində Amerikada və ya Avropanın ölkələrində baş verən hər bir müharibədə bir-biri ilə döyüşən «məsihçilər» olub. Bir xarici hökumət bir Amerikana silahı götürüb o biri Amerikan yoldaşını öldürməyi əmr etsə, əksər Amerikanlar imtina edər. Buna baxmayaraq, dünyəvi hökumət silahı götürüb o biri məsihçilərə qarşı vuruşmağı əmr etsə, əksər halda özlərini məsihçi adlandıranlar bu əmri yerinə yetirəcəklər.

Biz hər iki padşahlığa tam sadiq ola bilmərik. Dünyəvi hakimin əmri ilə bir məsihçi Allahın Padşahlığının vətəndaşı olan digər məsihçini öldürməklə dünyəvi hakimə tam sədaqətini göstərir. O, öz ölkəsinin rifahını Allahın Padşahlığının rifahından və məsihçi qardaşlarından üstün tutur.

Lakin məsihçinin silahla müharibədə iştirak etməkdən imtina etməsi yalnız başqa məsihçilərə qarşı aparılan müharibələrə aid deyil. İsa bizə düşmənlərimizi sevməyi demişdi. Əgər biz müharibədə yalnız Allahın Padşahlığında həmvətənlərimiz olan məsihçiləri öldürmək istəmiriksə, dünyadan çox fərqli deyilik. Onlar da öz həmvətənlərinə qarşı müharibə etmək istəmirlər. Allahın Padşahlığının nümayəndələri olan bizlərə həm düşmənlərimizi, həm də imanlı qardaşlarımızı sevmək əmr edilir.

## İcraedici hökumət orqanlarına hörmət barədə

Pisliyə müqavimət göstərməməyə və düşmənləri sevməyə aid İsanın təlimləri baxımından bəzi məsihçilər hərbçilərə və polislərə etinasızlıq göstərmək, hətta bəzən onlara qarşı çıxmaq barədə də düşünürlər. Ancaq bu, tamamilə səhvdir. İsa və Onun həvariləri rast gəldikləri hərbçilərə həmişə hörmətlə yanaşırdılar. Müqəddəs Yazı bizə deyir ki, bu dünyanın hökumətlərinə qılıncı Allah Özü həvalə etmişdir. Allahın Padşahlığı silahlı müdafiəyə ehtiyac duymasa da, bu dünyanın hökumətləri duyur. İsanın təlimləri Onun Padşahlığına aiddir. İsa demirdi ki, bu dünyanın hökuməti qılıncsız öz öhdəliklərini yerinə yetirə bilər. Bu səbəbdən, mən həmişə əsgərlərə və polislərə nəzakət və hörmət göstərməyə çalışıram.

Təbii ki, hərbçilərin dünyəvi qoşunlar əvəzinə Allahın Padşahlığının ordusuna yazıldıqlarını görmək daha yaxşı olardı. Lakin başa düşürəm ki, onlar özləri bu qərara gəlməlidirlər. Ancaq hələ ki onlar öz hökumətlərinin adından ölkələrinin adamlarına xidmət edirlər, onlar istehzaya deyil, hörmətə layiqdirlər. Onlar verdikləri qurbanlara uyğun olaraq öz hökumətlərindən ödəniş almaq ixtiyarındadırlar.

# 13

# Mən «bu dünyadanam»?

Bir az bundan əvvəl biz İsanın Pilata dediyi sözlərə nəzər saldıq: «*Mənim Padşahlığım bu dünyadan deyil. Əgər Mənim Padşahlığım bu dünyadan olsaydı, xidmətçilərim Yəhudi başçılarına təslim edilməməyim üçün döyüşərdi, amma indi Mənim Padşahlığım buradan deyil*» (Yəh.18:36).

Əgər Məsihin Padşahlığının inqilabi təbiəti haqqında Pilatın fikrində istənilən şübhə var idisə, bu sözləri eşidəndən sonra onlar yox olmalı idi. Bu Padşahlıq qılıncla müdafiə olunmurdu; bu Padşahlığı qılınc ilə müdafiə etmək qeyri-mümkün idi. Pilatın İsadan qorxması üçün heç bir səbəbi yox idi. İsa Pilatın xidmət etdiyi imperiyanı ələ keçirmək niyyətində deyildi. İsa bunu Pilatın dövründə və dünyəvi qılınc ilə etmək niyyətində deyildi. İsanın Padşahlığı bu dünyadan deyildi. Bu Padşahlığın bütövlüyü dünyəvi əzəmətdən deyil, səmavi qüvvətdən asılı idi.

Yalnız Məsihin Padşahlığı deyil, Onun rəiyyətləri də bu dünyadan deyildir. Həbs olunmazdan əvvəl İsa Öz rəiyyətləri haqqında belə dua etmişdi:

> «*Mən onlara Sənin sözünü verdim. Dünya isə onlara nifrət etdi, çünki Mən dünyadan olmadığım kimi, onlar da dünyadan deyillər. Onları dünyadan götürməyi deyil, şər olandan qorumağı Səndən xahiş edirəm. Mən*

*dünyadan olmadığım kimi onlar da dünyadan deyil.* ***Onları həqiqətlə təqdis et. Sənin sözün həqiqətdir.*** *Sən Məni dünyaya göndərdiyin kimi Mən də onları dünyaya göndərdim»* (Yəh.17:14-18).

Beləliklə, əgər biz İsa Məsihin rəiyyəti olmaq istəyiriksə, «bu dünyadan» olmamalıyıq. Biz bir əlçatmaz dağın mağarasına və ya səhraya getməliyikmi? Yox, əsla. İsa dedi ki, O, bizi dünyaya göndərir. Bizi dünyadan çıxmağa deyil, **dünyaya** göndərir.

Əgər dünyaya göndərilmişiksə, biz necə «dünyadan» olmaya bilərik? Yəhya bunu belə izah edir:

*«Dünyanı və dünyada olan şeyləri sevməyin. Kim dünyanı sevirsə, onda Atadan olan məhəbbət yoxdur. Çünki dünyada olan hər şey – cismani ehtiraslar, acgözlük və dünya malına görə təkəbbür Atadan yox, dünyadan gəlir. Dünya və ondakı ehtiraslar keçib-gedir, amma Allahın iradəsinə əməl edən əbədi qalır»* (1Yəh.2:15-17).

Beləliklə, «bu dünyadan deyil» ifadəsi göstərir ki, biz dünyada yaşayaraq, onun üçün ölüyük və onun cazibədarlıqlarına tovlanmırıq. Biz bu dünyada Səmavi Vətənə gedən qəriblərik. Həvari Yəhyanın dediyi kimi: dünyanı seviriksə, İsaya olan məhəbbətimiz haqda danışmağa dəyməz. Əgər biz dünyanı seviriksə, deməli, İsanı sevmirik.

Yaqub belə deyir: *«Ey vəfasızlar, dünya ilə dostluğun Allaha qarşı düşmənçilik olduğunu bilmirsinizmi? Buna görə də dünya ilə dost olmaq istəyən özünü Allaha düşmən edər»* (Yaq.4:4).

Bu səbəbdən, nə İsa, nə də Onun şagirdləri «məsihçi milləti» və ya «məsihçi ölkəsi» kimi ifadələrdən istifadə etmirdilər. Bu anlayışlar əslində bir-birinə ziddir; «gurultulu sakitlik» ifadəsi kimi. «Məsihçi» sözü «bu dünyadan

olmayan» deməkdir. Ölkə və millət isə «bu dünyaya» aid olan anlayışdır.

Əhdi-Cədiddə Allah Öz adamlarına müxtəlif sahələrdə məsuliyyətləri barədə təlimatlar verir. Allah ərlərə və arvadlara, ağalara və xidmətçilərə, valideynlərə və uşaqlara, imanlılar cəmiyyətinin başçılarına və imanlılar cəmiyyətinin üzvlərinə təlimatlar verir. Dünyəvi hökmranlara gəldikdə isə, məsələ olduqca fərqlidir. Əhdi-Cədid məsihçi hakimlərə deyil, **məsihçi rəiyyətlərə** təlimatlar verir. Məsihçi hakimlərin mövcud olması Allahın iradəsidirsə, onda niyə O, onlara heç bir təlimat vermədi?

## Bu dünyanın «boyaları»

Əlbəttə, hər bir kilsə İsanı sevdiyini iddia edir. Heç bir kilsə bu dünyanın dostu olması ilə öyünmür. Bunu demək asandır. Kilsənin həqiqi mövqeyi onun sözlərindən deyil, əməllərindən görünür. Məhşər günündə İsa bizim **sözlərimizə** görə deyil, **əməllərimizə** görə *«Afərin, yaxşı və sadiq qulum!»* deyəcək (Mat.25:21).

Bir çox banklarda soyğunçuları qeyd etmək üçün boya paketlərindən istifadə edirlər. Soyğunçuluq baş verdikdə, bank xidmətçiləri quldura verilən nağd pulun arasında nazik boya paketlərini gizlicə yerləşdirirlər. Təxminən on dəqiqə sonra quldurlar bankdan qaçanda boya paketləri partlayır, boya oğurlanan nağd pula və quldurun üzərinə yayılır.

1999-cu ildə Delaver ştatının Uilminqton şəhərində böyük ağıl ilə fərqlənməyən bir qarətçi yerli bankı qarət etdi və böyük məbləğdə nağd pul ilə qaçdı. Lakin bir azdan boya paketləri partladı, boya pula və quldurun sağ əlinə yayıldı. Bir neçə məhəllə qaçandan sonra ardınca qaçan

polislərin səsini eşitdi. Beləliklə, pul kisəsini arxasında gizlədib bir binaya söykəndi, əllərini də ciblərinə qoydu.

O, bekar bir adam kimi dayanmışdı. Qaçan polisi görüb onu tanıdı; cibindən sağ əlini çıxarıb polisə salam verərək ona əl etdi. Boya haqqında tam unutmuşdu. Bu da onun qısa cinayət «peşəsinə» son qoydu.[42]

O boya kimi, dünya da öz dostlarını fərqləndirmək üçün işarələyir. Dünyanın dostları İsaya sitayiş etmək üçün öz əllərini qaldıranda İsa onların əllərində boyanı görür. Kilsə dünyadan uzaq olduğunu nə qədər ucadan etiraf etsə də, bu işarə onu fərqləndirir.

Üzv olduğumuz kilsənin dünyanın işarəsini daşıdığını necə müəyyən etmək olar? Dünyanın boyası ilə ləkələnmiş kilsə ictimai adət-ənənələri, mövqe və hərəkatları əks etdirəcək. Lakin *«İsa Məsih dünən, bu gün və əbədi olaraq eynidir»* (İbr.13:8). Onun prinsipləri, dəyərləri və əmrləri heç vaxt dəyişmir. Bu dünyadan olmayan kilsə Əhdi-Cədid kilsəsi kimi eyni dəyərləri və eyni həyat tərzini yaşayacaq. Onun mənəvi standartları hər on və ya iyirmi ildən bir dəyişmir.

Konstantinin dövründən başlayaraq, nominal kilsə dünya ilə eyni addımlayır. Məsələn, Romalılar adamları payada yandıranda, kilsə də bunu edirdi. Qədim Romalılar işgəncədən istifadə edərək ittiham edilən cinayətkarlardan etirafı əldə edirdilər. İşgəncə kilsə üçün də məqbul oldu. Romalılar müxtəlif «barbar» xalqlara təkəbbürlə baxırdı, kilsə də eyni.

Konstantinin ölümündən sonra kilsə İsa Məsihə öz sevgisini etiraf etməyə davam edirdi, ancaq onun günahkar əlləri dünyanın boyası ilə ləkələnmişdi. Kilsə dünyanı sevirdi, buna görə də dünyanın dəyərlərinin və adət-ənənələrinin çoxunu qəbul etdi. Dünya necə, kilsə də elə. Dünya bəzi əməllərin şər olduğunu elan edəndən

sonra kilsə də bunları daha etmirdi. Məsələn, dünya adamları payada yandırmağı dayandıranda, kilsə də dayandı. Dünyanın böyük hissəsi işgəncəni çox böyük şər kimi tanıyanda, kilsə də onu tərgitdi.

Əlli il əvvəl Amerikanın Cənubunda «bu dünyaya» mənsub olan ağdərililər qaradərililərlə eyni kafedə, eyni motellərdə, eyni zalda olmaqdan imtina edirdilər. Kilsənin mövqeyi fərqli idimi? Xeyr. Ağdərili məsihçilər dünyadan heç fərqlənmirdilər. Onlar hətta qaralarla yanaşı eyni ibadətdə sitayiş etməkdən imtina edirdilər. Bu gün isə Cənubda yaşayan «ağlar» qaradərililərlə eyni kafedə, eyni motellərdə, eyni zalda olurlar. Nəhayət, dünya irqçiliyin səhv olduğunu etiraf etdi. Maraqlıdır ki, bu gün əksər kilsələr də irqçiliyin səhv olduğunu etiraf edir. Cənubdakı bütün kilsələrdə deyil, əksər kilsələrdə qaralar ağlarla yanaşı sitayiş edə bilərlər. Lakin məsihçilərin qaradərililəri qəbul etməsi üçün əvvəlcə dünya dəyişməli idi. Qəribədir ki, Cənubda yaşayan məsihçilərin ürəklərinə İsa təlimləri deyil, dünya daha böyük təsir göstərir.

Bu kitabın əvvəlində biz boşanmaqdan danışdıq. Yetmiş beş il əvvəl bütün kilsələr boşanmanı qadağan edirdi. Bu gün isə belə kilsəni tapmaq çox çətindir. Nə dəyişdi? Əlbəttə ki, İsa dəyişmədi. Dünya dəyişdi, onun ardınca da kilsə dəyişdi. Dünyanın boyası ilə əllərini ləkələmiş kilsə.

Ötən qırx ilin ən böyük sosial hərəkatlarından biri feminizm olmuşdur. Feminizm dünyanın hər bir təşkilatına təsir göstərməyə başlayanda kilsə də kənarda qalmadı. Birdən kilsədə adamlar İsa Məsihin və Onun həvarilərinin kişi və qadına aid təlimlərindən çəkinməyə başladılar. Nəticədə, Müqəddəs Yazıların bu mövzuda olan bütün ayələri «yenidən şərh» edildi.

Bərabərlik şüarı altında feminizm ikili standartı irəli çəkir. Bir kəs qadın cinsini alçaldan bir söz desə, sözünün

ədalətli və düzgün olmasından asılı olmayaraq, dərhal onun səsini batırırlar, ona daha hörmət etmir və qadınsevməzlikdə ittiham edirlər. Buna baxmayaraq, kişilərə sərbəst şəkildə böhtan ata bilərlər; ədalətli və düzgün olmasa da, tam məqbuldur.

Hətta özlərini müjdəçi adlandıran məsihçilər dünyanın bu ikili standartını qəbul etmişlər. Bu gün bir çox vəzlərdə kişilər tənqid olunur. Bundan başqa, qadınlara aid Müqəddəs Yazı ayələri bu gün daha qeyri-aktual hesab olunur və ya başqa cür şərh edilir. Kişilərə aid olan ayələr isə xüsusilə vurğulanır və ya məna şişirdilir.

Məsələn, bu gün kilsə başçıları Kəlama uyğun olaraq, nadir halda arvadları ərlərinə hər şeydə itaət etməyə çağırırlar. Yaxud bu barədə danışsalar da, elə «gözəl» şərh edirlər ki, əmrin mənası tam itib yox olur. Buna baxmayaraq, bir çox pastor təkidlə ərləri öz arvadlarını sevməyə çağırır. Onlar bu əmri şişirdərək elə şərh edirlər ki, artıq bu əmrin yerinə yetirilməsi çox ağır, demək olar ki, icrası qeyri-mümkün olan yükə çevrilir.

Başqa nümunə – qadınların başlarını örtmək barədə Müqəddəs Kitabın təlimi:

> *«Başına nə isə qoyub dua, yaxud peyğəmbərlik edən hər kişi öz başını şərəfsiz edir. Başıaçıq dua, yaxud peyğəmbərlik edən hər qadın da öz başını şərəfsiz edir. Belə qadınla saçları qırxılmış qadın arasında fərq yoxdur»* (1Kor.11:4,5).

Əhdi-Cədid kilsəsinin dövründən XIX əsrin ortasınadək, faktiki olaraq, hər kilsə bu məsələdə Müqəddəs Ruha itaət edirdi. Dua edərkən və ya ibadətdə olarkən kişilər papaqlarını çıxarırdılar, qadınlar isə başlarını örtürdülər. Sonra isə, XIX əsrin əvvəlində dünyada ilk feminist hərəkatı başladı və bu, kilsəyə təsir göstərdi. Bir çox kilsədə

qadınlar başlarını daha dini mənada örtmürdülər. Əksər kilsələrdə qadınlar başlarını hələ də örtsələr də, bu artıq, zərif şlyapalar və ya dəbli papaqlar idi. Lakin altmışıncı illərdə başlayan yeni feminist hərəkatı şlyapaları da yox etdi.

Paradoks odur ki, bu gün bütün kilsələr kişilərin başlarını örtüb dua etməmələrinə aid Paulun təliminin birinci hissəsini icra edirlər. İndiyədək kişilərə deyilir ki, onlar kilsəyə daxil olanda və ya dua edəndə papaqlarını çıxartsınlar. Yadımdadır, bir dəfə dua toplantısına bir neçə kişi gəldi. Vaiz dərhal onlara hamının qarşısında papaqlarını çıxartmalarını dedi. Heç vaxt görməmişəm ki, vaiz kilsədə və ya duadan əvvəl qadına başını örtməyi desin. Dünyada olduğu kimi, kilsə də cinslərə aid ikili standarta malikdir.

İlk baxışdan elə görünə bilər ki, bugünkü kilsə qadınlara böyük iltifatla yanaşır. Əslində isə, kilsə cinsi diskriminasiyasının ən pis formasını qadınlara qarşı tətbiq edir.

Əvvəllər mən bir korporasiyada hüquqşünas işləyirdim; korporasiyanın prezidenti və idarə heyətinin digər üzvləri qanunla əlaqəli məsələlərdə məsləhət almaq üçün mənə müraciət edirdilər. Mən onlara səhv məlumat verərək müəyyən hərəkətin qanuni olduğunu desəydim, nə olardı? Həbsxanaya düşsəydilər, mənə nə deyərdilər? Hər halda, təşəkkür etməzdilər.

İsanın qanunları da belədir. Onun şəxsən və ya həvariləri vasitəsilə kişi və qadına verdiyi qanun və təlimləri *«dünən, bu gün və əbədi olaraq eynidir»*. Məsihçi müəlliflər və vaizlər imanlı qadınlara deyirlər ki, onların İsaya itaət etmələri mütləq deyil. Bunun nəticəsində həmin qadınlar Allahın Padşahlığından kənarda qala bilərlər.

## Sağ qanad sol qanad kimi eyni dünyəvidir

Məsihçilərin bir çoxu bu gün dünyadan ayrı olduqları ilə fəxr edirlər, çünki homoseksualizmə, aborta və başqa sosial və siyasi məsələlərə müasir liberal baxışları rədd edirlər. Onlar sağ Respublikaçılar tərəfində olmaqla dünyadan ayrıldıqlarını hesab edirlər. Amma əslində Respublikaçıların partiyası dünyanın özüdür və ya ən azı, onun bir hissəsidir. Demokratik partiya ilə müqayisədə, o, hərbçidir, müharibəyə daha çox meyillidir. Demokratik partiya kimi, onun da siyasi tələbləri İsanın təlimlərinə yaxın deyil. Lakin Demokratik partiya ilə müqayisədə Respublikaçılar partiyası ənənəvi qaydalara və Müqəddəs Kitabın mənəviyyatına o qədər də qarşı çıxmırlar.

Dünyanın hansı partiyası ilə dostluq etməyimiz İsa üçün fərq etməz. Əgər biz dünyanın istənilən hissəsi ilə dostluq ediriksə, biz Onun düşmənləriyik.

# 14

# Biz «SÜLH VƏ ƏDALƏT» MÜBARİZLƏRİ OLURUQMU?

Mənim sözlərimdən elə çıxır ki, biz «sülh və ədalət»* fəalları olub atom elektrik stansiyaları və hərbi zavodların qarşısında piketə çıxmalıyıq? Xeyr, mənim dediyim bunlar deyil.

«Sülh və ədalət» naminə mübarizə sağ qanadın siyasətinin bir hissəsidir. Həm sağ, həm də sol qanad dünyanın padşahlıqlarını Allahın Padşahlığının bir hissəsi hesab edirlər. Onların fikrincə, bu dünyanın padşahlıqları İsanın təlimləri ilə idarə edilə bilər. Məgər İsa dünyanı xristianlaşdırmağa çalışırdı? Pilatın qarşısında dayanan İsa Roma İmperiyasında müxtəlif sosial ədalətsizlik haqqında danışırdı? Əhdi-Cədid məsihçiləri Roma İmperiyasında ölüm cəzası və işgəncəyə qarşı mübarizə aparırdılar?

## «Sülh və ədalət» mübarizlərinin məntiqsizliyi

«Sülh və ədalət» yolunda mübarizə aparan məsihçilər güman edirlər ki, muzdur fundamentalistlərdən fərqli olaraq, İsanın təliminin tərəfdarları yalnız onlardır. Həqiqət isə budur ki, digərləri kimi, onların özləri də dünyəvidirlər.

---

* Liberal siyasi xadimlərin şüarıdır.

Yeganə fərq ondadır ki, onlar dünyanın digər hissəsi ilə – sol liberal sektoru ilə birləşiblər. Respublikaçılar partiyası kimi, Demokratik partiya da **dünyəvidir**.

Sağ qanaddan olan həmkarları kimi, «sülh və ədalət» mübarizləri olan sol qanadın təmsilçiləri İsanın əmrlərinə birtərəfli yanaşırlar. Onlar yalnız sol siyasi baxışlara uyğun olan təlimləri seçməyi bacarırlar. Onlar böyük səylə hərbi və iqtisadi tamahkarlıq günahlarına qarşı çıxırlar. Lakin boşanma, abort və homoseksualizm kimi günahlara gələndə adətən susurlar. Onlar siyasi baxımdan heç vaxt səhv etmədən Allahın Padşahlığının fəal vətəndaşları ola biləcəklərini güman edirlər.

Lakin İsa nə birinci əsrdə, nə də sonrakı əsrlərdə siyasi baxımdan heç vaxt düzgün olmayıb. O, bu dünyanın hökumətlərini və padşahlıqlarını dəyişməyə çağırmaq üçün gəlməmişdi. O, dünyanı deyil, **ayrı-ayrı adamları** dəyişməyə çalışırdı. O, bizim hamımızı **Öz** Padşahlığına dəvət etmək üçün gəldi.

İsa Öz vəzlərində demirdi: «Gəlin zənginlərin üzərinə böyük vergi qoymaqla kasıblara kömək edək». Xeyr. O, sadəcə, çağırır: «Devid Berkot, öz rifahından imtina edərək kasıblara əl tut». İsa və Onun həvariləri Zakkayı kasıblara əl tutmağa məcbur etmək üçün bir siyasi hərəkat və ya sosial komitə yaratmadılar. Xeyr, İsa Zakkayın düşüncə tərzini elə dəyişdi ki, Zakkay **özü** kasıblara qayğı göstərmək **istədi**.

«Sülh və ədalət» uğrunda mübarizə aparan məsihçilər ölüm cəzasına qarşı çıxırlar, çünki buna görə hər il təxminən yüz Amerikan ölür.[43] Lakin onlardan çoxu **milyondan** çox amerikalını öldürən aborta etiraz etmirlər.[44] Bu məsihçilər qadınların hüquqlarının pozulmasına etiraz edir, kişilərin hüquqlarının pozulmasına gəldikdə isə susurlar. Onlar «sol» inqilabçıların təqibinə qarşı çıxırlar,

ancaq «sol» diktaturalarda məsihçilərin təqibi haqqında nadir hallarda bir söz deyərlər. «Sağ» siyasi qanadın mübarizləri olan məsihçilər kimi, onlar dünyaya göstərişlər verməyə imkan verirlər.

Padşahlığın dar yolunda nə «sağ», nə də «sol» siyasi mübarizlər üçün yer yoxdur. Padşahlıq məsihçiləri öz hökumətlərinə itaət və hörmət edir. Onlar öz ölkələrini Allahın Padşahlığının tərəfdarı və ya «Allahın ölkəsi» hesab etmirlər, çünki bilirlər: Allahın Padşahlığı bu dünyadan deyil.

# 15

# Kimsə belə yaşayıbmı?

İsa bizə Padşahlığa aid olan məsihçi kimi yaşamağı, sadəcə, öyrətmirdi. Xeyr. O, Özü bu həyatı yaşayaraq bizə nümunə göstərdi. Allah Öz Oğlunu yer üzünə göndərmək üçün mükəmməl vaxtı seçmişdi; bu dövr İsanın təliminə çox uyğun gəlirdi. Allahın düzgün vaxtı seçməsini qiymətləndirmək üçün gəlin İsanın doğulmasından əvvəl tarixi vəziyyətə nəzər salaq.

Yadımızdadır ki, Yəhudilər əsir düşüb Babilə sürgün edilmişdilər. Farslar Babili devirəndən sonra Yəhudilərin qalığı Yəhudeyaya qayıtdı və məbədi bərpa etdi. Buna baxmayaraq, onlar müstəqil millət deyildilər. Farslar onları iki yüz ildən çox müddət ərzində idarə edirdilər. Lakin b.e.ə. 335-ci ildə Yunanlar Farsları məğlub etdi və onlar Yəhudilərin üzərində yeni hakim oldular.

Nəhayət, b.e.ə. 142-ci ildə Simon Makkabinin rəhbərliyi altında Yəhudilər müstəqilliyi əldə etdilər. Babil əsirliyindən bəri, ilk dəfə Yəhudilər daha heç bir xarici padşaha tabe deyildilər. Onlar buna çox sevinirdilər!

### Romanın qüdrətlənməsi

Yəhudilər Yunanlara qarşı mübarizə apararkən, Roma yavaş-yavaş qüdrətlənərək dünyada hökmran dövlətə

çevrilirdi. Yunanıstan həm Romanın, həm də Yəhudeyanın düşməni olduğuna görə, Yəhudilər Romalılarla dostluq sazişi imzalamışdılar. Bu razılıq ilə Roma Yəhudeyanın müstəqil millət olduğunu təsdiq edirdi və Yunanları Yəhudeyanı yenidən fəth etməkdən çəkindirirdi.[45]

Bu razılığa baxmayaraq, b.e.ə. 66-cı ildə Romalılar özləri Yəhudeyanı ələ keçirdi və Yəhudilərin üzərinə olduqca böyük vergilər qoymağa başladılar. Bu vergilər nə üçün istifadə edilirdi? Yəhudilərə xeyir vermək üçün? Xeyr, Yəhudiləri qul vəziyyətində saxlayan orduları təmin etmək üçün.

Yetmiş beş il boyunca azad yaşayan Yəhudilər Romaya itaət etməyə hazırlaşmadılar. Beləliklə, İsa doğulanda Yəhudi millətçiliyi yüksəlmişdi. İsa yetkin yaşa çatana qədər nifrət etdikləri Romalılara qarşı artıq bir neçə Yəhudi üsyanı baş vermişdi. Ancaq Roma onların hamısını amansızcasına yatırtmışdı.

## Yəhudi satqınları

Lakin bütün Yəhudilər Romalılara nifrət etmirdilər. Bəziləri Roma hakimiyyəti sayəsində zənginləşirdi. Romalılar Yəhudilərdən vergiləri özləri yığmırdılar; onlar bu işi Yəhudilərə tapşırırdılar. Yəhudilərə vergi yığmaq Romalılardan daha asan idi. Onlar vergilərdən yayınan həmvətənlərinin hiylə və bicliyini yaxşı bilirdilər. Vergiyığan Yəhudilər xalqın arasında yaşayır, kimin rifahda, kimin yoxsulluqda yaşadığını yaxşı bilirdilər.

Satqınlar! Xainlər! Yəhudilər düşmənləri olan Romalılar üçün vergi yığanlara nifrət edirdilər. «Dayanın, müstəqil olan kimi sizi ən yüksək dar ağacından asacağıq», – deyə əksər Yəhudilər fikirləşirdilər.

Təbii ki, Yəhudi millətinin əksəriyyəti vəd olunmuş Məsihin gəlişini səbirsizliklə gözləyirdi. Onlar Məsihin

Roma əsarətindən hərbi yol ilə azad edəcəyinə əmin idilər. Necə Makkabi ailəsinin rəhbərliyi altında onlar Yunanları devirə bilmişdisə, eləcə də Məsih Romalıların hakimiyyətini devirəcək!

Ancaq dülgərin oğlu İsa gəlir və onlara düşmənləri sevməyi öyrədir. Romalıları sevmək? Bu ki, xəyanətdir! İsa daha nəyi öyrədir? Roma əsgəri silahlarını bir kilometr daşımağı əmr etsə, onun yükünü iki kilometr daşımalıyıq?! Yox, bu, xəyanət deyil… Bu, ağılsızlıqdır! Qeysərın tələb etdiyi vergilərin hamısını ödəməliyik? Əlbəttə, bu, çoxdan gözlənilən Məsih ola bilməz. Ən pisi isə odur ki, bu İsa xəyanətkar vergi yığanlara yaxşı münasibət göstərir və hətta onlarla çörək kəsir (Luka 7:34).

Yəhudeya birinci əsrdə qurtarıcıya çox böyük ehtiyac duyurdu. Romalıların Yəhudeyada olmağa heç bir qanuni hüquqları yox idi. Onları təkcə qılıncla çıxartmaq mümkün olardı. Həmvətənlərinin gözündə İsa qorxaq və satqın idi. İsa nəinki onların vətənpərvər məqsədlərinə qoşulmurdu, O, Romalılarla dost kimi davranırdı.

Niyə İsa müstəqillik uğrunda Yəhudilərin mübarizələrində onlara kömək etmədi? Çünki O, bu dünyada müvəqqəti yaşayan qərib idi. O, Yəhudeyada **yaşadığına** baxmayaraq, **vətəndaşlığı** Allahın Padşahlığı idi. Allahın Padşahlığının işləri ilə müqayisədə Yəhudilərin milli iddiaları mənasız olurdu. Yəhudilərin müstəqil olub-olmaması Allahın Padşahlığında nə əhəmiyyət daşıyır? Əbədiyyət baxımından dünyəvi hakimiyyət və dünyəvi müstəqillik uğrunda mübarizələr mənasızdır. Allahın Padşahlığında dünyəvi vətənpərvərliyə yer yoxdur.

## Şagirdlər nə edirdilər?

Bəzi məsihçilər iddia edirlər ki, İsa ölümü ilə bəşəriyyəti xilas etmək üçün gəldiyinə görə Yəhudilərin

müstəqillik uğrunda mübarizəsində iştirak etmirdi. Əgər bu, belə idisə, onda İsanın Yəhudi şagirdləri bu mübarizədə fəal iştirak etməli idilər.

Lakin İsa kimi, Onun şagirdləri də Yəhudilərin azadlıq mübarizəsinə fikir vermirdilər. Həvarilərin İşləri Kitabını, eləcə də Məktubları oxuyanda bu mübarizəni duymuruq. Əhdi-Cədid yazıçılarının əksəriyyətinin Yəhudilər olmasına baxmayaraq, Həvarilərin İşləri və Məktublar bu barədə hətta heç xatırlatmır. Bu, Yəhudilərin müstəqillik uğrunda mübarizəsinin Allahın Padşahlığı üçün nə dərəcədə əhəmiyyətsiz olduğunun mühüm göstəricisidir.

Faktiki olaraq, tarix göstərir ki, Yəhudi məsihçilər Yəhudilərin müstəqilliyi uğrunda mübarizədə iştirak etmirdilər. Əksinə, məsihçilər Romalılardan müvəqqəti azad olmuş Yerusəlimi tezliklə **tərk etdilər**. Öz həmvətənlərinə kömək etmək əvəzinə onlar Yəhudeyadan kənarda yerləşən Pella şəhərinə getdilər.[46] İsa kimi, Yəhudi məsihçiləri də vətənpərvər deyildilər. Yəhudeyanın Romalılar və ya Yəhudilər tərəfindən idarə olunması onlar üçün fərq etmirdi. Onlar **heç bir dünyəvi padşahlığı** dəstəkləməkdə maraqlı deyildilər.

Vətənpərvərlik olmasa da, bu, belədir. İsanın şagirdlərinin şüarı «Allah və ölkə» deyil, «Allah **və ya** ölkə» idi. Adamın ürəyi ya Allahın Padşahlığına, ya da bu dünyanın padşahlıqlarına həsr edilir. Biz ürəyimizi bölərək iki ağaya xidmət edə bilmərik. Birinci əsrin Yəhudi məsihçiləri vaxtilə öz ölkələrini sevirdilər, indi isə bu sevgi Allahın Padşahlığına istiqamətlənmişdir.

Eyni söz Romalı məsihçilərə də aiddir. Yəhudi qardaşlıqları kimi, Yəhudeyanın Romalılar və ya Yəhudilər tərəfindən idarə edilməsi onlar üçün də fərq etməzdi. Onlar Yəhudilərə qarşı müharibədə iştirak etmirdilər,

Yəhudeyanın müstəqillik problemi üzrə Yəhudi və Roma məsihçiləri arasında heç bir münaqişə olmayıb.

Artıq qeyd etdiyim kimi, Allahın Padşahlığının vətəndaşlığını əldə etmək dünyəvi ölkənin vətəndaşlığını əldə etməklə oxşardır. Dünyəvi ölkənin vətəndaşlığını əldə etmək üçün hər bir kəs əvvəlki ölkəyə sədaqətindən imtina edib yeni ölkəyə sədaqətini bəyan etməlidir. O, hər ikisinə sadiq ola bilməz. Bu, Allahın Padşahlığında vətəndaşlığı qəbul edəndə də eynidir.

# 16

# Məsihçi kilsənin tarixi mövqeyi

Bu vaxta qədər bəhs etdiklərim, ola bilsin ki, ruhani anlayışlarınızdan kənara çıxır. Bəlkə də, söylədiklərim sizi hiddətləndirib. Başa düşürəm ki, bunların hamısı əksər məsihçilər üçün yenidir. Ancaq bunu dərk etməyiniz vacibdir: bölüşdüklərim təkcə mən Devid Berkotun şəxsi nöqteyi-nəzəri deyil. Bu, əvvəlki əsrlərdə Müqəddəs Kitabın səhv başa düşüldüyünü iddia edən və nəhayət, yeganə düzgün şərhi təklif edən daha bir kitab deyil. Belə kitabların sayı az deyil və mən onlara çox da böyük dəyər vermirəm.

Sizinlə müharibə, pisliyə müqavimət göstərməmək və hökumət haqqında bölüşdüklərim, əslində, məsihçi kilsəsinin **tarixi** mövqeyidir. Bu, kilsənin ilkin təlimi olub. Dördüncü əsrdə Konstantinin dövrünə qədər bütün məsihçilərin qəbul etdikləri əqidə və ya nöqteyi-nəzər məhz bu olub.

Ancaq mən sizin, sadəcə, mənim sözlərimə inanmağınızı istəmirəm. Yaxşı olar ki, bunu ilkin mənbədən eşidəsiniz. Buna görə də növbəti səhifələrdə mən həvarilərin vaxtına yaxın dövrdə yaşamış məsihçilərin sözləri ilə sizinlə bölüşəcəyəm. Lütfən, başa düşün

ki, bunlar sözlərimi təsdiq edən, sadəcə, sitatlar deyil. Erkən məsihçilərin yazdıqlarından müəyyən sitatları gətirərək fərqli nöqteyi-nəzəri kənarda qoymamışam. Son iyirmi il ərzində erkən kilsə tarixini xüsusi tədqiq edərək Konstantinin dövrünə qədər aşağıda nəzərinizə çatdıracağım nöqteyi-nəzərdən fərqli baxışlara rast gəlməmişəm.

## Qərib və gəlmələr kimi yaşamış imanlılar

Erkən kilsənin dövründə məsihçilər bu dünyada qərib və gəlmələr kimi yaşayırdılar. Onlar Padşahlığın dəyərləri ilə yaşayırdılar, bu da onları ətraflarındakı dünyadan gözə çarpacaq dərəcədə fərqli edirdi. Mərkəzdə İsa Məsih və Onun Padşahlığı olduğuna görə dünyanın ictimai məsələləri onlar üçün əhəmiyyət kəsb etmirdi.

Təxminən b.e. 150-ci ili ərəfəsində və ya, bəlkə də, bundan əvvəl yaşamış Roma sakini Hermas yazırdı:

> «Siz bilirsiniz ki, Allahın xidmətçiləri olan sizlər özgə torpaqda yaşayırsınız. Sizin şəhəriniz uzaqdadır. Əgər yaşayacağınız şəhərinizi tanıyırsınızsa, niyə burada geniş torpaqlar, bir çox evlər, faydasız binalar əldə edirsiniz? Bu şəhərdə böyük mülkü əldə edənlər öz şəhərinə qayıda bilmirlər. Necə başa düşə bilmirsiniz ki, bütün bu şeylər başqasına mənsubdur və başqasının hakimiyyətinin altındadır? … Buna görə də fikirləşin: Qərib yerdə yaşayanlar kimi özünüz üçün böyük mülk əldə etməyin, zəruri olanlarla kifayətlənin. Şəhərin sahibi onun qanunlarına tabe olmadığınıza görə sizi qovmağa gələndə şəhəri tərk etməyə hazır olun».[47]

Yaxın Şərqdə yaşamış Tatian təxminən b.e. 160-cı ili ərəfəsində məsihçiliyin müdafiəsinə dair yazdığı kitabda bütün məsihçilərin adından danışaraq elan etdi: «Mən

padşah olmağı arzu etmirəm, zəngin olmağa da çalışmıram. Baş komandan da olmaq istəmirəm. Zinaya nifrət edirəm. Tamahkarlıq məni qazancın dalınca uzaqlara getməyə məcbur etmir. Mən ağılsız şöhrətpərəstlikdən azadam. Ölümə nifrət edirəm. … Dünya üçün ölün, dünyanın ağılsızlığından imtina edin! Allah üçün yaşayın!»[48]

İsgəndəriyyəli Kliment İsgəndəriyyə şəhərində kilsədə məsihçi müəllimi olub. Təxminən b.e. 195-ci ilində yazdığı əsərlərdə məsihçilərin siyasətə, vətənpərvərliyə və bu dünyanın hadisələrinə münasibətindən bəhs edir. O, erkən məsihçilərin birlik ruhunu xüsusilə vurğulayır: «Yer üzündə bizim ölkəmiz yoxdur. Buna görə də biz dünyəvi var-dövlətə etinasız yanaşırıq».[49]

Kitablarını b.e. 195-212-ci illəri arasında yazmış ilhamlı yazıçı Tertullian Şimali Afrikada yerləşən Karfagendəki kilsəyə mənsub olub. Əvvəlki müəlliflər kimi, o da şahidlik edirdi ki, məsihçilər dünyadakı siyasi və hökumət işləri ilə heç maraqlanmırdılar:

> «İstənilən şöhrət və şərəf istəyi bizdə ölüdür. Buna görə də sizin ictimai görüşlərinizdə iştirak etmək arzumuz yoxdur. Dövlətin işləri də bizə tamamilə yaddır. Biz yeganə cəmiyyəti tanıyırıq, bu da dünyada yaşayan bütün adamlardır. Sizin tamaşalarınızdan imtina edirik. … Amfiteatrın ağılsızlığı, teatrın ədəbsizliyi, meydanın qəddarlığı və lazımsız güləş ilə ümumi olan bir şey barədə biz nə danışırıq, nə görürük, nə də eşidirik. Sizin əyləncələrinizə fərqli münasibət göstərdiyimizə görə niyə bizdən inciyirsiniz?»[50]

Məsihçi yoldaşlarına müraciət edərək Tertullian yazırdı: «siz bu dünyada qəribsiniz, uca Yerusəlim şəhərinin vətəndaşlarısınız. Həvarinin dediyi kimi, bizim vətəndaşlığımız Göylərdədir».[51]

Origen öz dövrünün ən məşhur adamlardan biri olub. O, bir neçə onillik ərzində İsgəndəriyyə kilsəsində müəllim xidmətini yerinə yetirib. Sonra o, Qeysəriyyəyə köçdü və burada əlqoyma ilə presviter təyin olundu.

Qeyri-yəhudi tənqidçi olan Selsus məsihçiliyə qarşı çıxırdı, Origen isə ən böyük işlərindən biri olan «Selsusa qarşı» adlı kitabında yazırdı:

> «Selsus qanunu və dini dəstəkləmək məqsədi ilə bizi hökumətində vəzifə tutmağa məcbur edir. Lakin biz hər bir ölkədə Allahın Kəlamı üzərində təsis olunmuş digər ümumxalq təşkilatın mövcudluğunu tanıyırıq. Sözdə qüdrətli, həyatı qüsursuz olanları kilsələrə rəhbərlik etməyə çağırırıq. … Məsihçilər cəmiyyət qarşısında öhdəliklərini yerinə yetirməmək üçün ictimai xidmətdən vaz keçmirlər; onlar bunu özlərini daha müqəddəs və zəruri xidmətə – insanların xilasına həsr etmək üçün edirlər».[52]

Təxminən b.e. 250-ci ili ərəfəsində Karfagendə yepiskop olan Kiprianın məsihçilərə və başqa kilsələrə ünvanlandırdığı məktublardan o dövrün məsihçilərinin inamları barədə qiymətli məlumat əldə edirik. Məsihçi yoldaşlarının sözlərini təsdiq edərək o yazırdı: «Biz hər gün və daima dünyadan imtina etməyimizi göstərməliyik; bu dünyada qərib və gəlmə olaraq yaşamalıyıq».[53]

## Pisliyə müqavimət göstərməmək

İlk məsihçilər yalnız hökumət və dünyəvi işlərdə iştirak etmirdilər. Bundan başqa, onlar hərfi mənada pisliyə müqavimət göstərməmək haqda İsanın təlimləri ilə yaşayırdılar. Yuxarıda adı çəkilən müəlliflərin yazılarından bəzi istinadlar bunlardır:

İsgəndəriyyəli Kliment yazırdı: «Məsihçilərə günahları düzəltmək üçün zorakılıqdan istifadə etməyə icazə verilmir».[54]

Tertullian onun sözlərini təsdiqləyir: «Təhrikçi ilə təhrik olunmuş şəxs arasında fərq nədədir? Yeganə fərq ondadır ki, əvvəlcə şər əməli biri, sonra isə o birisi edir. Hər ikisi şər işə görə Allahın qarşısında mühakimə olunur, çünki O, hər cür şər işləri qadağan və mühakimə edir. Şər işlərdə ardıcıllığın əhəmiyyəti yoxdur. …Əmr şərtsizdir: pisliyə pisliklə cavab vermə».[55]

Başqa yerdə Tertullian yazırdı: «Həmin gün Rəbb Öz adamlarını qoyunlar kimi xilas edəcək. …Heç kəs əlində silah ilə döyüşdə ölənlərə və ya zorakılıq göstərənlərə zorakılıqla cavab verənləri «qoyun» adlandırmaz. Allahın «qoyunları» öhdəliklərini yerinə yetirərək həlak olan kəslərdir; müdafiə olunaraq döyüşmək əvəzinə özlərini səbirlə ölümə təslim edənlərdir».[56]

Dördüncü əsrin başlanğıcında yaşamış Laktantius savadlı məsihçi olub. O, yazırdı: «Bizə qarşı edilən şərə dözərək hətta bir söz belə, demirik. Qisası Rəbbə həvalə edirik».[57] Başqa yazıda o deyir: «Məsihçi heç kəsə zərər yetirməz. O, başqalarının mülkiyyətini arzulamır. Onun mülkü əlindən alınanda belə, özünü müdafiə etmir. O, pisliyə dözümlə tab gətirə bilir».[58] Daha sonra: «Bizə zərər yetirənlərə müqavimət göstərmirik, çünki təvazökar olmalıyıq».[59]

Adını çəkmədiyim digər erkən məsihçi yazıçısı Atinaqor təxminən b.e. 175-ci ilində məsihçiləri müdafiə edərək yazır: «Biz zərbəyə zərbə ilə cavab verməməyi, bizi qarət edənləri məhkəməyə verməməyi öyrənmişik. Bundan başqa, üzümüzün sağ tərəfinə vuran kəsə sol tərəfi də çeviririk».[60]

## Məsihçi əsgərlər

B.e. 170-ci ilinə qədər nə məsihçi, nə də Roma yazılarında məsihçinin orduda xidmət etməsinə dair heç bir dəlil tapılmayıb. Lakin erkən kilsənin müharibə və qətli qadağan etməsinə baxmayaraq, b.e. 170-ci ilindən sonra Roma ordusunda bəzi məsihçilər olub. Bəzi müasir yazıçılar bu fakta istinad edərək israr edirlər ki, erkən məsihçilər müharibəyə qarşı deyildilər. Ancaq bu, tarixin düzgün təqdimatı deyil. Erkən məsihçi yazıçılarının hamısı yekdilliklə şəhadət edirdilər ki, bütün məsihçilər qətldə iştirak etməkdən imtina edirdilər.

Beləliklə, biz bu ziddiyyəti necə həll edə bilərik? Hippolit tərəfindən təxminən b.e. 200-ci ilində yazılmış «Həvarilərin rəvayətləri» adlı erkən məsihçi yazısı bu məsələni aydınlaşdırır. Vəftiz olunmaq istəyənlərə kilsənin münasibətini təsvir edərkən, Hippolit deyir: «Əsgəri, eləcə də vətəndaş hakimiyyətinin tabeliyində olan mülki adamları öldürməməyi öyrətmək gərəkdir. Lakin öldürməyə and içmək ona əmr olunursa, o imtina etməlidir. Bu şərtləri qəbul etməyənlər vəftiz olunmamalıdırlar. Hərbi komandan və ya məmur istefaya getməlidir, əgər getməsələr, vəftiz olunmamalıdırlar. Əgər vəftiz olunmaq istəyən və ya imanlı əsgər olmağa can atırsa, kilsədən kənar edilməlidir, çünki o, Allaha etinasızlıq göstərdi».[61]

Görünür, b.e. təxminən 170-ci ilindən sonra kilsənin ümumi qaydası belə olub: əgər bir əsgər Məsihi qəbul edirdisə, onu orduda vəftiz edirdilər və o, ordunu tərk etməməli idi. Çox güman ki, belə əsgər qılıncdan istifadə etməməyə və and içməməyə söz verirdi. Lakin məsihçi könüllü surətdə ordu xidmətinə getsə və ya ehtiyata buraxılmış döyüşçü öz istəyi ilə hərbi xidmətə qayıtsa, kilsədən kənar olunmalıdır. Dördüncü əsrə qədər kilsələr bu ümumi qaydaya riayət edirdilər.[62]

Niyə kilsə tələb etmirdi ki, imana gəlmiş döyüşçülər vəftiz olunmaq üçün ordunu tərk etsinlər? Çünki o vaxt əsgərlər 25 il ərzində xidmət edirdilər. Silahlı qüvvələri tərk etmək üçün döyüşçü ya ölməli, ya da onun xidmət müddəti bitməli idi. Bu gün bu, bizə çox çətin görünsə də, o vaxt qılıncdan istifadə etmədən orduda qalmaq asan idi. Xatırlayaq ki, məsihçiliyin bu erkən dövrü ərzində Roma İmperiyası nisbətən sülhdə idi; beləliklə, məsihçi orduda ömrü boyu silahdan istifadə etməyə bilərdi. Faktiki olaraq, erkən məsihçilik dövrü ərzində əsgərlər ilk növbədə sülh keşikçiləri, eləcə də yolları, şəhər divarlarını və akvedukları tikən mühəndislər olublar.

Ən erkən (b.e. 170-ci ili) yazılarda açıq-aydın deyilir ki, orduda xidmət edən məsihçilər qılıncdan istifadə etməkdən imtina edərək yalnız dua edirdilər. Allah onların dualarına cavab verərək güclü yağış göndərir və işğalçıları geri çəkilməyə məcbur edirmiş.[63]

Lütfən fikir verin ki, b.e. 170-ci ilindən sonra erkən kilsənin imana gəlmiş döyüşçülərə aid mövqeyini mütləq düzgün kimi təqdim etmirəm. Mən yalnız deyirəm ki, kilsənin mövqeyi müharibəni qəbul etmirdi və pisliyə müqavimət göstərməməkdən də imtina etmirdi.

## İki padşahlığın qanunları bir-birinə zidd olanda

Allahın Padşahlığı bu dünyadan olmadığına görə onun qanunları bu dünyanın padşahlıqlarının qanunlarına adətən zidd olur. Peter və digər həvarilər kimi, erkən məsihçilər də İsanın əmrlərini pozmaqdan imtina edirdilər, hətta qeysər bunu tələb etsə belə.

Origen yazırdı: «Təbiətin qanunu, yəni Allahın qanunu insanlar tərəfindən yazılmış qanuna zidd olanı tələb edirsə, onda necə? Məgər insanlar tərəfindən yazılan qanunu kənara qoyub Qanun verən Allaha tərəf gəlməməliyikmi?

Təhlükələrlə üzləşsək belə, böyük zəhmət çəkməyə məcbur olsaq belə, hətta rüsvayçılıq və ölümlə qarşılaşsaq belə, bunu etməliyik».[64]

Laktanti əlavə edir: «Adamlar Allahın qanununun və ədalətin əksinə hərəkət etməyi bizə əmr edəndə heç bir hədə və ya cəzalardan qorxmamalıyıq, çünki bizim üçün insanın deyil, Allahın əmrləri əhəmiyyət kəsb edir».[65]

Başqa sözlə, pisliyə müqavimət göstərməmək və dünyadan ayrılmaq məsihçi tarixinin tarixi mövqeyi olub.

III hissə

# Padşahlığın Müjdəsi nədir?

# 17

# İSANIN TƏLİMLƏRİNDƏ XİLAS YOLU

*«Səmavi Padşahlığın bu Müjdəsi bütün millətlərə şəhadət olmaq üçün bütün dünyada vəz ediləcək. O zaman hər şeyin axırı gələcək»*, – deyə İsa peyğəmbərlik etmişdi (Mat.24:14). Padşahlığın vacib dəyər və əmrlərinin bəziləri haqqında artıq danışmışıq. Bəs, Padşahlığın Müjdəsi nədir?

Padşahlığın Müjdəsi tarixi məsihçi inamıdır. İlk əsrlərin məsihçiləri buna iman edib və bununla yaşayıb. Padşahlıq Müjdəsi İsa və Onun həvarilərinin hər mövzuda dediklərinin hamısını özündə birləşdirir. Padşahlığın Müjdəsi ayrı-ayrı mətnlərə əsaslanmır və Müqəddəs Kitabdan başqa heç bir şeydən asılı deyil.

Ola bilsin, siz «Romalılara Məktubda xilasa yol» ifadəsini eşitmisiniz. Müəyyən mənada, Padşahlığın Müjdəsi «**İsanın** təlimlərində xilasa yol»dur. Onun əsas prinsipləri Paulun deyil, İsanın verdiyi təlimlərdir. Əlbəttə, Paulun yazıları Müqəddəs Ruhdan ilham alıb və buna görə də səhvsiz və doğrudur. Ancaq Paul İsanın təlimlərinə əsaslanırdı. O, yeni Müjdəni bəyan etmirdi. Təzada görə populyar ilahiyyat bu gün İsanın təlimlərini kənara

qoyaraq Paulun təlimlərindən başlayır və asan iman Müjdəsini vəz edir. Bütün Yazıları nəzərə almadan Paulun məktublarını elə şərh edirlər ki, İsanın təlimləri küfrə çevrilir.

«Dayanın! Siz həddinizi aşırsız!» – deyə fikirləşə bilərsiniz, – «Müasir ilahiyyat İsanın təlimlərini küfr hesab edir? Bu, necə ola bilər?»

Sizcə, mən bu gün əksər Müjdəçi kilsələrdə növbəti mövzulara aid vəz etsəm, nə baş verər?

- Başqa adamların günahlarını bağışlamasanız, gündəlik etdiyiniz günahlar sizə bağışlanmayacaq (Mat.6:15).
- Xilas olmaq üçün İsanın təlimləri ilə **yaşamaq** gərəkdir (Mat.7:24,25).
- Aclara yemək, kasıblara isə paltar verməsək, Göyləri görməyəcəyik (Mat.25:32-46).

Mən bilirəm ki, belə vəz etsəm əksər müjdəçi kilsələrdə məni kafir adlandırarlar. Ancaq Padşahlıq Müjdəsi deyir: «Mən İsaya inana bilərəm! Mən Onun sözlərini hərfi qəbul edə bilərəm». Bu həqiqət məsihçi üçün aydın olmalıdır. Lakin populyar ilahiyyat sistemlərinin əksəriyyəti bu gün imanlıdan İsaya inanmamağı tələb edir.

## Padşahlığın üstünlüyü

Əksər ilahiyyat sistemlərindən fərqli olaraq, Padşahlıq Müjdəsinin mərkəzində adamın şəxsi xilası deyil, Allahın Padşahlığıdır. Biz xilası Padşahlıqdan ayıra bilmərik, çünki Padşahlığa sadiq olmasaq, İsaya da sadiq ola bilmərik.

Faktiki olaraq, bütün Müqəddəs Kitab bu Padşahlığa həsr olunub. Başlanğıcdan Allah Özünə xüsusi Padşahlıq qurmaq niyyətində olub. Əhdi-Ətiq dövründə Allah bu

barədə peyğəmbərliklər vermişdir. Yeşaya Kitabının ikinci fəsli bu peyğəmbərliklərdən ən mühümü hesab olunur:

> *«Axır zamanda Rəbbin evi olan dağ dağların zirvəsində möhkəm duracaq, təpələrdən yuxarı ucalacaq. Bütün millətlər ona sarı gələcək. Çox xalqlar gəlib deyəcək: «Gəlin Rəbbin dağına, Yaqubun Allahının evinə qalxaq, qoy Rəbb bizə Öz yollarını öyrətsin, biz Onun rizləri ilə gedək». Siondan Rəbbin təlimi, Yerusəlimdən Onun kəlamı yayılacaq. Millətlər arasında Rəbb hakim olacaq, çox xalqlar haqqında qərar çıxaracaq. Onlar qılınclarından kotan, nizələrindən isə dəryaz düzəldəcək. Millət millətə qarşı qılınc qaldırmayacaq, artıq dava etməyi öyrənməyəcək»* (Yeş.2:2-4).

Məsihçilərin əksəriyyəti bu ayələri Məsihin ikinci gəlişindən sonrakı dövrə aid edirlər. Ayələr həmçinin o dövrə aid olsa da, onlar bu gün də yerinə yetirilməkdədir. Başlanğıcı isə Məsihin xidmətinin ilk günlərindəndir. Yer üzünə gəlmiş İsa Öz Padşahlığını qurdu və dinləyicilərini bu Padşahlığa dəvət etdi.

Əvvəlcə bu Padşahlığa yalnız Yəhudilər dəvət olunurdu, sonra isə yol hər kəsə açıldı. Bütün millətlərdən olan adamlar «ona sarı» gəlməyə başladılar (Yeş.2:2). Bu Padşahlığa daxil olanlar *«qılınclarından kotan, nizələrindən isə dəryaz»* düzəltdilər. Onlar daha bir-birinə qarşı qılınc qaldırmadılar və müharibəni həmişəlik unutdular.

İsa Onun yolu ilə gedənlərə Padşahlığı tapşırdı: «Keçirdiyim sınaqlarda Mənimlə qalanlar sizsiniz. Atam Mənə bir padşahlıq tapşırdığı kimi Mən də sizə bir padşahlıq tapşırıram» (Luka 22:28,29). Daha bir ayə: *«Qalib gələnə Mənimlə birgə Öz taxtımda oturmağa imkan verəcəyəm; Mən də eləcə qalib gəlib Atamla birgə Onun taxtında oturmuşam»* (Vəhy 4:21).

## Padşahlığa kim daxil ola bilər

Allah Öz Padşahlığının vətəndaşları olmaq imkanını bütün insanlara vermişdir. O, bəşəriyyətin bir hissəsini əsassız seçərək onları Padşahlıq üçün, digərlərini isə əbədi cəza üçün təyin etmədi. Bunun mənası nə olardı? Padşahlığa mənsubluq Allahın seçimi olsaydı, Allah hər kəsi Padşahlıqda olmaq üçün seçərdi, çünki «*O, heç kəsin həlak olmasını istəmir, amma hər kəsin tövbə etməsini istəyir*» (2Pet.3:9).

Beləliklə, Allah Öz əbədi rəiyyətlərini əsassız seçmir. Allah Onu sevənlərin, Onun yolu ilə, həqiqətən, getmək istəyənlərin, vədlərinin yerinə yetəcəyinə iman edənlərin Öz Padşahlığına daxil olmasını istəyir. O, Öz Padşahlığında yalnız Onun qanunlarının və Onun yollarının həmişə düzgün, yaxşı və xoş olduğuna iman edənləri görmək istəyir.

Allah Öz Padşahlığına layiq olanları necə müəyyən edir? O, onları sınayır. Yuxarıda oxuduğunuz İsanın sözlərinə fikir verdinizmi: «*... sınaqlarda Mənimlə qalanlar sizsiniz*», «*Qalib gələnə Mənimlə birgə Öz taxtımda oturmağa imkan verəcəyəm*». Onun Padşahlığına daxil olanlar üçün sınaqlar hazırlanıb. Həvari Paul demişdi: «*Allahın Padşahlığına çox əziyyətlərdən keçərək girməliyik*» (Həv.14:22).

Faktiki olaraq, əbədi Padşahlığını elan etməzdən də əvvəl Allah adamları həmişə sınayırdı. İlk insanları yaradandan sonra onları sınadı. Nuha gəmini tikməyi əmr edərkən onu yoxlayırdı. Oğlu İshaqı qurban gətirməyi İbrahimə deyəndə onu yoxlayırdı. Müqəddəs Yazılarda deyilir: «*Rəbb saleh adamı sınaqdan keçirir*» (Zəb.11:5). «*Qızıl-gümüş isti kürədə yoxlanar, Rəbb isə ürəyi araşdırar*» (Sül.17:3).

## Üç əsas sınaq

Allah Öz Padşahlığına yararsız olan adamları kənar etmək üçün bu üç əsas sınaqdan istifadə edir.

**Birinci sınaq: İnam.** Yenidən doğulmayan kəs üçün Padşahlıq görünməzdir. *«Bir kəs yenidən doğulmasa, Allahın Padşahlığını görə bilməz»* (Yəh.3:3). Buna görə də görmədiyi Padşahlığa qoşulmağı hətta istəmək üçün insana böyük iman lazımdır. Bundan başqa, Padşahlığa aid vəd olunan xeyir-duaların əksəriyyəti gələcəkdə baş verir. Beləliklə, Allahın Öz vədlərini yerinə yetirəcəyinə insan **inanmalıdır**.

İnamın bu sınağı bəşəriyyətin əksəriyyətini kənar edir. Əksər adamların görmədikləri Padşahlığa, eləcə də yalnız öləndən sonra yerinə yetiriləcək vədlərə bel bağlamaq üçün kifayət qədər inamı olmur.

**İkinci sınaq: Sədaqət.** Artıq qeyd etdiyimiz kimi, İsa Öz Padşahlığı naminə hər şeydən inkar etməyi bizdən tələb edir. Padşahımız İsa Məsihə və Onun Padşahlığına sədaqət həyatımızda birinci və əsas yer tutmalıdır. İsaya və Padşahlığa sədaqətimiz öz valideynlərimizə, uşaqlarımıza, həyat yoldaşımıza, ölkəmizə və hətta həyatımıza sədaqətimizdən üstün olmalıdır.

Öz Padşahlığında İsa yalnız elə adamları görmək istəyir ki, onlar üçün Səmavi Padşahlıq, həqiqətən, dəyərlidir:

> *«Səmavi Padşahlıq tarlada gizlədilən bir dəfinəyə bənzəyir. Tapan adam onu gizlətdi, sevinclə gedib bütün varını satdı və o tarlanı satın aldı. Yenə Səmavi Padşahlıq gözəl mirvarilər axtaran bir tacirə bənzəyir. O, çox dəyərli olan bir mirvari tapanda gedib bütün varını satdı və onu satın aldı»* (Mat.13:44-46).

İnamın sınağından uğurla keçmiş adamların əksəriyyəti sədaqət sınağından keçə bilmirlər. Bəli, onlar görünməz

Padşahlığa və əbədi mükafatlara inanmağa razıdırlar, amma o şərtlə ki, onlardan çox şey tələb olunmayacaq. Təkcə vədə görə hər şeydən **imtina etmək**? Xeyr, lazım olmadı!

Sədaqət sınağından çox az adam keçdiyinə görə güman edə bilərik ki, Padşahlıqda çox az adam olacaq. Buna baxmayaraq, İsa demişdi ki, sadiq olmayanların bir çoxu Padşahlığa daxil olmağa çalışacaqlar. İsa Öz şagirdlərinə demişdi: *«Doğrusunu, doğrusunu sizə deyirəm: qoyun ağılına qapıdan girməyib başqa yerdən girən oğru və quldurdur»* (Yəh.10:1).

Beləliklə, bir çox adam «divarların üstündən aşaraq» Padşahlıqda vətəndaşlığı əldə etməyə cəhd edəcək.

İsa toy ziyafəti barədə söylədiyi ibrətli hekayəsində bunu yenidən göstərdi:

> *«Qullar yollara çıxdılar. Pis-yaxşı kimi tapdılarsa, hamısını topladılar. Toy məclisi qonaqlarla doldu. Padşah qonaqlara baxmaq üçün girdikdə orada toy libası geyməmiş bir nəfəri gördü, ona dedi: «Dostum! Sən toy libası geyməmiş buraya necə girdin?» O isə susdu. O zaman padşah xidmətçilərə dedi: «Onun əllərini, ayaqlarını bağlayın və qaranlıq çölə atın! Orada ağlaşma və diş qıcırtısı olacaq». Çünki dəvət edilmiş çox, seçilmiş isə azdır»* (Mat.22:10-14).

İnam sınağından keçən, lakin sədaqət sınağında uğursuzluğa uğrayanlar heç inanmayan və buna görə də toy dəvətindən imtina edənlərdən fərqlənmirlər. Adətən imansızlar İsanın dəvət və vədlərini dərhal rədd edirlər. Onlar Padşahlığın **mövcudluğuna** inanmırlar və ona daxil olmağa can atmırlar.

Lakin sədaqət sınağından keçməyənlər İsanın dəvət və vədlərinə **inanırlar**, amma sədaqət şərtlərini qəbul etmək istəmirlər. Əslində, onlar Padşahlıq ziyafətinə İsanın

dəvətini qəbul edir, ancaq Onun şərtlərinin hamısını rədd edirlər. Bu, necə olur? Onlar heç bir şərt qoymadan Padşahlığa dəvətnamələri paylayan kəsləri tapırlar. Sonra da onlar kütlə ilə «divarın üzərindən qalxırlar».

İsanın sözlərinə görə, axırda Onun Padşahlığında əksəriyyəti divarın üstündən keçənlər olacaq. Onlar az olan seçilmişlər arasında deyil, çox olan çağırılmışlar arasında olacaqlar. Onlar özlərini heç vaxt Məsihə və ya Onun Padşahlığına həsr etməmişdilər. İsanı Xilaskar hesab etsələr də, Onu öz Rəbbi və Hökmdarı kimi qəbul etməmişlər.

**Üçüncü sınaq: İtaətkarlıq.** Əvvəlki fəsillərdə mən Padşahlığın qanunlarının bəziləri haqqında danışmışam. Həmin qanunlar bizə bu dünyanın dəyərlərindən və düşüncə tərzindən Allahın dəyərlərinə və düşüncə tərzinə keçməyə kömək edir. Bunlar həmçinin bizim üçün sınaqdır. İnam və sədaqət sınaqlarından keçən imanlıların bəziləri sonra itaət etmirlər. Xoşbəxtlikdən, bu məsihçilərin əksəriyyəti sonra tövbə edərək Padşahlıq həyatına qayıdırlar.

Başqaları isə Məsihə olan sevgilərini itirirlər. Artıq Onu sevmədiklərinə görə Ona itaət etmək istəmirlər. Sonda onlar Padşahlıqdan kənar ediləcəklər: *«Bəşər Oğlu mələklərini göndərəcək, onlar da pis yola çəkən bütün şeyləri və qanunsuzluq edənləri Onun Padşahlığından toplayacaq və onları odlu sobaya atacaqlar. Orada ağlaşma və diş qıcırtısı olacaq»* (Mat.13:41,42).

Sonda isə İsanın Padşahlığında Onun vədlərinə, həqiqətən, inanan və Onun şərtlərini qəbul edənlər qalacaqlar. Bunlar yer üzündə hər şeydən çox Onu sevir və Onun üçün öz həyatını məmnuniyyətlə verməyə hazırdırlar. İsa əbədiliyi məhz belə adamlarla keçirmək istəyir.

Bu, Padşahlığın Müjdəsinin qısa təsviridir.

## Padşah ilə münasibət

Növbəti fəsildə biz Allahın Padşahlığına gedən insanın yoluna nəzər salacağıq. Ancaq biz ilk növbədə başa düşməliyik ki, Padşahlıq Müjdəsinin mahiyyəti Padşah ilə **münasibətdir**. Əlbəttə, zəruri ilahiyyat təlimləri də mövcuddur, ancaq ilahiyyat nə Müjdənin, nə də ümumiyyətlə məsihçiliyin mahiyyəti deyil.

Padşahlığın vətəndaşları olan kimi Padşahımız ilə davam edən münasibətimiz yaranır. Ancaq bu münasibət müasir «asan iman» Müjdəsinin bəhs etdiyi münasibətdən tam fərqlidir. İsa düzgün münasibətləri belə izah edir:

> *«Mən həqiqi Meynəyəm, Atam da Bağbandır. Məndə olub bəhrə verməyən hər budağı Atam qoparır. Bəhrə verən hər budağı isə budayıb təmizləyir ki, daha çox bəhrə versin. Sizə söylədiyim söz sayəsində siz artıq təmizsiniz. Məndə qalın, Mən də sizdə qalım. Budaq meynədə qalmasa, özündən bəhrə vermədiyi kimi siz də Məndə qalmasanız, bəhrə verə bilməzsiniz»* (Yəh.15:1-4).

İsa bəhrə vermək haqqında danışaraq nəyi nəzərdə tutur? «Bəhrə» sözü Əhdi-Cədiddə növbəti bəzi ayələrdə belə istifadə edilir:

> *«Müqəddəs Ruhun səmərəsi isə budur: məhəbbət, sevinc, sülh, səbir, xeyirxahlıq, yaxşılıq, sədaqət, həlimlik, nəfsə hakim olmaq. Bu kimi şeylərə qarşı qanun yoxdur. Məsih İsaya məxsus olanlar isə öz həvəs və ehtirasları ilə birlikdə cismani təbiəti çarmıxa çəkdilər. Madam ki, biz Ruha görə yaşayırıq, Ruha görə də rəftar edək»* (Qal.5:22-25).
>
> *«… tövbəyə layiq bəhrələr verin… Artıq balta ağacların dibində yatır. Beləliklə, yaxşı bəhrə verməyən hər ağac kəsilir və oda atılır»* (Luka 3:8-9).

*«Əkinçiyə toxum və yemək üçün çörək ehtiyatı verən Allah sizin də əkin ehtiyatınızı çoxaldacaq və salehliyinizin bəhrəsini artıracaq. Hərtərəfli səxavətli olmanız üçün hər baxımdan varlandırılacaqsınız»* (2Kor.9:10-11).

*«Dua edirəm ki, məhəbbətiniz bilik və hər cür idrak baxımından get-gedə daha çox artsın, siz Məsihin zühur edəcəyi gün pak və nöqsansız, Allahın izzəti və mədhi üçün İsa Məsihdən gələn salehlik bəhrələri ilə dolu olmaq üçün ən ali dəyərləri ayırd edə biləsiniz»* (Fil.1:9-11).

İsanın «budağında» qalsaq, məhz belə həqiqət bəhrələrini gətirəcəyik. Bunlar Padşahlığın qeyd etdiyimiz qaydalarına tam uyğun gəlirlər. Ancaq bu barlar iştirakımız olmadan, avtomatik yaranmır. Biz Məsihdə yaşamalıyıq və Ataya bizi təmizləməyə imkan verməliyik. Biz daim Ruhda olmalıyıq. Bar verməsək, Ata bizi meynədən qoparar. Məhz buna görə Padşahlıqda vətəndaşlıq müəyyən münasibətlərə əsaslanır. O, Məsihdə həyatımızdan, Ona və Ataya itaətimizdən asılıdır.

Məsihdə biz necə yaşamalıyıq? İsa bunu olduqca aydın dedi: *«Əgər əmrlərimə riayət etsəniz, Mənim məhəbbətimdə qalacaqsınız, necə ki Mən Atamın əmrlərinə riayət edərək Onun məhəbbətində qalıram»* (Yəh.15:10). İsa Məsihdə yaşayaraq Ona yalnız təriflər oxumalı deyil, həmçinin Ona **itaət etməliyik**. İsaya itaət etməyəndə nə baş verir? O, bunu bizə olduqca aydın deyir: *«Kim Məndə qalmasa, budaq kimi kənara atılıb quruyar. Belə budaqlar yığılıb oda atılaraq yanar»* (Yəh.15:6).

Beləliklə, İsa ilə münasibətimiz səthi və ya xəyali münasibət deyil, real və ya dərindir; itaətə və sevgiyə əsaslanan münasibətdir. Faktiki olaraq, «itaətə və sevgiyə əsaslanan» sözləri artıqdır, çünki itaət etmədən İsanı sevmək qeyri-mümkündür. İsaya böyük məhəbbətimiz barədə danışa bilərik, ancaq itaətkarlıq olmasa, sözlərimiz boşdur.

İsa Özü demişdi: «*Kim əmrlərimə bağlı qalıb onlara riayət edirsə, Məni sevən odur. Məni sevəni Atam sevəcək. Mən də onu sevib Özümü ona zahir edəcəyəm*» (Yəh.14:21). Beləliklə, İsaya itaət etmiriksə, Onu sevmirik. Hər şey çox sadədir. (Bu, mənim deyil, İsanın sözləridir).

## Saxta itaətkarlıq

Əlbəttə ki, İsa itaətkarlıq haqqında danışarkən, bu gün çox populyar olan saxta itaətkarlığı nəzərdə tutmurdu. İsanın əmrləri Əhdi-Cədiddə **yazılmışdır**. Ancaq bugünkü asan iman Müjdəsinə görə, biz Onun əmrlərini rədd edə bilərik. Əksər məsihçilər Onun əmrlərini, sadəcə, təkliflər kimi qəbul edirlər. Bu populyar Müjdəyə görə, insanın ağlına gələn **subyektiv** impulslar İsanın əmrləri hesab olunmalı və bunlara itaət olunmalıdır; bunlar hər məsihçiyə şəxsən aşkar olunduğuna görə Allahın ona nəyi etməyi və ya nəyi etməməyi deməsini insan özü müəyyən edir.

Milyonlarla məsihçi Məsihə guya itaət etdiklərini göstərirlər, əslində isə Onun təlimlərini tapdalayır və rədd edirlər. Faktiki olaraq, Onun əmrlərinin əksəriyyəti onlar üçün qəbuledilməzdir. Onlar ağıllarına gələn subyektiv impulslara itaət edirlər, İsaya itaət etdiklərini güman edərək özlərini aldadırlar.

Əlbəttə, İsa Ona yaxın olan peyğəmbərlərə və adamlara şəxsi göstərişlər verir. Bəs, İsa Özünü kimə zahir edir? «*Kim əmrlərimə bağlı qalıb onlara riayət edirsə, Məni sevən odur. Məni sevəni Atam sevəcək. Mən də onu sevib Özümü ona zahir edəcəyəm*» (Yəh.14:21). Ayədə oxuduğumuz kimi, İsanı sevən Onun əmrlərinə riayət edənlərdir. İsa Öz şagirdlərinə demişdi: «*Ən balaca bir işdə sadiq olan kəs böyük işdə də sadiqdir, ən balaca bir işdə haqsız olansa böyük işdə də haqsızdır*» (Luka 16:10). Əgər biz Əhdi-Cədiddə yazılan və bütün məsihçilərə aid olan əsas göstərişlərə

riayət etmək istəmiriksə, İsadan xüsusi göstərişləri aldığımıza inanarkən özümüzü aldadırıq.

Əgər biz meynədə qalmasaq və bar gətirməsək, İsa bizə Özünü göstərməz. Bu halda İsa ilə xüsusi münasibətimiz xəyalidir, necə ki, bir çox katoliklərin Məsih ilə münasibəti xəyalidir.

## Bu, Musanın Qanununun təkrarı deyil

İsanın təlimlərinə itaət etməklə biz bal toplayırıq və ya öz xilasımızı qazanırıq. Artıq dediyim kimi, İsaya məqbul olan yeganə münasibət sevgi münasibətidir. Bu, Musanın Qanunu deyil. İsa həyatını ona görə qurban vermədi ki, Musanın Qanunu əvəzinə uzun göstərişlər siyahısını bizə versin.

İsa Onu sevənlərə belə münasibət təklif edir:

> *«Ey bütün yorğunlar və yükləri ağır olanlar, Mənim yanıma gəlin, Mən sizə rahatlıq verərəm. Mənim boyunduruğumu üzərinizə götürün və Məndən öyrənin. Çünki Mən həlim və qəlbən itaətkaram. Bununla canınıza rahatlıq taparsınız. Çünki Mənim boyunduruğum rahat və yüküm yüngüldür»* (Mat.11:28-30).

Bunu necə başa düşmək olar? Axı başqa yerdə İsa demişdi ki, biz Ona görə hər şeydən imtina etməliyik? O hətta demişdi: *«Çarmıxını götürməyib ardımca gələn kəs də Mənə layiq deyil. Canını qoruyan kəs onu itirəcək, Mənim uğrumda canını itirənsə onu qoruyacaq»* (Mat.10:38,39). Bu, heç də asan yükə bənzəmir.

Padşahlığın paradoksu da elə bundan ibarətdir. Cismani nöqteyi-nəzərdən İsanın bəyanatlarına baxsaq, onlar ziddiyyətli görünə bilər. Amma ruhani gözlə baxsaq, onlar tamamilə ahəngdardırlar. Padşahlıqda həyat cismani həyat demək deyil. Bu, yeni Talmud deyil. Padşahlıqda həyat

Məsihlə münasibətlərə əsaslanır və Müqəddəs Ruhda yaşanır. Öz həyatımızı Məsihdə dəfn edəndən sonra Onun boyunduruğu asan və yükü yüngül olur. Bu həyatın vurnuxmasından ayrılanda və özümüzü Rəbbimizə xidmətə tam həsr edəndə Onun yükü yüngül olur.

Dünyəvi qayğı və həyəcanlardan ürəklərimiz azad olanda Yəhya ilə birgə deyə bilərik: «*Allah məhəbbəti Onun əmrlərinə riayət etməyimizi tələb edir. Onun əmrləri isə ağır deyil*» (1Yəh.5:3). Bizim yeganə padşahlığımız Allahın Padşahlığı olanda, başqa şeylərdən də ürəkdən imtina edəndə Onun əmrləri asan olur. Digər tərəfdən, biz bu dünyaya və dünyəvi mülkiyyətə, hakimiyyətə və azadlığa bağlı qalaraq İsaya xidmət etməyə çalışanda Onun əmrləri olduqca ağır və yorucu olur.

# 18

# Padşahlığa necə daxil olmaq olar

Bir kəs Amerika Ştatlarının sərhədini qanuni və ya qeyri-qanuni keçməklə Amerika vətəndaşı olmur. Mühacir yalnız müəyyən tələblərə cavab verəndə Amerika vətəndaşı ola bilər: o, on səkkiz yaşdan böyük olmalıdır, Birləşmiş Ştatların, ən azı, beş il ərzində qanuni sakini olmalıdır, müsbət mənəvi xüsusiyyətləri olmalıdır, ingilis dilində yazıb-oxumağı bacarmalıdır, Amerika tarixinin əsas mərhələləri haqda anlayışı olmalıdır; və nəhayət, vətəndaşlığa iddia edən şəxs sədaqətdə ölkəyə and içməlidir.

Allahın Padşahlığına daxil olmaq istəyən şəxs də müəyyən prosedurlardan və ya mərhələlərdən keçməlidir. İlk növbədə o, azad olmalıdır, çünki bütün bəşəriyyət günahın, iblisin və ölümün əsarətindədir. İsa Öz ölümü ilə bizi satın alaraq azad etdi. O, Öz qanı ilə iblisi bağladı və bütün imanlıları təmizlədi. Müqəddəs Kitabda müəyyən edilən şərtlərə riayət edən imanlı İsanın axıtdığı qanın təsirini görür.

İsa Öz həvarilərinə başqa adamları Padşahlığa tərəf istiqamətləndirməyi öyrətmişdi. İsa Göylərə qayıdandan qısa müddət sonra həvarilərə Onun təlimini tətbiq etmək

imkanı verildi. Pentikost günündə imanlıların birinci qrupu Padşahlığa daxil oldu:

> *«Bu sözlər ona (Peterə) qulaq asanların ürəyinə ox kimi sancıldı. Onlar həm Peterdən, həm də o biri həvarilərdən soruşdular: «Qardaşlar, bəs biz nə edək?» Peter onlara cavab verdi: «Tövbə edin, hamınız İsa Məsihin adı ilə vəftiz olun. Onda günahlarınız bağışlanacaq və bəxşiş olaraq Müqəddəs Ruhu alacaqsınız. Çünki bu vəd siz, övladlarınız, uzaqdakıların hamısı – Allahımız Rəbbin çağırdığı hər kəs üçündür». Peter başqa çox söz deyib onlara xəbərdarlıq etdi və yalvardı: «Bu əyri nəsildən xilas olun». Onun sözünü qəbul edənlər vəftiz oldular. O gün üç min nəfərə yaxın insan imanlılara qoşuldu»* (Həv.2:37-41).

Gəlin Peterin dinləyicilərinin Allahın Padşahlığına daxil olmaq üçün atdıqları addımları gözdən keçirək:

- Onlar İsa Məsih və Onun Padşahlığı haqqında Xoş Xəbərini eşitdilər və **inandılar**. Onların imanları səthi deyildi. Xəbər onların «ürəyinə ox kimi sancıldı».
- Bundan başqa, onlar əvvəlki həyatlarından **tövbə etdilər**. Bu, nə deməkdir? Lüğətdə «tövbə» sözünün mənası belədir: «Keçmiş hərəkətə və ya niyyətə görə təəssüf və ya narazılıq hissi keçirmək. Bu da, öz növbəsində, buna münasibəti dəyişməyə vadar edir».[66] Beləliklə, Peterin dinləyiciləri öz həyat tərzlərinə münasibətlərini dəyişdilər. Onlar İsa Məsihin rəiyyətləri kimi həyatlarının qalan hissəsini yaşamağı qərara aldılar.
- Onlar suda vəftiz oldular.
- Onlar Müqəddəs Ruhu qəbul etdilər.

Bu addımlarla onlar Padşahlığa daxil oldular.

Lütfən, fikir verin ki, bu şəxslər öz günahlarını **yumadılar**, sadəcə, öz günahlarından **tövbə etdilər**. İsa bizi satın aldı. Biz özümüzü xilas etmirik, bunu İsa edir. Lütfən, həmçinin fikir verin ki, Peterin dinləyiciləri öz xilaslarını və ya Allahın Padşahlığını qazanmaq kimi bir şey etməli deyildilər. Onlar xilasa tamamilə layiq deyildilər. Xilas və Padşahlıqda vətəndaşlıq onlara hədiyyə olaraq verilmişdi. Onlar öz salehlikləri ilə deyil, lütf ilə xilas oldular.

## Yenidən doğulma

Pentikost günündə iman etmiş və yenidən doğulmuş izdihamla sonra nə baş verdi? Çox və son dərəcə gözəl şeylər baş verdi! Onların keçmiş günahlarının hamısı bağışlandı və yuyuldu. Allah qarşısında onlar təmiz oldular. Bundan başqa, yenidən doğulduqlarına görə onlar yeni məxluqlar oldular. Onlar fövqəltəbii yolla ruhən tam dəyişdilər. Onlar Padşahlığın vətəndaşları oldular. Padşahlığın bu yeni vətəndaşları Meynə olan İsanın (Yəh.15:5) budaqları oldular. O gün dünyalarını dəyişsəydilər, Göylərə getmiş olardılar.

## Xilasın iki aspekti

«Asan iman» Müjdəsinə müvafiq olaraq, məsələ bununla bitir. Bu populyar Müjdəyə görə, insan yenidən doğulanda onun bütün keçmiş və gələcək günahları bağışlanır. Yəni xilas birdəfəlik addımdır. Yenidən doğulanda insan xilas olur və bu, artıq keçmiş zamanda baş vermiş hadisədir.

Ancaq İsa bunu heç vaxt deməmişdi. «Asan iman» müjdəsi Padşahlığın Müjdəsi deyil. Padşahlığın Müjdəsi xilasımızın **keçmiş** və **gələcək** aspektlərini tanıyır. İnsan bu iki mərhələni başa düşmürsə, Padşahlığın Müjdəsini

və ya Əhdi-Cədidin xilasa aid təlimini heç vaxt başa düşməz.

Əhdi-Cədiddə bir neçə ayə xilas haqqında keçmiş zamanda danışır. Məsələn: *«İman vasitəsilə, lütflə xilas oldunuz»* (Ef.2:8); *«Biz ümidlə xilas olduq»* (Rom.8:24).

Beləliklə, yenidən doğulanda biz xilas oluruq. Biz dünyadan çıxarılmışıq. Biz Allahın Padşahlığına daxil olmuşuq. Həmin an adlarımız Həyat Kitabında yazılır. Filipililərə Məktubunda Paul qardaşları haqqında danışır, kimin ki *«adları Həyat Kitabında»* yazılıb (Fil.4:3).

Ancaq Müqəddəs Yazılarda həmçinin xilasın **gələcək** aspektinə aid də yazılıb. İsa demişdi: *«Mənim adıma görə hamı sizə nifrət edəcək. Amma axıracan dözən **xilas olacaq**»* (Mat.10:22). Beləliklə, xilasın **gələcək** aspekti də var. Xilasımızın tam olması üçün sona kimi dözməliyik. İsa meynə məsəlində bunu olduqca aydın izah edir:

> *«Meynə Mənəm, sizsə budaqlarsınız. Kim Məndə qalsa, Mən də onda qalsam, çoxlu bəhrə verər, çünki Mənsiz heç nə edə bilməzsiniz. Kim Məndə qalmasa, budaq kimi kənara atılıb quruyar. Belə budaqlar yığılıb oda atılaraq yanar» (Yəh.15:5,6); «Məndə olub bəhrə verməyən hər budağı Atam qoparır»* (Yəh.15:2).

Bu ayələr xilasın iki – keçmiş və gələcək aspektini nümayiş etdirir. Yalnız yenidən doğulmuş adamlar (yəni xilas olmuşlar) Meynədə budaqlar ola bilərlər. Bu, xilasın keçmiş aspektidir. Lakin İsa olan Meynənin budağı olmağımız bizim Meynədə həmişəlik **qala biləcəyimiz** demək deyil. Əgər biz sevgi və itaətkarlıq münasibətimizi İsa ilə qoruyub saxlamasaq, Allah bizi Meynədən qoparar. Məhz buna görə biz xilasın gələcək aspekti barədə də düşünməliyik.

Xilasın gələcək aspekti barədə İsa Sarddakı məsihçilərə demişdi: «*Qalib gələn hər kəs də ağ paltar geyinəcək. Mən onun adını Həyat Kitabından əsla silməyəcəyəm, Atamın və Onun mələklərinin önündə adını iqrar edəcəyəm*» (Vəhy 3:5). Yeni doğulanda adlarımız Həyat Kitabına yazıldığına görə ehtimal edə bilmərik ki, onlar orada həmişə qalacaq. Faktiki olaraq, Sarddakı kilsəyə İsanın ünvanlandırdığı sözlərdən elə çıxır ki, O, onların adlarının **əksəriyyətini** Kitabdan silməyə hazırlaşırdı. «*Amma Sardda, sənin yanında öz paltarlarını ləkələməyən **bir neçə** şəxs də var. Onlar Mənimlə birlikdə ağ paltarda gəzəcəklər, çünki buna layiqdirlər*» (Vəhy 3:4)».

Xilasın gələcək aspektini nəzərdə tutaraq, İsa Tiatiradakı məsihçilərə dedi: «*Mən gəlincəyə qədər özünüzdə olana bağlı qalın. Qalib gələnə və **Mənim buyurduğum işlərə sonadək riayət edənə** millətlər üzərində səlahiyyət verəcəyəm*» (Vəhy 2:25,26). Müqəddəs Yazılar xilasın gələcək aspektinə aid deyir:

- «*Özünə və verdiyin təlimə diqqətli ol. Bu işlərlə məşğul olmağa davam et. Çünki bunu etməklə həm özünü, həm də səni dinləyənləri **xilas edəcəksən***» (1Tim.4:16).
- «*Əgər **dözəriksə**, Onunla da birlikdə padşahlıq edəcəyik. Əgər Onu inkar etsək, O da bizi inkar edəcək*» (2Tim.2:12).
- «*Rəbbimiz və Xilaskarımız İsa Məsihi tanımaqla dünyanın çirkabından qaçdıqdan sonra yenə həmin işlərlə məşğul olub məğlub olarlarsa, son vəziyyətləri əvvəlkindən betər olar. Çünki salehlik yolunu tanıyıb özlərinə əmanət edilən müqəddəs əmrdən geri dönməkdənsə, bu yolu tanımamaq onlar üçün daha yaxşı olardı*» (2Pet.2:20,21).

Biz xilas olduğumuza, yəni dünyadan qurtulduğumuza, yenidən doğulduğumuza və Meynədə budaq olduğumuza əmin ola **bilərik**. Ancaq həyatımızın sonuna qədər bar verəcəyimizi bilmirik. Bunu təkcə Allah bilir.

Hər halda, biz, Padşahlıqda yaşayan məsihçilər daimi əzab və qətiyyətsizlikdə yaşamırıq. Əksinə, biz İsanın vədlərinin yerinə yetirilməsini sevinclə gözləyirik. Biz bilirik ki, İsanın lütfü ilə Meynədə qala bilərik, əgər… Onu sevməkdə və Ona itaət etməkdə davam etsək. Eyni zamanda, biz özümüzə güvənən və özümüzə qürrələnən şəxslər olmamalıyıq. Bu halda Rəbb qorxusunu nə vaxtsa itirə bilərik. Bəli, biz həqiqi təhlükəsizlikdən zövq alırıq, ancaq bu, şərti təhlükəsizlikdir.

## İlahiyyat vasitəsilə xilas?

Lütfən, başa düşün ki, xilas olmaq üçün insan son iki fəsildə müzakirə etdiyimiz müxtəlif məsələləri aydın ifadə etməyi mütləq bacarmamalıdır. İsa bizim sözlərimizdən çox əməllərimizlə maraqlanır. Bu barədə O, Özü ibrətli məsəllərindən birində aydın demişdi:

> *«…Bir adamın iki oğlu vardı. Gəlib birincisinə «oğlum, bu gün get üzüm bağımda işlə» dedi. O da cavab verib «istəmirəm» dedi. Lakin sonra peşman olub getdi. Həmin adam ikincisinə yaxınlaşıb yenə eyni sözü söylədi. O cavab verib «Gedirəm, ağam!» dedi, amma getmədi. Bu iki nəfərdən hansı atasının istəyini yerinə yetirdi?» Onlar «birincisi» dedilər. İsa onlara dedi: «Sizə doğrusunu deyirəm: vergiyığanlar və fahişələr Allahın Padşahlığına sizdən qabaq girirlər»* (Mat.21:28-31).

Əsas bizim **sözlərimiz** deyil, **əməllərimizdir**.

İsanın təlimi sadə və savadsız adamlara aydın idi. Əgər biz kilsəmizin ilahiyyatını başa düşmək üçün illər boyu

oxumalı, sonra isə bunu başqalarına öyrətməliyiksə, problem ciddidir. Nə İsa, nə də Onun həvariləri seminariyalar təsis etməmişdilər, çünki bunlar Padşahlığın Müjdəsi üçün lazımsızdır. Padşahlıq məsihçiləri də seminariyaları nadir hallarda təsis edirlər. Amma bunu edəndə onlar Padşahlıq Müjdəsini mütləq itirirlər.

Padşahlıq Müjdəsinin izahı olduqca sadədir; o, mürəkkəb ilahiyyatdan çox uzaqdır. İlk 300 il ərzində məsihçilərə yalnız bu iman etirafı kifayət olub:

> «Mən hər şeyə Qadir olan Ata Allaha inanıram, Onun vahid Oğlu Rəbbimiz İsa Məsihə inanıram. O, Müqəddəs Ruh vasitəsilə bakirə Məryəmdən doğuldu, Ponti Pilatın hakimiyyəti dövründə əzab çəkdi, çarmıxa çəkildi, öldü və dəfn edildi; O, cəhənnəmə [hades] endi; üçüncü gün ölülərdən dirildi; göylərə yüksəldi və hər şeyə Qadir olan Ata Allahın sağ tərəfində oturdu; oradan O, diriləri və ölüləri mühakimə etmək üçün gələcək. Müqəddəs Ruha inanıram; müqəddəs ümumdünya kilsəsinə inanıram; müqəddəslərin cəmiyyətinə inanıram; günahların bağışlanmasına, bədənin diriləcəyinə və əbədi həyata inanıram».[67]

Bu sadə bəyanat Həvarilərin İnam Etirafı kimi tanınır. Əlbəttə, erkən məsihçilərin bu sadə inam bəyanatından başqa da təlim və anlayışları olub. Lakin bu, ilahiyyatın tam həcmi olub. Məsihçilər buna **mütləq** inanmalı idilər. Daha dərinə getmək istəyən məsihçilərə qadağa yox idi, ancaq onların qürura yol verməmələri və qəbul etdikləri təlimi dəyişməmələri mühüm şərt olub.

Həvarilərin İnam Etirafı ilk üç əsr ərzində məsihçilərə kifayət olubsa, növbəti əsrlərdə yaşayan məsihçilərə də kifayət olmalıdır. Bu ilahiyyat bu gün də kifayətdir.

Nominal Kilsə Padşahlığın Müjdəsini tərk edəndə Məsihi daha yaxşı dərk etmədi. Əksinə, o, getdikcə, Məsihdən daha da çox uzaqlaşır.

# 19

# Fariseylərə orada yer yoxdur

Allahın Padşahlığı imanlıdan tam həsr olunmağı tələb edir. Biz bu mövzuya kifayət qədər diqqət yetirdik. Laqeyd, məsuliyyətsiz, bu dünyanı sevən adamlar üçün Allahın Padşahlığında yer yoxdur. Artıq qeyd etdik ki, bəşəriyyətin əksəriyyəti heç vaxt Padşahlığa daxil olmayacaq. Həmçinin Padşahlığa daxil olmuşların böyük hissəsi sonralar Padşahlıqdan kənar ediləcək.

Buna görə də Padşahlığın vətəndaşları olan bizlər özümüzü qeyri-məsihçilərdən və ya dünyəvi məsihçilərdən üstün hiss edirik və bu, insanın günahkar təbiəti baxımından olduqca təbiidir. Padşahlıqda olan məsihçi üçün kənarda olanlara təkəbbürlə baxmaq çox asandır.

Günahlı təbiətimizin bu meyli barədə bilən İsa bizi əvvəlcədən xəbərdar etmişdi:

> *«Mühakimə etməyin ki, siz də mühakimə olunmayasınız. Çünki hansı hökmlə mühakimə etsəniz, onunla da mühakimə olunacaqsınız. Siz hansı ölçü ilə ölçsəniz, sizin üçün də eyni ölçü ilə ölçüləcək. Sən nə üçün qardaşının gözündə çöpü görürsən, amma öz gözündəki tiri seçmirsən? Öz gözündə tir ola-ola qardaşına necə deyə*

*bilərsən: «Qoy gözündəki çöpü çıxarım!» Ey ikiüzlü, əvvəlcə öz gözündən tiri çıxar, onda aydın görərsən ki, qardaşının gözündəki çöpü necə çıxarmaq olar»* (Mat.7:1-5).

Doğrudan da, qorxaq və riyakar olanlara Padşahlıq mənsub olmur. Bu həmçinin başqalarını mühakimə edən «əməlisaleh»lərə də aiddir. İsanın pisliyə müqavimət göstərməmək barədə təlimi kimi, mühakimə etməmək barədə təlimi də onlara aiddir. Təəssüf ki, bir çoxları pisliyə müqavimət göstərməmək və ya sərvətin qulu olmamaq haqqında İsanın sözlərini yerinə yetirməyə hazırdırlar, lakin İsanın «Mühakimə etmə!» sözünü etiraf etməkdən imtina edirlər! Onlar İsanın bununla başqa nəyisə nəzərdə tutduğuna əmindirlər.

İtaətkarlıqda və müqəddəslikdə özümüzü nümunə hesab edərək, möminlikdə bizdən uzaq olanlara təkəbbürlə baxaraq yaşamaq asandır. Ancaq biz belə ediriksə, əsl Padşahlıq həyatını yaşamırıq, xəyala qapanaraq özümüzü aldadırıq. Həqarətlə baxdığımız adamların davranışından çox İsa bizim davranışımıza nifrət edir.

## Dar qapı

Təəccüblü deyil ki, İsa bunu məsləhət görür: *«Dar qapıdan girin. Çünki həlaka aparan qapı geniş və yolu enlidir. Bu qapıdan girənlər çoxdur. Amma həyata aparan qapı dar və yolu ensizdir, onu tapanlar azdır»* (Mat.7:13,14). Əbədi həyata aparan yol, həqiqətən, dar və çətindir; yolun hər iki tərəfi dərin uçurumdur.

Bir tərəfdən laqeydlik və dünyaya məhəbbətdir. Özlərini məsihçi adlandıranların əksəriyyəti bu uçuruma düşürlər. Padşahlığın yolu onlar üçün həddindən artıq ciddi və dardır. Onlar daha asan yol istəyirlər. İsanın təliminə itaət

etməyi və dünyadan ayrılmağı təbliğ etməyən vaizlərin sayı-hesabı yoxdur.

Dar yolun digər tərəfində fariseylik və «əməlisaleh»-lik uçurumudur. Əgər biz birinci uçuruma düşmürüksə, o birinə düşə bilərik. Bu yol asan deyil.

1981-ci ildə mən Şərqi Texasda kiçik bir neft şirkətində vəkil işləyirdim*. Ostin şəhərində Texas Dəmir yolu Komissiyasına aid məhkəmə işi gedirdi. Qəribə səslənsə də, Texasda neft istehsalını tənzimləyən dövlət orqanı Dəmir yolu Komissiyasıdır. Qısa sözlə, bir qaz yatağının iş şəraitinə aid məsələyə baxılırdı. Biz şirkətimizin öz vertolyotu ilə Ostin şəhərinə uçmağı qərara aldıq. Yolda Fina şəhərində dayandıq və özümüzlə neft mühəndislərini və geoloqu da götürdük, çünki bunların məhkəmə iclasında iştirak etməsi mütləq idi.

Ostində məhkəmə işini uğurla həll edib geri qayıdanda mən pilotun yanında oturdum. Onun vertolyotu idarə etməsini müşahidə edirdim. Öz-özümə fikirləşdim: «Çox çətin deyil. Mən də bacarardım». Buna görə də pilotdan onun yerinə oturmağa icazə aldım, o da məmnuniyyətlə razılaşdı. Mən ondan nə etmək lazım olduğunu soruşdum, o da mənə rəqəmlər olan lövhəciyin üzərindəki kürəciyi mərkəzdə saxlamağı tapşırdı. «Aydındır, oldu!» Beləliklə, mən hazır olduğumu söylədim və o, idarəni mənə ötürdü.

Lakin tezliklə gördüm ki, kürəciyi mərkəzdə saxlamaq o qədər də asan deyil. Sükan çarxı elə həssas idi ki, ən kiçik hərəkət vertolyotu qəflətən ora-bura atırdı. Beləliklə, var gücümlə kürəciyi mərkəzdə saxlamağa çalışdığım halda vertolyot Texas səmasında ziqzaqla hərəkət edirdi. Nəhayət, arxada oturan mühəndisin ürəyi bulanmağa başladı və o dözməyib qışqırdı: «Sükanı vəkilin əlindən al!»

* Müəllifin şəhadətini 8-ci fəsildə oxuyun.

Pilot dərhal sükanı geri aldı. Fina şəhərində mən mühəndis və geoloqla sağollaşanda hər ikisi mənə tərs-tərs baxdı.

Bir aydan sonra biz mühəndisə və geoloqa yenə bizimlə Ostinə uçmağı təklif etdik, onlar isə çox mülayimcə imtina edib görüşə maşınla gələcəklərini söylədilər. Məncə, onlar mənim yenidən sükan arxasında oturmağımdan qorxdular.

Məsihçi həyatı vertolyotun idarə olunmasına bənzəyir. Yıxılmamaq üçün yolun mərkəzi ilə getməliyik. Bu, asan deyil, çünki yol çox dardır. Bu yol bizə ziqzaqlar etməyə imkan vermir. Biz ya dünyaya məhəbbət uçurumuna, ya da fariseylik uçurumuna düşə bilərik. Biz düz yolda davam etməliyik.

## Günahı mühakimə etmək olarmı?

İsa başqalarını mühakimə etməməyi bizə demişdi. Ancaq O, günahı mühakimə etməməyi bizə demədi. Paul, Yaqub, Peter və başqa Əhdi-Cədid müəllifləri kilsədə olan günahı mühakimə edirdilər. Onlar bunu «əməlisaleh»likdə deyil, İsaya itaətkarlıqda edirdilər.

Bu kitabın məqsədi məsihçilərə və qeyri-məsihçilərə Padşahlıq Müjdəsi haqqında danışmaqdır. Bu kitabda bugünkü Kilsənin bir çox nöqsanı, eləcə də ötən əsrlər ərzində həqiqətdən uzaqlaşması göstərilir. Mən «asan iman Müjdəsi» haqqında danışıram. Mən özlərini məsihçi adlandıranları «Padşahlıq məsihçiləri» ilə müqayisə edirəm.

Bu kitabı fariseylik ruhunda yazmadığımı sizə bildirmək istəyirəm. Bu kitabın bütün oxucuları kimi, mən özüm də bu həqiqətlərə ehtiyac duyuram. Yeganə duam odur ki, kitabı yazarkən öz həyatımın dəyişdiyi kimi, onu oxuyanların da həyatı dəyişsin. Mən adamları mühakimə etmirəm və Məsihin qarşısında onların vəziyyətini tam

bildiyimi hesab etmirəm. Sadəcə, müasir məsihçiliyin vəziyyəti məni olduqca narahat edir. Məhz buna görə də mən bu kitabı yazdım.

Eyni zamanda, bilirəm ki, oxucularımın bəziləri dünyanı sevən, ciddi ilahiyyat səhvlərinə yol verən, İsanın adından istifadə edərək şər işlər görən kəslər haqqında danışarkən «məsihçi» və ya «məsihçilik» sözündən istifadə etməyimdən narazı olacaqlar. Bir daha təkrar etmək istəyirəm ki, bu kitabda «məsihçi» barədə danışarkən, özünü məsihçi adlandıran adamı nəzərdə tuturam. Onların məsihçiliyinin həqiqiliyinə, əlbəttə, şübhə etmək olar, ancaq bu, İsanın işidir.

Həmçinin izah etməliyəm ki, «Padşahlıq məsihçiləri» ifadəsindən istifadə edərək Allahın Padşahlığının vətəndaşlığına ciddi yanaşan məsihçiləri nəzərdə tuturam; onlar Məsih ilə itaətkarlıq və sevgi münasibətində yaşayırlar.

Nəhayət, mən aydınlaşdırmalıyam ki, «kilsə» terminindən istifadə edəndə əksər hallarda* nominal kilsədən danışıram. Bu, özlərini məsihçi adlandıran adamlardır. Bir daha qeyd edirəm: nominal kilsənin nə dərəcədə Məsihin Bədəninə uyğun olub-olmaması məsələsini İsa Özü həll edəcək.

## Padşahlığın başqa qanunları

Padşahlığın tədqiq etdiyimiz dörd və ya beş qanunu İsanın təliminin ən çətin hissələridir. Ancaq bunlar Padşahımızın bizə verdiyi qanunların yalnız kiçik hissəsidir. Onun qanunlarının və təlimlərinin qalan hissəsi Əhdi-Cədiddə tam verilir. Müzakirə etməsək də, bunların hamısı böyük əhəmiyyətə malikdir.

* Söhbət Məsihin həqiqi Bədəni barədə gedirsə, bu mətndən bilinir.

Padşahlıq əmrlərinin ən böyük toplusu Dağüstü vəzdə verilir. Əgər siz Padşahlıqda vətəndaşlığa ciddi yanaşırsınızsa, onda Dağüstü vəzi yenidən oxuyun, hər bir təlimi götür-qoy edərək öz həyatınızı qiymətləndirin.

# 20

# Padşahlıq haqqında danışmamaq olmur

Dünyanın nifrət etdiyi Padşahlığa qoşulanda bu barədə susmaq istəyimiz təbiidir. Problemlər yaratmaq nəyə lazımdır? Ancaq Padşahımız Onun Padşahlığını sirr olaraq saxlamağımıza bizə izin vermir: «*Sizə qaranlıqda dediklərimi gün işığında söyləyin və qulağınıza pıçıldananı damlardan bəyan edin*» (Mat.10:27).

Unutmayın ki, yenidən doğulmayan kəs Allahın Padşahlığını hətta görə də bilmir. Beləliklə, yenidən doğulan bizlər danışmasaq, onlar bu Padşahlıq haqqında necə bilərlər? İsa Öz Padşahlığı haqqında xəbəri çıxartmaq üçün reklam agentliyindən istifadə etmir. O, xəbəri yaymağı Öz vətəndaşlarına tapşırmışdır.

İsa vəftizdən sonra səhradan qayıdan kimi dərhal vəz etməyə başladı. O nə barədə vəz edirdi? Matta deyir: «*O vaxtdan İsa vəz edib belə deməyə başladı: "Tövbə edin! Çünki Səmavi Padşahlıq yaxınlaşıb"*» (Mat.4:17). İsa dərhal bütün Qalileyada Padşahlıq Müjdəsini vəz etməyə başladı və adamları Padşahlığa qoşulmağa çağırdı.

İsa Öz şagirdlərinə Allahın Padşahlığını yalnız izah etmirdi; O həmçinin Padşahlıq Müjdəsini başqalarına vəz

etməyi də öyrədirdi. On iki həvarini seçən kimi İsa onları vəz etməyə göndərdi. Onlar nə vəz etməli idi? *«Getdiyiniz yerlərdə «Səmavi Padşahlıq yaxınlaşıb» deyə vəz edin»* (Mat.10:7). Daha sonra İsa yetmiş şagirdi seçdi, onları iki-iki göndərdi və dedi: *«Orada olan xəstələrə şəfa verin və onlara deyin: «Allahın Padşahlığı sizə yaxınlaşıb»* (Luka 10:9).

Öz ölümündən əvvəl İsa peyğəmbərlik etmişdi: «Səmavi Padşahlığın bu Müjdəsi bütün millətlərə şəhadət olmaq üçün bütün dünyada vəz ediləcək. O zaman hər şeyin axırı gələcək» (Mat.24:14). İsa Öz həvarilərinə Böyük Tapşırığı verdi: *«Beləliklə, gedin, bütün millətləri Mənim şagirdim edin; onları Ata, Oğul və Müqəddəs Ruh adı ilə vəftiz edin; sizə əmr etdiyim hər şeyə riayət etməyi onlara öyrədin. Budur, Mən dövrün sonuna qədər hər gün sizinləyəm»* (Mat.28:19,20).

Beləliklə, Padşahlıq haqqında vəz İsanın göylərə getməsi ilə bitmədi. Şagirdlər Padşahlıq haqqında öyrəndiklərini indi vəz etməli idilər. Onlar günahkarları Padşahlığın vətəndaşları olmağa çağırmalı idilər. Bütün dünya bu Səmavi Padşahlıq haqqında Xoş Xəbəri eşitməli idi! Allah onlarla olduğuna görə bunu heç kim dayandıra bilmədi!

## «Sussanız sizinlə işimiz olmayacaq»

Təəccüblü deyil ki, Padşahlığın vəzi böyük problemlərə səbəb oldu. Şagirdlər bir səhra oazisinə gedib orada dünyadan uzaqda dini icma yaratsaydılar, hökumət orqanları ilə toqquşma olmazdı. Axı nə Yəhudilər, nə də Roma hökuməti Ölü dənizin yanında olan Qumran cəmiyyətinə toxunmurdular. İsanın şagirdləri də onlar kimi davransaydılar, uzun və sakit həyat sürərdilər.

Ancaq bu, Padşaha məqbul olmazdı. İsa Özü də vəz etməsəydi, uzun və sakit həyat yaşayardı. Ancaq Ata İsanı

dünyadan deyil, dünyaya göndərmişdi. İsa da Öz şagirdlərini Padşahlıq haqqında xəbəri gizlətməyə deyil, yaymağa göndərmişdi!

Beləliklə, həvarilər Müqəddəs Ruhu qəbul edən kimi onlar öz həmvətənlərinə İsa Məsih haqqında vəz etməyə başladılar. O vaxta kimi Yəhudi rəisləri həvarilərə dəymirdilər. Ancaq bundan sonra dərhal təşvişə düşdülər, həvariləri həbs etdilər və İsa haqqında vəz etməyi qadağan etdilər. Həvarilər isə cəsarətlə cavab verdilər: «*Lakin Peterlə Yəhya cavab verib dedilər: «Özünüz qərar verin, Allaha deyil, sizə qulaq asmaq Allahın gözündə nə qədər doğrudur? Axı eşidib-gördüklərimizi deməyə bilmərik*» (Həv.4:19,20). Daha sonra onlar rəislərə dedilər: «*İnsana deyil, Allaha itaət etmək daha vacibdir*» (Həv.5:28,29).

Bundan qısa müddət sonra Yəhudi ağsaqqalları şagirdlərdən biri olan Stefanı öldürdülər. Onlar bir çox məsihçini həbs etməyə başladılar, ancaq bu, Padşahlığın yayılmasını dayandıra bilmədi. Yerusəlimdən qaçmış məsihçilər getdikləri hər yerdə Padşahlığı vəz edirdilər (Həv.8:4). Padşahlığın məsihçiləri susmağı bacarmırlar! Padşahlığın Müjdəsi Salonikə çatanda orada yaşayan Yəhudilər başçılara şikayət etdilər: «*Dünyaya çaxnaşma salan bu adamlar gəlib buraya da çıxdılar*» (Həv.17:6).

## Padşahlığın təbliği

Padşahlığın əsas aspektlərindən biri odur ki, onun barəsində susmaq qeyri-mümkündür. Padşahlığı bəyan etmək və adamları Onun rəiyyətləri olmağa çağırmaq lazımdır. Padşahlıq məsihçiləri susan kimi ruhani cəhətdən zəifləməyə başlayırlar. Bu vəziyyət durğun suya bənzəyir. Tezliklə suda yosunlar çoxalmağa başlayır. Nəticədə, su korlanaraq iylənir. Analoji olaraq, durğun məsihçilər Padşahları qarşısında üfunət verməyə başlayırlar.

IV hissə

# «HİBRİD»İN YARANMASI

# 21

# Padşahlıq Müjdəsi ilə nə baş verdi?

Əvvəlki fəsillərdə İsanın və Onun həvarilərinin öyrətdiklərinə nəzər salaraq biz gördük ki, kilsə təxminən üç yüz il ərzində İsanın təliminə tam riayət edirdi. Bu gün isə məsihçilərin əksəriyyəti bunu etmir. Nə baş verdi?

Üçüncü əsrin son qırx ili ərzində (təxminən b.e. 260-cı ilindən 300-cü ilinədək) kilsə sülhün görünməmiş dövrünü yaşadı. Bəzi yerlərdə kiçik təqiblər yaşansa da, imperiyada böyük təqiblər olmadı. Təqiblərdən yorulmuş kilsə sanki xeyir-duaya qərq olmuşdu.

Lakin tezliklə kilsə öz ilk sevgisini itirməyə başladı. O, İsanın «Təqib olunanlar nə bəxtiyardır!» sözlərini unutdu. Sayıqlığını zəiflətdi. Təqibləri unudub məsihçilər bir-birləri ilə mübahisə etməyə başladılar. Əvvəllər kilsə üçün ilahiyyat ikinci dərəcəli məsələ olub, indi isə əsas məsələyə çevrildi. Bütün İmperiyada ilahiyyat mübahisələri şiddətləndi.

Məsihçilər həmçinin imanlıların rəhbərliyi haqqında İsanın sözlərini unutdular:

> *«İsa şagirdləri yanına çağırıb dedi: «Bilirsiniz ki, millətlərin rəhbərləri onların üzərində hökmranlıq, əyanları*

*da onlara ağalıq edir. Sizin aranızda isə qoy belə olmasın. Sizlərdən böyük olmaq istəyən xidmətçiniz olsun. Aranızda kim birinci olmaq istəsə, başqalarının qulu olsun»* (Mat.20:25-27).

Hamının xidmətçisi olmaq əvəzinə, Roma, Antakya və İsgəndəriyyə kimi Roma İmperiyasının əsas şəhərlərinin yepiskopları öz aralarında hakimiyyət uğrunda rəqabət aparmağa başladılar. Romanın yepiskopu Peterin varisi olduğunu və bütün kilsələrin üzərində hakimiyyətə malik olduğunu iddia etməyə başladı.

Məsihçilər də tədricən dünyaya qayıtmağa başladılar. İntizam zəiflədi, xüsusilə də Romada. İlk dəfə məsihçilər hökumətdə vəzifəli mövqeləri tutmağa başladılar. Lakin buna baxmayaraq, müasir kilsələrin əksəriyyəti ilə müqayisədə b.e. 300-cü ilinin kilsəsi daha intizamlı idi. Ancaq o, əvvəlki inamından xeyli dönmüşdü.

Sonra qəfildən, əksər məsihçilər üçün gözlənilmədən, qırx illik sülh dövrü qurtardı. 303-cü ildə İmperator Diokletian kilsə tarixində ən qanlı təqiblərə başladı. Məsihçilərin dua evləri hər yerdə yandırıldı, Müqəddəs Yazılar tonqallara atıldı. Əsgərlər kişi və qadınları həbsxanaya salır, ağlagəlməz işgəncələrə məruz qoyurdular. Bir çox məsihçi güzəştə getsə də, kilsə mətanət göstərdi. Padşahlıq səylərinin bir qədərini itirsələr də, məsihçilər hələ də Padşahları uğrunda ölməyə hazır idilər.

Məsihçilərə qarşı təqib səkkiz uzun il ərzində davam etdi, ancaq hökumət kilsəni məhv edə bilmədi. Sonda Allahın Padşahlığı qalib oldu. Bu, asan döyüş olmadı, ancaq məsihçilər kobud qüvvəsi ilə Padşahlığı məğlub edə bilməyəcəyini iblisə göstərdilər. 311-ci ildə İmperator Diokletian Dözüm Fərmanını imzaladı, bununla da təqibi bitirdi. Məğlubiyyəti qəbul edən imperator məsihçilərdən

onun üçün dua etmələrini xahiş etdi. Bundan sonra o, hakimiyyətdən uzaqlaşdı və sonra özünə qəsd etdi. İblis məğlub edilmişdi![68]

İblis, həqiqətənmi, məğlub edilmişdi? Kilsə başa düşmürdü ki, İblisin arsenalında daha bir silah – hiylə var idi. İblis və dünya Padşahlığı kənardan məğlub edə bilmədilərsə, onda bunu daxildən etməli idilər. Daha doğrusu, məsihçiləri öz tərəfinə hiylə ilə tovlamaq lazım idi.

## Milan Fərmanı

312-ci ildə məsihçilər daha bir xoş xəbəri eşitdilər. Diokletianı əvəz etmiş hakimiyyət şəriklərindən biri Konstantinin rəqibi olan Maksentiusu məğlub etdi. Bu, yaxşı xəbər idi, çünki Konstantin məsihçilərə xoş münasibət bəsləyirdi. Diokletianın təqib dövründən əvvəl Konstantinin idarəsi altında olan ərazilərdə yaşamış məsihçilər təqib olunmurdular.

313-cü il bundan da xoş xəbərləri gətirdi. Konstantin və onunla birgə hökm edən Litsini Milan Fərmanını verdilər və bununla, məsihçilərin İmperiyada mövqeyi müəyyən olunurdu: «…məsihçilərə və bütün başqa adamlara istədikləri imanı seçmək ixtiyarı verilsin».[69] Həmçinin, Diokletianın təqibi ərzində məsihçilərdən müsadirə edilən bütün mülkiyyət onlara qaytarılmalı idi. Bundan başqa, təqib dövründə yandırılmış və ya dağıdılmış dua evlərinin hamısı dövlətin hesabına bərpa olundu.

Milan Fərmanı məsihçiliyi dövlət dini elan etmədi. O, Roma İmperiyasında yalnız dini azadlığı təsis etdi. Daha sonra Konstantin idarə etdiyi ərazilərdə məsihçiləri dəstəkləməyə başladı. Onunla birgə hökm edən Likinius İmperiyanın böyük hissəsini idarə edirdi. Dördüncü əsrdə yaşamış məsihçi tarixçi Eusebius Konstantinin hərəkətlərini belə təsvir edir:

> «Saleh imperator qələbə gətirən çarmıxın etirafını bayram edərək böyük cəsarətlə Romalılara Allahın Oğlunu bəyan edirdi. … Hamı yekdilliklə elan etdi ki, Konstantin bəşəriyyətə böyük xeyir-dua olaraq Allahın lütfü ilə göndərilmişdi…
>
> İmperator Allahın xidmətçiləri ilə ünsiyyətə can atırdı, onlara çox hörmət edirdi; həm sözdə, həm də əməldə himayə göstərirdi. Məsihçilər onun masasına dəvət olunurdular. … Səyahət edərkən Konstantin Allahın xidmətçiləri olan məsihçiləri özü ilə götürürdü və beləliklə, Onun köməyinə ümid edirdi».[70]

## Kilsəyə verilən «xeyir-dua»

Beləliklə, bir neçə il ərzində təqib olunan məsihçilər imperatorun sevimlilərinə çevrildilər. Təəssüf ki, hökumətin himayəsi şərtsiz deyildi. Hökumət məsihçilərə kömək etməyi qərara alanda əvəzində kilsənin rəhbərliyində iştirak etmək hüququnu müəyyən mənada əldə edirdi.

Məsələn, təqib dövründə dağıdılan dua evlərinin dövlət hesabına bərpasına dair fərman verəndə, təbii olaraq, Konstantin hiss etdi ki, dua evlərinin zahiri görünüşünə dair qərar qəbul etməkdə dövlət bəzi hüquqa malikdir.

Konstantin İmperiyada məsihçiliyin yüksəlməsini səmimiyyətlə arzuladığına baxmayaraq, dünyəvi adam olub. Buna görə də insani vasitələrdən istifadə edib. O əmin idi ki, bir imperator kimi məsihçiliyi dəstəklədiyi şəraitdə əvvəlki dua evlərinə sayları artan məsihçilər sığmayacaqlar. Beləliklə, o, bütün İmperiyada məsihçi dua evlərini daha böyük tikməyi tələb etdi. Yeni kilsə binalarının tikintisini Roma əyalətlərinin canişinlərinə tapşırdı.[71]

Həmçinin Konstantin qərara aldı ki, binalar, sadəcə, böyük deyil, həm də daha əzəmətli olmalıdır. Bütpərəstlərin məbədləri bəzəkli olduqları halda məsihçilərin ibadət

yerləri nə üçün sadə olmalıdır? Bu, əksinə olmamalıdırmı? Həqiqi iman ən möhtəşəm binalara malik olmamalıdırmı? Konstantin insani düşüncələrlə yeni kilsə binalarını təsirli sütun sıraları, tağlı tavanlarla, gözəl fəvvarələr və zərif mərmər döşəmələr ilə tikməyi **əmr etdi**. Konstantin istəyirdi ki, imansız bir kəs məbədin gözəlliyindən zövq almadan onun yanından keçməsin.

Konstantin var gücü ilə kilsəyə «xeyir-dua» verməyə çalışırdı, çünki bu halda Allahın İmperiyaya xeyir-dua verəcəyinə inanırdı. O, səmimi olaraq iman edirdi ki, kilsəyə xeyir-dua versə, Allah İmperiyaya xeyir-dua verəcək.

Sonra Konstantin məsihçi yepiskoplarının və rəhbərlərinin əksəriyyətinin kasıbçılıqda yaşadığına fikir verdi. Həqiqi Allahın xidmətçilərinə belə həyat yaşamağın yaraşmadığını fikirləşdi. Beləliklə, dövlət fondlarından yepiskoplara və rəhbərlərə yaxşı əməkhaqqı verməyə başladı. O hətta öz yaşayış yerlərindən birini – Lateran Sarayını Roma şəhərinin yepiskopuna və onun varislərinə hədiyyə etdi. Konstantin bütün yepiskopları, presviterləri və dyakonları, eləcə də bütün kilsə binalarını vergidən azad etdi. Roma vergiləri olduqca yüksək olduğuna görə (Konstantinin hakimiyyəti ərzində daha da yüksək oldu), vergidən azad olunmalar əhəmiyyətli fayda idi.

Ən yaxşısı isə o idi ki, bu əmək haqları və vergidən azad olunmaların arxasında bir şərt qoyulmamışdı. Ən azı, bu, belə görünürdü…

## Donatistlər

Şimalı Afrikada kilsə rəhbərləri arasında ayrılıq baş verdi və məsələ Diokletianın təqibi ərzində güzəştə getmiş kilsə xidmətçilərinə münasibətdə idi. Nəticədə güzəştə getmiş rəhbərlər ilə hər hansı münasibətdə olmaqdan imtina etmiş icma «donatist» kimi, qəbul edənlər isə,

«kafolik»* icması kimi tanındı. Başqaları isə kafoliklər kimi tanındılar. Bu ayrılma nəticəsində Şimali Afrikanın Karfagen şəhərində iki yepiskop və iki imanlılar cəmiyyəti oldu: donatist və katolik. Hər biri özünü o şəhərdə qanuni kilsə hesab edirdi.

Keçmişdə baş versəydi, bu ziddiyyət kilsənin daxili məsələsi olardı. Lakin Konstantinin kilsəyə verdiyi «xeyir-dualar» yeni problem yaratdı. Hansı yepiskop dövlətdən daha yüksək əməkhaqqı almalıdır? Hansı yepiskop və hansı presviteri vergidən azad etmək gərəkdir? Hansı yepiskop dövlət hesabına tikilmiş əzəmətli kilsə binasına başçı olacaq?

Konstantinin hökuməti Karfagenin qanuni yepiskopu kimi əvvəlcə Katolik yepiskopu Sesilianı tanıdı. Beləliklə, Sesilian dövlətdən əməkhaqqı alır və vergilərdən azad idi. Budan narazı qalan donatistlər Afrikanın Roma prokonsuluna şikayət məktubu ünvanlandıraraq, Karfagenin qanuni kilsəsi olduqlarını iddia etdilər. Prokonsul şikayəti Konstantinə göndərdi. Bu problemi necə həll edəcəyini bilməyən Konstantin məhkəmə işini Romanın yepiskopuna tapşırdı. Təbii ki, Romanın yepiskopu yaxın dostu olan kafolik yepiskopu Sesilianı dəstəklədi.

Ədalətsizliyi hiss edən donatistlər məhkəmə işini daha qərəzsiz bir kəsə tapşırmağı Konstantindən xahiş etdilər. Beləliklə, Konstantin müasir Fransanın ərazisində yerləşən Qalliyada yepiskopların şurasını çağırdı. 314-cü ildə Arl şəhərində baş verən şura kafolikləri dəstəklədi. Donatistlər axırıncı dəfə Konstantinə müraciət etdilər. Konstantin məhkəmə iclasında şəxsən iştirak edərək qərarı katoliklərin xeyrinə qəbul etdi.

---

* Bu sözü Şərqi və Qərbi hissəyə hələ bölünməmiş ümumi, əsas kilsə üçün istifadə edirik.

Donatistlərin mübahisəsi bütün gələcək məsələlərin həllinin yolunu müəyyən etdi: Roma imperatoru kilsə şuraları çağırdı və kilsə məsələləri üzrə şəxsən hökm çıxardı. Kilsə ilə dövlət arasında divar, demək olar ki, tam götürülmüşdü. İndi məsihçilər bu dünyanın işləri ilə Allahın Padşahlığının işlərini qarışdırmağa hazır idilər.

## Yeni yepiskop Konstantin

Hökumətinin xristianlardan ibarət olduğu halda Allahın xeyir-dua verəcəyinə inanan Konstantin xristianları yüksək hökumət vəzifələrinə təyin edirdi. Maraqlıdır ki, bir neçə il əvvəl Laktanti demişdi:

> «Əvvəllər Yəhudilərə verdiyi kimi, Allah Öz adamlarına [yəni məsihçilərə] da sərvət və padşahlıqları bəxş edə bilər. Lakin məsihçilərin hökm etməsi deyil, başqalarının hakimiyyəti altında yaşaması, rifahda korlanmaması, sərvətin qulu olmaması, Allahın əmrlərini rədd etməməsi Onun iradəsidir. Əcdadlarımız belə yaşayıblar».[72]

Laktantinin söylədiyi kimi, hakimiyyətə gələn xristianlar korlandılar, sərvətə qul oldular və nəticədə Allahın əmrlərinə nifrət etdilər.

O vaxta, Konstantin özünü kilsədən kənarda olanların «yepiskopu» hesab edirdi. Başqa sözlə, kilsə yepiskopları kilsədə olanlar Konstantin isə kilsədən kənarda olanlar üçün məsuliyyət daşıyırdı. Dünyəvi yepiskop kimi, Konstantin dövlət məmurlarına bütlərə qurbanlar gətirməyi və ya fala baxmağı qadağan etdi.

Çox vaxt keçmədi ki, Konstantin özünü kilsədə olanların üzərində də hakim və ya «ümumdünya yepiskopu» hesab etməyə başladı.

# 22

# İLAHİYYATIN PADŞAHLIĞI

325-ci ildə kilsədə Allahın Oğlunun təbiəti barədə qızğın mübahisələr gedirdi. Bu münaqişənin əsas iki iştirakçısı İsgəndəriyyə şəhərinin yepiskopu Aleksandr və həmin şəhərin presviteri Ari olub. Özünü «universal yepiskop» hesab edən Konstantin bu münaqişəni həll etmək üçün Nikeya şəhərində yepiskopların ümumdünya şurasını çağırmağı qərara aldı. O hətta şuraya başçılıq edirdi.

Gəlin əvvəlcə sizə şurada müzakirə edilən Arinin küfrünün məzmunu haqqında məlumat verim.

### «Təbiət» və «mövqe»

Birinci əsrdən başlayaraq, kilsə Ata və Oğul haqqında müəyyən anlayışlara sadiq qalıb. Bu əqidələr Müqəddəs Kitaba əsaslanırdı. Ata və Oğula aid kilsənin tarixi təlimini anlamaq üçün «təbiət» və «mövqe» arasında fərqi başa düşmək lazımdır. İlahiyyatda: «təbiət» insanın və ya məxluqun mahiyyətinə aiddir. Bütün insanlar eyni insani təbiətə malikdirlər. Buna baxmayaraq, insanlar bir-biridən tutduqları mövqelərinə görə fərqlənirlər. Prezident, məsələn, prezident müavininin üzərində səlahiyyətə malikdir. Onların təbiəti eyni, mövqeləri isə fərqlidir.

Kilsə həmişə Ata və Oğulun eyni təbiətə və ya mahiyyətə malik olduğunu öyrədirdi. Oğul Ataya yad deyil. Onun mələk təbiəti yoxdur. Onun Ata ilə təbiəti eynidir. Həm Ata, həm də Oğul bərabər şəkildə Allahdır. Ata kimi, Oğul da eyni ilahi təbiətə malikdir.

Buna baxmayaraq, Atanın və Oğulun mövqe və ya səlahiyyətində fərqlər var. Eyni təbiət bərabər mövqe deyil. Ər ilə arvadın arasında mövqe fərqi olduğu kimi, Üçbirlikdə də mövqe fərqi var. Həvari Paul bunu belə izah edir: *«Hər kişinin başı Məsih, arvadın başı ər, Məsihin başı isə Allahdır»* (1Kor.11:3). Ata Oğulun üzərində səlahiyyətə malikdir. Oğul Ata tərəfindən göndərilmişdir. Oğul Atanın iradəsini yerinə yetirir. Oğul Atanın sağ tərəfində oturur. Bu mövqe nizamı tərsinə ola bilməz. Ancaq mövqe fərqi Oğulun İlahiliyini heç də azaltmır.

Məsihçilər təbiət ilə mövqe arasında fərqi başa düşməyəndə Üçbirliyi başa düşmürlər. Dördüncü əsrdə yaşamış Arinin problemi də bu idi. O, təbiəti və mövqeni səhv saldı. Üçbirlikdə **mövqe** fərqi və müəyyən nizam olduğuna görə, Ari səhvən hesab etdi ki, təbiət və ya mahiyyətdə də fərq var. Beləliklə, o güman edirdi ki, Oğul Ata ilə eyni təbiətə malik deyil, mələklərlə Atanın arasındadır.

## Konstantinin həlli

Bu məsələni həll etmək üçün Konstantin Nikeya şəhərində ümumdünya şurasını çağırdı. Arinin tərəfdarları sayca azlıq təşkil etdikləri üçün uduzacaqlarını gördülər, buna görə də böyük güzəştlərə getdilər və müzakirə olunan məsələnin dərkedilməz olduğuna görə mərhəmət istədilər. Onlar hətta Müqəddəs Kitabda tapılmayan ifadələrdən istifadə etməməyə razılaşdılar.

Buna baxmayaraq, kilsədə ilahiyyatda fikir ayrılığını aradan qaldırmaq məqsədi ilə Ari və onun tərəfdarları ilə

məhəbbətdə barışmaq əvəzinə, ortodoksal yepiskoplar onların güzəştlərinə və barışıq təkliflərinə nifrətlə yanaşdılar. Əslində, yepiskoplar qəsdən məsələnin elə həllini axtarırdılar ki, iki tərəf arasında dəfedilməz ayrılıq yaransın.

Eyni zamanda, heç bir ortodoksal yepiskop şuraya ağlagəlməz bir hərəkəti – Müqəddəs Kitaba nəyisə əlavə etməyi təklif etməyə hazır deyildi. Beləliklə, şura çıxılmaz vəziyyətdə idi. Bu vaxt Konstantin kilsəyə yenə «kömək» üçün müdaxilə etdi. O təklif etdi ki, yepiskoplar 300 il ərzində kilsəyə xidmət etmiş sadə İman Etirafını dəyişərək ona «homoousian» (yəni «vahid təbiət») mənası olan sözü əlavə etsinlər: Ata və Oğul eyni təbiətə malik idilər. Yepiskoplar tezliklə Konstantinin təklifini qəbul etdilər və bu yeni İman Etirafını qəbul etdilər.

Mənim fikrimcə, Nikeya İman Etirafı Məsihin ilahi təbiəti və Oğulun Ata ilə münasibətini çox yaxşı və qısaca izah edir; o, həvarilərin günlərindən Konstantinin dövrünə qədər məsihçilərin Allahın Oğlunun təbiətinə aid əqidələrini özündə birləşdirir.[73].

## Nikeya: Kilsə tarixində əsas dönüş nöqtəsi

Hər halda, Nikeya məsihçiliyin tarixində arzuedilməz istiqamətə əsas dönüş nöqtəsinə səbəb oldu, çünki o, kilsənin təlimində dörd yeni təhrifə səbəb oldu və nəticədə kilsə Allahın Padşahlığından və ilkin məsihçi təlimindən uzaqlaşdı.

### 1. *Təqib olunanlar təqib etməyə başlayırlar*

Nikeya Şurasından sonra kilsə yalan təlimi ilə ayrılıqlar yaradan Arini kənar etməklə düzgün davrandı. Məsələ bununla tamamlana bilərdi. Lakin Konstantin dayanmadı və Arini doğma İsgəndəriyyə şəhərindən Aralıq dənizinin

o biri sahilində yerləşən İlliriya şəhərinə qovdu, onun yazılarını yandırmağı əmr etdi. Ən dəhşətlisi isə o oldu ki, Konstantinin əmri ilə, Arinin yazıları tapıldığı kəs qətlə yetiriləcəkdi.[74] Yepiskoplar bu əmrə etiraz etmək əvəzinə, onu alqışladılar.

Beləliklə, on dörd il əvvəl təqib olunan məsihçilər indi təqib etməyə başladılar. Konstantin qərara gəldi ki, hakimin əsas vəzifəsi – «kafolik» inamını qoruyub-saxlamaq və dəstəkləməkdir. Bu əmrlərə qarşı çıxan hər bir kəs Konstantin üçün inadcıl cinayətkara çevrilirdi. Nəticədə o, məsihçilərə qarşı qəddar təqiblərə təşəbbüs edən Diokletianın fərmanlarındakı ifadələrdən istifadə etməyə başladı və bidətçiləri yatıran fərmanlarında istifadə etdi.[75]

Yeni təqiblər Romada əvvəllər görünməyən, fəlakətli nəticələrə səbəb oldu. Bu yeni təqibin hədəfi əvvəlki təqiblərdə olduğu kimi, İsa Məsihə iman edənlər deyil, nominal kilsənin bidətçi damğasını vurduğu adamlar idi. Əlbəttə, Ariçilər bidətçi idilər. Lakin bu, onları təqib edənlərə haqq qazandırmırdı. Bundan başqa, kilsənin daha sonra təqib etdikləri kəslərin əksəriyyəti bidətçilər deyil, əsl Padşahlıq Məsihçiləri idi.

Bu yeni təqiblər yalnız günahsız Padşahlıq Məsihçilərinə zərər gətirmirdi. Həmçinin dünyanın pozğun rəftarını götürmüş təqib edənlərin əllərini qana boyayırdı. Xristianlar hesab edirdilər ki, «Allaha məqbul» məqsəd üçün İblisin alətlərindən istifadə edə bilərlər. Bu yeni təqiblər kilsəyə onun ilkin təmizliyinə qayıtmasında daha da böyük maneə oldu. İslahat barədə danışan hər kəs bidətçi hesab olunur və dərhal susdurulurdu.

Kilsə tərəfindən maliyyələşdirilən təqibi təsis etməklə Nikeya Şurası edə biləcəyi istənilən yaxşılığı ləğv etdi.

## 2. *Müqəddəs Yazıdan uzaqlaşma*

Təqiblərə göstərdiyi təsirlə müqayisədə Nikeya Şurası daha böyük təsiri ilahiyyata göstərdi. Nikeya İman Etirafına görə ortodoksallığı hətta Müqəddəs Kitabda istifadə edilməyən söz müəyyən edirdi: homoousian – «eyni təbiətli». Artıq qeyd etdiyimiz kimi, bu söz Allahın Oğlunun Ata ilə münasibətini dəqiq təsvir edir. Bu sözün istifadəsinə bir etiraz yoxdur. Lakin ortodoksallığı müəyyən etmək üçün Müqəddəs Kitabda heç vaxt istifadə edilməyən sözdən istifadə etməklə, Nikeya sel kimi axan şərə yol açdı. Nikeya Şurasında elan olundu ki, Müqəddəs Kitab tələblərə cavab vermir; xilasımız üçün zəruri həqiqətlər var ki, Müqəddəs Kitab onları dəqiq çatdırmır. Allaha etibar etmək və Müqəddəs Yazıları tam hesab etmək əvəzinə, Nikeyanın birinci Şurasında yepiskoplar Arinin münaqişəsini insani yol ilə həll etməyə çalışdılar. Bunun nəticəsi kilsəyə Aridən daha böyük ziyan gətirdi.

Müqəddəs Kitabdan uzaqlaşan yepiskoplar elan etdilər ki, Nikeya Şurasının qərarı Allah tərəfindən ilhamlanmış hesab olundu və Müqəddəs Kitaba bərabər tutuldu. Başqa sözlə, xüsusi vəhylər həvarilərlə bitmədi. İki yüz illik fasilədən sonra Müqəddəs Ruh Müqəddəs Kitabın vəhylərinə bərabər olan xüsusi vəhyləri yenidən verməyə başladı. Müasir Roma Katolik və Pravoslav Kilsəsi bəyan edir ki, Nikeya və digər ümumdünya Şuralarının qərarları Müqəddəs Kitab kimi eyni səlahiyyətə malikdir.

Əsrlər keçdikcə Kilsə xristian doqmalarına Müqəddəs Kitabda olmayan əlavələri edirdi. Kilsə hətta Müqəddəs Kitaba zidd olan əlavəni də etdi. Məsələn, b.e. 785-ci ilində Nikeyada keçirilən ümumdünya Şurasında növbəti bəyanat qəbul edildi:

«Möhtərəm və həyatverici Xaç kimi, Allahın müqəddəs kilsələrində müqəddəs qablarda və libasların üzərinə rənglə çəkilmiş və ya xırda daşdan, yaxud başqa yararlı materialdan düzəldilmiş möhtərəm və müqəddəs ikonaları yerləşdirmək gərəkdir.

Bunlara öpüşlə lazımi ehtiram göstərmək və hörmətlə baş əymək gərəkdir [Yunanca: proskineo]. Lakin bunlara baş əymək Allaha baş əymək kimi həqiqi olmamalıdır, çünki əsl baş əymə yalnız İlahi Təbiətə məxsusdur [Yunanca: latria]. Bunlara göstərilən ehtiram qədim dini ənənəyə müvafiq olaraq dəyərli və həyatverici Xaça, müqəddəs Müjdəyə, buxura və şamlara göstərilən ehtirama bərabər olmalıdır. Təsvirə göstərilən şərəf təsvirin təmsil etdiyi kəsə keçir; beləliklə, ikonaya səcdə qılan insan onun təsvir etdiyi məxluqa səcdə qılır. … Bununla biz həvari Paula riayət etmiş oluruq; o, Məsihdə bütün ilahi həvari cəmiyyətinə və müqəddəs atalara müraciət etmiş, biz də qəbul etdiyimiz nəsihətlərə riayət edirik…

Biz möhtərəm təsvirlərə öpüşlə ehtiram göstəririk. Bunu etməyənə küfr olsun … Müqəddəs və möhtərəm ikonalara ehtiram göstərməyənlərə küfr olsun. Müqəddəs ikonaları büt adlandıranlara küfr olsun».[76]

Həm erkən kilsə, həm də Müqəddəs Kitab ikonalara sitayiş etməyi mühakimə edirdi. İndi isə kilsə ikonalara sitayiş etməyənləri mühakimə etməyə başladı.

### 3. *İlahiyyat məsihçiliyin mahiyyətinə çevrilir*

Nikeya Şurasından sonra kilsə məsihçiliyin mahiyyətinin ilahiyyat olduğunu hesab etməyə başladı. O iman edirdi ki, insan öz həyatında radikal dəyişikliklər etmədən doktrinaların siyahısı ilə ağlında razılaşmaqla xristian ola bilər.

Bundan başqa, kilsə artıq Padşahlıq Müjdəsinin əsas ilahiyyatı ilə kifayətlənmirdi. O, indi adi məsihçinin

anlamayacağı ilahiyyatın təfsilatlarında fikrini cəmləşdirdi. Beləliklə, Nikeyada tamamilə yeni növ xristianlar yarandı: ilahiyyatçılar və ya kilsə ataları. Dindarların peyda olmasından sonra ilahiyyat mübahisələri olmadan kilsənin həyatında bir il belə, keçmirdi.

Dördüncü əsrin yepiskopu Piktaviyalı İlari demişdi: «Bu qaranlıq dövrdə mübahisələrin mövzusu Ata ilə Oğulun tam və ya qismən oxşarlığıdır. Biz hər il deyil, hər ay görünməz sirləri təsvir edən yeni İman Etiraflarını tərtib edirik. Biz tövbə edirik, tövbə edənləri müdafiə edirik, bizim tərəfimizdən müdafiə olunanları lənətləyirik. Biz özümüzdə yad doktrinanı, yaxud başqalarında öz doktrinamızı mühakimə edirik. Bir-birimizi didərək, məhv edirik».[77]

Dördüncü əsrdə bir çox kilsə şuraları keçirildi və dindarların arasında qızğın mübahisələr müşahidə olundu. Bu dindarlar özlərini ləyaqətli və pak, rəqiblərini isə pis və günahkar hesab edirdilər. Heç kimin ağlına belə, gəlmirdi ki, bir kəs səmimi imanına baxmayaraq, qəsdən deyil, təsadüfən səhv baxışlara malik ola bilər.

Heç kəs qardaşına sevgi ilə yaxınlaşmırdı, ona həqiqəti görməyə kömək etmirdi. Əksinə, dindarlar öz rəqiblərini yalnız təkzib etməyə və ittiham etməyə can atırdılar. Təəccüblü deyil ki, o dövrün dünyəvi Roma tarixçisi Ammian Marcellin qeyd etmişdi: xristianların arasında düşmənçilik insana hücum edən vəhşi heyvanların qəzəbindən çoxdur.[78]

Nikeya Şurasından sonra kilsə yəqin etdi ki, inamı başa düşmək üçün Müqəddəs Kitabı, sadəcə, öyrənmək kifayət deyil. Kilsə şuralarının qərarlarını və kilsə atalarını öyrənmək zəruridir. Bir kəsin Allahdan qorxması və Müqəddəs Kitabı bilməsi onu kilsədə vəz etməyə yararlı etmirdi. Müqəddəs Kitabın deyil, kilsənin söylədikləri daha əhəmiyyətli idi.

«Yeni məsihçiliyin» zəhəri bütün kilsəyə yayıldı. Nəticədə kilsə elan etdi ki, insanın Allahdan qorxmasından asılı olmayaraq, rəsmi icazə olmadan, o nə kilsədə, nə də kilsədən kənarda vəz edə bilməz. Lisenziyasız vəz həbs və ya hətta ölüm ilə cəzalandırılan cinayət oldu.

Bu yeni qanun kilsənin adamları «qaranlıqda» saxlamağa qəsdən cəhd etdiyinə görə qəbul edilmədi. Məncə, kilsənin niyyətləri səmimi olub. Səlahiyyəti olmayan vaiz Müqəddəs Yazını səhv şərh edərək adamları aldada bilərdi, bu da əbədi həyatın itirilməsinə gətirib çıxara bilərdi. Yenidən kilsə bu problemi həll edərək Allahın deyil, bəşəri metodlardan istifadə etdi.

**4.** ***Müqəddəs Kitab təhlükəli yazı olur***

Müqəddəs Kitabda olmayan tərifləri qəbul etmək və ilahiyyatın bütün təfsilatlarını araşdırmaq üçün kilsə nəticədə Müqəddəs Kitabı təhlükəli kitaba çevirdi. O əmin idi ki, özləri üçün Müqəddəs Kitabı oxuyan məsihçilər onu düzgün başa düşməyib mütləq bidətçi olacaqlar. Beləliklə, məsihçilər artıq İsanın sadə dildə dediklərini eşidə bilmirdilər. Əvəzində, onlar kilsənin söylədiklərinə iman etməli oldular.

Axırda kilsə elə nəticəyə gəlib çıxdı ki, insan Müqəddəs Kitabı oxumaqla inansa, həlak ola bilər. 1229-cu ildə Tuluza Şurası belə bir qanunu elan etdi: «Qeyri-ruhanilərə Əhdi-Ətiq və Əhdi-Cədid kitablarına sahib olmağa icazə verilmir. Yalnız Zəbur, İcmal və ya Pakizə Məryəmin dua kitabçasını oxuya bilərlər. Bu kitablar da xalq dilində olmamalıdır».[79]

Müqəddəs Kitab təhlükəli kitab oldu. Qəribədir ki, İsanın və həvarilərin sözləri savadsız adamlar üçün artıq təhlükəli oldu.

# 23

# Allah qaydaları dəyişdimi?

On beş il ərzində xristian dünyasında böyük dəyişikliklər baş vermişdi. «*Bu dünyadan*» olmayan Padşahlıq indi dünyəvi padşahlıq ilə yaxın əlaqədə idi.

Bu, necə oldu ki, belə qısa müddət ərzində dəyərlər tam dəyişdi? Niyə kilsə rəhbərləri etiraz etmədilər? Səbəb bundadır ki, rəhbərlər Allahın qaydaları dəyişdiyinə özlərini inandırmışdılar. Müqəddəs Yazılarda pisliyə müqavimət göstərməmək, düşmənlərini sevmək və dünyadan ayrı olmaq barədə deyilənlərin hamısı başqa vaxta, başqa dövrə aid idi.

Məsihçilərin əksəriyyəti hesab edirdi ki, Allah Konstantin vasitəsilə kilsəyə xeyir-dua verir. Məsihçilər təqibin dayanması haqqında dua etmişdilər və bütün bunlar onların dualarına cavab kimi görünürdü. Əslində isə bu, **Allahdan xeyir-dua**, yaxud Allahın **İblisə** kilsəyə qarşı getməyə **icazə verdiyi sınaq** idi? Dördüncü əsrin məsihçiləri baş verənləri necə düzgün qiymətləndirə bilərdilər?

Bunu etmək olduqca asan idi: sadəcə, Padşahlığın yolu ilə yaşamaqda davam etmək və Məsihin təlimlərindən bir zərrə qədər belə, kənara çəkilməmək lazım idi. «*İsa Məsih dünən, bu gün və əbədi olaraq eynidir*» (İbr.13:8). O qayıdana qədər Onun Padşahlığında prinsip və qaydalarda

dəyişikliklər olmayacaq. Konstantin Allah tərəfindən xeyir-dua olsaydı, kilsə heç vaxt güzəştə getməzdi, vəzini dəyişməzdi. Məsihçilər Allahın Padşahlığına sadiq qalsaydılar, imperatorun kilsə üçün xeyir-dua olub-olmamasını tezliklə bilərdilər.

## Müjdəni susdurmaq

Artıq qeyd etdiyim kimi, Konstantin bəzi yepiskop və presviterləri özünə vəkil etdi. Bu, Konstantinin Allah tərəfindən göndərildiyini yoxlamaq üçün mükəmməl imkan idi. Bu vəkillər, sadəcə, Konstantinə güzəştə getmədən düzgün məsləhət verməli və sonra onun cavabını gözləməli idilər. Konstantin Müqəddəs Kitaba əsaslanan məsləhəti rədd etsəydi və ya acıqlansaydı, onda onun planının Allahdan olmadığı aydın olardı. Allahın sadiq adamları hakimlərə həmişə həqiqəti söyləyirdilər. Şamuel, Natan, İlyas, Yeşaya və Yeremya padşahlara Allahdan gələn həqiqəti deməkdən qorxmurdular.

Vəftizçi Yəhyanı yada salın. Yəhudi rəhbərləri onun yanına gəlmişdilər və nə etməli olduqlarını ondan soruşmuşdular. Yəhya fikirləşə bilərdi: «Allah, həqiqətən, mənim xidmətimə xeyir-dua verir! Baxın, hətta Yəhudi rəhbərləri vəzimi eşitməyə gəliblər. Onların dəstəyi və köməyi ilə məni bütün Yəhudi xalqı eşidə bilər!» Xeyr, Yəhya belə fikirləşmədi. O, onların günahlarını ifşa etdi: *«Ey gürzələr nəsli! Gələcək qəzəbdən canınızı qurtarmağı sizin beyninizə kim yeridib? İndi isə tövbəyə layiq bəhrə verin»* (Mat.3:7,8).

Padşah Hirod ilə danışarkən Vəftizçi Yəhya güzəştə yol vermədi, halbuki, Hirod onu Allahın həqiqi peyğəmbəri hesab edirdi. Bir padşah kimi, Hirodun Yəhyaya böyük kömək göstərmək imkanı var idi. Bəs, Yəhya Hirodu razı

salmağa çalışdımı və ya Hirodun xeyri üçün öz vəzini dəyişdimi? Xeyr. Müqəddəs Yazılarda deyilir:

> *«Hirod qardaşı Filipin arvadı Hirodiyaya görə Yəhyanı tutduraraq qollarını qandalladıb zindana saldırmışdı. Çünki Hirod Hirodiyanı özünə arvad olaraq almışdı və Yəhya Hiroda demişdi: "Qardaşının arvadını almaq sənə qadağandır". Hirodiya Yəhyaya qarşı kin saxlayıb onu öldürmək niyyətinə düşmüşdü, amma bunu edə bilmirdi. Çünki Hirod Yəhyanın saleh və müqəddəs bir adam olduğunu bildiyinə görə ondan qorxub onu qoruyurdu. Hirod ona qulaq asanda çaşqınlığa düşdü, buna baxmayaraq, onu həvəslə dinləyirdi»* (Mark 6:17-20).

Padşahın maddi dəstəyi ilə peyğəmbər çiçəklənə bilərdi. Ancaq Yəhya sussaydı, icazə verən kimi görünərdi, bununla da, Hirodu və Hirodiyanı aldatmış olardı. Bu günahı ifşa etməklə Yəhya Hiroda tövbə etmək imkanını verdi. Hirod Yəhyanı ədalətli və müqəddəs adam hesab edirdi. Əgər Hirod, doğrudan da, Allaha xidmət etmək istəsəydi, Yəhyanın sözlərini nəzərə alardı. Ancaq Hirod öz çarmıxını daşımaq istəmədi. Nəticədə, o, istəmədən Yəhyanın qatili oldu.

Bizim Padşahımız Özü bizə nümunə göstərdi. Zəngin bir gənc İsanın yanına gələndə O, adamı diqqətlə dinlədi və sonra ona dedi: *«Sənin bir şeyin çatışmır: nəyin varsa, satıb yoxsullara payla. Onda göylərdə xəzinən olacaq. Sonra qayıt, Mənim ardımca gəl»* (Luka 18:22). Nəticədə, o, bunu etmək istəmədi və İsanın şagirdi olmadı.

Konstantinin dövründə məsihçi rəhbərləri eyni şeyi edə bilərdilər. Onlar Konstantinə var-dövlətini paylamağı və hakimiyyətdən imtina etməyi deyə bilərdilər. Onlar İsanın zəngin gəncə söylədiyi sözlərini ona xatırlada bilərdilər. Onlar Konstantinə düşmənlərini sevməyi

və onlara yaxşılıq etməyi deyə bilərdilər. Ancaq onlar demədilər.

## İlk imanlı imperator

Əksəriyyətin Konstantini ilk məsihçi imperator hesab etdiyinə baxmayaraq, üçüncü əsrdə ondan əvvəl imanlı Roma imperatoru olub. Onun adı Ərəbistanlı Filip idi və o, çox qısa müddət ərzində hökmranlıq edib. Filip məsihçi qadınla evləndi və məsihçiliyin həqiqi din olduğuna iman etdi. Yevsevi yazır:

> «Altı ildən sonra Roma imperatoru Gordion öldü və Filip onun yerinə gəldi. Söz gəzir ki, o, məsihçi idi və Pasxa gecəsində kilsədə imanlılarla birgə dua etmək istədi. Yepiskop isə ona yalnız hamı qarşısında tövbə edəndən və günahlarını etiraf edən adamlara qoşulandan sonra içəri keçməyə icazə verdi. O, bunu etməsəydi, yepiskop onu içəri buraxmazdı, çünki ona qarşı bir çox ittihamlar olunurdu. Deyirlər ki, Filip məmnuniyyətlə itaət etdi və bununla səmimi imanını və Allah qorxusunu göstərdi».[80]

Konstantinin dövründə də yepiskoplar onu tövbəyə çağıra bilərdilər. Onda Konstantinin əsl inamını bilərdilər!

## Xəbərdaredici işarələr

Ürəktutmanın bəzi əlamətləri var. Məsələn, pis təzyiq, sinədə və sol əldə ağrı, təngnəfəslik. Bu xəbərdaredici işarələri rədd edən kəs həyatını itirə bilər.

Oxşar şəkildə, Konstantinin dövründə yaşayan məsihçilər İsanın Padşahlığına aid verdiyi xəbərdaredici işarələri rədd etdilər:

> *«... düşmənlərinizi sevin, sizə nifrət edənlərə yaxşılıq edin* (Luka 6:27). *İnsanlar Mənə görə sizi təhqir edib*

*təqib edəndə, yalan söyləyib sizə hər cür böhtan atanda siz nə bəxtiyarsınız! Sevinin və şadlanın! Çünki göylərdə mükafatınız böyükdür. Axı sizdən qabaq gələn peyğəmbərləri də belə təqib ediblər»* (Mat.5:11,12).

Adamlar məşhur olanda və ya onlar barədə yaxşı söz deyiləndə düzgün yolda olduqlarını zənn edirlər. Ancaq bu, Padşahlığa aid deyil. Dünya bizim barəmizdə yaxşı danışanda və bizim dostumuz olmaq istəyəndə nəsə səhv olur. Təəssüf ki, dördüncü əsr məsihçiləri İsanın xəbərdarlığını tamamilə unutmuşdular.

# 24

# Məsihin təlimləri necə yox oldu

Əvvəlki fəsillərdə təsvir etdiyimiz hadisələrdən əvvəl üç yüz il ərzində məsihçilər Allahın Padşahlığına daxil olmaq üçün öz prinsip və dünyagörüşlərini tam dəyişməli idilər. İndi isə İsanın xəbərdaredici işarələrini rədd etmiş məsihçilər həyatın əsas prinsiplərini yenə dəyişmək qərarına gəldilər. Onlar fikirləşdilər ki, Allah məsihçilərə «qızıl dövr» göndərir: təqib görmədən onlar dünyəvi hakimiyyətdən və rifahdan zövq alacaqlar. Bəs, Əhdi-Cədid «qızıl dövr» haqqında bir söz deyirmi?

Problem ondadır ki, Əhdi-Cədiddə bu barədə bir söz belə, yoxdur. Buna görə də kilsə özlərinə uyğun olan modeli tapmaq üçün Əhdi-Ətiqə müraciət etdi. Beləliklə, irəliləmək əvəzinə, kilsə **geri qayıtdı**. Bu, keçmişin ruhani prinsiplərinə qayıtmaq hesab olunurdu.

Biz bu yeni modeli «Konstantinin Hibridi»[81] adlandıracağıq. Bu, Əhdi-Cədid ilahiyyatı və təliminin üzərinə Əhdi-Ətiqin ilahiyyatı və təlimini qoymaq, eləcə də Allahın Padşahlığını dünyanın padşahlıqları ilə birləşdirmək cəhdi idi. Bu hibridin bir yarısını dünyəvi hökumət, digər

yarısını isə kilsə təşkil edirdi. Birlikdə isə «Allahın Padşahlığının hibridi» alınırdı.

Əhdi-Ətiq padşahlığı İsrailin sərhədləri ilə müəyyən olunduğu kimi, Allahın bu yeni «Padşahlığı» da Roma İmperiyasının sərhədləri ilə müəyyən olunurdu. Allahın Padşahlığı artıq daxildə deyildi. Bu, maddi, görünən imperiya oldu. İsraillilər öz padşahlığını müdafiə etmək və Allahın düşmənlərini tabe etmək üçün müharibə etdikləri kimi, məsihçilər də müharibəyə çağırılırdılar. Konstantin hibridini qəbul etmək istəməyən məsihçilərə bidətçi damğası vurulurdu.

## İmperatorun rolu

Davud, Süleyman və Yoşiya kimi İsrail padşahları xalqın ibadətində iştirak edir, adamların mənəvi həyatlarına rəhbərlik edirdilər. Eləcə də Roma imperatorları indi kilsənin ibadətində iştirak edir, adamların mənəvi həyatlarına rəhbərlik edirdilər. Eusebi yazırdı: «[Konstantin] Allahın kilsəsinə xüsusi qayğı göstərir. Əyalətlərdə fikir ayrılığı baş verdikdə o, dərhal Allah tərəfindən təyin edilmiş baş yepiskop kimi, din xadimlərinin şuralarını çağırırdı, onların yığıncaqlarında mütləq iştirak edirdi. Bundan başqa, müzakirələrdə iştirak edərək, Allahın sülhünü dəstəkləyirdi».[82]

## Məsihin təlimlərində nə baş verdi?

Bu kitabın birinci hissəsində biz Padşahlığın bəzi qanunlarına nəzər saldıq. Konstantinin hibridi meydana çıxanda bu qanunlarda nə baş verdi? Əsasən yeni hibrid Məsihin Padşahlıq təlimlərinin hamısını ləğv etmək üçün əsaslı səbəb tapırdı. Yalnız Əhdi-Ətiqə uyğun gələn təlimlər qalırdı. İndi yəhudilər üçün qanuni olan bütün qaydalar məsihçilər üçün də qanuni hesab edilirdi. Bunu nəzərdə

tutaraq, indi gəlin görək hibrid kilsə var-dövlət, andlar, boşanma və pisliyə müqavimət göstərməmək haqqında nə öyrədirdi.

### *Var-dövlət*

Yerdə xəzinələri toplamağı qadağan edən əmr Əhdi-Ətiqdə yoxdur. Buna görə də indi məsihçilərə dünyəvi xəzinələri yığmaq təbii idi. Həmçinin, hakimiyyətdə yüksək mövqelərə sahib olmaq və daha yüksək vəzifələrə can atmaq məsihçilər üçün məqbul oldu. Faktiki olaraq, indi kilsə Allahın insanlar arasında sosial fərqləri təyin etdiyini öyrətməyə başladı. Alicənab insan kəndli kimi geyinməli və yaşamalı deyil, kəndli də zadəgan kimi geyinməli və yaşamağa can atmalı deyil.

### *Andlar*

Əhdi-Ətiqdə and içmək qanuni olduğu kimi, kilsədə də artıq qanuni oldu. Bundan başqa, aydın idi ki, kilsəyə axın etmiş izdihamlar əslində yenidən doğulmamışdı və onların sözlərinə inanmaq olmazdı. Beləliklə, kilsə andları bərpa etməyi zəruri hesab etdi. Faktiki olaraq, andlar son Roma hökumətinin və orta əsrlərə aid cəmiyyətin idarəçiliyinin mərkəzi sütunu oldu.

### *Pisliyə müqavimət göstərməmək*

Əhdi-Ətiq pisliyə müqavimət göstərməməyi və ya düşməni sevməyi öyrətmirdi. Buna görə də kilsə indi bunu öyrətmirdi. Bir neçə onillik ərzində həlim və müdafiəsiz məsihçilər qəddar və güclü oldular. Qeyd etdiyimiz kimi, Konstantinin hakimiyyətindən əvvəl məsihçilər özlərini müdafiə etmək üçün qılınclarını qaldırmırdılar. İndi isə onlar tərəddüd etmədən Roma həmvətənlərini və məsihçi qardaşlarını öldürürdülər.

### *Boşanma*

Bu məsələ bir qədər fərqli idi. Əhdi-Ətiq ərlərə yalnız və yalnız arvadında «ləyaqətsiz bir şey» tapıldığı halda boşanmağa icazə verirdi. Bəzi yəhudi müəllimləri ərlərə tam azadlıq verdiklərinə baxmayaraq, kilsə ərlərə yalnız zina («porneia») günahına görə boşanmağa icazə verirdi.

Qərbdə kilsə qan qohumluğu səbəbi ilə nikahı qadağan edən Əhdi-Ətiqin qanunlarının pozulmasını «porneia» hesab edirdi. Məsələn, kişi öz bacısı və ya dul qalmış gəlini ilə evlənə bilməzdi (Lev.18:9,15). Əhdi-Ətiq ölçü meyarı olduğuna görə nikaha aid qanunların əksəriyyəti kilsəyə gətirildi. Əgər bir kişi qanunları pozaraq nikaha daxil olurdusa, arvadından boşanmalı idi. (Bu gün bu, «nikahın ləğvi» adlanır). Məhz bunun əsasında bir çox əsr sonra VIII Henri qardaşının dul arvadı olan birinci arvadı Araqonlu Katerinadan boşanmaq istəyirdi.

Beləliklə, bu yeni «qızıl əsr» dövrü qədim İsrailə çox bənzəyirdi. Yalnız Yəhudi mərasimləri və qidaya aid qanunlar tətbiq olunmurdu. Andlar, var-dövləti yığmaq və dövlətin əmri ilə zorakılıq etmək məqbul idi. Buna baxmayaraq, cinsi əxlaqsızlıq, falçılıq və cadugərlik qadağan olunurdu, çünki Əhdi-Ətiq bunu qadağan edirdi. Bu gün də, təxminən on yeddi yüz il sonra Konstantinin hibridindən törəmiş kilsələrdə Əhdi-Ətiqin mənəviyyatı müşahidə olunur.

## Allahın planı pozuldumu?

Beləliklə, Allahın planları pozuldumu? Tarix Onun istəmədiyi kimi getdimi? Xeyr. Allah Konstantinin hibridi barədə əvvəlcədən bilirdi. Bunların hamısı İsanın təlimində və ibrətli hekayələrində deyilmişdi.

İbrətli hekayələrinin ikisində İsa Onun Padşahlığının olduqca böyük olacağını söyləmişdi:

> *«Səmavi Padşahlıq bir adamın götürüb öz tarlasında səpdiyi xardal toxumuna bənzəyir. Xardal toxumu bütün toxumların ən kiçiyi olsa da, böyüdükdə bütün bostan bitkilərindən hündür, lap ağac boyda olur. Belə ki göydə uçan quşlar gəlib onun budaqlarında yuva qurur. … Səmavi Padşahlıq xəmir mayasına bənzəyir. Qadın onu götürüb üç kisə una qarışdırıb bütün xəmir acıyanadək saxlayır»* (Mat.13:31-33).

Eyni zamanda, İsa aydınlaşdırıb demişdi: *«Həyata aparan qapı dar və yolu ensizdir, onu tapanlar azdır»* (Mat.7:14). O həmçinin demişdi: *«Qorxma, ey kiçik sürü! Çünki Atanız Padşahlığı sizə verməyi münasib gördü»* (Luka 12:32).

Əvvəllər qeyd etdiyimiz kimi, bir çox adam Padşahlıqdan kənar ediləcək. İsa Konstantinin hibridinin gələcəyi barədə bilirdi. İsa nə Onu, nə də Onun yollarını sevən adamları kənar etmək üçün hibriddən istifadə etdi.

# 25

## Qızıl əsr başlamadı

Biz Konstantinin hibridinin mənfi aspektləri haqqında kifayət qədər danışdıq. Ancaq onun müsbət aspektlərini qeyd etməməyimiz səhv olardı. Hər şey bu qədər pis olsaydı, kilsə heç vaxt bu tələyə düşməzdi. Beləliklə, gəlin onun müsbət aspektlərinə nəzər salaq.

Hibridin gətirdiyi ən birinci və ən görünən yenilik – məsihçiliyin qanuniləşməsi oldu. Dövlət məsihçiliyi bəyənirdi və onu vergilərdən azad etdi. Bundan başqa, Konstantin bazar gününü qanuni istirahət günü etdi və bununla adamlara bazar günlərində kilsədə sitayiş etməyə imkan yaratdı. O həmçinin bütün okkultizm növlərini qanunsuz elan etdi.[83]

Məsihçiliyin gözlənilməz qalxması antik bütpərəstliyin azalmasına və ləğvinə səbəb oldu. Bütpərəst məzhəbinə dözümlə yanaşmasına və hamıya (bidətçilərdən başqa) ibadətdə azadlıq verməsinə baxmayaraq, Konstantin dövlət məmurlarına dövlətin adından bütlərə qurbanlar gətirməyi qadağan etdi. O həmçinin bütpərəst məbədlərinin inşasını daha maliyyələşdirmədi və bəzi məbədləri kilsə etdi.

İctimai sahədə Konstantin kasıb ailələrə maliyyə yardımını təmin edən qanunu qəbul etdi ki, arzuedilməz

körpələr ailə tərəfindən tərk edilməsinlər. O, bir çox şəhərdə qəddar qladiator döyüşlərini qadağan etdi, nalayiq teatrları bağladı və fahişəliyi qanunsuz elan etdi. Həmçinin Konstantin nikahsız yaşamanı qadağan etdi, zinaya görə cəza elan etdi və boşanmanı xeyli çətinləşdirdi.[84]

## «Hibridin» qaranlıq tərəfi

Məncə, Konstantin, doğrudan da, Roma cəmiyyətini yaxşılaşdırmaq və Allaha məqbul olmayanı qanunsuz elan etmək istəyirdi. Ancaq o, yenidən doğulmuş məsihçi deyildi. O, hələ də «bu dünyanın» adamı idi. Buna görə də bu dünyanın vəhşi və qəddar metodlarından istifadə edirdi. Məsələn, Konstantin cinsi zorakılığı və yoldan çıxarmanı əvvəlkindən daha ciddi cinayət elan etdi. Bu, yaxşı idi. Lakin bu cinayətlərin cəzaları həddindən çox dəhşətli idi: diri-diri yandırılma, amfiteatrda vəhşi heyvanlar tərəfindən parçalanma və ya boğaza əridilmiş qurğuşunun tökülməsi.[85]

Bundan başqa, Konstantin və onun yaxınları bütpərəst sələfləri kimi, işgəncəni davam edirdilər. Faktiki olaraq, bu illər ərzində Konstantin sərxoş dənizçi kimi ictimai fondları xərcləyən qəddar, despotik hakimə çevrildi. Xərclərini ödəmək üçün Konstantin İmperiya tarixində[86] adamların üzərinə ən böyük vergiləri qoydu.

## Hakimiyyət həvəsi

Artıq müzakirə etdiyimiz kimi, İsa bizə dünya ilə bütün əlaqələri qırmağı tapşırmışdı. Biz ürəklərimiz bağlanılan hər bir var-dövlətdən imtina etməliyik. Hakimiyyət var-dövlət kimi mülkiyyətdir. O, sərvətdən də çox insanı kefləndirir. Adamlar bir dəfə hakimiyyətdən dadsalar, daha çox istəyəcəklər. Uzun müddət keçməyəcək ki, onlar hakimiyyəti əllərində saxlamaq üçün hər şeyə hazır olacaqlar.

Hakimiyyəti yalnız əllərində saxlamağa deyil, həmçinin onu gücləndirməyə də çalışacaqlar. Məhz bu səbəblərə görə birinci üç əsrin məsihçiləri məsihçilərdən vəzifəni tərk etməyi tələb edirdilər.

Konstantin dünyəvi səlahiyyəti sevirdi və bu səlahiyyəti saxlamaq üçün böyük qəddarlıqlar edirdi. Məsələn, o, istənilən tənqid, qiyama hazırlıq və ya mümkün rəqiblər haqqında xəbəri ona çatdırmaq üçün imperiya boyu casusların sistemini təsis etdi. Casusların Konstantinə xəyanətdə ittiham etdikləri kəslər Milanda və ya Konstantinopolda həbsxanaya atılır və orada məhkəmənin hökmünü gözləyirdilər. Əgər dəlil kifayət qədər olmurdusa, həbsxana gözətçiləri «cinayətlərini» etiraf edənə qədər məhbuslara əzab verirdilər. İttiham edilən şəxsin məsihçi olması məhkəmə qərarına təsir göstərmirdi.

Artıq qeyd etdiyimiz kimi, 313-cü ildə Konstantin və onun yeznəsi Litsini birgə Milan Fərmanını imzaladılar. Konstantin Roma İmperiyasının Qərbi hissəsini, Litsini isə Şərq hissəsini idarə edirdi. Ancaq Konstantin bütün Roma İmperiyasını idarə etmək istəyirdi. O, Litsininin də bu istəyinin olmasından qorxurdu.

Buna görə də 324-cü ildə Konstantin Litsini tərəfindən idarə edilən ərazini işğal etdi. Kilsə qarşısında öz hərəkətinə belə haqq qazandırdı ki, Litsini məsihçiləri təqib edir.[87] Əvvəlki müharibələrdən fərqli olaraq, bu müharibədə məsihçi əsgərlər fəal iştirak edirdilər. Konstantin yepiskoplardan onun ordusunu müşayiət etməyi və döyüş ərzində onlar üçün dua etməyi kilsədən xahiş etdi. Döyüş bayrağı əvəzinə əsgərlər nəhəng xaçı daşıyırdılar və bu, onlara qələbə gətirəcək bir tilsim idi.[88]

Həqiqətən, Konstantinin qoşunu qalib idi və Litsini əsir düşdü. İndi Konstantin Roma İmperiyasının yeganə hakimi idi. O elan etdi ki, bunun hamısını edən Allahın Özü oldu:

«Əlbəttə, bu, təkəbbür deyil. Xeyirxahlığı Allahdan almışam və ən yüksək mədhlərlə bunları etiraf edirəm. Mən bir alətəm və xidmətimi Allahın Özü seçib. İradəsini yerinə yetirmək üçün Allah məni seçdi … İlahi gücün yardımı ilə mən şərin hər bir formasını tamamilə yox etdim. Bunu ona görə etdim ki, mənim köməyimlə maariflənən insan irqi Allahın müqəddəs qanunlarına lazımi qaydada riayət edə bilsin; həmçinin xeyir-dualı inamımız Allahın qüdrətli əli altında çiçəklənsin».[89]

Litsininin üzərində qələbə çalandan sonra Konstantin bacısı Konstansiyaya söz verdi ki, onun əri Litsiniyə həyatının qalığını sakit və rahat keçirəcəyinə imkan verəcək. O hətta buna and içdi. Buna baxmayaraq, bir ay ərzində Konstantin heç bir potensial rəqibinin sağ qalmağını özünə rəva görməyib Litsinini edam etdirdi.[90]

Ancaq potensial rəqiblər hər yerdə var idi. Beləliklə, Konstantin Litsini ilə dayanmadı. Bundan sonra Konstantin öz oğlu Krispusu öldürdü. Sonra onun taxtını arzuladığını fikirləşdiyi qardaşı oğlunu öldürdü. Deyilənlərə görə, Konstantin hətta ona qarşı sui-qəsd təşkil etdiyindən qorxaraq ikinci arvadı Faustanı da öldürdü.[91] Kilsə isə Konstantini buna görə heç vaxt mühakimə və ya hətta tənqid etmirdi.

Ölüm yatağında ikən Konstantin Roma İmperiyasını üç oğluna – Konstantinus, Konstanta və II Konstantinə, eləcə də qardaşının iki böyük oğluna vəsiyyət etdi. Bunların beşi də məsihçi idi. Roma bundan sonra da məsihçi imperiyası olacaq! Lakin bu beş nəfərin hər biri Konstantin kimi hakimiyyət hərisi idi. Beləliklə, Konstantinin ölümündən bir az sonra onun oğlu Konstantinus onunla bərabər hakim olacaq iki əmisi oğlunu, eləcə də ailədə olan bütün kişiləri görünməz qəddarlıqla qətlə yetirdi.

Bundan sonra Konstantinin üç oğlu İmperiyanı öz aralarında böldülər. İndi sülh olmalı idi. Axı bunların üçü də doğma qardaş və məsihçi idi!

Ancaq yeni məsihçilik əsl Padşahlıq məsihçiliyindən tam fərqlənirdi. Üç qardaşın heç biri İmperiyanın yalnız bir hissəsini idarə etməsi ilə kifayətlənmirdi. Tezliklə imperiyanın qardaşı Konstantaya verilən hissəsini ələ keçirmək üçün II Konstantin İtaliyanı işğal etdi, lakin döyüşdə öldü. Beləliklə, beş hakimdən ikisi qaldı. Konstanta Qərbi Roma İmperiyasını, Konstantinus isə Şərqi Roma İmperiyasını idarə edirdi.

Ancaq hakimiyyətin bu sadə bölməsi də uzun müddət davam etmədi. Tezliklə general Maqnentius Konstantanı yıxdı və Qərbi İmperiyanı ələ keçirdi. Ancaq o, bununla kifayətlənmədi. Bütün imperiya üzərində hakim olmaq istəyən general Konstantinin yeganə sağ qalmış oğlu Konstantinusa hücum etdi. Bu dəfə Maqnentius məğlub edildi və Qalliyaya qaçdı. Konstantinus yeganə imperator olaraq qaldı.[92]

Bəs, məsihçiliyin imperiyaya gətirəcəyi «qızıl əsr» harada idi? Yeni «məsihçi» Roma İmperiyasının birinci əlli ilində daha çox vətəndaş müharibələri baş verdi, nəinki bütpərəst Roma İmperiyasının birinci iki yüz ilində. İlk bütpərəst imperatorları xalqa iki yüz il ərzində «Paks Romana» – sabitlik, tərəqqi və sülh yaşatdılar. İlk məsihçi imperatorları isə sonsuz vətəndaş müharibələrinin, ağır vergilər, imperiyanın dağılması dövrünü gətirdi.

## Valentini

Konstansiusun ölümündən sonra Konstantinin qardaşı oğlu Yulian yeni imperator oldu. O, Konstantinin oğlu tərəfindən yerinə yetirilən qırğından qaçan bir neçə ailə üzvündən biri idi. O, «məsihçiliyin» əməllərini kifayət

qədər görmüşdü və bununla əlaqəli olmaq istəmirdi. Buna görə də məsihçilərə dözümlü olmasına baxmayaraq, o, imperiyada klassik bütpərəstliyi bərpa etməyə cəhd etdi. Ancaq onun səyləri müvəffəqiyyətsizliyə uğradı.

Yulianın ölümündən bir il sonra dindar xristian olan Valentini yeni imperator elan edildi. Kafolik məsihçi kimi, Valentinian əxlaqlı həyat yaşadı, bir çox tərifəlayiq qanunu qəbul etdi. Məsələn, Romanın on dörd rayonunun hər birində kasıblar üçün həkim təyin etdi. O, bütpərəstlərə, yəhudilərə və məsihçilərə dini azadlıq verdi.[93] Məsihçilərin gözlədiyi «Qızıl əsr» Valentinianın dövründə olmalı idi. Lakin təəssüf ki…

Əvvəlki məsihçi imperatorları kimi, Valentinian da sui-qəsddən və taxtını itirəcəyindən qorxmadan bir gün belə, yaşamadı. Beləliklə, Konstantin kimi, o da potensial rəqiblərdən istənilən xəyanəti aşkar etmək üçün casuslardan istifadə edirdi. Valentinian öz qubernatorlarının və məmurlarının səylərini tribunallarında yerinə yetirdikləri edamların sayı ilə ölçürdü. Casuslar və siyasi düşmənlər çox vaxt hətta nüfuzlu vətəndaşlara qarşı ağlasığmaz ittihamlar irəli sürürdülər. Qəddar işgəncələr ilə alınan etiraflar etibarlı dəlil hesab olunurdu. Varlı ailələr müflis oldu, yüzlərlə senatorlar, hörmətli xanımlar və filosoflar şöhrətsiz ölümlə nəm zindanlarda və işgəncə otaqlarında öldülər.[94]

Hər yerdə yaşayan günahsız vətəndaşlar xəyanətdə ittiham edilməkdən qorxurdular. Məsələ hakimiyyətə xəyanətlə bağlı olanda Valentinian şübhəni dəlil hesab etməyə başladı.[95] Hətta kiçik və ya xəyali qanun pozuntusu vətəndaşın dilinin kəsilməsi və ya diri-diri yandırılması ilə nəticələnə bilərdi. Bir tarixçi yazırdı ki, Valentinianın ən çox istifadə etdiyi sözləri bunlar olub: «başını kəsin», «diri-diri yandırın» və «ölənəcən döyün».[96] Valentinian işgəncə

əzabında qovrulan hörmətli vətəndaşları sakit müşahidə edə bilirdi və onlara rəhmi gəlmirdi. O, bunu məsihçi imanına zidd hesab etmirdi. [97]

Sonda Valentinianın idarəolunmaz qeyzi onu məhv etdi. Onun məmurlarından biri barbarların padşahını ziyafətə dəvət etdi və burada onu satqıncasına öldürdü. Bunun cavabında, öldürülmüş padşahın qohumları bir neçə Roma əyalətini qarət etməklə Romalılardan qisas aldılar.

Öz məmurunun hərəkətinə görə üzr istəmək və barışıq axtarmaq əvəzinə, Valentinian Roma ordularına başçılıq edərək barbarlara qarşı çıxdı və qanlı intiqam almaq istədi. Barbarların səfirləri mərhəmət üçün Valentinianın çadırına gələndə Valentinian qəzəblənərək onların üstünə elə qışqırmağa başladı ki, üzü bənövşəyi oldu. Nəticədə beynində damar partladı və o, dərhal öldü.[98]

## Roma İmperiyasının süqutu

Tarixi uydurmalardan biri ondan ibarətdir ki, Romanın süqutu bütpərəst əxlaqsızlıq, vakx kultunun orgiyalarına və qanlı əyləncələrə görə baş verdi. Bir çox məsihçi yazıçısı Romanı nümunə gətirərək mənəviyyatı bərpa etməsə, Birləşmiş Ştatlarda da bunun baş verəcəyini söyləyir.

Lakin Romanın süqutu bütpərəstlər tərəfindən idarə ediləndə baş vermədi. Romanın süqutu baş verəndə qladiator oyunları qanunsuz elan edilmişdi, Əhdi-Ətiqin ciddi mənəviyyatı isə əhaliyə qəbul etdirilirdi. Bundan başqa, demək olar ki, bütün əhali məsihçi idi.[99]

Romanı kim yıxdı? Ən çox yayılmış varianta görə, vəhşi, yarıçılpaq, Tor bütünə ibadət edən barbarlar Romanın divarlarından aşaraq şəhərə daxil oldular və rast gələn hər bir kəsi öldürdülər. Ancaq bu da uydurmadır. Romanı fəth etmiş German xalqları vəhşi və mədəniyyətsiz deyildilər. Onlar öz mədəniyyətlərinə görə yarıromalı idilər və

onların əksəriyyəti imperiyanın müttəfiqləri və ya hətta müdafiəçiləri olub. Bundan başqa, həm də onlar məsihçiliyi etiraf edirdilər.[100]

Gözlənilən «qızıl əsr» elə də başlamadı. Əlbəttə, məsihçilərin miras aldıqları Roma İmperiyası artıq tənəzzül vəziyyətində idi. Ancaq məsihçi imperatorları öz bütpərəst sələflərindən daha yaxşı olmadıqlarını sübut etdilər. Vəziyyəti düzəltmək əvəzinə, məsihçi imperatorları onu daha da pisləşdirdilər. Onların üzücü vergiləri və sonsuz daxili çəkişmələri üçüncü əsrdə bütpərəst imperatorların dövründə başlamış süqutu sürətləndirdi; nəhayət, bütün Qərbi İmperiya tam dağıldı.

Əslində, dördüncü əsrin məsihçiləri Allahın Padşahlığını bu dünyanın padşahlığına dəyişdilər. Bu, Esavın ilk övlad hüququnu dəyişməsi ilə müqayisə oluna bilən tarixin ən pis sövdələşmələrindən biri oldu. Ancaq Esav heç olmazsa, öz şorbasını yedi. Məsihçilər isə yalnız Allahın Padşahlığını deyil, həmçinin Roma İmperiyasını da itirdilər.

312-ci ildə Konstantinin hakimiyyətə gəlişindən 476-cı ildə Qərbi İmperiyanın sonuncu imperatorunun hakimiyyətdən kənar edilməsinə qədərki dövrdə baş verən hadisələr məsihçiləri düşündürməli idi. Bütpərəst Roma imperatorları, demək olar ki, hər bir müharibədə qalib olurdu, məsihçi imperatorları isə məğlub olurdular. Məsih – Sülh Şahzadəsidir. Onda niyə Kaliqula və Neron kimi bütpərəst imperatorlar Paks Romananı saxlamağı bacardılar, məsihçi imperatorlar isə bunu edə bilmədilər? Niyə birinci və ikinci əsrdə bütpərəst imperatorların hakimiyyəti altında imperiya çiçəklənirdi, dördüncü və beşinci əsrdə isə imperatorların hakimiyyəti altında imperiya dağıldı?

Konstantinin hibridinin Allahdan olmadığı 476-cı ildə aydın oldu.

## Hibridin hakimiyyəti

Romanın süqutu nə kilsəni tövbəyə gətirdi, nə də Konstantinin hibridinə son qoydu. Faktiki olaraq, kilsə orta əsrlərin hökmran təşkilatı oldu. Orta əsrlər boyu hibridin qaydaları davam edirdi: cinsi əxlaqsızlıq, cadugərlik, abort və nalayiq əyləncələr mühakimə olunurdu (baxmayaraq ki, zadəganlar arasında cinsi əxlaqsızlıq ikili standarta malik idi). Var-dövlət yığmaq, and içmək və müharibədə öldürmək məqbul hesab edilirdi. Bu, Konstantinin dövründə, orta əsrlərdə və müasir dünyada əksər «məsihçi» hökumətlərində qayda olmuşdur.

# 26

# «HİBRİDİN» MÜDAFİƏÇİSİ AVQUSTİN

Roma İmperiyası dağılırdı. Kilsə adamları Allahın Padşahlığında yeni həyata çağırmaq əvəzinə getdikcə daha da çox dünyaya batırdı. Beləliklə, Allahın Padşahlığı Konstantinin hibridinə meydan oxuyan Paul və ya Vəftizçi Yəhya kimi cəsarətli vaizlərə ehtiyac duyurdu. Buna baxmayaraq, bu vaxt kilsədə Avqustin – Hibridin əsas müdafiəçisi peyda oldu.

O dövrün məsihçilərinin əksəriyyəti kimi, Konstantinin hibridini və onun kilsəyə gətirdiyi bütün dəyişiklikləri şərtsiz qəbul edən Avqustin hibridin çox bacarıqlı müdafiəçisi oldu. Təəssüf ki, Padşahlığı və İsanın həqiqi təlimini müdafiə etmək üçün bir qabiliyyətli nümayəndə tapılmadı. Təbii olaraq, Avqustinin arqumentləri üstünlük təşkil etdi.

Ancaq Avqustin hibridi, sadəcə, müdafiə etmirdi. O, aqnostik adlanan bidətçilərin iddialarına qarşı çıxaraq ortodoksal məsihçiliyi müdafiə etməyə cəhd edirdi. O, bunu necə edirdi? Adətən o, öz rəqibinin mövqeyini diqqətlə dinləyirdi, sonra isə ifrat mövqeyi tutub onları təkzib edirdi.

Məsələn, göy və sarı rəngi qarışdırmaqla əldə edilən yaşıl rəngi həvarilərin təlimindən biri hesab edək. Həmin təlimə bidətçilərin münasibətini isə göy rəng hesab edək. Yaşıl rəngin tərkibində qismən göy rəng olduğuna görə, bidətçi həqiqəti tam deyil, qismən qəbul edir. Bidətçi təlimin əsas sarı hissəsini nəzərə almadan həvari təlimini dəyişirdi.

Beləliklə, Avqustinin metodu onun rəqibini yaşıl rəngin təmsil etdiyi həvari təliminə tam qaytarmırdı. Xeyr, Avqustin, sadəcə, ifrata keçir və israr edirdi ki, burada göy rəng heç yoxdur, tam sarı rəngdir. O, rəqibinin az da olsa, həqiqətə malik olmasını etiraf etməkdən imtina edirdi. Bu, mübahisəni udmaqda olduqca effektiv üsul idi.

Avqustin mübahisələri udsa da, Müqəddəs Kitaba əsaslanan tarixi məsihçiliyin mövqelərini ləğv edirdi. Göy rəng kimi, sarı rəng də (yaşıl) həvari inamının və ya həqiqətin bir hissəsidir.

Sizə iki nümunəni gətirmək istəyirəm.

## Qnostiklərə qarşı çıxan Avqustin

Qnostisizm məsihçiliyin üzləşdiyi birinci bidət olmuşdu. Onlar maddi dünyanın şər olduğunu, Əhdi-Cədidin Allahın deyil, başqa bir ilahi tərəfindən yaradıldığını öyrədirdilər. Öz mövqelərinin müdafiəsində aqnostiklər İsanın təlimlərinin Musanın təlimlərindən tam fərqləndiyi faktı göstərirdilər. Məsələn, Əhdi-Ətiqin Allahı İsraillilərə müharibəyə getməyi əmr etmişdi, İsa isə Öz şagirdlərinə düşmənləri sevməyi dedi. Buna görə bir çox aqnostik məntiqi düşünərək İsanın Padşahlıq haqqında təlimlərini qəbul etdi, başqa ilahinin işi olan bütün Əhdi-Ətiqi isə rədd etdi. Onlar hətta Allahın Oğlunun bəşər olduğunu inkar edirdilər.

İrenaeus və Tertullian kimi erkən məsihçi yazıçıları aqnostikliyin təlimlərinə qarşı çıxaraq tarixi məsihçiliyi müdafiə edirdilər. İnamın bu erkən müdafiəçiləri israr edirdilər ki, Əhdi-Ətiq və Əhdi-Cədidin Allahı eyni olub. İki əhd Allahın vəhyinin insana tədricən açıldığını göstərir. Musanın Qanunu İsraillilləri Məsihə istiqamətləndirirdi. İsanın təlimləri isə Musanın Qanununun İsraillilləri hazırladığı son məqsəd oldu.

Buna baxmayaraq, bu arqumentlər Konstantinin hibridinə uyğun gəlmədi. Artıq qeyd etdiyimiz kimi, hibrid əsasən Əhdi-Ətiqin mənəviyyatı və həyat tərzi ilə Əhdi-Cədidin ilahiyyatının birləşməsidir. Əhdi-Ətiqlə müqayisədə Əhdi-Cədidin yeni, daha mənəvi qanunlar gətirdiyini tanımaq hibridin səhv olduğunu etiraf etməkdir. Bunu isə onlar istəmirdilər.

Beləliklə Avqustin (o vaxt manixeylər kimi tanınan) aqnostiklərin əsas fərziyyələrini inkar edərək onların təlimini təkzib edirdi. O deyirdi ki, İsanın təlimləri Əhdi-Ətiqin təlimlərindən fərqlənmir. Qətl həm Əhdi-Cədiddə, həm də Əhdi-Ətiqdə qanunidir. O yazırdı: «Müharibədə şər var? Onsuz da hər kəs tezliklə öləcək. Başqalarının sülh içində yaşaması üçün bir neçə nəfərin ölümü şərdirmi? Müharibəni şər adlandırmaq dini əqidə deyil, qorxaqların qərəzidir. Müharibənin əsl şəri – zorakılığa məhəbbət, intiqam sevgisi, sərt və barışmaz düşmənçilik, vəhşi müqavimət, hakimiyyət həvəsi və s. Bunları cəzalandırmaq üçün Allaha və ya digər qanuni hökumətə itaətkar adamlar müharibələrə gedirlər. Beləliklə, onlar düzgün rəftar etmək və ya başqalarını düzəltmək üçün buna məcburdurlar».[101]

Bəs İsa düşmənlərimizi sevməyə və şərə müqavimət göstərməməyə bizi çağırmırdımı? Avqustin buna da cavab verirdi: «Bəli, Allahın müharibəyə icazə vermədiyini

ehtimal etmək olar. Rəbb İsa Məsih Özü demişdi: *«Pis adama qarşı durma… Sağ üzünə şillə vurana o birini də çevir»*. Buna baxmayaraq, İsa burada **fiziki** hərəkəti deyil, **daxili** münasibəti nəzərdə tutur».[102] Başqa sözlə, sərbəst öldürmək olar, əsas daxilində bu adama qarşı sevgin olmalıdır!

Avqustin davam edirdi: «Rəbb səbir etməyi əmr edir: *«Sağ üzünə şillə vurana o birini də çevir»*. Bu, fiziki hərəkətdə və ya sözlərdə görünməsə də, daxili münasibətdir. Həvarini vuranda o, gələcək dünyada düşmənlərinin bağışlanması, indiki zamanda isə onları cəzasız qoymamaq üçün Allaha dua edirdi. Başqalarına nümunə üçün onların cəzalandırılmasını arzu etsə də, ürəyində onları sevirdi».[103]

Siz bu məntiqə bir fikir verin! Əslində isə bu, Məsihin sözlərinin təhrifidir. Avqustinin sözlərinə müvafiq olaraq, biz dünya kimi qəddar hərəkətləri edə bilərik. Bizim hərəkətlərimiz Əhdi-Ətiq dövründə yaşamış İsraillilərin hərəkətləri kimi zorakı ola bilər. Sadəcə, daxilimizdə yalnız mehriban, sülh və sevgi hissləri olmalıdır.

Belə dəlillər gətirən Avqustin istənilən hərəkəti Müqəddəs Kitaba əsaslandıra bilirdi. Məsələn, Avqustin israr edirdi ki, donatistlərin təqibi məsihçi sevgisinin hərəkəti idi, çünki nəticədə onlar kilsəyə qayıtdılar: «Mehriban sözlər və aldadıcı ifadələrlə bir qoyunu tovlayıb sürüdən uzaqlaşdırsalar, çoban qoyunu tapan kimi sürüyə qaytarmamalıdırmı? O, çomaqla hədələyə bilər, hətta, qoyun itaət göstərməsə, lazım gəldikdə, çomaqdan istifadə də edə bilər».[104]

Avqustin başa düşmürdü ki, Məsihin Padşahlığında son məqsəd kimi, vasitə də həmişə vacibdir. Məsihçilər Allaha məqbul olan nəticələri əldə etmək üçün zorakı vasitələrdən istifadə etmirlər. Necə etməyimiz nə etməyimiz kimi vacibdir.

## Ədalətli müharibə

Avqustin «ədalətli müharibə» doktrinasının banisi kimi tanınır. Faktiki olaraq, bu, belə deyil. Bu təlimi əvvəlcə Yunan filosofları və hakimlər formalaşdırıblar. Onların yüzlərlə illər əvvəl öyrətdiklərini Avqustin, sadəcə, götürdü.[105]

Mən guya Avqustinin tərtib etdiyi mənəvi cəhətdən məsihçilərə məqbul olan, ədalətli müharibənin meyarının müxtəlif siyahılarını şəxsən görmüşəm. Buna baxmayaraq, bu siyahıların müəllifliyi bir qədər yanlışdır. Avqustin «ədalətli müharibə» doktrinasının traktatını heç vaxt yazmamışdı. Müharibəyə aid meyarların siyahısını da heç vaxt tərtib etməmişdi. Bunu Akvinalı Foma kimi müxtəlif orta əsr dindarları Avqustinin adından etmişdilər.

Məsələ bundadır ki, Avqustin, doğrudan da, müharibəyə haqq qazandırırdı. Bir çox yazılarında müharibə üçün müxtəlif bəraətləri təqdim edirdi. Buna baxmayaraq, Avqustin özü heç vaxt demirdi ki, müharibənin ədalətli olması üçün bu meyarın və ya aspektlərin hamısı qarşılanmalıdır. Hər halda, Avqustinin yazılarına əsaslanan orta əsrlər dindarları müharibəni ədalətli edən şərtlərin siyahısını tərtib etmişdilər. Bu dindarlara görə, başqa adamı öldürən məsihçi ədalətli və Allaha məqbuldur, əgər:

- öldürdüyü adamı məsihçi sevir;
- başqa mümkün həllər və barışıq cəhdləri yoxlanmış halda yalnız son vasitə olan müharibədə məsihçi öldürür;
- pozulan hüquqları müdafiə etmək üçün və ya ədalətsiz zorakı tələblərdən müdafiə olunaraq məsihçi yalnız müharibədə öldürür;
- məsihçi yalnız hakiminin əmri ilə aparılan müharibədə öldürür;

- məsihçi yalnız qələbə şansına malik olduğu müharibədə öldürür;
- məsihçi əsgərlər ilə mülki əhalini fərqləndirməyə çalışır və o, mülki əhalini qəsdən heç vaxt öldürmür;
- məsihçi yalnız qətlin məqsədə münasib olduğu halda öldürür;
- məsihçi yalnız o müharibədə öldürür ki, qantökmə nəticəsində əldə edilən fayda qantökmənin səbəb olduğu şərdən daha böyük olsun;
- məsihçi yalnız o müharibədə öldürür ki, qalib məğlub olanın tam alçaldılmasını tələb etmir.[106]

Əgər siz məsihçisinizsə, bu şərtlər sizin üçün tam cəfəngiyatdır. Ancaq bu, belə olmaya da bilər, çünki məsihçilərin əksəriyyəti Konstantinin hibridinin və onu müdafiə edən Avqustinin güclü təsiri altındadır. Beləliklə, icazə verin onun cəfəngiyatını sizə göstərim.

Müharibənin qədim qanununa görə, düşmən olan kişilərin hamısını öldürmək və onların qadınlarının hamısını zorlamaq qanuni və şərəflidir. Biz gördük ki, Avqustin adamların qətlini müəyyən şəraitlərdə doğruldurdu. İndi gəlin görək, bu şərtlər qadınların zorlanmasına necə tətbiq olunur. Deyək ki, həmin qadınları zorlayan məsihçi üçün bu hərəkət ədalətli və qanunidir, əgər:

- məsihçi zorladığı qadınları sevirsə;
- başqa mümkün həllər və barışıq cəhdləri yoxlanmış halda yalnız son vasitə olan müharibədə məsihçi qadınları zorlayır;
- pozulan hüquqları müdafiə etmək üçün və ya ədalətsiz zorakı tələblərdən müdafiə olunaraq məsihçi yalnız müharibədə qadınları zorlayır;

- məsihçi yalnız hakiminin əmri ilə aparılan müharibədə qadınları zorlayır;
- məsihçi yalnız qələbə şansına malik olduğu müharibədə qadınları zorlayır;
- məsihçi əsgərlərin arvadları ilə mülki kişilərin arvadlarını fərqləndirməyə çalışır və o, mülki kişilərin arvadlarını qəsdən heç vaxt zorlamır;
- məsihçi yalnız qətlin məqsədə münasib olduğu halda qadınları zorlayır;
- məsihçi yalnız o müharibədə qadınları zorlayır ki, qantökmə nəticəsində əldə edilən fayda qantökmənin səbəb olduğu şərdən daha böyükdür;
- məsihçi yalnız o müharibədə qadınları zorlayır ki, qalib məğlub olanın tam alçaldılmasını tələb etmir.

Qadınların zorlanmasından söhbət gedəndə siz bu meyarların mənasızlığını görürsünüz. Bəs, kişilərin qətli haqqında danışanda bunu görmək niyə çətindir? Çünki hamımız hibridin təsiri altındayıq. Biz hibridin dəyərlərini qəbul edən və bu dəyərləri növbəti nəsillərə ötürən cəmiyyətdə yaşayırıq. Xatırlayın: hibridin qaydasına görə, hakimin əmri ilə öldürmək və işgəncə vermək kimi zorakılıq günahları mühakimə olunmurdu. Buna baxmayaraq, hibrid istənilən növ cinsi günahları həmişə mühakimə edirdi.

«Ədalətli müharibə» meyarları İsanın təlimlərinin birbaşa pozulmasıdır. Məsələn, «ədalətli müharibə» meyarının biri deyir ki, pozulan hüquqları müdafiə etmək üçün və ya ədalətsiz zorakı tələblərdən müdafiə olunaraq məsihçi müharibədə öldürə bilər. İsa bu barədə aydın söyləmişdi və şərə müqavimət göstərməməyi demişdi. «Köynəyini götürmək istəyənə üst paltarını da ver. Kim səni min addım yol getməyə məcbur edirsə, sən onunla iki min addım yol

get». Məsihçilər hüquqlarını müdafiə etmək üçün müharibə etmirlər; onlar hüquqlarından imtina etməyə hazırdırlar, yəni o biri yanağını döndərirlər. Onlar qisas almırlar və müqavimət göstərmirlər ki, sonra bunu sevgidə etdiklərini söyləsinlər.

## Müharibənin ədalətli olmasını kim müəyyən edir?

Hər halda, gəlin ehtimal edək ki, yuxarıda sadalanan meyarların hamısını qarşılayan müharibə Allahın gözündə, həqiqətən, ədalətlidir. Əgər bu, belədirsə, növbəti sual yaranır: Müharibənin bu meyarlara uyğun olmasını kim müəyyən edir? Kilsə? Fərdi məsihçi? Dövlət? Avqustin cavab verir: «Dövlət». Onda ayrı-ayrı məsihçilər iştirak etdikləri müharibənin ədalətli olub-olmamasını necə bilərlər? Cavab belədir: onlar bilmirlər!

Avqustin bunu etiraf edirdi: «Allahdan olmayan hakimiyyət yoxdur. Allah ya əmr edir, ya da izin verir. Buna görə də ədalətli bir adam allahsız padşaha xidmət edə bilər. Öz padşahının əmri ilə o, dövlət qarşısında öz vəzifəsini yerinə yetirərək vuruşa bilər. Bəzi hallarda onun vuruşmasına aid Allahın iradəsi aydındır. Digər hallarda isə padşahın əmri ədalətsiz olur və onda Allahın iradəsi aydın olmur. Hər halda, əsgər günahsızdır, çünki öz mövqeyinə görə itaətkarlıq göstərməlidir».[107]

«Ədalətli müharibə» haqqında bütün bu söhbətlər cəfəngiyatdır. Bunlara görə, öz padşahının ədalətsiz əmrlərinə itaət etməli olan məsihçi günahsızdır. Avqustin başa düşürdü ki, insan həm dünyəvi padşaha, həm də Səmavi Padşaha eyni zamanda sədaqətli ola bilməz. Buna görə də Avqustin qərara gəldi ki, yer üzündə yaşayarkən biz dünyəvi padşaha tam sadiq olmalıyıq. Yalnız padşah kilsənin qəbul etmədiyi yalan təlimlərə inanmağı və ya bütlərə sitayiş etməyi tələb edəndə insan tabe olmaya bilər.

Buna baxmayaraq, Avqustinin bu qərarı tamamilə Məsihə yolverilməzdir. İsa başqa bir adama və ya hakimiyyətə daha çox sadiq olmağa bizə icazə verməyəcək. Əgər dünyəvi padşah bizə İsanın təliminə zidd olan bir əmri verirsə, biz ona deyil, Səmavi Padşahımıza tabe olmalıyıq.

Konstantinin hibridi Məsih qarşısında məsihçiləri istənilən fərdi məsuliyyətdən azad edir, çünki nəyə inanmalı və nə etməli olduğumuzu kilsə qərara alır. Kilsəyə itaət edəndə biz guya təqsirdən azad oluruq. Oxşar şəkildə, başqalarını öldürməyin, işgəncə verməyin və ya qarət etməyin müvafiq vaxtını bizə dünyəvi hakim deyir. Dünyəvi hökumətimizə itaət ediriksə, onda guya İsanın qarşısında günahsızıq. O vaxtdan etibarən yüz minlərlə məsihçi başqa adamları və ya Məsihdə öz qardaşlarını öldürərək heç bir mənəvi məsuliyyət hiss etmirdi. Onlar, sadəcə, əmrləri yerinə yetirirdilər.

Əksər «məsihçi» hökumətləri tələb edir ki, əsgərlər zabitlərin əmrlərinin mənəvi qüsursuzluğuna şübhə etsələr belə, onlara itaət etsinlər. Məsələn, çarlıq dövründə Xristian Rusiyada əsgərlərdən bunlar tələb olunurdu:

> «**Maddə 87.** Zabitin əmrini dəqiq və hökmən yerinə yetirmək bu deməkdir: əmrin yaxşı və ya pis, yaxud yerinə yetirilməsi mümkün olması barədə düşünməmək, lakin onu dəqiqliklə yerinə yetirmək. Yalnız zabit verdiyi əmrin nəticələrinə görə məsuliyyət daşıyır.
>
> **Maddə 88**. Tabe olan şəxs zabitin əmrini yalnız o halda yerinə yetirməməlidir ki, bu əmr onun verdiyi anda, sədaqətə və xidmətinə ziddir».[108]

Bu maddələr məsihçi ölkə tərəfindən verilməsinə baxmayaraq, Məsihin əmrlərinin pozulması qeyd edilmir.[109]

Birləşmiş Ştatların Hərbi Kodeksi öz əsgərlərindən eyni itaətkarlığı tələb edir. Əgər əmrlər Konstitusiyaya,

Birləşmiş Ştatların qanunlarına və ya yuxarıda olan şəxslərin qanuni əmrlərinə zidd deyilsə, əmrlərə itaət etmək gərəkdir.[110]

İsanın Padşahlığının vətəndaşları üçün belə davranış məqbuldurmu? Xeyr. İsa aydın demişdi ki, bizim tam itaətkarlığımız yalnız Ona mənsubdur. O, bizim Padşahımızdır və biz Onun qarşısında şəxsən məsuliyyət daşıyırıq. Dini, dünyəvi və ya hərbi rəislərin buna münasibəti əhəmiyyətsizdir, çünki Padşahımız artıq bu məsələ üzrə Öz fikrini bildirmişdir. Mühakimə vaxtı biz hamımız birlikdə deyil, Hakimilə üz-üzə təkbətək dayanacağıq.

## Şəxsi məsuliyyətin ləğvi

Avqustinin dövründə Pelagian adlı Britaniyadan bir məsihçi Roma dünyası boyu səyahət edir, o dövrün mənəvi zəifliyinə qarşı vəz edirdi. O, İsanın qarşısında bizim şəxsi məsuliyyətimizi düzgün vurğulayırdı. Buna baxmayaraq, o, özü və ya onun davamçıları bir qədər uzağa getdilər. Onlar deyirdilər (və ya bu, onlara aid edilirdi) ki, biz insanlar İsanın əmrlərini mükəmməl tərzdə yerinə yetirə bilərik və bizim lütfə ehtiyacımız yoxdur.

Bu, məsihçiliyin tarixi mövqeyinə ziddir, çünki Allahın lütfü olmasa, heç kim xilas ola bilməz. Eyni zamanda, məsihçilər həmişə öyrətmişdilər ki, biz, həmçinin öz xilasımıza görə məsuliyyət daşıyırıq. Biz dünyadan ayrılmalı və öz cismimizi hər gün çarmıxa çəkməliyik. Xilas adamın Allah ilə əməkdaşlığı nəticəsində mümkündür. Allah qaydanı belə qoyub.

Buna baxmayaraq, öz adətinə görə, Avqustin əks gedərək Pelagiana qarşı çıxdı. O elan etdi ki, biz insanlar Məsihə itaət etməyimiz üçün heç bir gücə malik deyilik, hətta Ona itaət etməyi istəmək üçün kifayət qədər azad iradəyə malik deyilik. Başqa sözlə, xilasımız bizdən asılı

deyil. Avqustin iddia edirdi ki, bizim bəşəri vəziyyətimiz belədir, çünki kainat yaradılmazdan əvvəl Allah əsassız olaraq adamları əbədi xilasa və əbədi həlaka seçdi. Dünyaya gəlməzdən əvvəl bizə verdiyi taleyi biz dəyişə bilmərik.[111]

Ancaq bu, İsanın Müjdəsinin bütün mahiyyətini tamamilə ləğv edir! Avqustinin söylədikləri həqiqidirsə, onda Dağüstü vəzin mənası nə olur? Qum üzərində deyil, qaya üzərində tikməyi bizə məsləhət verən Onun təlimlərinin məqsədi daha nə olur? Əgər Avqustin düzgün deyirsə ki, Onun təlimlərinə itaət etmək üçün biz heç bir gücə malik deyilik və əgər bu qərarı Allah biz doğulmazdan əvvəl artıq veribsə, onda İsa qaya üzərində tikməyə bizi niyə çağırır?

Əgər bizim dözmək üçün gücümüz yoxdursa, onda niyə İsa sona kimi dözənin xilas olacağı barədə bizi xəbərdar etmişdi? Əgər seçim artıq edildisə, İsa yer üzünə İkinci Dəfə Gələndə qoyunları keçilərdən ayırmağı barədə Onun ibrətli hekayəsinin məqsədi nə idi? Əgər fariseylərin və qanunçuların hərəkətləri artıq Allah tərəfindən əvvəlcədən müəyyən edilmişdisə, İsa niyə onları qınayırdı? Əgər fariseylər Allahın onlar üçün yazdığını icra edirdilərsə, daha onları təqsirləndirmək nəyə gərək idi? Bəs bütün Əhdi-Cədiddə başqa xəbərdarlıqların məqsədi nədir? Təbliğimiz kiminsə əbədi taleyini dəyişə bilmirsə, Müjdəni niyə vəz edək?

Mübahisəni udmaq üçün ifrata gedən Avqustin Müqəddəs Kitabı öyrənən hər bir kəsin asanlıqla ifşa edə biləcəyi absurd bir sistemi icad etdi. Müqəddəs Kitabın ayrı-ayrı ayələrindən istifadə edərək və Əhdi-Cədidin qalan hissəsini rədd edərək Padşahlığın Müjdəsini təsdiqləmək qeyri-mümkündür. Ancaq Avqustin öz sistemini məhz bunun – öz fikirlərini sübut edən ayrı-ayrı ayələrin üzərində yaratdı. Təzada görə, Padşahlığın Müjdəsi bütün

Əhdi-Cədidi özündə birləşdirir, İsanın təlimlərini ləğv edərək Müjdənin heç bir hissəsini şərh etmir.

Əslində, Avqustin heç özü də öz təliminə inanmırdı. İnansaydı, Pelagiana cavab verməzdi. Çünki əgər Avqustinin təlimi doğrudursa, Pelagianın nə öyrətdiyinin fərqi nədir? Onların doktrinaları heç kimin Allah ilə münasibətinə təsir göstərə bilməzdi. Onda niyə Avqustin bidətçilərin və ayrılıq salanların təqib olunmasının tərəfdarı idi? Axı onların səhv təlimləri heç kəsə zərər yetirə bilməzdi. Heç kəs onlara görə xilası itirməzdi, bir halda ki, hamının xilası kainat yaradılandan əvvəl müəyyən edilmişdi.

Beləliklə, Padşahlığın Müjdəsinə görə, Əhdi-Cədid savadsız məsihçinin oxuya bildiyi və olduqca hərfən itaət edə bildiyi açıq kitabdır. Buna baxmayaraq, Konstantinin hibridinin və Avqustinin ilahiyyatının dövründə Əhdi-Cədid yalnız ilahiyyatçılar tərəfindən düzgün şərh edilə bilən kitab idi.

# 27

# Məsihin adından saxtalaşdırma

Qərbi Roma İmperiyasının süqutu ilə onunla ittifaqda olan Nominal Kilsə dağılmadı. Faktiki olaraq, Romanın süqutu Kilsənin gücünü daha da artırdı. Qərbi Roma İmperiyasının iflasından sonra Kilsə Qərbi Avropada sivilizasiyanın əsas təşkilatı oldu. German işğalçıları Qərbi kiçik «məsihçi» padşahlıqlarına böləndə Romanın yepiskopu əvvəllər Roma imperatoruna məxsus olan statusu özünə götürdü. İndi o, «Roma papası» kimi tanındı və Qərbdə ən güclü şəxslərdən biri oldu.

Əsrlər keçdikcə Roma Katolik Kilsəsi var-dövlətdə və gücdə böyüməyə davam etdi. Roma Qərbi Avropanın əsas şəhəri olaraq qaldı, ancaq indi onun əsas gəlir mənbəyi Kilsə idi. Hər il minlərlə zəvvar Romada Müqəddəs Peterin Kilsəsini və Peterin qəbrini görmək üçün Romaya səyahət edirdi. Romanın mehriban «məsihçiləri» bu zəvvarlardan xeyli gəlir əldə edirdilər. Bütün Romada məsihçilər çarmıxın hissələrini, müqəddəslərin sümüklərini və müqəddəs sayılan başqa əşyaları satırdılar.

Konstantinin hibridinə müvafiq olaraq, Roma papası indi iki müxtəlif vəzifəyə malik idi. O, yer üzündə Romanın

hakimi, həmçinin Roma Katolik Kilsəsinin ümumdünya yepiskopu idi. Roma papasının dünyəvi hakimiyyətinə haqq qazandırmaq üçün papanın din xadimlərindən biri 750-ci ildə bir sənədi saxtalaşdırdı. Bu sənədə görə, Konstantin öz dünyəvi padşah rütbəsini Romanın yepiskopuna və bu dünyanın sonuna qədər onun varislərinə ötürürdü. «Konstantinin hədiyyəsi» adı ilə tanınan bu saxta sənəd orta əsrlərdə Avropada yaşayan hər kəsi aldatdı. Bu saxta sənəddə deyilir:

> «…İmperator səlahiyyətimizdən istifadə edərək, biz [yəni Konstantin] ən müqəddəs Roma Kilsəsinə böyük hörmət göstərməyi, bizim İmperiyadan və dünyəvi taxtımızdan çox müqəddəs Peterin müqəddəs taxtını izzətli hesab etməyi əmr edirik. Hakimiyyəti, izzətin şərəfini, qüdrəti və imperiyanın şərəfini ona veririk…
>
> Bu mövcud olan sənədlə bu andan etibarən biz yer üzündə bütün sarayları üstələyən təmtəraqlı Lateran sarayımızı, eləcə də bizim başımızdakı tacı və baş bəzəyini, həmçinin bənövşəyi libası, qırmızı geyimi və bütün İmperatorun geyimlərini təltif edirik…
>
> Beləliklə, baş yepiskopun hakimiyyətinin kiçilməməsi üçün, lakin bizim İmperiyamızın şərəfi və hakimiyyətimizin qüruru ilə müqayisədə daha da gözəl olması üçün həm yuxarıda adını çəkdiyimiz sarayı, həmçinin Roma şəhərini, rayonları və bütün əyalətləri ilə birgə İtaliyanın şəhərlərini və Qərbi hissələrini adı dəfələrlə çəkilmiş ən müqəddəs, ümumdünya Roma papası olan atamız Silvestrə və onun varislərinə veririk və onların səlahiyyətində və mülkündə qoyuruq…».[112]

Beləliklə, Roma papası öz dünyəvi hakimiyyətini yalnız Roma üzərində deyil, həmçinin bütün İtaliyanın və «Qərbi regionların» üzərində də elan etdi.

## Saxtalaşdırılmış hədiyyənin istifadəsi

755-ci ildə «lanqobardlar» adlandırılan German xalqı İtaliyanın böyük hissəsini işğal etdi. Roma papası qorxdu ki, onlar Roma şəhərini də ələ keçirərlər. Nəzərə alın ki, lonqobardlar yaxşı «məsihçilər» idilər, ancaq bunun məsələyə heç bir aidiyyəti yox idi. Katoliklər tərəddüd etmədən başqa katoliklərin torpaqlarını işğal edir və ya onları öldürürdülər. Beləliklə, lanqobardların Romanı da ələ keçirəcəklərindən qorxan Roma papası Stefan frankların padşahı Pepindən kömək istəmək üçün Qalliyaya səyahət etdi. Roma papası Pepinə Konstantinin saxta sənədini göstərdi və yaxşı məsihçi padşah olan Pepini İtaliya şəhərlərini müqəddəs Peterə və onun varisləri olan Roma papalarına «qaytarmağa» inandırdı. Franklar Roma papasına inanıb köməyə gəldilər, lonqobardları məğlub edib Roma papasına iyirmi İtaliya şəhərini qaytardılar. Sonralar bu ərazilər «Papanın vilayəti» kimi tanındı.

Əlbəttə, Papanın vilayətindən böyük vergi gəlirləri və dünyəvi hakimiyyət dinsiz adamlarda Roma papasının vəzifəsini ələ keçirmək arzusunu həvəsləndirdi. Romada səlahiyyətli ailələrin müxtəlif hissələri «Peterin taxtını» əldə etmək üçün bir-biri ilə mübarizə aparırdı. Bir il ərzində dörd adam papanın taxtını tutdu, lakin əvvəlki papaların heç biri öz ölümü ilə ölmədi.

## İki padşahlıq, iki ad

954-cü ildə döyüşə hazırlaşan Roma hakimi Alberik gözlənilmədən ölümcül qızdırmaya tutuldu. Tezliklə öləcəyini başa düşərək Alberik bütün zadəganları müqəddəs Peterin qəbrinin yanında topladı. Orada o, hamını Peterin sümüklərinə and içdirdi ki, ölümündən sonra onun on beş yaşındakı oğlu Oktavianı hakim seçəcək, Roma papası

öləndən sonra isə Oktavianı onun varisi edəcəklər. Zadəganlar ona and içdilər.

Beləliklə, on beş yaşında olan Oktavian Romanın hakimi, bir ildən sonra isə Roma papası oldu. Roma hakimi ilə Roma papası arasında fərq qoymaq üçün Oktavian özünü Roma papası kimi XIII İoann adlandırmağı əmr etdi. Roma hakimi olaraq, Oktavian öz adından istifadə edirdi. İki padşahlığı idarə edirsə, niyə də iki ada malik olmasın? O vaxtdan etibarən, bütün Roma papaları ikinci ad götürməyə başladılar.

Oktavian (Roma papası III İoann) silahlı başkəsənlərin bandaları ilə özünü əhatə etməklə öz papalığını və öz hakimiyyətini qoruyurdu. O qədər günahkar idi ki, bir tarixçi onu «məsihçi Kaliqula» adlandırmışdı.[113] O, sərxoşluq edir, qumar oynayır və hər cür əxlaqsızlıq edirdi. Əslində, o, Lateran Sarayını fahişəxanaya döndərdi. Müasirləri onu Müqəddəs Peterin Kilsəsinin daxilində qadın zəvvarları zorlamaqda təqsirləndirirdilər.

Nəhayət, Alman padşahı Ottonun yardımı ilə bəzi kahinlər və yepiskoplar Roma papası III İoannı dini məhkəməyə vermək üçün şura çağırdılar. Buna baxmayaraq, Roma papası III İoann məhkəməyə gəlməkdən imtina etdi və təhlükəsiz bir yerdə gizləndi. Alman orduları gedən kimi Roma papası Romaya qayıtdı və ona qarşı şurada şahidlik etmiş ruhanilərə öz qəzəbini tökdü. Bir kahin ölənə qədər döyüldü. Başqasının dili kəsildi, üçüncü kahinin əli kəsildi, dördüncü ruhaninin isə burnu və barmaqları kəsildi.[114]

## Bu qəddarlar əslində kimlər olublar?

Roma papalarından bəziləri çox böyük günahkar olduqlarına baxmayaraq, kilsə heç vaxt onların qətllərinə və əxlaqsızlıqlarına görə onları cəzalandırmırdı. Yalnız

Roma papalarının rəqibləri onları öldürür və ya vəzifədən uzaqlaşdırırdı.

Ətrafında pozğunluğa və qanunsuzluğa fikir verməyən kilsə var gücü ilə «bidətçilərə» hücum etdi. Amansız işgəncələrdən sonra onlar nəm, qaranlıq və dəhşətli zindanlara atılırdılar. Kilsə özü də çox vaxt vəhşi üsullardan istifadə edərək bidətçiləri öldürürdü. Kilsənin qurbanlarının bəziləri, doğrudan da, səhv doktrinaya inanırdılar. Digərləri isə yalnız Romanın səlahiyyətinə şübhə edən səmimi katoliklər idilər. Bir çox «bidətçi», faktiki olaraq, öz Padşahına itaət etməyə cəhd edən Padşahlıq məsihçiləri olub.

1215-ci ildə qəbul edilmiş bu Alman qanunu bidətçilərə qarşı qüvvədə olan orta əsr qanunlarının bir nümunəsidir:

> «Bir kəs bidətçi hesab olunursa, o, dini məhkəmə qarşısında ittiham edilməlidir, çünki onun məsələsinə ilk növbədə ruhanilər tərəfindən baxılmalıdır. İttiham olunandan sonra o, dünyəvi məhkəməyə ötürülməli, dünyəvi məhkəmə isə onu tonqalda yandırılmaq cəzasına məhkum etməlidir. Əgər hakim onu müdafiə etsə və ya istənilən qeyri-qanuni güzəştləri etsə, onu məhkum etməsə, hakim ən ciddi formada kilsədən kənar edilməlidir».[115]

Bu qanunda daha sonra deyilir ki, bidətçini müdafiə edən və ya onu təqib etməyən zadəgan və ya digər hakim kilsədən kənar edilməli, bütün mülkiyyətindən və hüquqlarından məhrum olunmalıdır.

1229-cu ildə Tuluza Sinodu bidətçinin təqibinə və cəzalandırılmasına aid qırx beş bənddən ibarət olan qanunu qəbul etmişdi. O bəndlərdən bəziləri bunlardır:

- Hər bir şəhərdə və ya kənddə yepiskoplar kahini və yaxşı şöhrətli iki və ya daha çox imanlını and ilə məcbur etməlidirlər ki, onlar səylə, sədaqətlə

və daima öz kilsələrində, şübhəli evlərdə, zirzəmilərdə, tikintilərdə və başqa gizli yerlərdə bidətçiləri axtarsınlar.

- Bidətçinin tapıldığı ev dağıdılmalı, mülkiyyət isə müsadirə edilməlidir.
- Ölüm qorxusu və ya istənilən başqa səbəbə görə kilsəyə qayıdan hər bir kəs yepiskop tərəfindən həbs edilməlidir.
- Kilsə üzvlərinin hamısı Katolik inamını saxlayacaqlarına və var gücləri ilə bidətçiləri təqib edəcəklərinə yepiskopa and içməlidirlər. Bu and hər iki ildən bir yenilənməlidir.[116]

## «Dövr» kilsənin hərəkətinə bəraət gətirirmi?

Bu gün Roma Katolik Kilsəsi etiraf edir ki, orta əsrlərdə bidətçiləri təqib edərək kilsə ədalətsizlik etmişdi. Buna baxmayaraq, katoliklər kilsənin rəftarına bəraət qazandırmağa çalışır və orta əsrlər cəmiyyətinin normaları çərçivəsində hərəkət etdiyini deyirlər. Müasir cəmiyyət kimsənin tonqalda yandırılmasına izin verməz, ancaq orta əsrlər cəmiyyəti bunu istəyirdi. Kilsə isə o dövrün ictimai normalarına, sadəcə, riayət edirdi.

Bu, kilsəyə bəraət qazandırırmı? Xeyr. İsanın bizə verdiyi əmr və qaydalar dəyişməzdir. Onlar cəmiyyətin fikrinə uyğunlaşdırılmır. *«İsa Məsih dünən, bu gün və əbədi olaraq eynidir»* (İbr.13:1). Allahın Padşahlığı bu dünyadan olmadığına görə Padşahlığın tələblərini pozan ictimai normalar Səmavi Padşahlığın vətəndaşları üçün mənasız olmalıdır. Yaşadığı cəmiyyətin normasına uyğun olaraq bütlərə pərəstiş edən məsihçini heç kim bağışlamaz. İsa bizə demədi: «Hökumət və kilsə düşmənlərinizi işgəncə verməyi əmr etmirsə, düşmənlərinizi sevin».

V hissə

# Padşahlığın məsihçisi olmağı qanun qadağan edəndə

# 28

# Yeraltı Padşahlıq

Bu kitabın əvvəlki bölməsində biz Konstantinin hibridinə, hibrid-kilsəsinin nəyə iman etdiyinə və necə hərəkət etdiyinə diqqət yetirdik. Həmçinin «məsihçi» dövlətin siyasətinə nəzər saldıq. Bu kitabın sonuncu bölməsində isə biz nominal kilsənin mənəvi düşkünlüyünə baxmayaraq, Allahın Padşahlığının böyüməsi barədə danışacağıq.

## İmperatorun kilsəyə nə aidiyyəti var?

Əvvəllər mən donatistlərin mənşələrini müzakirə etdim. Gördük ki, onların başlanğıcları çox da tərifəlayiq deyildi. Bu hərəkatın təmsilçiləri Konstantinin nominal kilsəyə verdiyi üstünlükləri əldə etməyə çalışırdılar. Onlar tərəddüd etmədən öz dini münaqişələrinə müdaxilə etməyi imperatordan xahiş etdilər.

Buna baxmayaraq, məhkəmə qərarlarının hamısı donatistlərin xeyrinə olmadı. Bunun üçün onlar geri çəkilərək nominal kilsənin vəziyyətini yenidən qiymətləndirdilər. Kilsənin artıq müqəddəs olmadığı aşkar olundu. O, indi zəngin və səlahiyyətli şəxsləri dəstəkləyən dünyəvi təşkilat olmuşdu. Nəticədə, donatistlər imperatorun onları tanımasını daha istəmədilər. Donatist özü dedi: «İmperatorun

kilsəyə nə aidiyyəti var?»[117] Beləliklə, donatistlər Allahın Padşahlığını yenə üstün tutmağa başladılar.

Donatizm, demək olar ki, Şimalı Afrikanın sərhədlərindən kənara çıxmadı. Orada o, nominal kilsə və ya Katolik Kilsəsi ilə yan-yana mövcud idi. Buna baxmayaraq, bunların arasında diqqətəlayiq fərq var idi. Kafolik Kilsəsinin üzvləri şəhərdə yaşayır, təhsil alır, zəngin olmağa meyilli idilər. Donatistlər isə kasıblardan ibarət idilər. Bu cəhətdən onlar Konstantinin dövründən müasir vaxta qədər «Padşahlıq hərəkatlarına» məxsus olanlara bənzəyirdilər.

## Kilsədə Padşahlığın həyat tərzini yaşayaraq

Konstantinin dövründən başlayaraq, Padşahlıq məsihçilərinin yalnız donatistlər kimi qruplarda olduqlarını hesab etmək düzgün olmazdı. Əlbəttə, Novatianistlər kimi başqa Padşahlıq kilsələri də var idi. Ancaq buna baxmayaraq, Padşahlıq məsihçilərinin əksəriyyəti Katolik Kilsəsinin daxilində qaldı.

Roma Katolik Kilsəsi Avqustinin təlimlərinin əksəriyyətini qəbul etsə də, onun xilasın əvvəlcədən müəyyən edilməsi haqqında təlimini qəbul etmirdi. Nəticədə, bir çox yerlərdə Məsihə itaətkarlıqla yaşamağı öyrədirdilər. Lakin İsanın Padşahlıq haqqında təlimlərinə riayət etməyə hamını çağırmaqdansa, Katolik Kilsəsi buna yalnız «mükəmməl» olmaq istəyənləri çağırırdı. Dövlət Kilsəsi belə məsihçi «mükəmməlliyi» həvəsləndirirdi, lakin bu, kilsənin nəzarəti altında baş verməli idi. Nəticədə, orta əsrlərdə yaşamış on minlərlə məsihçi İsanın təlimlərinə riayət edirdi.

Assisili Frensis və Kempisli Tomas kimi belə məsihçilərin əksəriyyəti dini orden və ya cəmiyyətin himayəçiliyi altında bu həyat tərzini yaşayırdılar. Onlar sakit həyat yaşayır, dua edir, ətrafdakılara məhəbbətlə xidmət edirdilər.

Padşahlığın digər məsihçiləri hökumətin diqqət mərkəzindən uzaqda olan savadsız kəndlilər, şəhərdə yaşayan və ailədə İsanın təlimlərinə uyğun yaşayan evdar qadınlar olublar.

Əlbəttə, zahiri həyatları ilə Padşahlıq məsihçilərindan fərqlənməyən bir çox adam da var idi ki, əslində onlar Məsihlə həqiqi münasibətlərə malik deyildilər. Bəziləri asketik həyat tərzi ilə səmalarda yer qazanmağa ümid edirdi, digərləri ikiüzlülər və fırıldaqçılıqlar idilər. Ancaq əsl Padşahlıq məsihçilərinin sayı az olmayıb.

## Padşahlıq ilə nominal Kilsə arasında toqquşma

Artıq qeyd olunduğu kimi, Katolik Kilsəsi Padşahlıq həyatını yaşayan şəxslərə adətən etiraz etmirdi, təkcə onlar mövcud olan dini sistemi pozmamalı idilər. Buna baxmayaraq, Padşahlıq məsihçiləri Padşahlıq Müjdəsini vəz etməyə başlayanda və ya dövlət Kilsəsini islah etməyə cəhd edəndə kilsənin daşı onların üzərinə düşürdü.

Bir nümunə – dünyəvi Kilsəni islah etməyə cəhd etmiş, on ikinci əsrdə yaşamış İtaliya ruhanisi Breşianlı Arnolddur. O israr edirdi ki, Roma papasından kəndliyə qədər ruhanilərin hamısı həvarilər kimi yaşamalıdırlar. O, bəzi ruhaniləri «alver edənlər və quldurlar» adlandırırdı; əsl həvari missiyasına tam etinasızlıq göstərən papa sistemini ittiham edirdi. Arnold Kilsəni bütün dünyəvi hakimiyyətdən imtina etməyə və özünü Məsihin Müjdəsinə həsr etməyə çağırırdı.[118]

Kilsənin cavabı nə oldu? Roma papası Arnoldu asmağa, sonra onun bədənini yandırmağa, külünü isə Romadan axan Tibr çayına tökməyi əmr etdi.

Arnoldun İtaliyada vəz etdiyi vaxtda cənubi Fransanın şəhər və kəndləri boyu ayaqyalın gəzən kasıb kahin Pyer de Byürinin yoxsullardan ibarət olan bir çox davamçıları

var idi. O öyrədirdi ki, kilsə binaları lazımsız xərcdir; Kilsə – ruhani birlikdir və o, binalara ehtiyac duymur. O həmçinin öyrədirdi ki, ölülərin xeyrinə edilən işlər gərəksizdir. O, Katolik Messa ibadətinə və təkrarlanan dualara qarşı da vəz edirdi. O, öz dinləyicilərini xaça hörmət etməməyə, xaça və ya ikonalara sitayiş etməməyə çağırırdı. Faktiki olaraq, o, onları bütpərəstliyə aid əşyaları məhv etməyə həvəsləndirirdi.[119]

Pyer öz dinləyicilərinə dörd Müjdəni oxuyur, əsl Padşahlığı vəz edirdi. Təəssüf ki, onun davamçılarının bəziləri pisliyə müqavimət göstərməməyə aid təlimi tam qavramadılar. Onlar mehrab və ikonaları sındırır, xaçları yandırır, kilsə binalarını qarət edirdilər. Orta əsrlərin Padşahlıq vaizlərinin əksəriyyəti kimi, Pyer axırda katolik rəqibləri tərəfindən yandırıldı.

Orta əsrlərdə yaşamış Padşahlıq vaizlərinin sonuncu nümunəsi Lozanlı Henridir. O, on ikinci əsrin əvvəlində bütün Şimali Fransada Allahın Padşahlığını vəz edir, zəngin ruhaniləri ifşa edirdi. O, bütün dinləyicilərini katolik kilsələrində iştirak etməməyə çağırırdı. Onun alovlu vəzləri və ifşaları xüsusilə kasıblar arasında qəbul olunurdu. Nəhayət, zadəganların dəstəyi ilə, kilsə Henrini Şimali Fransadan qovdu.

Onda Henri Cənubi Fransada, Şimali İtaliyada vəz etməyə başladı və imanlıları erkən kilsənin sadəliyinə qayıtmağa çağırdı. Henri üçün yeganə səlahiyyət dövlət kilsəsi deyil, Əhdi-Cədid idi. O, məsihçilərə deyirdi ki, onlar öz günahlarını Allaha və bir-birinə etiraf etməlidirlər; kahindən dini cəza alaraq günahlarının bağışlanmansını əldə etmək zəruri deyildi. Minlərlə kasıb Henrinin vəzini qəbul etdi və öz həyatını İsada və Onun Padşahlığında yaşamağa başladı.

On ikinci əsrin ortası ərəfəsində Lozanlı Henri tarixi yazılardan yox oldu. Onun təbliği nə qədər davam etdi və bidət ovçularından xilas ola bildimi? Biz bunu bilmirik. Yalnız bunu bilirik ki, onun təbliği böyük bəhrə gətirdi.[120]

## Orta əsrlər məsihçilərinin ümumi xüsusiyyətləri

Həm ayrı-ayrı imanlılar, həm də orta əsrlərin Padşahlıq hərəkatlarının üzvləri – Padşahlıq məsihçilərinin hamısı bu iki xüsusiyyətə malik idi:

Birincisi, onların əksəriyyəti kasıb və təhsilsiz siniflərdən gəlirdi. Təəccüblü deyil, çünki İsa Özü demişdi: «*Nə bəxtiyardır ruhən yoxsullar!*» (Luka 6:20)* Bu dünyada, demək olar ki, heç nəyə malik olmadıqlarına görə hər şeyi tərk etmək onlar üçün asan idi. Həqiqətən, Səmavi Padşahlıq onların idi. Müqəddəs Kitabda təsvir edilən Padşahlığın sadə həqiqətlərini görən bu sadə adamlar ilahiyyatla bağlı təfərrüatlara və xırdalıqlara aid mübahisələrdən uzaq idilər. İsa demişdi: *«Bu şeyləri müdrik və dərrakəli adamlardan gizlədib körpələrə agah etdin»* (Mat.11:25).

İkincisi, onlar üçün yeganə səlahiyyət Əhdi-Cədid olub, xüsusilə də İsanın təlimləri. Padşahlığın bəzi məsihçiləri ilahiyyat təhsilli olub, əksəriyyəti isə olmayıb. Adətən, bu Padşahlıq məsihçiləri İsanın təlimlərini oxuyur və ya sadəcə, dinləyir, sonra isə onları tətbiq edirdilər.

Padşahlıq məsihçiliyinin mahiyyəti də həmişə elə bu olub.

* Bu ayəyə aid qeydi beşinci fəsildə oxuyun.

# 29

# Valdeslər

Təxminən 1170-ci ildə Fransanın səs-küylü Lion şəhərlərində başlayan Valdeslər hərəkatı orta əsrlərin ən böyük Padşahlıq hərəkatı olub. Burada zənginliyindən zövq alan və şəhər əyanları ilə oturub-durmağı sevən Valdes* adlı varlı bir tacir yaşayırdı. O, hər həftə kilsəyə gedən yaxşı katolik idi.

Bir gün kilsədən qayıdan Valdes bir şairə rast gəldi. O, Aleksi adlı dördüncü əsr məsihçisi haqqında ballada oxuyurdu. Aleksi varlı Roma senatorunun oğlu idi və o, pozğun bütpərəst idi. Toy günü Məsih Özünü gözlənilmədən Aleksiyə agah etdi. Yeni insan olmuş Aleksi ailəsini, var-dövlətini və gəlinini tərk etdi; o, balaca yol çantası ilə bütün Avropadan keçərək Suriyaya getdi. Orada o, dua və oruc ilə başqalarına xidmət edərək və İsanın sevgisi ilə bölüşərək həyatının əksər hissəsini keçirtdi. O, Məsihə görə kasıblığa və böyük əzablara dözdü.

İllər sonra xəstə və əlil Aleksi evinə, Romaya qayıtdı. Lakin ailəsi və dostları onu tanımadılar, çünki indi o, bir dilənçiyə oxşayırdı. Beləliklə, Aleksi kim olduğunu heç kimə söyləmədi; atasının evində nökər oldu və pilləkənin

---

* Fransız dilində — Valdes. Bəzi kitablarda o Pyer (Peter) Valdo adlanır. Lakin məlum olunana görə, bu, onun əsl adı deyil.

altında kiçik bir otaqda yaşamağa başladı. O, hamıya Məsihin sevgisi ilə xidmət edərək daha on yeddi il yaşadı. Aleksi öləndə ailəsi onun şəxsi əşyaları arasında gündəliyini tapdı və onda onun əslində kim olduğunu başa düşdülər.

Bu hekayə Valdesə çox təsir göstərdi və daxilində ruhani böhran başladı. Vicdanı çox narahat olduğundan, Valdes məsləhət üçün yerli kahinin yanına getdi, ona ürəyini açdı. Bir neçə saat ərzində Valdesə diqqətlə qulaq asandan sonra kahin Müqəddəs Kitabı açdı və Matta 19-cu fəsildən oxudu: «*Əgər kamil olmaq istəyirsənsə, get, əmlakını sat və yoxsullara payla. Onda göylərdə xəzinən olacaq. Sonra qayıt, Mənim ardımca gəl*» (Mat.19:21).

Evə gedən yolda ikən bu sözləri hələ də Valdesun qulaqlarında səslənirdi. Onun var-dövləti daha ona xoşbəxtlik gətirmirdi. Əksinə, onun boynunda ağır zəncirə bənzəyirdi. Bir gün sevinc və ruh yüksəkliyini yaşayan Valdes var-dövlətin ağır zəncirini atmağı qərara aldı. O, **Məsihin şagirdi** olmaq və Səmavi Xəzinədən zövq almaq istədi.

Əvvəlcə Valdes öz var-dövlətinin bir hissəsini Əhdi-Cədidin hissələrini Lionun ətrafında yaşayan əhalinin yerli ləhcəsinə tərcümə etmək üçün istifadə etdi. Müqəddəs Yazılar ilə silahlanandan sonra o, mülkiyyətinin qalığını ehtiyacı olanlara verdi.

Var-dövlətini paylayaraq, Valdes Lionun sakinlərinə deyirdi: «Yoldaşlar, dostlar! Mən dəli deyiləm. Bu yükdən özümü azad edirəm. Var-dövlət məni Allahdan çox pulu sevməyə məcbur edirdi. Mən bunu həm özümə, həm də sizə görə edirəm. Özümə görə edirəm, çünki bir gün yenə var-dövlət sahibi olsam, siz məni əsl axmaq adlandırarsınız. Sizin üçün edirəm ki, siz də var-dövlətə deyil, Allaha ümid bağlayasınız».[121]

Valdes Lion şəhərində hər kəsə Padşahlığın sadə Müjdəsini vəz edirdi. Onun səmimi və böyük inamı sakinlərin bir çoxuna təsir göstərdi. Tezliklə bir dəstə tərəfdar onun ətrafına yığışdı. Onlar özlərini «Ruhən yoxsullar» adlandırdı və İsanın hər bir sözünə itaət etmək istəyirdilər. Güzəştə yol verməyən onlar həqiqi şagirdliyin sevincini dadmağı qərara aldılar. Allahın Padşahlığı Liona gəlib çatmışdı və heç kəs ona laqeyd qala bilmədi!

Valdes və onun şagirdləri yeni kilsə yaratmaq fikrində deyildilər. Faktiki olaraq, onlar Katolik Kilsəsinə qarşı çıxmaq və ya onu tənqid etmək arzusuna da malik deyildilər. Onlar Katolik Kilsəsinin sıralarında əsl məsihçi kimi yaşamaq və başqaları ilə öz sevincləri ilə bölüşmək istəyirdilər. Onlar yeni doktrinaları öyrətmir, ancaq İsanın sözlərini, sadəcə, vəz edirdilər. Bəzi varlı və oxumuş adamlar da «Ruhən yoxsullara» qoşulsa da, əksəriyyət kasıblardan ibarət idi.

«Ruhən yoxsullar» Katolik Kilsəsi daxilində dini cəmiyyət olaraq qala bilərdi. Lakin onların bəzi əqidələri var idi. Birincisi, onlar dövlət kilsəsindən icazə almırdılar. İkincisi, onlar rahib tənhalığında bekar oturmaq niyyətində deyildilər. Onlar Lionun vətəndaşları qalaraq kilsələrdə, ictimai yığıncaqlarda, meydanlarda və bazarlarda vəz etmək istəyirdilər.

Valdesun ilk şagirdlərindən biri yazırdı: «Qəbul etdiyimiz qərar budur: Allaha imanı və kilsənin ayinlərini ölənə qədər qoruyub saxlamaq … Allahın lütfü ilə biz vəz etməyi qərara almışıq. Bizi heç nə dayandırmayacaq».[122] Onlar dövlət kilsəsinin təlimini alçaltmaq və ya özləri ilə müqayisə etmək niyyətində deyildilər. Faktiki olaraq, onlar öz dinləyicilərini daha səmimiyyətlə kilsəyə getməyə həvəsləndirirdilər. Kilsə buna necə etiraz edə bilərdi?

Lakin tezliklə, Valdes və «ruhən yoxsullar» dini sadəlövhlüklərindən oyanmağa məcbur oldular. Katolik Kilsəsi onların həyat tərzinə etiraz etmirdi. Kilsə onları «mükəmməllik» yolu ilə gedən adamlar hesab edirdi. Bu, zəruri olmasa da, yaxşı idi. Kilsə həmçinin onların təlimlərinə etiraz etmirdi, çünki onların heç bir təlimi yox idi.

Buna baxmayaraq, savadsız və ruhani rütbəsi olmayan «ruhən yoxsullar»ın küçələrdə vəz etməsi arxiyepiskopa xoş gəlmədi. Konstantinin vaxtından etibarən, kilsə vəz etmək monopoliyasını qoruyub-saxlamışdı. Əvvəllər qeyd etdiyimiz kimi, hibridin xüsusiyyətlərindən biri ondan ibarət idi ki, yalnız dövlət kilsəsi tərəfindən verilən lisenziyalı kəs Müjdəni vəz edə bilər. Beləliklə, arxiyepiskop Valdesu yanına çağırtdırdı. Sonra o, «ruhən yoxsullar»ın vəz etmələrini dayandırmalarını tələb etdi. Valdesu ciddi şəkildə töhmətləndirəndən sonra arxiyepiskop ona dedi ki, təbliği yalnız ruhanilər edə bilərlər.

Minlərlə adamın taleyi indi həll olunurdu. Valdes yaxşı katolik kimi deyə bilərdi: «Bəli, müqəddəs ata, dediyiniz kimi olacaq». Valdes və «ruhən yoxsullar» Kilsənin hakimiyyətinin altında Padşahlıq həyat tərzini yaşamaqda davam edə bilərdilər. Ancaq Valdes vəz etməyi dayandırmaqla razılaşa bilməzdi. Arxiyepiskopun təəccübünə səbəb olaraq, Valdes onun gözlərinin içinə düz baxdı və qorxmadan cavab verdi: «Xeyr, İsanın həvariləri kimi həyatı seçən hər kəs vəz etməlidir».[123]

Aydındır ki, Valdes arxiyepiskopu qəzəbləndirərək özünü çox təhlükəli vəziyyətə qoymuşdu. Ancaq Valdes hələ də Katolik Kilsəsinə sadəlövh kimi inanırdı. O vaxt Romada Üçüncü Lateran Şurası keçirdi. Beləliklə, Valdes və «ruhən yoxsullar»dan bəziləri Roma papasına onların məsələsini şəxsən təqdim etmək üçün Romaya yollandılar. Roma papası onları səmimiyyətlə qəbul etdi və Müjdə

tərcümələrini dəstəklədi. O, onların əqidələrini hətta xoşladı da. Ancaq dedi ki, təbliğ haqqında istənilən qərarı onların yerli yepiskopları qəbul etməlidirlər.

Şura nümayəndələrindən biri «ruhən yoxsullar»ın başqalarına vəz etmək arzuları ilə maraqlandı. Bu, İngiltərəli lovğa bir rahib Uolter Map idi. O və digər nümayəndələr «ruhən yoxsullar»ı görmək istədilər. Onlardan soruşdular:

«Siz Ata Allaha inanırsızmı?»

«Bəli», – deyə «ruhən yoxsullar» cavab verdilər.

«Bəs, Oğula?»

«İnanırıq».

«Bəs, Müqəddəs Ruha?»

«İnanırıq».

«Bəs, Məsihin Anasına?»

«İnanırıq».[124]

Axırıncı cavabdan sonra Şura nümayəndələri qəhqəhə ilə onlara gülməyə başladılar. Valdes və başqaları çaşdılar, gülüşün səbəbini başa düşə bilmirdilər. Qəhqəhə ilə gülərək, «ruhən yoxsullar»ı Şuradan yola saldılar. Rahib Uolter Map sonra məlumat verdi: «Onların axırıncı cavabı həqarətli gülüşə səbəb oldu və onlar çaşqınlıqda çıxıb getdilər. Heç kim onlara nəsihət vermədi, çünki onlar özləri nəsihətçidirlər!»[125]

Onlar nəyi səhv etdilər? Yüzlərlə il əvvəl Məryəmin Efes Şurasında «Allahın Anası» fəxri mükafatı müəyyən edilmişdi. Beləliklə, onlar «Məsihin Anası»na inandıqları cavabını verməklə ilahiyyat cəhətdən savadsız olduqlarını göstərdilər. Ancaq Müqəddəs Yazılarda Məryəm haqqında «Allahın Anası» deyilmir və «ruhən yoxsullar» yalnız Müqəddəs Yazıları oxuyurdular. Onların bildikləri yalnız Padşahlığın sadə Müjdəsi idi və bu, onlara kifayət idi.

Valdes və onun məsihçi yoldaşları Liona qayıdandan sonra əvvəlki kimi, açıq vəz etməyə davam etdilər.

Onlar yeni təlim öyrədən bidətçi olmadıqlarını yerli kilsə rəislərinə izah etməyə çalışırdılar. Valdes hətta papanın nümayəndəsi tərəfindən təqdim edilmiş «Katolik inamına sədaqət» bəyannaməsini belə, imzalamağa razılaşdı. Sadəcə, Valdes papanın göndərdiyi bəyannaməyə bir bəndi əlavə etdi. O qeyd etdi ki, kasıbçılıqda yaşamasının səbəbi kilsənin «mükəmməllik» yolu ilə getdiyinə görə deyil, İsa Məsihə itaətkarlığa görədir.[126]

Hər halda, kilsə rəisləri Valdesu və «ruhən yoxsullar»ı yenə görmək istədilər. Ruhanilər onlara daha vəz etməməyi söylədilər. Cavabında, Valdes rəislərə Peterin sözlərini əzbər söylədi: «*Özünüz qərar verin, Allaha deyil, sizə qulaq asmaq Allahın gözündə nə qədər doğrudur? Axı eşidib-gördüklərimizi deməyə bilmərik*»[127] (Həv.4:19-20).

Ruhanilər xeyli qəzəbləndilər və mülki rəisləri vasitəsilə Valdesi və «ruhən yoxsullar»ı Liondan qovdular. Buna baxmayaraq, Padşahlıq vaizləri ruhdan düşmədilər. Həvarilər kimi, onlar Məsihin adına görə təqib olunduqlarına sevinirdilər. Beləliklə, onlar Cənubi Fransa boyu küçə və bazarlarda Padşahlığın Müjdəsini vəz edirdilər. Onlar traktatlar yazır və ictimai müzakirələri təşkil edirdilər. Onlar hələ də Katolik Kilsəsi haqqında müsbət danışırdılar.

## «Çarpaz tozlanma»

Tezliklə, Valdeslər (kilsə indi onları belə çağırırdı) əvvəllər bəhs etdiyimiz iki Padşahlıq vaizi – Pyer de Bryui və Lozanlı Henrinin şagirdlərinin bəziləri ilə görüşdülər. Valdes aydın şəkildə gördü ki, bu məsihçilər bidətçi deyillər. Lakin onlar Roma Kilsəsini dünyəvi həyat tərzinə, var-dövlət və hakimiyyət hərisliyinə görə çox tənqid edirdilər. Onlar deyirdilər ki, ikonalara hörmət etmək və ölülər üçün dua etmək Müqəddəs Kitaba uyğun deyil.

Bütün bunlar Valdesə və onun şagirdlərinə yeni idi. Lakin Müqəddəs Kitabın səmimi tələbələri kimi, onlar Müqəddəs Yazıları tədqiq etməyə başladılar və tezliklə başa düşdülər ki, bu tənqidlər düzgün idi. Beləliklə, indi onlar da kilsənin səhvlərini və günahlarını ifşa etməyə başladılar.[128]

Katolik Kilsəsi cəld tədbir gördü. 1184-cü ildə Veron Şurası Valdesləri bidətçi deyil, təfriqəçi elan etdi. Aydındır ki, hiylə sualları ilə onları alçaldan lovğa Uolter Map da bunda iştirak edirdi, çünki sonralar o yazırdı:

> «Bu adamların daimi yaşayış yerləri yoxdur; onlar iki-iki gedir; ayaqyalın və yun tunikalar geyirlər. Onların şəxsi heç nəyi yoxdur, hər şey ümumidir, həvarilərin vaxtındakı kimi. Çılpaq olduqları halda, onlar çılpaq Məsihin ardınca gedirlər. Onların başlanğıcı son dərəcə sadədir, davamçıları azdır. Buna baxmayaraq, onları özbaşına qoysaq, gəlib bizim yerlərimizi tutacaqlar».[129]

Bir daha görürük ki, dindarlar həlim və iddiasız adamların dünyanı kəlləmayallaq döndərəcəyindən qorxurdular. Nəhayət, 1190-cı ildə Kilsə Valdesləri bidətçi elan etdi və onlar rəhmsiz təqib olunmağa və qətlə yetirilməyə başladılar.

Qorxu bilməyən Valdes və onun şagirdləri Cənubi Fransada vəzi davam edirdilər. Sonralar onlar Alp dağlarına keçərək Şimali İtaliyada yerləşən Lombardiyada vəz etməyə başladılar. Burada onlar əvvəlcədən danışdığımız Breşialı Arnoldun davamçıları ilə rastlaşdılar. «Lombard yoxsulları» kimi tanınan bu İtaliya məsihçilərinin əqidələrindən Valdeslərə aydın oldu ki, kilsə dövlətin işinə qarışmamalıdır. Öz növbəsində, Valdeslərin ruhu və səyi «Lombard yoxsullarını» gücləndirdi. Beləliklə, onlar Valdeslərə qoşulmağa razılaşdılar.

Valdeslər bu müjdəçi hərəkatına böyük səy gətirdilər. «Lombard yoxsulları» isə cəmiyyətin prinsipləri ilə hərəkatı sabitləşdirdilər. Birlikdə onlar olduqca böyük inqilabi qüvvə təşkil edirdilər; yeganə silahları Allahın Kəlamı idi. Birlikdə onlar dünyanı kəlləmayallaq döndərməyə hazır idilər!

## Valdeslər tarixi öyrənirlər

Bu iki hərəkat birləşəndən bir qədər sonra Valdes vəfat etdi. Buna baxmayaraq, hərəkat irəliləyirdi, çünki adamlar Valdesin deyil, İsanın davamçıları idilər. İndi Valdeslər kim olduqları və hərəkatlarının məqsədi barədə daha ciddi düşünməyə başladılar. Onlar Katolik Kilsəsinin səhv istiqamətdə olduğunu bilirdilər. Bəs, bu, nə vaxt başladı? Kilsə tarixlərini öyrənən Valdeslər gördülər ki, dönüş nöqtəsi Konstantinin günlərində baş vermişdi.

Valdeslər başa düşdülər ki, kilsənin tarixi iki dövrdən ibarət idi: Konstantindən əvvəl sadiq şahidlik dövrü və Konstantindən sonra xəyanət dövrü. Demək olar ki, Padşahlığın bütün sadiq rəiyyətləri Konstantindən sonra yox olmuşdular? Valdeslər bununla razılaşmırdılar. Onlar iman edirdilər ki, Konstantinin hibridinin zəhəri Məsihin Bədəninin hər üzvünə çatmadı. Sadiq qalıq həmişə olub. Padşahlığın işığı tutqunlaşmışdı, ancaq tam sönməmişdi.[130]

Valdeslər iki padşahlığın təbiətini aydın başa düşdülər. Onlar ya bu dünyanın padşahlıqlarına, ya da Allahın Padşahlığına sadiq ola bilərdilər. Hər iki padşahlığa sadiq qalmaq qeyri-mümkündür. Beləliklə, onlar Allahın Padşahlığına sadiq qalmağı seçdilər.

## Valdeslərin əqidələri

Valdeslərin sadə ilahiyyat sistemi var idi. Onların inamı Padşahlığın Müjdəsinə əsaslanırdı. Onlar İsanın

təlimlərini tam bilərək, insanlara seçim azadlığı barədə vəz edirdilər. Hər kəs öz seçiminə görə məsuliyyət daşıyırdı. Hər kəs Məsihin təlimləri ilə yaşamaq üçün qərar qəbul etməli və sonra bu qərara sadiq qalmalıdır. Onlar deyirdilər: «Məsihə tabe olmayan kəs əsl məsihçi ola bilməz».[131] Onlar İsanın təlimlərinin inqilabi olduğunu və bunlara hərfi riayət etməli olduqlarını bilirdilər. Beləliklə, onlar var-dövlət yığmamağı öyrədirdilər; nə özünümüdafiə, nə də müharibə məqsədləri ilə qılıncdan istifadə etməməyə çağırırdılar.

Orta əsrlər cəmiyyətinin mərkəzi sütununu andların təşkil etməsinə baxmayaraq, İsanın sözlərinə itaət edən Valdeslər and içməkdən imtina edirdilər. Bundan başqa, İsanın öyrətdiyi kimi, çox düzgün idilər. Vaxt keçdikcə, Valdeslər olduqca düzgün adamlar kimi tanındılar. Səhvən Valdeslərə aid edilən bir yazıq katolik inkvizitorlara demişdi: «Mən sizin fikirləşdiyiniz kimi deyiləm. Mən yalan danışanam. Mən yaxşı katolikəm!»[132]

Həqiqi Məsihçilik haqqında Valdeslərin bir yazısı bunu deyir:

> «Yolunu azmış bir çox yalançı məsihçilər yalançılara sərbəstlik verir, həqiqi məsihçiləri təqib edərək onlara nifrət edirlər. Bundan biz görürük ki, onlar yaxşı çobanlar deyil, çünki onlar qoyunu deyil, yalnız yunu sevirlər. Biz Müqəddəs Kitabdan həqiqəti bilirik: İsa Məsihi sevən yaxşı imanlı lənətləməz və and içməz, yalan danışmaz və zina etməz, öldürməz və oğurluq etməz, düşmənindən intiqam almaz…
>
> Deməliyəm ki, Silvestrdən başlayaraq, bütün Roma papaları, kardinallar, yepiskoplar, abbatlar və s. bir kəsin bir günahını belə, bağışlaya bilməzlər. Bağışlayan təkcə Allahdır. Əsl imanlı vəz etməli, adamlarla birgə dua etməli və onları səmavi təlimlə qidalandırmalıdır».[133]

Valdeslər Müqəddəs Kitabı səylə öyrənir, Əhdi-Cədiddə tapılmayan Katolik inamının bütün aspektlərini tərk edirdilər. Əvvəli yaxşı katolik olsa da, nəticədə məhşər, ölülər üçün dualar, Məryəmin və müqəddəslərin havadarlığı, ikonalara və xaçlara ehtiram, ruhanilərin səlahiyyəti kimi Müqəddəs Kitaba əsaslanmayan adət və təlimləri ifşa etməyə başladılar.[134]

## Kəlamı vəz et!

Papa rəisləri tərəfindən təqib olunduqlarına, tutulduqları halda onları işgəncə və ölüm gözlədiyini bildiklərinə baxmayaraq, Valdeslərin müjdəçiləri bütün Avropa boyu hamıya sadə Padşahlıq Müjdəsini yayırdılar. İsa Öz davamçılarına «ata» adlanmağı qadağan etmişdi. Beləliklə, Valdeslər özlərini «barba», yəni «əmi» adlandırdılar. Barbalar adətən iki-iki bütün Avropa boyu vəz edirdilər. Adətən gənc barba tələbəliyi bilavasitə öyrənmək üçün daha təcrübəli barba ilə birləşərək birlikdə səyahət edirdilər. Çox vaxt barbalar kilsə rəislərinin diqqətini cəlb etməmək üçün xırdavatçı kimi səyahət edirdilər.

## Valdeslərə qarşı səlib yürüşü

Təxminən dörd əsr ərzində Valdeslər ov heyvanları kimi yaşayır, kilsənin cəzasının nə vaxt gələcəyini bilmirdilər. Valdeslərin bir çox cəmiyyətləri qılınc ilə yox edildi. Onların axırıncı qalalarından biri Fransa ilə İtaliya arasında sərhəd boyu Alp dağlarında yerləşən Pyemont Vadisi olub. 1488-1489-cu illərdə Reformasiyadan otuz il əvvəl Roma papasının səlib orduları Valdeslərin Alp dağlarındakı qəsəbələrini amansızcasına məhv etdilər.

«Müqəddəs» katolik səlibçilər tapa bildikləri hər bir Valdeslini qəddarcasına öldürür, valideynlərin içalatını çıxarır, uşaqların başlarını qayalara çırpırdılar. Onlar

ataların boyunlarına övladlarının başlarını asıb ölümə getməyə məcbur edirdilər.[135]

Kilsə tarixçisi Uayli yazır:

> «Mədəni ölkələrin tarixində bu amansızlıqlar görünməmiş və unikaldır. Daha çox qanın töküldüyü daha çox qurbanlı faciələr olub, ancaq heç birində zülmkarlar bu dərəcədə qəddar, istehzalar isə bu dərəcədə mənfur, sözlə ifadə edilməz dərəcədə qəddar və murdar olmayıb. «Pyemont qırğını» tarixdə yeganədir».[136]

XVI əsrin əvvəllərində Valdeslərin əksəriyyəti qəddarcasına məhv edilmişdi. Buna baxmayaraq, hərəkat bu dəhşətli təqiblərdən sağ çıxdı. Onlar tək-tək ərazilərdə qalmışdılar. Valdeslər geri çəkilməyə hazırlaşmırdılar. Sağ qalmış cəmiyyətlər yeni və son dərəcə gözəl kəşf olan çap maşınından istifadə edərək dərhal traktatları çap etməyə başladılar.

# 30

# Başqa axın

Orta əsrlər islahat hərəkatlarının hamısı mərkəzdə Padşahlığın Müjdəsini tutmurdu. Padşahlıq «axını» ilə yanaşı, Avqustin tərəfdarlarından ibarət olan islahatçıların axını peyda oldu.

İlk baxışdan, Avqustinə bağlı hərəkatın həqiqi islahat hərəkatı ola bilmədiyi görünə bilərdi. Axı o, Konstantinin hibridinin əsas müdafiəçisi olub. Bəli, bu, düzgündür. Ancaq Avqustinin dövründəki kilsə bir əsrdən az müddət ərzində hibridin hissəsini təşkil edirdi. İllər keçdikcə kilsə İsanın təlimlərindən daha da çox uzaqlaşırdı. Avqustinin dövründə ikonalara, Məryəmə və müqəddəslərə sitayiş təzə-təzə başlayırdı. O vaxt nə papa indulgensiyaları, nə də kardinallar olub. Rəbbin Süfrəsi üçün toplanan adamlara kasadan içməyə icazə verilirdi.

Beləliklə, Avqustinin dövründə məsihçiliyə qayıtmağın özü islahat idi. Lakin bu, Konstantinin hibridi çərçivəsindən kənara çıxmırdı. Buna görə də bu, Padşahlığın Müjdəsinin bərpası deyildi.

## Avqustçu hərəkatının Padşahlıq hərəkatından fərqi

Ümumi fikirləri olsa da, Avqustçu islahat hərəkatı Padşahlıq hərəkatından xeyli fərqlənirdi. Məsələn:

**1. Konstantinin hibridinin qəbulu.** Əvvəldən Avqustçu islahatçılarının hamısı Konstantinin hibridini qəbul edir, kilsənin dövlət ilə ittifaqına etiraz etmirdilər. Faktiki olaraq, onlar həmişə dövlətin səlahiyyətindən istifadə edərək öz islahatlarını həyata keçirməyə çalışırdılar.

**2. Pisliyə müqavimət göstərməməkdən imtina.** Bu islahatçılar kilsənin dövlətlə birləşməsinə etiraz etmədiklərinə görə qılıncdan istifadəyə etiraz etmirdilər. Onlar qılıncın dövlətin fəaliyyətində zəruri olduğunu etiraf edirdilər. Dövlət kilsə ilə bir olduğuna görə kilsə üzvlərinin müharibədə, ölüm cəzasında və işgəncədə iştirak etməsinə etiraz etməməli idi.

**3. Başqa Padşahlığın təlimlərindən imtina.** Avqustçu hərəkatlarının hamısı həmişə eyni formanı götürürdü: Əhdi-Ətiq mənəviyyatının və həyat tərzinin üzərinə qoyulmuş Əhdi-Cədidin (ehtimal edilən!) ilahiyyatı. Avqustçu islahatçılar İsanın var-dövlətə və anda aid təlimlərini hərfən qəbul etmirdilər. Onlar dünyadan ayrılmaq haqqında heç danışmırdılar. Buna baxmayaraq, Avqustçu islahatçılar Avqustinin ölümündən sonra Roma kilsəsinin Müjdəyə etdiyi əlavələri qəbul etmirdilər. Avqustinin ölümündən əvvəl isə edilən dəyişikliklərin əksəriyyətini qəbul edirdilər.

**4. Həyat tərzinin deyil, ilahiyyatın üstünlüyü.** Avqustçu hərəkatlarının Padşahlıq hərəkatlarından fərqi həm də bundan ibarət idi ki, Avqustçular ilahiyyatı, Padşahlıq tərəfdarları isə həyat tərzini üstün tuturdular. Bundan başqa, Avqustçu islahatçıların ilahiyyatının banisi Avqustinin özü olub. Kəlamın səlahiyyətini tanısalar da, təcrübədə Avqustinin şərhlərini üstün tuturdular. Təəccüblü deyil ki, Avqustinin təlimlərinə əsaslanan islahatçıların hamısı islahat platformalarının əsasına «əvvəlcədən müəyyən edilmə»ni qoyurdular.

**5. Təhsil.** Avqustçu islahatçıların əksəriyyəti universitet təhsilli idi. Bundan başqa, adətən bir böyük universitet bu islahatçıların güclü müttəfiqi olub. Təzada görə, Padşahlıq hərəkatlarının əksəriyyəti sadə adamlar tərəfindən başlandı və heç bir universitet onları dəstəkləmirdi.

## Con Uiklif

Orta əsrlərin qabaqcıl Avqustçu islahatçısından biri Con Uiklif on dördüncü əsrdə İngiltərənin Oksford Universitetində fəlsəfə və ilahiyyat professoru olub. Uiklif öz dövründə akademik dairələrdə məşhur və İngilis padşah sarayının dəstəyinə malik idi.

Avqustinin son tərəfdarları kimi, Uiklif Avqustinin ölümündən sonra Katolik Kilsəsinin etdiyi bir çox dəyişikliklərə qarşı çıxış edirdi. Məsələn, Rəbbin Süfrəsinə aid təlim; ikonalara və ya müqəddəslərin sümüklərinə ehtiramlar; indulgensiyaların satışı kimi.[137]

Uiklif həmçinin Roma papasının yüksək iddialarını inkar edirdi. O, Roma Katolik Kilsəsini «İblisin sinaqoqu», Roma papasını isə antixrist (Məsihin əleyhdarı) adlandırdı. Uiklif düzgün başa düşürdü: «Peter və Kliment papa deyil, Rəbb İsa Məsihin kilsəsinin təşviqindən ibarət Allahın işində digərləri kimi köməkçilərdir».[138] O, İngiltərədə dövlət kilsəsinin papadan asılı olmasını istəmirdi. O, ruhani ordenləri inkar edirdi və ordenlərə aid adamları həqiqi məsihçi hesab etmirdi.[139]

Uiklif Katolik Kilsəsinin var-dövlətini tənqid edirdi, ruhanilərin və kilsənin maddi sərvətə malik olmadığını öyrədirdi.[140] Buna baxmayaraq, o, göylərdə xəzinə toplamaq haqqında İsanın təlimini tam qavramırdı. O, padşahların və zadəganların xəzinə toplamalarına etiraz etmirdi; o yalnız kilsənin bunu etməsinə qarşı çıxırdı. Uiklif hətta deyirdi ki, kilsə böyük mülkiyyətlərini

padşaha verməsə, padşah bunları zorla almalıdır. Faktiki olaraq, Uiklifin ölümündən təxminən 150 il sonra VIII Henri bunu etdi.

Başqa islahatçılar kimi, Uiklif «Konstantinin hibridi» terminini tamamilə qəbul etdi. O yalnız əvvəlcədən xatırlatdığım «Konstantinin hədiyyəsi» adlı saxta sənədə qarşı çıxırdı. Uiklifin dövründə bu sənəd hələ də əsl kimi qəbul edilirdi. Dövlət ilə kilsəni vahid birliyin hissələri hesab edən Uiklif dünyəvi padşahın ədalətli həyat yaşamalı olduğunu öyrədirdi. O deyirdi: «Ölümə aparan günahda yaşayan kəs heç nəyi idarə edə bilməz».[141] Yəni hakim ölümə aparan günahda yaşayırsa, o, dərhal öz vəzifəsini itirir, onun rəiyyətləri isə daha ona itaət etməməlidirlər. Bu, əlbəttə, Əhdi-Cədidin təliminin tam əksdir. Faktiki olaraq, Roma imperatorlarının hamısı ölümə aparan günahda yaşayırdı. Paul isə deyirdi ki, biz onları devirməli deyil, onlara itaət etməliyik. Uiklifin təlimi silahlı inqilabın əsasını qoydu. Yəni kilsə padşahın və ya istənilən vəzifəli şəxsin günahda yaşamasını (və ya səhv kilsəyə mənsub olmasını) elan etdiyi halda silahlı inqilab olmalıdır.

Avqustin kimi, Uiklif də «xilas üçün əvvəlcədən təyin edilmə»yə inanırdı. O öyrədirdi ki, insan dünyaya gəlməzdən əvvəl onun əbədi həyata və ya əbədi ölümə malik olacağı artıq müəyyən edilmişdir. O deyirdi ki, bu, Allahın gələcəyi bilməsindən deyil, Onun əsassız seçimindən asılıdır.

Fransada və İtaliyadakı Padşahlıq vaizlərindən fərqli olaraq, Uiklif dövlətin səlahiyyətindən istifadə edərək islahat etmək istəyirdi. Başlanğıcdan Uiklif İngiltərə kralının və zadəganlığın dairələrində olub, onlar Uiklifi Roma papasından həmişə qoruyurdular. Uiklifin xüsusi müdafiəçisi İngiltərənin yaşlı kralı Edvardın üzərində böyük təsirə malik olan hersoq Con Qont olub.

Katolik Kilsəsi Uiklifin mühakimələrinin əksəriyyətini bidətçi elan etdi. Buna baxmayaraq, onun güclü dostlarının müdafiəsi səbəbindən, Uiklifi tonqalda yandıra bilmədi. O, 1384-cü ildə vəfat etdi. Onun ölümündən təxminən əlli il sonra katoliklər onun qalıqlarını torpaqdan çıxarıb yandırdılar, külünü isə çaya tökdülər.

## Lollardlar

Uiklifin təsiri şagirdləri vasitəsilə İngiltərədə yaşayırdı. Katoliklər onları «lollardlar» adlandırırdılar. Uiklif həmişə Müqəddəs Kitabı dövlət kilsəsinin təlimlərindən üstün tuturdu. Lollardların ən böyük nailiyyətlərindən biri Müqəddəs Kitabın İngilis dilinə ilk tərcüməsi idi. Bu gün tərcümə Uiklifə aid edilsə də, əslində onu Uiklifin şagirdləri və dostları etmişdilər.[142]

Başlanğıcda lollardlar hərəkatına bir çox zəngin və səlahiyyətli şəxs daxil idi. 1394-cü ildə hələ də Konstantinin hibridinin təsiri altında olan lollardlar İngilis parlamentinə dövlət kilsəsinin islahatına aid planı təqdim etdilər. Təklif edilən islahatlar Avqustinin və Padşahlıq təlimlərinin maraqlı qarışığından ibarət idi. Onlar ruhanilərin subaylığına, suyun təqdisinə, ölülər üçün edilən dualara, Romaya zəvvarlığa, ikonalara və xaçlara dua və qurbanların gətirilməsinə, keşişlərin qarşısında günahların etiraf edilməsinə etiraz edirdilər.[143] Onlar Roma papasının və ya onun yepiskoplarının İngiltərədə ruhanilərə yüksək rütbə verməsinə son qoymağa çağırırdılar.[144]

Onlar həmçinin şəxslərin eyni zamanda həm hökumət, həm də dini vəzifədə olmasına etiraz edirdilər:

«Eyni adam həm padşah, həm yepiskop, həm zabit*, həm hakim, həm vaiz, həm məmur olanda ölkə yaxşı idarə edilməyəcək. Bu nəticə aydın sübut edilir, çünki dünyəvi və dini sahə vahid olan Müqəddəs Kilsənin iki hissəsidir. Bir vəzifəyə özünü həsr edən şəxs o birinə girişməməlidir, çünki eyni zamanda iki ağaya xidmət qeyri-mümkündür».[145]

Uiklif kimi, lollardlar da Padşahlığın Müjdəsini tam başa düşmürdülər. Onlar dünyəvi vəzifələri dini vəzifələrdən ayırmaq istəsələr də, bunları hələ də «vahid Müqəddəs Kilsə»nin hissəsi hesab edirdilər. Allahın Padşahlığı hələ də dövlət ilə əlaqəli idi.

Hər halda, Uiklifin ölümündən sonra lollardlar Avqustçu ilahiyyatından tədricən uzaqlaşmağa və Padşahlıq Müjdəsinə yaxınlaşmağa başladılar. Məsələn, Padşahlığı tam başa düşməsələr də, lollardlar müharibənin məsihçiliyə zidd olduğunu görürdülər:

«Müharibədə və ya yalançı ədalət qanununa uyğun olan qətl lütf və mərhəmət qanunlarını təsvir edən Əhdi-Cədidə açıq-aydın ziddir. Bu nəticəni Məsihin təbliği təsdiq edir. İsa düşmənləri sevməyi, onları öldürməməyi, lakin onlara rəhm göstərməyi öyrədirdi. Adamlar vuruşanda ilk toqquşmadan sonra sevgi unudulur. Sevgisiz ölən hər kəs cəhənnəmə enir.

Bundan başqa, Müqəddəs Kitaba əsaslanaraq, biz yaxşı bilirik ki, heç bir kahinin heç bir ölümə aparan günahı bağışlamağa və ya bağışlamamağa ixtiyarı yoxdur. Əhdi-Cədid – qətli qadağan edən mərhəmət qanunudur. Müjdə deyir: «Qədim zamanlarda adamlara «Qətl etmə, kim qətl edərsə, mühakiməyə məruz qalacaq» deyildiyini eşitmisiniz»…[Səlibçilər] Sülhün Şahzadəsindən

---

* Katolik kilsəsində yüksək vəzifəli şəxslərə (baş yepiskoplara, yepiskoplara, monastır başçısına) verilən fəxri addır.

> təşəkkürlərə layiq deyillər, çünki inam itaət və səbir sayəsində artır. Məsih İsa vuruşan və öldürənlərə nifrət edir və onlara xəbərdarlıq edir: «Qılınc çəkənlərin hamısı qılıncla məhv olacaq».[146]

Əlbəttə ki, parlament lollardların təkliflərini qəbul etmədi. Bir neçə onillikdən sonra isə Katolik Kilsəsi ilə birgə parlament lollardları məhv etməyə çalışırdı. Katolik hakimiyyəti lollardları amansızcasına təqib edir, onlardan əksəriyyətini tonqalda yandırırdı. Başqaları isə işgəncə və ölümlə üzləşəndə təlimlərindən imtina etdilər. Sağ qalanlar gizlicə yığışmaqda davam edirdilər. Bir yerdə olanda onlar Müqəddəs Kitabı oxuyur, Kəlamı vəz edirdilər.[147]

Padşahın və zadəganların dəstəyini itirəndən sonra lollard hərəkatı orta əsrlərin Padşahlıq hərəkatlarına bənzəməyə başladı. Demək olar ki, onları indi yalnız sənətkarlar, kəndlilər və şəhər yoxsulları təşkil edirdi. Katolik Kilsəsi onları məhv edə bilmədi. İngiltərədə Reformasiya başlayanda lollardlar hələ də var idilər.[148]

Buna baxmayaraq, Katolik Kilsəsinin edə bilmədiyini Reformasiya etdi. Sağ qalmış lollardlar İngilis Reformasiyası və onun Avqustinə əsaslanan ilahiyyatı ilə maraqlandılar və ona qoşuldular. Kraliça Mariyanın (1553-1558) vaxtından sonra lollardlar öz təlimlərinə malik olan hərəkat kimi artıq mövcud deyildilər.

# 31

# Valdeslərin İsveçrə islahatçıları ilə görüşü

XVI əsrin əvvəllərində Avqustçu cərəyanı Martin Lüterin sayəsində gözlənilmədən xeyli gücləndi. Eyni zamanda, baş islahatçı Ulrix Svinqlinin sayəsində İsveçrədə də hərəkat böyüyür. Avqustçu islahatçıların digərləri kimi, Lüter və Svinqli çox savadlı olublar. Onların hər ikisi Avqustinin yazılarını yaxşı tədqiq etmiş, təliminə heyran olmuşdular.

İsveçrə məmurunun oğlu Svinqli görkəmli vətənpərvər, humanist, vaiz və dövlət xadimi idi. O həmçinin İsveçrədə Roma papasının muzdlu hərbçilərinin keşişi idi. 1519-cu ildə Svinqli Sürixdə əsas kilsənin başçısı təyin edildi.[149]

O vaxtlar Svinqli hələ Reformasiya başlamaq niyyətində deyildi. Lakin buna baxmayaraq, öz təbliğində o, orta əsr katolik dindarlarının şərhini inkar edərək Avqustinin təsiri altında ikən Müqəddəs Kitabı özü bildiyi kimi şərh edirdi.

Svinqli məşhur ictimai xadim idi və Sürixdəki məmurlar onun vəzlərini dəstəkləyirdilər. O hətta başqa keşişlərə vəzlərində yalnız Müqəddəs Yazılardan istifadə etməyi və

insanların uydurduğu əlavələri xatırlamamağı əmr etdi. 1522-ci ildə Svinqli vəzində göstərdi ki, oruc vaxtı ətin qadağanı Müqəddəs Kitaba əsaslanmır. Bu, bütün İsveçrədə böyük həyəcana səbəb oldu və Svinqli ilə Katolik Kilsəsi arasında qarşıdurma yaratdı.

Svinqli məhkəmə idarəsindən bu məsələ üzrə ictimai müzakirələri təşkil etməyi xahiş etdi. Bu müzakirədə Svinqli həm izdihamı, həm də məhkəmə idarəsini öz tərəfinə çəkə bildi. Dövlətin dəstəyi ilə Svinqli Sürixdə kilsənin böyük islahatına başladı. Məqsəd – Müqəddəs Yazıların Svinqlinin şərhi əsasında bütün vətəndaşların dini, siyasi və sosial həyatının əsaslı islahatını etmək idi.[150]

İsveçrə katolik yepiskoplarının hamısı Reformasiyaya qarşı çıxdığına görə Sürixin məhkəmə idarəsi məsələyə qarışdı və əvvəllər katolik yepiskoplarına məxsus olan idarə və mühakimə hüquqlarını mənimsədi. 1525-ci ildə məhkəmə idarəsi katolik kilsəsinin bütün mülkiyyətini müsadirə etdi və ruhaniləri idarə etməyə başladı.[151]

Təəssüf ki, Svinqli Konstantinin hibridini tamamilə qəbul edirdi. O, Padşahlıq Müjdəsini deyil, Avqustçu Müjdəsini vəz edirdi. Svinqli Avqustinin ölümündən sonra Roma katolik kilsəsinin əlavə etdiyi bütün təcrübələri kökündən çıxartdı. Ancaq digər Avqustçu islahatçılar kimi, Svinqli islahatlarını dövlətin sayəsində həyata keçirirdi. Öz hərəkatını yaymaq üçün tərəddüd etmədən qılıncdan istifadə etdi. O, islah edilmiş qoşunun keşişi kimi xidmət edərək, döyüş meydanında öldü.[152]

## Valdeslərlə görüş

Sürixin cənubunda, Cenevrə gölünün şərq sahilində yerləşən Eql şəhərində Svinqlinin dostu və tərəfdarı Vilyam Farel Reformasiya təlimlərini vəz edirdi. Bu alovlu vaiz Bern kantonunun hökumətinin müdafiəsi altında xidmət

edirdi və minlərlə adamı İsveçrədə Reformasiya hərəkatına qoşulmağa çağırırdı.[153]

Eyni zamanda, Reformasiya xəbərləri İtaliyada Valdeslərə çatdı. Bu barədə daha çox öyrənmək üçün onlar Almaniyaya iki barbanı göndərdilər. Bu iki nəfər xasiyyətcə olduqca fərqli idi. Yaşlısı Giorgio sakit, ehtiyatlı və təcrübəli idi. Başqa barba isə, Martin Gonin, olduqca həssas, gənc və enerjili idi. Giorgio və Martin İsveçrənin Alp dağlarını birlikdə piyada keçdilər və Eql şəhərinə tərəf getdilər. Onlar orada yalnız bir-iki gecə qalmaq, sonra isə Almaniyaya yollarını davam etmək niyyətində idilər. Şəhərdə Vilyam Farel və onun Reformasiya təbliği haqqında eşidəndə onunla görüş təşkil etdilər. Coşqun Farel gənc barba Martin Goninə böyük təəssürat bağışladı.[154]

Reformasiya haqqında elə məlumat əldə edən iki barba Almaniyada deyil, İtaliyada öz qardaş və bacılarına Reformasiya haqqında məlumat verməyi qərara aldılar. Reformasiya haqqında eşitdikləri gənc Valdes Martin Gonini olduqca həyəcanlandırmışdı. Yaşlı barba Giorgio isə Reformasiyaya qoşulmağa ehtiyat edirdi. O, kifayət qədər eşitmiş və görmüşdü; o, Valdeslərin və İsveçrə Reformaçılarının həyat tərzinin olduqca fərqli olduğunu bilirdi.[155]

Dörd il ərzində Valdeslər öz cəmiyyətlərində bu məsələni müzakirə etdilər. Nəhayət, bir daha məsləhətləşmək üçün onlar İsveçrəyə başqa dörd nümayəndəni göndərməyi qərara aldılar. Farel və onun islahatçı yoldaşları bu dörd Valdes nümayəndələrini çox xoş qarşıladılar. Bunlar üç yüz il boyunca Romaya qarşı tək dayanan qəhrəmanlar idilər. İsveçrə islahatçıları Valdeslərə deyirdilər: «Siz daha heç vaxt tək olmayacaqsınız; biz sizə kömək edəcəyik».

Bu, dördüncü əsr məsihçilərinə Konstantinin təklif etdiyi «köməyə» bənzəyirdi. Eyni sədaqət sınağı ilə

Valdeslər də üzləşdilər. İsveçrə İslahatçıları çox yaxında yaşayır və onları öz cəmiyyətlərinə qəbul etmək istəyirdilər. Bəlkə, bu, əsrlər boyu edilən duaların cavabıdır? Ola bilsin, Allah onlara yeni qapı açır?

Ancaq burada bir şərt var idi. İslahatçılar Valdeslərin nümayəndələrinə dedilər: «Reformasiyaya tamamilə uyğunlaşmağınız üçün təliminizi bir qədər dəyişməlisiniz». Lakin bu «bir qədər» dəyişiklik Padşahlıq məsihçiliyindən tam imtina idi. Valdeslər İslahatçıların sözlərinə qulaq asandan sonra və digər Valdeslərlə müzakirə edəndən sonra cavab verəcəklərini vəd etdilər.[156]

Nümayəndələr İtaliyaya qayıtdılar və görüş barədə məlumat verdilər. Tez bir zamanda Valdeslər arasında üçtərəfli parçalanma baş verdi. Mühafizəkarlar İslahatçıların Padşahlıq məsihçiləri olmadıqlarını başa düşdülər. Buna görə də onlar İslahatçılardan ayrı qalmaq istədilər. Martin Gonin kimi liberallar isə Valdeslərin şərtlərini qəbul edərək Reformasiyaya qoşulmağı zəruri hesab edirdilər. Ortada qalan axırıncı qrup isə Reformatorlarla dialoqu davam etdirmək istəyirdi.[157]

Liberallar və orta qrup çoxluq təşkil etdiklərinə görə onlar İsveçrədən Vilyam Fareli dəvət edərək Valdeslərin ümumi yığıncağında çıxış etməyi xahiş etdilər. Valdeslərin gələcəyi İtaliyada, Çanforan (müasir Torre-Pelliçe) şəhəri yanındakı çəmənlikdə müəyyən olunurdu. Farelin inandırıcı nitqi əksəriyyəti Reformasiyaya qoşulmağa razı etdi. Çanforanda Valdeslərin əksəriyyəti növbəti şərtlərlə razılaşdı:

- «Məsihçi Matta 5-də yazılan qaydaları pozmadan və Allahın adını nahaq yerə çəkmədən and içə bilər».
- «Günahların şifahi etirafı Allah tərəfindən əmr edilməmişdir. Müqəddəs Kitaba uyğun olaraq,

məsihçinin günahının həqiqi etirafı təkcə Allah qarşısında olmalıdır».

- «Məsihçi hökumət vəzifəsində çalışa bilər. O, qanunu pozmuş məsihçilərə qarşı müvafiq tədbirlər görməlidir».
- «Bütün xilas olmuş və xilas olacaq adamlar dünya yaranmazdan əvvəl Allah tərəfindən seçilmişdir».
- «Allahın Kəlamının xadimi bir yerdən digər yerə keçməməlidir. Bu, yalnız kilsəyə böyük fayda gətirdiyi halda mümkündür».[158]

Farel və İslahatçılar üçün bu, olduqca böyük qələbə idi. Faktiki olaraq, Valdeslər öz hərəkatının mahiyyətindən imtina etdilər. Əsrlər ərzində onlar katoliklər tərəfindən dəhşətli təqib yaşayır, lakin vəz etməyi dayandırmırdılar. İndi isə bir damcı qan belə, tökmədən bundan imtina etdilər. Çanforanda onlar hətta könüllü kasıbçılıqdan da imtina etdilər.[159]

Çanforanda Valdeslər əsrlər ərzində istifadə etdikləri Müqəddəs Kitab tərcüməsini əvəz etmək üçün yeni Fransız tərcüməsini sifariş verməyə razılaşdılar.[160]

Bu, məsihçi tarixində ən böyük Padşahlıq hərəkatlarından birinin sonu idi. Əlbəttə, Valdeslər yaşamaqda davam etdilər. İndi onlar Reformasiya məsihçiləri kimi, öz inamlarını müdafiə etmək üçün qılıncdan səylə istifadə edirdilər. Onlar öz «səhvlərini» başa düşdülər – bir çox Müqəddəs Kitab ayələrini hərfən qəbul edirdilər. Onlar bu gün də mövcuddurlar. Ancaq onların Padşahlıq haqda şahidləri yoxdur.

# 32

# Cenevrədə yeni Sion

Çanforandakı konfransdan sonra Vilyam Farel Cenevrəyə köçdü. Burada o, Jan Kalvin adlı qabiliyyətli bir gənc vaiz ilə dost oldu. Farel Valdeslərin istifadə etməyə razılaşdığı yeni İslahatçı tərcüməyə müqəddimə yazmağı Kalvindən xahiş etdi. Farel həmçinin Kalvini Cenevrədə qalmağa və Reformasiyaya rəhbərlik etməyə yola gətirdi. Tezliklə Cenevrə İsveçrə Reformasiyasının mərkəzinə çevrildi.

Svinqli kimi, Kalvin də Konstantinin hibridini qeyd-şərtsiz qəbul etdi. Padşahlığın Müjdəsini vəz etmək əvəzinə, Kalvin Cenevrədə Əhdi-Ətiqin İsrailinə oxşar dövlət qurmaq niyyətində idi. Bu dövlətin bütün vətəndaşları Reformasiyanı qəbul etməli və kilsənin üzvü olmalı idilər. Dövlət isə «həqiqi» təlimi və saleh yaşayışı qurmaqda və dəstəkləməkdə fəal iştirak etməli idi. Kalvini inadla dəstəkləmiş kəslər üçün bu, həyata keçən arzu idi.

Kalvinin və ya onun islahatlarının əleyhdarları üçün isə bu, dəhşətli vaxt idi. Əhaliyə nəzarət etmək üçün Cenevrə islahatçıları «konsistoriya» adlanan orqanı təsis etdilər. O, şəhərin pastorlarından və on iki presviterdən ibarət idi. Kalvinin təliminə qarşı çıxmış və ya kilsə xidmətlərindən yayınan vətəndaşlar cəza üçün konsistoriyaya çağırılırdılar.[161] Konsistoriya öz vəzifəsini böyük səylə yerinə

yetirirdi. Əhalinin davranışına nəzarət etmək üçün şəhərin müxtəlif rayonlarında məmurlar təyin edilmişdi. Onlar ən kiçik pozuntuya yol vermiş günahkar barədə məlumat verir, valideynlər barədə məlumat əldə etmək üçün uşaqları sorğu-suala tuturdular.[162]

Kalvinin qaydasına qarşı çıxmaqda şübhəli bilinən adamların evləri istənilən dəlil tapmaq məqsədi ilə dərhal axtarılırdı. Dəlil tapılmadığı halda adamlar etiraf etmək üçün işgəncəyə verilirdilər. İşgəncə ilə əldə edilən etiraf təkzibedilməz dəlil olaraq qəbul olunurdu. Bir neçə nümunə ilə bölüşmək istərdim:

1546-cı ilin iyun ayında kimsə Cenevrədə müqəddəs Peterin kilsəsinin kafedrasına anonim yazı qoydu. Bu yazı pastorların islahatçı fəaliyyətini ittiham edir və qisas ilə hədələyirdi. Şəhər hökuməti təcili hərəkətə başladı. Onlar, sadəcə, şübhələndikləri Jak Qruet adlı allahsiz bir azadfikirlini həbs etdilər. Onun evindəki axtarış zamanı bir dəlil tapılmadı. Hər halda, rəislər Qruetin şəxsi yazılarının arasında Kalvini tənqid edən qeydləri tapdılar. Bunun əsasında Qrueti cinayətkar elan etdilər; cinayətini «etiraf edənə» qədər ona dəhşətli əzablar verdilər. Bundan sonra onu edam etdilər.[163]

Bir neçə aydan sonra, Jan Trolliet adlı Reformasiya vaizi öz fikrini söylədi və onun fikri Kalvinin «Məsihçi imanına aid nəsihətlər» kitabında «ikili təyinat» haqqında yazdığı təlimlə eyni deyildi. Trollietin sözlərinə görə, Kalvinin təlimi Allahı günahın müəllifi edir. Elə çıxırdı ki, Allah günahkarı cəzalandırırdı, baxmayaraq ki, onları günahkar etmiş Onun qərarıdır. Kalvin Trolliet ilə problemi müzakirə etməkdən imtina etdi. O, təkəbbürlə cavab verdi ki, bu təlimi Allah Özü onun beyninə qoyub. Trolliet Cenevrədən məhkəmə qərarı ilə qovuldu.[164]

## Bidətçilərin yandırılması

Kalvin Migel Servet adlı İspan mütəfəkkirinə öz «Məsihçi imanına aid nəsihətlər» kitabını göndərdi. Servet qabiliyyətli alim və coğrafiyaşünas idi. Faktiki olaraq, o, insanın dövr edən qan sistemini dəqiq təsvir edən birinci şəxs idi. Hər şeyə maraq göstərən Servet bir neçə ilahiyyat kitabı da yazmışdı. Bu kitablarda həm fərasətli müşahidələr, həm də yanlış fərziyyələr qeyd olunurdu. Servetə öz ilahiyyat kitabının surətini göndərməklə Kalvin onu öz səhvlərinə fikir verəcəyinə ümid edirdi.

Servet Kalvinin kitabını diqqətlə oxudu, oxuduqca da çoxlu qeydlər, tənqidlər və təkziblər etdi. O, Kalvinin təlimlərindən üçünü tənqid etdi: körpələrin vəftizi, əvvəlcədən müəyyən edilmə, Üçbirliyin izahı. Servet Məsihin İlahiliyinə inandığına baxmayaraq, onun Üçbirlik haqqında anlayışı bir qədər qarışıq və bir neçə bənd üzrə yanlış idi. Bundan sonra Servet Kalvinə öz qeydləri ilə birgə onun kitabını qaytardı. Qeydləri görən Kalvin hiddətləndi və Servet Cenevrəyə nə vaxt gələrsə, şəhəri heç vaxt sağ tərk etməyəcəyinə and içdi.[165]

Lakin inkvizisiya Kalvini qabaqladı. O, Fransaya qaçmış Serveti həbs etdi və bidətçi kimi onu tonqalda yandırılmağa məhkum etdi. Servet həbsxanadan qaçdı. İtaliyaya yol gedərkən Servet Cenevrədən keçdi. O fikirləşdi ki, Kalvinin vəzini dinləmək maraqlı olardı. Ancaq Kalvin Serveti tanıyan kimi onu həbs etməyi əmr verdi. Rəislər onu yeraltı zindanda soyuq, qaranlıq yerdə saxlayır, az yemək verirdilər.[166]

Məhkəmədə Servetə vəkil verilmədi.[167] Qırx maddə üzrə onu bidətçilikdə ittiham etdilər. Bu maddələrin əksəriyyəti Üçbirliyə aid idi; digərləri isə körpə vəftizini inkar etdiyinə və həddi-büluğa çatana qədər uşaqların günahsız hesab edilməsinə aid idi. Həmçinin Servetin cinayəti Kalvinin ilahiyyatına ehtiramla yanaşmaması idi. Hakim onun

yazdığı şeylərin heç birini izah etmək və ya müdafiə etmək üçün Servetə imkan vermədi.

Cenevrənin vətəndaşı olmadığı halda və Cenevrədən yalnız keçdiyinə baxmayaraq, şahidləri dinləyəndən sonra onu bidətçi kimi tonqalda ölümə məhkum etdilər. Reformasiyaya qoşulmağa Valdesləri inandırmış Vilyam Farel Serveti küfrə görə uca səslə danlayaraq, onu edam yerinə müşayiət edirdi.

Edam yerinə çatanda Farel izdihamı xəbərdar etdi: «Görürsünüz, iblis adamı ələ keçirəndə nələr edə bilir? Bu adam məşhur alimdir və o, bəlkə də, ədalətlə hərəkət etdiyinə əmin idi. İndi isə iblis onu tamamilə ələ keçirib. İblisin torlarına düşsəniz, o, sizi də ələ keçirə bilər».[168]

Cəlladlar Serveti zəncirlə bağladılar və ətrafında yaryaş olan odunu qalaqladılar. Buna görə Servet yavaş və əzabla ölürdü, izdiham isə buna əyləncə kimi baxırdı.

Kalvin Servetə başqa edam məsləhət gördüyünə baxmayaraq, əzabı azaltmaq üçün öz səlahiyyətindən istifadə etmədi. Bir neçə ay sonra Kalvin yazdı: «Bir çoxları məni qəddarlıqda ittiham edirlər, öldürdüyüm adamı bir daha öldürmək istədiyimi deyirlər. Ancaq mən onların sözlərinə fikir vermirəm, hətta üzümə tüpürdükləri üçün sevinirəm… Bundan sonra bidətçilərin və Allaha küfr edənlərin edamını tənqid edən hər kəs onların təqsirini könüllü və şüurlu tərzdə üzərinə götürəcək». [169]

Görəsən Valdeslər bu barədə nə fikirləşirdilər? Bir neçə onillik əvvəl onlar təqib olunaraq tonqalda yandırılırdılar. İndi isə onlar başqalarına eyni şeyi edən hərəkatın bir hissəsi idilər.

## Reformasiyanın nəticələri

İsveçrə Reformasiyasının nəticələri nə oldu? Əlbəttə, Reformasiyanın yayıldığı kantonlarında Romanın etdiyi

əlavələrin əksəriyyətindən kilsələri təmizləmişdi: Məryəm kultundan, ikonalardan, müqəddəslərdən, Roma papalarından, kardinallardan, zəvvarlıqlar və Müqəddəs Kitaba uyğun olmayan digər əlavələrdən. Bu, əla idi. Buna baxmayaraq, Svinqli, Farel və Kalvin İsanın Padşahlıq təliminin yayılması üçün heç nə etmədilər.

Faktiki olaraq, Romanın ilahiyyatı ilə müqayisədə İslahatçı ilahiyyatı Padşahlığın Müjdəsinə daha zidd idi. Artıq qeyd etdiyimiz kimi, Roma Katolik Kilsəsi yalnız «mükəmməl» olmaq istəyənlərin İsanın Padşahlığı haqqında təlimləri ilə yaşamağı öyrədirdi. Əgər məsihçi təkmilləşmək istəyirdisə, bu təlimlər ilə yaşamalı idi. Kalvin isə Məsihin Padşahlıq təlimini tam əhəmiyyətsiz etdi.

Kalvinin «əvvəlcədən müəyyən edilmə» təliminə görə, İsanın təlimlərinə uyğun yaşayıb-yaşamamağın əhəmiyyəti yoxdur, çünki onun heç bir əməli Allahın onun üçün artıq müəyyən etdiyi taleyi dəyişə bilməz. Bundan başqa, Avqustin kimi, Kalvin də İsanın təliminin Əhdi-Ətiq təlimindən fərqli olduğunu öyrədirdi. Öz dövrünün Padşahlıq məsihçilərinə qarşı çıxaraq Kalvin yazırdı:

> «Sonuncu hiylə qaldı… Guya Yəhudi xalqı ilə müqayisədə, Rəbbimiz məsihçi kilsəsindən mükəmməlliyi daha çox tələb edir. Bəli, bu, mərasimlərə aiddir. Lakin əvvəlki mənəvi qanunlardan fərqli olan qaydaların mövcud olması yalan fikirdir…
>
> Buna görə də biz bu mövqeyi tutacağıq: Düzgün yol ilə getmək istəyiriksə, Musanın qanunundan möhkəm tutmalıyıq. Burada həqiqi mənəvi ədalətə aid, yəni Allah qarşısında işlərində təmiz vicdanla yaşayan adamın sadiqliyinə aid tam və aydın göstərişlər verilir. Beləliklə, Musanın qanununa əlavə edən və ya ondan bir şeyi çıxaran kəs həddi pozmuş olur. Buna görə də mövqeyimiz qəti və səhvsizdir.

Biz atalarımızın sitayiş etdiyi eyni Allaha sitayiş edirik. Biz onların malik olduğu eyni qanuna və qaydalara malikik. Bunlar Allahın qarşısında düzgün yaşamaq üçün düzgün davranışı bizə göstərir. Beləliklə, o vaxt müqəddəs və qanuni hesab edilən işlər bu gün məsihçilərə qadağan edilə bilməz».[170]

Katoliklər kimi, Kalvin də öyrədirdi ki, Allahın Padşahlığında kilsə və vətəndaş hökuməti bir vahidin iki hissələridir. Buna görə də dövlətin vəzifəsi – həqiqi inamını dəstəkləmək, kilsəsini qorumaq və vətəndaşları Əhdi-Ətiqin mənəvi qanununa uyğun yaşamağa məcbur etməkdir. Bu, 1566-cı ildə İsveçrədə qəbul edilmiş İkinci Helvet İman Etirafında açıq-aydın bəyan edilirdi:

«Biz, əlbəttə, məmurun dinin qayğısına qalmalı olduğunu öyrədirik. Məmur əlində Allahın Kəlamını tutub ona zidd olanın öyrədilməsinə yol verməməlidir. O, Allahın ona həvalə etdiyi adamları Allahın Kəlamına uyğun olan, yaxşı qanunlarla idarə etsin, xalqı nizamda, öhdəlikdə və itaətdə saxlasın. Ədalətlə mühakimə etsin. Heç kimə güzəştə getməsin, rüşvət götürməsin. Dul qadınları, yetimləri və xəstələri müdafiə etsin. Cinayətkarları, fırıldaqçıları və barbarları cəzalandırsın və hətta təqib etsin. Qılıncı ona nahaq yerə verilməyib (Rom.13:4).

Buna görə də məmur bütün cinayətkarlara, qiyamçılara, oğrulara, qatillərə, zülmkarlara, bidətçilərə, həmçinin Allahın ona cəzalandırmağı tapşırdığı bütün adamlara qarşı Allahın bu qılıncını istifadə etsin və hətta edam etdirsin. Allahın böyüklüyünə qarşı çıxan, təşviş salan və hətta Allahın Kilsəsini dağıdan inadkar bidətçiləri qırsın.

Xalqın təhlükəsizliyini təmin etmək üçün müharibə lazımdırsa, Allahın adı naminə müharibə etsin.

> Lakin əvvəlcə sülh yolu ilə məsələni həll etməyə çalışmalıdır. Yalnız başqa yolla xalqını xilas edə bilmədiyi halda müharibə etsin. Məmur bunların hamısını inamla edirsə, bu xeyirxah işlərlə Rəbbə xidmət edir və əvəzində Allahdan mükafat alır».[171]

Bəzi məsihçilər Kalvini qılıncı qaldırmaq barədə sorğu-suala tutanda Kalvin cavab verdi: «Özünüz fikirləşin, əgər qılınc və ya dünyəvi hakimiyyət imanlının çağırışına ziddirsə, onda Əhdi-Ətiqdə Davud, Xizqiya və Yoşiya kimi padşahlar və hətta Daniel kimi peyğəmbər qılıncdan necə istifadə edirdi?»[172]

Başqa sözlə, Kalvinin fikrincə, məsihçiliyin gəlişindən sonra heç nə dəyişmədi. İlahiyyatdan və ayinlərdən başqa, hər şey İsraildə olduğu kimi qalmışdı. Yoşiya və Xizqiya kimi, məsihçilər vəzifə tutub dövlətin səlahiyyətinin bütün imkanlarından (qılınc daxil olmaqla) istifadə edərək, həqiqi dini qorumalıdırlar.

Lakin İsa Öz şagirdlərinə aydın demişdi ki, Onun «bu dünyadan» olmayan Padşahlığını qorumaq üçün məsihçilər vuruşmamalıdırlar. Beləliklə, «məsihçilər özlərini və öz kilsələrini müdafiə etmək üçün qılıncı qaldırmalıdır» deyən Kalvinin qorumağa can atdığı padşahlığı bu dünyaya aid idi. Bütün başqa dünyəvi padşahlıqlar kimi, onun «Yeni Sion»u bu dünyaya məxsus idi.

# 33

# Padşahlığın bayrağı yenidən yüksəlir

İsveçrə İslahatçıları Valdeslərin Padşahlıq haqqında şəhadətini məhv edə bildilər. Ancaq onlar digərlərinə Padşahlığın bayrağını yenidən qaldırmağa mane ola bilmədilər. Reformasiyanın üstünlüklərindən biri – Müqəddəs Kitabın çapı və onun bütün Avropada yayılması idi. Reformasiya dövründə müxtəlif alimlər Müqəddəs Kitabı öz dillərinə tərcümə edirdilər. Çap maşınının sayəsində bu tərcümələr sadə adamlara verilirdi.

İslahatçılar adlanan Avqustinçilərin təsiri altında olmadan, avropalılar özləri Müqəddəs Kitabı oxuyanda onlar çox vaxt Padşahlığın Müjdəsini qəbul edirdilər. Beləliklə, gözlənilmədən, Şimali Avropada yeni Padşahlıq hərəkatı başladı.

İlk dəfə bu hərəkat İsveçrənin Sürix şəhərində Svinqlinin vəz etdiyi dövrdə meydana çıxdı. Svinqlinin tərəfdarlarının bəziləri Avqustinin təsiri altında deyildi; onlar İsanın təlimində Padşahlıq Müjdəsini aydın görürdülər. Onlar həvari məsihçiliyi bərpa etmək istəyirdilər, Svinqli isə Reformasiyanı yalnız şəhər bələdiyyəsinin imkan verdiyi çərçivədən kənara çıxarmaq istəmirdi.

Buna görə də Padşahlıq məsihçiləri öz evlərində görüşməyə başladılar.

İsanın Padşahlıq haqqındakı təlimini bərpa etməkdən başqa, bu yeni Padşahlıq məsihçiləri kilsənin müqəddəsliyi və nizamı ilə fərqlənməsi barədə öyrədirdilər; hamının üzv olduğu dövlət kilsəsi anlayışı ləğv olunurdu. Onlar həmçinin «xilas üçün əvvəlcədən təyin edilmə» təlimini qəbul etmirdilər. Buna baxmayaraq, Kalvinin sonralar etdiyi kimi, Svinqli də dözülməzlik və qəddarlıq etdi. Svinqlinin icazəsi ilə məmurlar bu Padşahlıq məsihçilərinə qarşı qanunları təsis etdilər. Təkrar vəftiz olunduqlarına* görə onları anabaptistlər adlandırdılar. Bu qanunlardan biri aşağıda diqqətinizə çatdırılır:

> «Anabaptistlərin təhlükəli, şər, dikbaş və qiyamçı sektasını ləğv etmək üçün biz qərara alırıq: təkrar vəftizdə şübhəli olan adam cəza ilə hədələnərək nəzarət etdiyimiz ərazini tərk etməlidir. Hər bir kəs təkrar vəftizə xoş münasibət göstərənlər barədə məlumat verməlidir. Bu qanuna tabe olmayan hər bir kəs hakimin hökmünə müvafiq olaraq cəzalanmalıdır.
>
> Təkrar vəftizin müəllimləri, vəftiz edən vaizlər və qeyri-qanuni toplantıların rəhbərləri suda batırılmalıdırlar. Belə şeylərdən imtina etdiklərinə and içən və azadlığa buraxılan kəslər qaydanı pozduqları halda eyni cəzaya düçar olmalıdırlar. Başqa yerdən gəlmiş anabaptistlər ölkədən çıxarılmalıdırlar; onlar qayıtsalar, suda batırılmalıdırlar. [Dövlət] kilsəsindən ayrılmağa və Rəbbin Süfrəsində iştirak etməməyə heç kəsin ixtiyarı yoxdur. Ərazidən digərinə qaçan adamlar qovulacaq və ya tələb olunduqda təslim ediləcəklər».[173]

---

* Dövlətin tələbinə görə körpələri vəftiz etdiklərinə görə deyil, könüllü və şüurlu tərzdə vəftiz etdiklərinə görə.

Svinqli və məmurlar tapa bildikləri bütün anabaptist müəllimlərini və ya rəhbərlərini həbs etdilər. Onlar bu məsihçiləri soyuq zindanlara atır, onlara yalnız çörək və su verirdilər. «Səhvlərini» inkar etmədikdə, əllərini arxadan bağlayıb «ölüm vəftizi» edərək onları suda boğurdular.[174]

İsveçrədəki anabaptistlərdən asılı olmayaraq, Almaniyada, Avstriyada, Niderlandda Padşahlıq vaizləri və məsihçiləri peyda oldular. Bu imanlılar Padşahlıq Müjdəsini qəbul edəndən sonra bir-biri ilə ünsiyyət etməyə başladılar. İslahatçılar və katoliklər bunların hamısını «anabaptist» adlandırırdılar.

Məsihçiliyin mahiyyətinin ilahiyyatdan ibarət olduğunu hesab edən islahatçılar Roma Katolik Kilsəsinin əsas problemini onun səhv təlimində görürdülər. Anabaptistlər isə düzgün olaraq, məsihçiliyin mahiyyətini ilahiyyatda deyil, münasibətdə görürdülər. Allahın Padşahlığına daxil olmaq üçün biz əvvəlcə yenidən doğulmalı, sonra isə Meynə olan İsanın budağı olaraq böyüməliyik. Bəli, Roma Katolik Kilsəsinin bir çox təlimi Müqəddəs Kitaba uyğun deyildi. Lakin ilahiyyat səhvlərinin düzəlişi əsas problemi həll etmirdi.

Əsas problem ondan ibarət idi ki, Roma katolisizmi rəsmi dinə çevrilmişdi. Hər şey öz yoluna qoyulmuşdu. Kilsənin İman Etirafını qəbul edən kəs ömrü boyu kilsə ayinlərində iştirak edirdisə, öləndən sonra xilas olunurdu. Əgər bu şəxs ciddi günah etmişdisə, kilsə tərəfindən müəyyən edilmiş cəzanı yerinə yetirməklə günahını yuyurdu. Cəza – sədəqə, zəvvarlıq və ya Səlib Yürüşündə iştirak, eləcə də indulgensiyanı pul ilə almaq və ya müqəddəslərin sümüklərini müşahidə etmək ola bilərdi. Daxildən ürəyin dəyişməsi tələb olunmurdu. Buna görə də Məsih ilə münasibət də heç vaxt dəyişmirdi.

Qeyd etməliyəm ki, Roma Katolik Kilsəsi məsihçiliyin ənənələrinin siyahısını icra etməkdən ibarət olduğunu rəsmən heç vaxt öyrətmirdi. Kilsə, əlbəttə ki, Allahın sevgisinin və günahın həqiqi tövbəsinin mühüm olduğunu öyrədirdi. Problem bundan ibarət idi (və hələ də bundan ibarətdir) ki, kilsənin rəsmən öyrətdiyi ilə əməli arasında nəhəng fərq var idi. Əslində, Roma katolisizmi «ucuz lütf»ü vəz edən rəsmi din olmuşdu.

Reformasiyanın hər şeyi dəyişdiyini adətən fikirləşirlər. Əslində isə, Reformasiya «ucuz lütf»ün bir formasını digər, «asan iman» forması ilə əvəz etdi. İsanın günahlarınız üçün öldüyünə, sadəcə, iman etmək lazımdır; itaətkarlıq xilasa təsir göstərmir. Göylərdə əbədi xilas sizə zəmanətlə verilir. Almaniyada lüteranlarla katoliklərin arasında fərq böyük deyildi, yalnız ilahiyyatda və ibadət ayinlərində idi. Əlbəttə, İsveçrədə İslah edilmiş kilsələr məmurların sərəncamları sayəsində məsihçilərdən daha ciddi həyat tərzini tələb edirdi. Ancaq bu kilsələr də rəsmi xristianlığın yüksək formasını öyrədirdi: Allah hər kəsin doğulmasından əvvəl insanın taleyini əsassız olaraq əvvəlcədən müəyyən edir.

## Yenidən doğulma

Lüter kimi, Svinqli, Kalvin və katoliklər yenidən doğulmaya az diqqət yetirirdilər. Onların ilahiyyat sistemlərində yenidən doğulma, sadəcə, bütün rəsmi prosesin bir hissəsi idi. Anabaptistlər isə bunu olduqca fərqli başa düşürdülər. Məsihçi həyatı yenidən doğulma ilə başlayır; hər kəs şəxsən özünü Məsihin Padşahlığına həsr etməlidir. Bu, sadəcə, İsaya Xilaskar kimi inanmaq məsələsi deyildi. İsa məsihçinin Rəbbi və Allahı olmalı idi. Bu, yalnız ilahiyyat səviyyəsində deyil, gündəlik həyatda yaşanmalı idi. Anabaptistlərdən biri bu barədə belə yazırdı:

«Bəziləri deyə bilər: «Biz Məsihin Allahın Oğlu olduğuna, Onun Kəlamının həqiqət olduğuna, Öz Qanı və həqiqəti sayəsində bizi satın aldığına inanırıq. Vəftizdə yenidən doğulmuşuq və Müqəddəs Ruhu qəbul etmişik. Buna görə də həqiqi kilsə və Məsihin icmasıyıq». Onda biz cavab verərik: «İmanınız, doğrudan da, belədirsə, Onun əmrini niyə yerinə yetirmirsiniz? O demişdi: tövbə edin və əmrləri yerinə yetirin… Əziz oxucu, özün fikirləş: dediyin kimi, həyatında bunlar baş verdisə, şəhadət etdiyin ruhdan doğulmağın və səndə olan Müqəddəs Ruhun tamamilə hərəkətsiz olduğunu, sənə müdriklik, qüvvət və bəhrə vermədiyini etiraf etməlisən. Bəli, onlar boş və ölüdür. Sən Müqəddəs Ruhda və yeni doğulmanın gücündə yaşamırsan».[175]

Həmin müəllif Padşahlıq Müjdəsinin tələb etdiyi inamı təsvir etmişdi: «Həqiqi Müjdə inamı hərəkətsiz ola bilməz. O, çılpağı geyindirir, acı yedizdirir, qəmginə təsəlli verir, evsizə sığınacaq verir, zərər yetirənə xidmət edir, yaraları sarıyır və ya hamı üçün hər şey olur».[176] Digər anabaptist rəhbəri belə demişdi: «Bir kəs həyatında Məsihin davamçısı olmasa, Onu tanıya bilməz».[177]

Paul bunu belə təsvir edir: *«Allahın Padşahlığı sözdən deyil, gücdən ibarətdir»* (1Kor.4:20). Padşahlığın mahiyyəti ilahiyyat və ya sözlər deyil, gücdür. Bu ayədə Paul möcüzələri yaradan güc haqqında danışmır. Möcüzələr sözlərə bənzəyir. Onlar Padşahlığın hissəsi ola bilər, ancaq Padşahlığın mahiyyəti ola bilməzlər. Möcüzələr heç nəyin sübutu deyil. İsa möcüzələrə olan meyilimiz barədə bilərək əvvəlcədən xəbərdarlıq etdi: O gün bir çoxları Mənə deyəcək: *«Ya Rəbb, ya Rəbb, biz Sənin adınla peyğəmbərlik etmirdikmi? Sənin adınla cinləri qovmurduqmu? Sənin adınla bir çox möcüzələr yaratmırdıqmı?» Onda Mən onlara*

*bəyan edəcəyəm: «Ey qanunsuzluq edənlər, Mən sizi heç vaxt tanımamışam, Məndən uzaq olun!»* (Mat.7:22-23).

Əgər İsa möcüzə edənləri heç vaxt tanımırdısa, onda onlar heç vaxt Meynədə deyildilər. Cinləri qovduqlarına və peyğəmbərlik etdiklərinə baxmayaraq, onlar öz «məsihçi» həyatlarını xəyallarında yaşadılar. Onlar gücə malik olduqlarını hesab edirdilər, lakin bu güc İsadan gəlmirdi. Onların problemi nədə idi? Bəlkə, onlar öz əməllərinə güvənirdilər? Xeyr. İsa dedi ki, onların problemi – qanunsuzluqdur. İsanın Padşahlığı qanunlara malikdir. Onun qanunlarına itaət etmiriksə, onda biz qanunsuzluq edirik.

Anabaptistlər öz dinləyicilərini məhz bu barədə öyrədirdilər. Düzgün başa düşdüyünüz ilahiyyat təlimlərinin sayının əhəmiyyəti yoxdur. Yenidən doğulmaq üçün gördüyünüz rəsmi tədbirlərin əhəmiyyəti yoxdur. Əgər siz Müqəddəs Ruhun gücü ilə yaşamırsınızsa, bütün bunlar gərəksizdir. Siz ya heç vaxt İsanın Meynəsində olmamısınız, ya da Meynədən qoparılmısınız. Məsihin Meynəsində böyüyən kəs qanunsuzluq etmir və Məsihin qanunlarına itaətsizlik göstərmir.

## Padşahlığın adamları

Anabaptist yazılarından biri öz dövrünün anabaptistlərini belə təsvir edirdi:

> «Vəftizdə onlar öz günahlarını Rəbbin ölümündə dəfn edirlər və Onunla birgə yeni həyata dirilirlər. Allahın Kəlamı ilə onlar öz ürəklərini sünnət edirlər. Həqiqi qaydaya və Rəbbin Sözünə uyğun olaraq, Onun cəmiyyətinin itaətkar üzvləri olaraq, onlar Müqəddəs Ruh ilə Məsihin müqəddəs Bədəninə vəftiz olunurlar. Onlar Məsihi geyinirlər və davranışlarında Onun Ruhunu, təbiətini və gücünü göstərirlər. Onlar Allahdan qorxurlar və bütün fikirlərində, sözlərində və işlərində yalnız

Allahın izzətini və sevgili qardaşlıqlarının xilasını axtarırlar. Onlar nifrət və intiqamın nə olduğunu bilmirlər, çünki onlara nifrət edənləri onlar sevirlər; onlara əzab verənlərə xeyirxahlıq edirlər və onları təqib edənlər üçün dua edirlər.[178]

Yenidən doğulmuş bu adamlar Padşahın idarəçiliyi altında yaşayırlar. Bu Padşah Öz Müqəddəs Ruhu və Kəlamı ilə idarə edir. Padşah onlara təmiz və ağ ipəkdən olan salehlik libaslarını verir, Öz Müqəddəs Ruhunun canlı suyu ilə onları canlandırır və Həyat Çörəyi ilə onları yedirdir. Padşahın adı İsa Məsihdir. Onlar qılınclarından və nizələrindən kotan və oraq qayırmış sülh övladlarıdırlar. Onlar müharibənin nə olduğunu daha bilmirlər. Onlar qeysərinkini qeysərə, Allahınkını isə Allaha verirlər».[179]

Padşahlığın bu yeni məsihçiləri bir-birini tez tapır, yerli cəmiyyət və bütün qitə boyu yayılan ittifaqlar yaradırdılar. Anabaptist hərəkatı böyük sürətlə yayılırdı.[180] Anabaptistlər təşkil olunmuş missioner hərəkatına malik deyildilər. Erkən məsihçilər kimi, anabaptistlərin hamısı özləri missionerlər idi, ünsiyyət etdikləri hər kəslə Padşahlığın Müjdəsi ilə bölüşürdülər. Padşahlığın Müjdəsi dünyanı dəyişmək təsirinə malik olduğunu bir daha göstərirdi!

Ancaq dəyişmək istəməyən dünyadan cavab ləngimədi. İslahatçılar bu yeni Padşahlıq hərəkatına çox adamın qoşulmasından qorxurdular, çünki bu halda Katoliklər və ya Türklər ilə müharibəyə göndərmək üçün kifayət qədər qoşun olmazdı. İslahatçılar və Katoliklər cəmiyyətin Konstantinin hibridinin daxilində qalmasını istəyirdilər. Onlar bu nəticəyə gəlmişdilər: əgər kilsə və dövlət birləşməsə, bütün cəmiyyət dağılacaq. Buna görə də anabaptistlər yox olmalıdırlar!

Katolik və Reformasiya kilsələri bütpərəst Romalıların günlərində olduğu kimi, bu yeni Padşahlığın yeni məsihçilərini vəhşi işgəncələrə məruz qoydular (onları təkcə şirlərə atmırdılar). Məsələn, Alman rəisləri anabaptist rəhbəri Maykl Sattlerə qarşı növbəti cəza hökmünü verdilər:

> «...Məhkəmə qərarına görə, edam yerinə aparılarkən Maykl Sattlerin dili kəsilməlidir və iki dəfə bərk közərdilmiş maşa ilə onun bədənindən hissələr qoparılmalıdır. [Şəhər] darvazalarından çıxandan sonra həmin maşa ilə işgəncəni beş dəfə təkrarlamaq gərəkdir».[181]

Bundan sonra Maykl Sattler bidətçi kimi tonqalda yandırıldı. O, hansı dəhşətli cinayətlərə görə belə qəddar cəzalandı? O, Padşahlıq məsihçiliyini başqalarına öyrətmişdi. Ona qarşı ittihamedici aktın doqquz bəndindən ikisi adamları and içməməyə və pisliyə müqavimət göstərməməyə çağırması olub. Bu «məsihçi» rəislər İsanın Özünün bədənindən bərk közərdilmiş maşa ilə hissələri qoparandan sonra diri-diri yandırardılarmı? Axı İsa da pisliyə müqavimət göstərməməyi və and içməməyi Öz şagirdlərinə öyrədirdi.

Anabaptistlərə qarşı təqib Romada erkən məsihçilərin üzləşdiyi təqibdən daha güclü idi. Lakin buna baxmayaraq, İslahatçılar və Katoliklər bu yeni Padşahlıq hərəkatını yer üzündən silə bilmədilər. Onların sadiq qalıqları hələ də bizimlədir. Lakin Anabaptistlərin də nöqsanları olub. Məsələn, «xristian»ların dəhşətli təqibi nəticəsində onların əksəriyyəti başqalarına şahidlik etmək səylərini itirdi.

## Padşahlığın digər məsihçiləri

Anabaptist hərəkatı məsihçiliyin tarixində ən vacib hərəkatlardan biri olub. Anabaptistlər on altıncı əsrdə Padşahlıq Müjdəsini bərpa edəndən başqa, təxminən beş yüz il ərzində Padşahlığın bayrağını yüksəkdə saxladılar.

Anabaptistlər son beş yüz il ərzində yeganə Padşahlıq məsihçiləri olmamışdılarr.

Reformasiya əsasında yaranmış kilsələr Padşahlıq məsihçiliyini adətən «əməllə xilas olan» hərəkat adlandırırdı. Padşahlıq məsihçilərinin bəziləri İslahat və Roma katolik kilsələrindən çıxmışdı. Katolik və ya Reformasiya kilsələrində olaraq Padşahlıq məsihçiliyini yaşamaq çox çətin idi. Faktiki olaraq, uzun müddət davam edən Padşahlıq hərəkatı hələ heç vaxt Reformasiya ilahiyyatına bağlı olan kilsədən çıxmamışdır.

## Kvakerlər

Bəzi Anabaptistlər İngiltərəyə gəlib çıxsalar da, orada heç vaxt cəmiyyət qura bilmədilər. Buna baxmayaraq, 1647-ci ildə Anabaptistlərdən asılı olmayaraq, İngilis Padşahlıq hərəkatı meydana çıxdı. Onun banisi toxucunun oğlu Corc Foks olub. Müqəddəs Kitabı müstəqil oxuyaraq, ilahiyyat savadı olmayan Foks Padşahlıq Müjdəsini özü üçün aşkar etdi.

Həyəcan və sevinclə dolu Foks İngiltərə boyu Padşahlıq məsihçiliyini vəz etməyə başladı. Bəzən o, dövlət kilsəsində moizəni kəsib adamlara özü vəz etməyə başlayırdı. Bir dəfə dindar izdiham onu daşqalaq etdi. Foksun sağ qalmasını görəndə onu huşunu itirənə qədər dəyənəklədilər. O, özünə gələndən sonra ayağa qalxıb izdihama baxdı və uca səsdə dedi: «İstəyirsizsə, məni yenə döyə bilərsiniz. Budur mənim əllərim, mənim başım və mənim yanaqlarım». Utandırılan izdiham dağılışdı.[182]

Corc Foksun təbliği sayəsində onun çoxlu şagirdi oldu. Onlar özlərini «Dostların Cəmiyyəti» adlandırdılar. Başqaları isə onları «Kvakerlər» adlandırırdılar. Bu adla da onlar daha çox tanındılar. Bütün İngiltərədə, sonra da Amerikada Kvakerlər hər yerdə Padşahlıq dəyərlərini vəz edirdilər. Kilsə rəislərinin əmri ilə Kvakerləri döyür, həbs edirdilər, lakin onları heç nə susdura bilmədi. Yeni Dünyada Puritanlar Kvakerləri hədələyərək onlara Massaçusets ştatına ayaq basmağı qadağan etdilər. Ancaq Kvakerlər Massaçusets ştatında da şahidlik etdilər və Puritanlar onlardan bir neçəsini asdılar.

Anabaptistlərdən və Valdeslərdən fərqli olaraq, Kvakerlər Müqəddəs Kitabın təlimindənsə Ruhun daxili şahidliyini üstün tuturdular. Onlar Ruhun yeni erasının başlandığına inanır, vəftizi və Rəbbin Süfrəsini səhvən lazımsız hesab edirdilər.[183] Əsrlər boyunca Ruhun daxili şahidliyində cəmləşən Kvakerlər Müqəddəs Kitabdan uzaqlaşaraq ictimai fəaliyyətə daha çox həsr olundular. Bu gün Kvakerlər ictimaiyyətdə çox fəal olan liberal cəmiyyətdir. Kvakerlərin yalnız kiçik qalığı bu gün Müqəddəs Kitaba əsaslanan Padşahlıq Müjdəsinin tərəfdarıdır.

## Qardaşlar

Kvaker hərəkatı İngiltərədə çiçəklənərkən, Almaniyada və Şimali Avropada «pietizm» adlı yeni dini hərəkat başladı və dua edən Əsl ruhani həyat üçün susamış məsihçilər dövlət kilsələrindən ayrılıb Müqəddəs Kitabı öyrənmək üçün kiçik dua qruplarını təşkil etməyə başladılar. Kvakerlər kimi, pietistlər də Müqəddəs Ruhun insanın daxilində apardığı işinə xüsusi əhəmiyyət verir, vəftiz ilə Rəbbin Süfrəsini ikinci dərəcəli hesab edirdilər. Təəssüf ki, kvakerlərdən fərqli olaraq, pietistlərin əksəriyyəti

İsanın Padşahlıq haqqında təlimlərinə hərfi itaətkarlığı öyrətmirdi.

1700-cü illərin əvvəllərində Almaniyanın Palatinat ərazisində Pietist hərəkatı Aleksandr Mak adlı gənc məsihçini oyatdı. Əksər pietistlər Lüteran, İslah edilmiş və ya Katolik kimi dövlət kilsələrində qalaraq kilsənin ibadətindən kənar vaxtda öz dua görüşlərini keçirirdilər. Lakin Mak və onun dini qardaşları dövlət kilsələrindən ayrılmaq və erkən məsihçiliyə qayıtmaq zəruriyyətini dərk etdilər. Müqəddəs Yazıları oxuyaraq, onlar Padşahlıq Müjdəsini aydın dərk etdilər. Onlar andlardan, müharibələrdə iştirakdan, var-dövlət yığmaqdan, məhkəmə işlərindən və İsanın təliminə zidd olan başqa dünyəvi işlərdən imtina etdilər.[184]

Özlərini, sadəcə, «qardaşlar» adlandıraraq, bu yeni Padşahlıq məsihçiləri Alman Baptistləri və ya dankerlər kimi tanınmağa başladılar. Onlar yaşadıqları şəhər və kəndlərdə Padşahlıq Müjdəsini ruh yüksəkliyi ilə yayırdılar. Təqib üzündən şəhərdən şəhərə keçərək, nəhayət, ABŞ-ın Pensilvaniya ştatının Germantovn şəhərinə gəlib çıxdılar və burada kök saldılar. Öz tərcümeyi-halında Bencamin Franklin dunkerlərlə tanışlığını belə təsvir edir:

> «Hesab edirəm ki, aramızda olan bir sekta çox layiqli davranır. Bu, dunkerlərdir. Onun banilərindən biri olan Maykl Velfar ilə tanış oldum. O, mənə şikayət etdi ki, başqa dini fanatiklər onlara acıqla böhtan atdılar və təcrübədən keçirmədikləri iyrənc prinsiplərdə təqsirləndirdilər. Mən ona yeni sektaların həmişə belə başlandığını dedim və təhqirlərə son qoymaq üçün əqidələrini və qaydalarını nəşr etməyi təklif etdim. O, əvvəllər bu təklifin edilməsini və cəmiyyətin razılaşmadığını dedi. Onun söylədiyi səbəblər bunlar idi:

> «Biz cəmiyyət kimi ilk dəfə formalaşanda Allah bizim ağlımızı nurlandırdı və biz əvvəllər səhv hesab etdiyimiz şeyləri həqiqət, həqiqət hesab etdiyimiz şeyləri isə səhv hesab etməyə başladıq. Vaxtaşırı Allah bizim ağlımızı yenə nurlandırırdı; nəticədə bizim əqidələrimiz mükəmməlləşir, səhvlərimiz isə azalırdı. Mənəvi və ya ilahiyyat sahəsində özümüzü mükəmməl hesab etmirik. Qorxuruq ki, bir gün inamımızın etirafını çap etsək, özümüzü bağlı və məhdud hiss edərik; daha sonrakı mükəmməlləşməyə can atmarıq. Varislərimiz ağsaqqalların və banilərin əqidələrini müqəddəs hesab edəcək və bundan dönməyəcəklər».
>
> Sektada belə təvazökarlıq, bəlkə də, bəşəriyyət tarixində yeganə haldır, çünki bütün başqa sektalar tam həqiqətə malik olduqlarını bəyan edirdilər».[185]

Əslində isə, dunkerlərin əsas təlimdən başqa, ilahiyyata belə ümumi yanaşması yeni Padşahlıq hərəkatları üçün olduqca səciyyəvidir. Padşahlığı ilk dəfə aşkar edəndə gizli xəzinə səbəbi ilə imanlıların sevincləri elə böyük olur ki, onlar fikirlərini əsasən Padşahlıqda və Onun Padşahında cəmləşdirirlər. İlahiyyatın dolaşıq təfərrüatları onları narahat etmir.

## Həvari kilsəsi

On səkkizinci əsrdə İsveçrədə anabaptistlər o ölkədən tamamilə yox olandan sonra Samuel Froeliks adlı gənc seminariya tələbəsi Allahın Kəlamını hərfi şərh edən məsihçi cəmiyyətlərini təşkil etdi. Təəccüblü deyil ki, onlar Padşahlıq Müjdəsinin əsaslarına – pisliyə müqavimət göstərməməyə, sadə ilahiyyata, itaətkarlığın əhəmiyyətini dərk etməyə, andlardan imtina etməyə, var-dövlət yığmamağa gəlib çıxdılar. Digər yeni Padşahlıq məsihçiləri kimi, Froeliks və onun tərəfdarları ruh

yüksəkliyi ilə şahidlik edirdilər və onların yeni Padşahlıq hərəkatı sürətlə Avropa boyu yayılmağa başladı. Bu Padşahlıq məsihçiləri bu gün də mövcuddurlar; Avropada onlar Nazareylər, Amerikada isə «Həvari kilsəsi» kimi tanınırlar.

## Padşahlığın zoğları

Ümumiyyətlə, ilahiyyat təsiri altında olmayan adamların əksəriyyəti Müqəddəs Yazıları oxuyanda Padşahlıq Müjdəsini dərk edirlər. Buna görə də, təəccüblü deyil ki, yeni ev kilsələri və kiçik cəmiyyətlər çox vaxt Padşahlıq Müjdəsini öyrədirlər. Faktiki olaraq, bu gün bizə tanış olan kilsələrin bəziləri erkən dövrlərində daha çox pisliyə müqavimət göstərməmək təliminə riayət edir və Padşahlıq Müjdəsini daha çox vəz edirdi. Bunlar Məsihin Kilsəsi, Məsihçi Kilsə, Moraviya qardaşları, eləcə də metodist və pentikost kilsələridir. Lakin bu hərəkatlar böyüyəndə öz seminariyalarını təsis edir, hörmətli olur və Padşahlıq təlimlərinin əksəriyyətini adətən itirirdilər.

Müxtəlif Padşahlıq hərəkatlarına aid müzakirəmizi bitirməzdən əvvəl mən qeyd etmək istəyirəm ki, bu Padşahlıq qrupları xırda ilahiyyat məsələlərində eyni baxışlara malik deyildilər. Onların hamısı* həvarilərin İnam Etirafını və Müjdəni qəbul edirdilər.

---

* Kvakerlər bunlara aid deyil. Kvakerlərin vəftizə aid təlimi zəif olub.

# 34

# İNDİ BİZİM NÖVBƏMİZDİR

Artıq qeyd etdiyim kimi, bu kitabda yazılanlar Devid Berkotun uydurduğu ilahiyyat deyil. Bu, **tarixi** məsihçi inamıdır; Konstantindən əvvəl yaşayan məsihçilərin öyrətdiyi təlimdir və məsihçilərin yazıları əsasında bunu asanlıqla təsdiq etmək olar.*

## Məryəmə sitayiş edən müjdəçilər

Bu kitabdan az məlumat yadda saxlasanız belə, ümid edirəm ki, əsas məsələni yadda saxlayacaqsınız: məsihçiliyin mahiyyəti ilahiyyat və rəsmiyyət deyil, **münasibətdir**. Bu, əsas ilahiyyat təlimlərindən imtina demək deyil. Padşahlığa daxil olanda biz Padşahımız ilə davam edən münasibətlərə daxil oluruq.

Əlbəttə, əksər müasir kilsələr bu gün etiraf edir ki, biz məsihçilər İsa ilə münasibətə daxil oluruq. Lakin onlar bu münasibətləri İsanın təsvir etdiyindən fərqli təsəvvür edirlər. Müasir ilahiyyatın münasibəti adətən uydurulmuş İsa ilə xəyali münasibətdir.

Roma Katolik Kilsəsinin əsas günahlarından biri Məryəmə sitayiş etməsidir. Roma Katolisizmində və Şərqi

* Bu mövzunu müstəqil tədqiq etməyi sizə tövsiyyə edirəm. Donikey xristianlarının əsərlərinin toplusu bir çox mənbələrdən əldə edilə bilər.

Ortodoks Kilsəsində Məryəm çox populyardır, çünki Məryəm heç vaxt acıqlanmır, heç vaxt günahı cəzalandırmır və heç bir əmr vermir. Onun lütfü hər bir günahı örtür. Bunların əvəzində onun istədiyi yeganə şey – hamının ibadətidir. Dindar katoliklər xəyali Məryəm ilə davam edən münasibətlərə malik olduqlarına inanırlar.

Müjdəçi məsihçilər Məryəmə pərəstişə görə katolikləri tənqid etdiklərinə baxmayaraq, əslində onlardan çoxu Məryəmə sitayiş edirlər. Nə? Onlar Məryəmə sitayiş edirlər? Bəli, edirlər. Ancaq onlar onu Məryəm deyil, İsa adlandırırlar. Tanınmış İsa… Ona iman etmək çox asandır. Bu, katolik Məryəmin dəyişdirilmiş variantıdır. Bu İsa heç vaxt acıqlanmır, heç vaxt günahı cəzalandırmır və heç bir əmr vermir. O, bütöv lütfdən ibarətdir; ibadət və mədhdən çox heç nəyi xoşlamır. Lakin xəyali İsa ilə münasibətlər katoliklərin Məryəm ilə münasibətlərindən daha real deyil.

## Allahın göndərdiyi sınaqlar

Padşahlıq ilahiyyatının mühüm hissəsi budur ki, Allah bizim səmimiyyətimizi, İsaya inamımızı və məhəbbətimizi mütləq yoxlayacaq. Yaqub deyir: «*İmanınızın sınaqdan keçməsi dözüm yaradır. Dözüm də öz əməlini kamil etsin ki, siz yetkin və kamil adamlar olasınız, heç bir çatışmazlığınız olmasın*» (Yaq.1:3,4). Paul yazırdı: «*Allah tərəfindən Müjdəni yaymaq tapşırığını almağa layiq görüldüyümüzə görə insanları deyil, ürəklərimizi sınaqdan keçirən Allahı razı salmaqdan ötrü danışırıq*» (1Sal.2:4).

Sınaq Padşahlıq ilə gəlmiş yeni bir şey deyil. Allah **həmişə** adamları sınayıb. Məsələn, İsraillilləri sınayan Allah onlara çoxlu göstərişlər verirdi, məsələn, mannanı axşamdan səhərə saxlamamaq (şənbə günü istisna olmaqla), lakin bəzi İsraillilər Onun sözünə baxmadılar

(Çıx.16:19-30). Allah İsraillilərə Yerixonda hər şeyi məhv etməyi əmr etdi, Axan isə özü üçün bir az qızıl saxladı.

## «Ləğv edilmiş» əmrlərdən ehtiyat edin

Bizi sınamaq istəyən Allah çox vaxt bizə aydın əmr verir, sonra isə kimsə onu pozmağa imkan verir. Məsələn, 1 Padşahlar Kitabında təsvir olunan hadisə: Allah Öz peyğəmbərini Yarovam padşahın yanına göndərir. Həyatını təhlükəyə salaraq, peyğəmbər cəsarətlə ona tapşırılan sözü bəyan etdi. Allah hətta onun vasitəsilə möcüzələr etdi.

Qarşısında həqiqi peyğəmbərin olduğunu bilən padşah Yarovam onu içəri dəvət edərək yemək təklif etdi. Lakin peyğəmbər cavab verdi: «*…Sən mənə malının yarısını da versən, səninlə getmərəm, bu yerdə çörək yeyib su içmərəm. Çünki Rəbbin sözü ilə mənə belə əmr gəldi: "Orada çörək yeyib, su içmə və getdiyin yolla geri qayıtma"*» (1Pad.13:7-10). Hələlik peyğəmbər Allahın sınaqlarının hamısından keçirdi.

Lakin peyğəmbər evə qayıdanda Beyt-Eldə yaşayan başqa bir peyğəmbər onun qarşısına çıxıb dedi: «*…Mən də sənin kimi bir peyğəmbərəm. Bir mələk Rəbbin sözü ilə mənə dedi: "Onu qaytarıb özünlə evinə gətir, çörək yeyib, su içsin". Ancaq bunu ona yalandan söylədi*» (1Pad.13:18). Bu, başqa bir sınaq idi. Görünür, Allah Öz göstərişlərini dəyişdi. Beləliklə, peyğəmbər qaldı və Beyt-Eldə yaşayan peyğəmbərlə yemək yedi. Nəticədə nə oldu? Yəhudeyaya yolda ikən şir peyğəmbərə hücum etdi və onu öldürdü.

Bu, qəmgin hekayədir və həvari Paul əsrlər sonra yaxşı demişdi: «*İstər biz, istərsə göydən gələn bir mələk belə, bizim sizə yaydığımız Müjdəyə zidd bir şeyi müjdə kimi yaysa, ona lənət olsun!*» (Qal.1:8). Beləliklə, Allah bizə aydın əmr

verirsə, ona daha zidd getməz. Əks halda Onun xidmətçiləri Onun nəyi ləğv etdiyini və adamların Allaha zidd hərəkət etdiklərini bilməzdilər.

Musanın vaxtından bəri Allah Öz əvvəlki əmrlərinin bəzilərini yalnız bir dəfə dəyişdi. Bu xəbəri vermək üçün Allah adi bir insanı və ya hətta mələyi göndərmədi. O, Öz Oğlunu göndərdi. Oğul isə istənilən şəkkakı inandırmaq üçün kifayət qədər möcüzələr etdi.

İsanın gəlişi Allahın bəşəriyyət üçün hazırladığı planın sonuncu mərhələsi oldu. İsanın öyrətdiklərini ləğv etməyə heç kimin – nə mələyin, nə də insanın ixtiyarı yoxdur. Ata heç vaxt Öz Oğluna zidd danışmaz. Beləliklə, İsa yer üzünə qayıdıb əmrlərin dəyişməsi barədə xəbər verməyincə, əmrlər eyni qalacaq. Bu ayəyə artıq istinad etmişdik: «*İsa Məsih dünən, bu gün və əbədi olaraq eynidir*» (İbr.13:8).

Allahın əmrlərini insan hələ Eden Bağında pozmağa başlamışdı. Allah Adəmə aydın demişdi: «*Bağdakı bütün ağacların bəhrəsindən istəyəndə yeyə bilərsən. Ancaq xeyirlə şəri bilmə ağacının meyvəsindən yemə, çünki ondan yeyən gün hökmən öləcəksən*». İlan isə Həvvaya dedi: «*Yox, əsla ölməzsiniz. Əksinə, Allah bilir ki, o meyvələrdən yediyiniz gün gözləriniz açılacaq və xeyirlə şəri bilərək Allah kimi olacaqsınız*» (Yar.3:4,5).

Beləliklə, Allah bir sözü dedi, ilan isə digərini. Çoxumuz deyərdi: «Nə asan sınaqdır». Ancaq ulu valideynlərimiz bu sınaqdan keçmədilər! Həvva ilana inandı, Adəm isə arvadının səhvini göstərmək əvəzinə, onun sözü ilə hərəkət etdi. Bəs biz məsihçilər necə? Onlardan fərqlənirikmi? Biz İsanın əmrlərini aydın oxuyuruq. Lakin vaiz və ya Müqəddəs Kitabın şərhçiləri İsaya zidd izah edəndə biz İsaya deyil, bu adama inanırıq.

## Biz nə edəcəyik?

Bu kitabda məsihçi tarixi təfsilatla müzakirə olunub. Lakin nəticə çıxarmasaq, bütün dünyanın tarixi bizə fayda verməyəcək. Milyonlarla məsihçi Roma Katolik Kilsəsini onun səhvlərinə görə mühakimə edir. Lakin həmin məsihçilər özləri də katoliklər kimi səhv edirlər. Onlar Konstantinin hibridini qəbul edərək öz dünyagörüşlərini yaradırlar.

Əsrlər boyu hibridi rədd edən və onun qaydaları ilə yaşamaqdan imtina edən Padşahlıq məsihçiləri olub və bu fakt bizi sevindirir. Ancaq onların vaxtı keçib getdi. İndi bizim növbəmizdir. Yer üzündə yaşayan bütün məsihçilərin İsanın təlimlərini rədd etməsi və ya özləri bildikləri kimi izah etməsi bizim itaətsizliyimizi qətiyyən doğrultmur. Rəbb Müqəddəs Yazılarda şəxsən bizimlə danışanda adamların sözləri əhəmiyyətsiz olur. Mərhum müjdəçi Leonard Ravenhill yaxşı demişdi: «Məsih bizim üçün tam avtoritetdir, ya da Onun sözlərinin mənası yoxdur».

Çox güman ki, bu kitab sizdə narahatlıq hissi yaratdı. Ola bilsin ki, hətta o, sizi təhqir də etdi. Ola bilsin, yazdıqlarıma zidd olan başqa bir kitabı tapmaq istəyəcəksiniz. Belə kitabı tapmaq çətin deyil.

Mən sizə İsanın bütün təlimlərini oxumağı məsləhət görürəm. Ancaq xahiş edirəm, öz fikrinizi dəstəkləyən ayrı-ayrı ayələri oxumayın. Bəlkə, mən İsanın təlimini səhv izah etmişəm. Siz mənə deyil, Ona qulaq asın. Ancaq mən Onun təlimini təhrif etməmişəmsə, onda bu kitabı uzağa atmayın və İsanın sözlərini unutmayın. Ola bilsin, siz Padşahlıq Müjdəsini qəbul etmədən toy ziyafətinə gəlmisiniz. Bu Müjdəni ürəkdən qəbul etməsəniz, orada qala bilməyəcəksiniz.

Digər tərəfdən, bu kitab sizin ürəyinizə toxuna da bilər. Bəlkə, siz də Padşahlığın sadiq rəiyyəti olmaq istəyirsiniz.

Sizin üçün Allahın Padşahlığı qiymətli mirvariyə bənzəyirmi? Padşahlığı əldə etmək üçün hər şeydən sevinclə imtina etməyə hazırsınızmı? Əgər hazırsınızsa, onda mənə və Padşahlığın başqa müasir vətəndaşlarına qoşulun. Gəlin istənilən adamın həyatını dəyişə bilən Müjdəni birlikdə elan edək!

# Kitabların siyahısı

## İlkin mənbələr

Eusebius. Ecclesiastical History. Tərcümə: P. L. Maier. Grand Rapids: Kregel Publications, 1999.

Calvin J. Institutes of the Christian Religion. 2 cild. Tərcümə: H. Beveridge. Grand Rapids: Wm. B. Eerdmans Publishing Company, 1982.

Calvin J. Treatises against the Anabaptists and against the Libertines. Tərcümə: B. W. Farley. Grand Rapids: Baker Book House, 1982.

Luther M. The Bondage of the Will. Tərcümə: H. Cole. Grand Rapids: Baker Book House, 1976.

Luther M. Works of Martin Luther—The Philadelphia Edition. 6 cild. Tərcümə: C. M. Jacobs. Grand Rapids: Baker Book House, 1982.

Marsellinus, Ammianus. The Later Roman Empire. Tərcümə: W. Hamilton. New York: Penguin Books, 1986.

Randi J. The Faith Healers. Buffalo: Prometheus Books, 1989.

Simons M. The Complete Writings of Menno Simons. Tərcümə: J. C. Wenger. Scottdale: Herald Press, 1956.

Franklin B. The Autobiography and Other Writings. New York: Penguin Books USA Inc., 1783.

Leith, John H., ed. Creeds of the Churches. Atlanta: John Knox Press, 1973.

Gee, Henry, and Hardy, John William, eds. Documents Illustrative of English Church History. London: MacMillan and Co., Ltd., 1910.

Barry, Colman J., ed. Readings in Church History. Westminster, Maryland: Christian Classics, Inc., 1985.

Roberts, Alexander and Donaldson, James, eds. The Ante-Nicene Fathers. 10 cild. Grand Rapids: Wm. B. Eerdmans Publishing Company, 1985.

Krey, August C., ed. The First Crusade: The Accounts of Eyewitnesses and Participants. Princeton: 1921.

Schaff, Philip, ed. The Nicene and Post-Nicene Fathers, First Series. 10 cild. Grand Rapids: Wm. B. Eerdmans Publishing Company, 1983.

Schaff, Philip and Wace, Henry, eds. The Nicene and Post-Nicene Fathers, Second Series. 10 cild. Grand Rapids: Wm. B. Eerdmans Publishing Company, 1982.

## İkinci dərəcəli mənbələr

Bainton, Roland H. Christian Attitudes Toward War and Peace. Nashville: Abingdon Press, 1960.

Bainton, Roland H. The Reformation of the Sixteenth Century. Boston: Beacon Press, 1952.

Cairns, Earle E. Christianity Through the Centuries. Grand Rapids: Zondervan Publishing House, 1954.

Chadwick, Henry. The Early Church. New York: Penguin Books, 1967.

Chamberlin, E. R. The Bad Popes. New York: Dorset Press, 1969.

Christie-Murray, David. A History of Heresy. New York: Oxford University Press, 1976.

Dickens, A. G. The English Reformation. New York: Schocken Books, 1952.

Dowley, Tim, ed. Eerdman's Handbook to the History of Christianity. Grand Rapids: Wm. B. Eerdmans Publishing Company, 1977.

Driver, John. How Christians Made Peace with War. Scottdale, Pennsylvania: Herald Press, 1988.

Edwards, David. Christian England. Vol. 2. Grand Rapids: Wm. B. Eerdmans Publishing Company, 1983.

Eller, Vernard. Christian Anarchy. Grand Rapids: Wm. B. Eerdmans Publishing Company, 1987.

Ellul, Jacques. The Subversion of Christianity. Translated by Geoffrey

W. Bromiley. Grand Rapids: Wm. B. Eerdmans Publishing Company, 1986. Erbstösser, Martin. Heretics in the Middle Ages. Leipzig: Druckerei Fortrschritt Erfurt, 1984. Estep, William. The Anabaptist Story. Grand Rapids: Wm. B. Eerdmans Publishing Company, 1996. Gibbon, Edward. The Decline and Fall of the Roman Empire. New York: Penguin Books, 1952.

González, Justo. Faith & Wealth. New York: Harpers Collins Publishers, 1990.

González, Justo. A History of Christian Thought. 3 vols. Nashville: Abingdon Press, 1970.

Grimm, Harold J. The Reformation Era 1500-1650. New York: The Macmillan Company, 1965.

Hershberger, Guy F. The Recovery of the Anabaptist Vision. Scottdale, Pennsylvania: Herald Press, 1957.

Kraybill, Donald B. The Upside-Down Kingdom. Scottdale, Pennsylva¬nia: Herald Press, 1978.

Lucas, Henry S. The Renaissance and the Reformation. New York: Harper & Row, 1960.

Schaff, Philip. History of the Christian Church. 8 vols. Grand Rapids: Wm. B. Eerdmans Publishing Company, 1910.

Shannon, Albert. The Medieval Inquisition. Collegeville, Minnesota: The Liturgical Press, 1984.

Strype, J. Ecclesiastical Memorials. London: 1822.

Thomson, John A. F. The Later Lollards 1414-1520. London: Oxford University Press, 1965.

Hoehner, H. W. "Maccabees." The International Standard Bible Encyclopedia. Ed. Geoffrey W. Bromiley. Vol. 3. Grand Rapids: Eerdmans Publishing Co., 1986.

Tolstoy, Leo. The Kingdom of God Is Within You. Lincoln, Nebraska: University of Nebraska Press, 1894.

Tourn, Giorgio, et al. You Are My Witnesses. Torino, Italy: Claudiana Editrice, 1989.

Verduin, Leonard. The Anatomy of a Hybrid. Sarasota, Florida: Christian Hymnary Publishers, 1976.

Verduin, Leonard. The Reformers and Their Stepchildren. Sarasota, Florida: Christian Hymnary Publishers, 1964.

Willoughby, William C. Counting the Cost. Elgin, Illinois: The Brethren Press, 1979.

# Kitabların istinadları


## 1-ci fəsil — Müqəddəs müharibə?

1. Raymond Ajilski. *İstinad:* The First Crusade: The Accounts of Eyewitnesses and Participants / A. C. Krey. Prinston: 1921. səh. 250-256.

2. McFall J. A. The Fall of Jerusalem // Military History Magazine. İyun, 1999. səh. 1-6.

3. Krey, 252 səh.

4. Krey, 253 səh.

## 3-cü fəsil — Fərqli bir Padşahlıq

5. Tertullian. Cild IV, fəsil 26 // Marsion qarşı. *Mənbə:* Ante-Nicene Fathers. C. III. 409 səh.

## 4-cü fəsil — Bəs siz özünüzü Padşahlığa həsr etmisinizmi?

6. İngilis dilindən tərcümə. «Vətəndaşlıq və immiqrasiya xidmətləri», www.immigration.gov/graphics/aboutus/history/teacher/oath.htm.

7. Florida During World War II [Elektron mənbə]. URL: http://www.floridamemory.com/OnlineClassrom/FloridaWWII/history.cfm.

8. Webster's New World College Dictionary. New York: Simon & Schuster, Inc., 1997. 3. 765 səh.

9. Koch F. Proceedings. *İstinad:* Covey S. The 7 Habits of Hightly Effective People. New York: Simon & Schuster, Inc., 1989. 33 səh.

## 5-ci fəsil — Var-dövlətə münasibətimizi dəyişmək

10. İsgəndəriyyəli Kliment. 14 // Valılardan kim xilas ola bilər? *Mənbə:* Ante-Nicene Fathers. C. II. 595 səh.

## 6-cı fəsil — Düzlüyün yeni standartı

11. Hertenstein M., Trott J. Selling Satan: The Tragic History of Mike Warnke // Cornerstone. 1992. C. 21. № 98.

12. The Cornerstone Series on Mike Warnke [Elektron mənbə]. URL: http://www.cornerstonemag.com/features/iss098/warnke_index.htm.

13. Həmin mənbə.

14. Passantino B. və G., Trott J. Satan's Sideshow: The True Lauren Stratford Story [Elektron mənbə]. URL: http://www.cornerstonemag.com/features/iss090/sideshow.htm.

15. Randi J. The Faith Healers. Buffalo: Prometheus Books, 1989. Səh. 105, 106, 150.

16. Randi J. səh. 146-153.

## 7-ci fəsil — Padşah lığın nikah və boşanmaya aid qanunları

17. Boşanmaya aid London Komissiyası qarşısında İzrael Abrahamsın verdiyi göstərişlər. 21 noyabr 1910. *Mənbə:* Divorce in the Old Testament // International Bible Encyclopedia [Elektron mənbə]. http://www.studylight.org.

18. Divorce Facts [Elektron mənbə]. URL: http://wheres-daddy.com.

19. Divorces: 1858-2000 [Elektron mənbə]. URL: http://www.statistics.gov.uk.

20. Brinig M. F. These Boots Are Made for Walking: Why Most Divorce Filers Are Women // American Law and Economics Review. 2000. C. 2. № 1. Səh. 126–129.

21. Həv. 1:4; 18:1; Rom. 1:15; Flm. 1:15 və s. bax.

22. «Getmək» sözü «afiimi» yunan sözündən gəlir.

23. Mənbə: Barna Research Group. *İstinad:* Robinson B. A. "U.S. Divorce Rates for Various Faith Groups" [Elektron mənbə]. Mart, 2002. URL: http://www.religioustolerance.org/chr_dira.htm.

24. Barna Research Group.

25. Barna Research Group.

26. Mənbə: National Center for Health Statistics. *İstinad:* "U.S. Divorce Statistics", Divorce Magazine.com [Elektron mənbə]. http://www.divorcemag.com/statistics/statsUS2.shtml

27. National Center for Health Statistics.

28. Barna Research Group.

29. Knox D., Schacht C. Marriage and the Family: A Brief Introduction. Belmont, California: Wadsworth Publishing Company,

1999. *İstinad:* Asian-American Couples [Elektron mənbə]. URL: http://www.uwyo.edu.

30. Mənbə: Institute for Divorce Reform. *İstinad:* «Divorce Magazine.com».

31. Mənbə: Divorce Rates of All Countries, Compared to the U.S. *İstinad:* http://www.divorcereform.org/nonus.html.

## Fəsil 8 — Düşmənlərimi sevmək?

32. Adin Ballou. *Mənbə:* L. N. Tolstoy. Allahın Padşahlığı daxilinizdədir, PSS, cild 28 [Elektron mənbə]. URL: http://az.lib.ru/t/tolstoj_lew_nikolaewich/text_1260.shtml (tarix: 08.11.2012).

## Fəsil 9 — Bəlkə…?

33. Müəllifin Uiver ailəsi ilə söhbətlərindən və mənbə: Mountain Man Arrested // The Sentinel. 1988. Səh. 1-2.

34. Kellermann A., tibb elmləri doktoru. // New England Journal of Medicine. 1988. *İstinad:* http://goodsforguns.org.

35. Origen. Cild II, fəsil 30 // Selsə qarşı. *Mənbə:* Ante-Nicene Fathers. C. IV. 444 səh.

36. Arnobi. Cild I, paraqraf 6 // Bütpərəstlərə qarşı. *Mənbə:* Ante-Nicene Fathers. C. VI. 415 səh.

37. Origen. Selsə qarşı. Cild 8, fəsil 73 // *Mənbə:* Ante-Nicene Fathers. C. IV. Səh. 667-668.

38. Ballou A. “How Many Does It Take” [Elektron mənbə]. URL: www.adinballou.org/HowMany.shtml.

## Fəsil 10 — Məgər Müqəddəs Yazılarda yazılmayıb…?

39. Vine W. E. Expository Dictionary of New Testament Words. Grand Rapids: Zondervan Publishing House, 1940. 188 səh.

40. Tertullian. Fəsil 19 // Bütpərəstlik barədə. *Mənbə:* Ante-Nicene Fathers. C. III. 73 səh.

## Fəsil 12 — İki padşahlıqda yaşamaq

41. Tertullian. Bütpərəstlik barədə. Fəsil 15 // *Mənbə:* Ante-Nicene Fathers. C. III. 70 səh.

## Fəsil 13 — Mən «bu dünyadanam»?

42. Moreland D. Dave Moreland’s Bozo Criminal of the Day [Elektron mənbə]. URL: http://www.kooi.com/bozo/jan99.htm.

## Fəsil 14 — Biz «sülh və ədalət» mübarizləri oluruqmu?

43. Capital Punishment Statistics [Elektron mənbə]. URL: http://www.ojusdoj.gov.

44. Alan Guttmacher adına İnstitut tərəfindən hazırlanmış statistika; http://www.nrlc.org/abortion/aboramt.html.

## Fəsil 15 — Kimsə belə yaşayıbmı?

45. Hoehner H. W. Maccabees // The International Standard Bible Encyclopedia. Grand Rapids: Wm. B. Eerdmans Publishing Company. 1986. C. III. Səh. 196–199.

46. Smith R. H. "Pella" // The International Standard Bible Encyclopedia.

## Fəsil 16 — Məsihçi kilsənin tarixi mövqeyi

47. Hermas. Çoban. Cild III, fəsil 1 // *Mənbə:* Ante-Nicene Fathers. C. II. 31 səh.

48. Tatian. Ellinlərə qarşı nitq. Fəsil 11 // *Mənbə:* Ante-Nicene Fathers. C. II. 69 səh.

49. Clement of Alexandria. Müəllim. Cild 3, fəsil 8 // *Mənbə:* Ante-Nicene Fathers. C. II. 281 səh.

50. Tertullian. Fəsil 38 // Apologiya. *Mənbə:* Ante-Nicene Fathers. C. III. Səh. 45-46.

51. Tertullian. Fəsil 13 // De Corona. *Mənbə:* Ante-Nicene Fathers. C. II. 101 səh.

52. Origen. Cild 8, fəsil 75 // Selsə qarşı. *Mənbə:* Ante-Nicene Fathers. C. IV. 668 səh.

53. Cyprian. Fəsil 26 // Öləri kəslər barədə. *Mənbə:* Ante-Nicene Fathers. C. V. 475 səh.

54. Clement of Alexandria. *Mənbə:* Maksim. Vəz 55. *Mənbə:* Ante-Nicene Fathers. C. II. 581 səh.

55. Tertullian. Fəsil 10 // Səbir haqqında. *Mənbə:* Ante-Nicene Fathers. C. III. 713 səh.

56. Tertullian. Fəsil 39 // Marsiona qarşı. *Mənbə:* Ante-Nicene Fathers. C. III. 415 səh.

57. Lactantius. Cild V, fəsil 21 // İlahi qaydalar. *Mənbə:* Ante-Nicene Fathers. C. VII. 158 səh.

58. Lactantius. Cild V, fəsil 24 // İlahi qaydalar. *Mənbə:* Ante-Nicene Fathers. C. VII. 160 səh.

59. Lactantius. Cild V, fəsil 18 // İlahi qaydalar. *Mənbə:* Ante-Nicene Fathers. C. VII. 184 səh.

60. Athenagoras. Fəsil 1 // Məsihçilərə aid xahiş. *Mənbə:* Ante-Nicene Fathers. C. II. 129 səh.

61. Hippolytus. The Apostolic Tradition. Tərcümə: Gregory Dix və Henry Chadwick. Ridgefield, Connecticut: Morehouse Publishing, 1992. 26 səh.

62. Schaff, Filip, Canon XII of Nicaea // The Nicene and Post-Nicene Fathers, First Series. Grand Rapids: Wm. B. Eerdmans Publishing Company, 1983. C. X. 27 səh.

63. Mark Avrelinin Senata müraciəti. *Mənbə:* Ante-Nicene Fathers. C. I. 187 səh.

64. Origen. Cild V, fəsil 37 // Selsə qarşı. *Mənbə:* Ante-Nicene Fathers. C. IV. 560 səh.

65. Lactantius. Cild VI, fəsil 17 // İlahi qaydalar. *Mənbə:* Ante-Nicene Fathers. C. VII. Səh. 182-183.

## Fəsil 18 — Padşahlığa necə daxil olmaq olar

66. Webster's New World College Dictionary. New York: Simon & Schuster, Inc., 1997. III. Səh. 1138.

67. Creeds of the Churches / redaktə edən J. H. Leith. Atlanta: John Knox Press, 1973. 24-25 səh.

## Fəsil 21 — Padşahlıq Müjdəsi ilə nə baş verdi?

68. Eusebius. Kilsə tarixi. Kitab VII, fəsil. 17.

69. Eusebius. Kilsə tarixi. Kitab X, fəsil 5.

70. Eusebius. Konstantinin həyatı. Kitab I, fəsil 41-42. *Mənbə:* The Nicene and Post-Nicene Fathers, Second Series / redaktə edən. F. Schaff, H. Wace. Grand Rapids: Wm. B. Eerdmans Publishing Company, 1982. C. 1, 494 səh.

71. Eusebius. Konstantinin həyatı. Kitab II, fəsil 44-46.

72. Lactantius. Cild V, fəsil 24 // İlahi qaydalar. *Mənbə:* Ante-Nicene Fathers. C. VII, 160 səh.

## Fəsil 22 — İlahiyyatın padşahlığı

73. Bu barədə ətraflı daha erkən mənbəyə nəzər salın: «İlk Xristian imanı üzrə lüğət» («A Dictionary of Early Christian Beliefs»), Bölmə: «Məsih, Onun ilahiliyi».

74. Socrates. Ecclesiastical History. Kilsə tarixi. Cild I, fəsil 9. *Mənbə:* The Nicene and Post-Nicene Fathers, Second Series / redaktə edən P. Schaff, H. Wace. Grand Rapids: Wm. B. Eerdmans Publishing Company, 1982, C. II, 14 səh.

75. Gibbon E. The Decline and Fall of the Roman Empire. New York: Penguin Books, 1952, 386 səh.

76. The Decree of the Holy, Great, Ecumenical Synod, the Second of Nicaea // The Nicene and Post-Nicene Fathers, Second Series / redaktə edən P. Schaff, H. Wace. Grand Rapids: Wm. B. Eerdmans Publishing Company, 1982. C. XIV, səh. 550–551. Həmçinin bax: http://www.xxc.ru/orthodox/pastor/vii_sobor/index.htm.

77. Hilary of Pointers. *Mənbə:* Gibbon E. The Decline and Fall of the Roman Empire. New York: Penguin Books, 1952, 397 səh.

78. Marcellinus A. The Later Roman Empire. New York: Penguin Books, 1986, 239 səh.

79. Readings in Church History / redaktə edən C. J. Barry. Westminister, Maryland: Christian Classics, Inc., 1985, 522 səh.

## Fəsil 23 — Allah qaydaları dəyişdimi?

80. Eusebius. Ecclesiastical History. Tərcümə: Maier P. L. Grand Rapids: Kregel Publications, 1999, 231 səh.

## Fəsil 24 — Məsihin təlimləri necə yox oldu

81. Leonard Verduin öz məşhur «Hibridin anatomiyası» («The Anatomy of a Hybrid»), kitabında bu ifadədən istifadə edir, dövlət kilsəsini «hibrid» adlandırır.

82. Eusebius. Konstantinin həyatı. *Mənbə:* The Nicene and Post-Nicene Fathers / redaktə edən P. Schaff, H. Wace. Grand Rapids: Wm. B. Eerdmans Publishing Company, 1982. Cild I, fəsil 44. səh. 494.

## Fəsil 25 — Qızıl əsr başlamadı

83. Schaff P. History of the Christian Church. Grand Rapids: Wm. B. Eerdmans Publishing Company, 1910. C. III, səh. 33-35.

84. Həmin mənbə, səh. 107-125.

85. Gibbon E. The Decline and Fall of the Roman Empire. New York: Penguin Books, 1952, 252 səh.

86. Həmin mənbə, 380 səh.

87. Eusebius. Konstantinin həyatı. Kitab II, fəsil 3. *Mənbə:* The Nicene and Post-Nicene Fathers / redaktə edən P. Schaff, H. Wace. Grand Rapids: Wm. B. Eerdmans Publishing Company, 1982, 500 səh.

88. Həmin mənbə, fəsil. 7-9.

89. Həmin mənbə, fəsil. 24-29.

90. Gibbon, 258 səh.

91. Həmin mənbə, 380 səh.

92. Həmin mənbə, 382 səh.

93. Həmin mənbə, 470-472 səh.

94. Həmin mənbə, 476 səh.

95. Həmin mənbə, 477 səh.

96. Həmin mənbə, 478 səh.

97. Həmin mənbə.

98. Həmin mənbə, 509 səh.

99. Nelson L. H. The Later Roman Empire [Elektron mənbə]. URL: http://www.ku.edu/kansas/medieval/108/lectures.

100. Gibbon, səh. 562-619. *Həmçinin, bax:* Bridjes B. Arthur and the Fall of Rome [Elektron mənbə]. URL: http://www.sangraal.com/library/arthur1.htm.

## Fəsil 26 — «Hibridin» müdafiəçisi Avqustin

101. Augustine. Fast Manixeyə cavab. Cild 22, fəsil 74. *Mənbə:* The Nicene and Post-Nicene Fathers, First Series / redaktə edən P. Schaff, H. Wace. Grand Rapids: Wm. B. Eerdmans Publishing Company, 1982. C. IV, 301 səh.

102. Augustine. fəsil 75. *Mənbə:* The Nicene and Post-Nicene Fathers. C. IV, 301 səh.

103. Augustine. fəsil 79. *Mənbə:* The Nicene and Post-Nicene Fathers. C. IV, 304 səh.

104. Augustine. Donatistlərin düzəlməsi. Fəsil 7, paraqraf 23. *Mənbə:* The Nicene and Post-Nicene Fathers. C. IV, 642 səh.

105. Bainton R. Christian Attitudes Toward War and Peace. Nashville: Abingdon Press, 1960, 33-43 səh.

106. Həmin mənbə, 96-98 səh. *Həmçinin bax:* Avqustin. Fast Manixeyə cavab. Cild 22, fəsil 75. *Mənbə:* The Nicene and Post-Nicene Fathers. C. IV, 301 səh.

107. Augustine, fəsil 75. *Mənbə:* The Nicene and Post-Nicene Fathers. C. IV, 301 səh.

108. Lib.ru/Klassika: L.N.Tolstoy. Cild 28, Allahın Padşahlığı daxilinizdədir, Əsərlərinin tam külliyatı [Elektron mənbə]. URL: http://az.lib.ru/t/tolstoj_lew_nikolaewich/text_1260.shtml (istinad tarixi: 02.07.2013).

109. Həmin mənbə.

110. Uniform Code of Military Justice. Məqalə 92(1)(c).

111. Augustine. Müqəddəslərin əvvəlcədən seçilməsi. Fəsillər 16-19. *Mənbə:* The Nicene and Post-Nicene Fathers. C. V, 506-508 səh.

## Fəsil 27 — Məsihin adından saxtalaşdırma

112. Konstantinin ənamı [Elektron mənbə]. URL: http://www.vostlit.info/Texts/Dokumenty/Italy/IV/Dar_Kostantina/text (istinad tarixi: 20.05.2013).

113. Çemberlen E. R. The Bad Popes. New York: Dorset Press, 1969. 43 səh.

114. Həmin mənbə, 60 səh.

115. Readings in Church History / redaktə edən C. D. Barry. Westminister, Maryland: Christian Classics, Inc., 1985. 522 səh.

116. Həmin mənbə, 521-522 səh.

## Fəsil 28 — Yeraltı Padşahlıq

117. Eerdsmans' Handbook to the History of Christianity / redaktə edən T. Dowley. Grand Rapids: Wm. B. Eerdmans Publishing Company, 1977. Səh. 202-203.

118. Erbstösser M. Heretics in the Middle Ages. Leipzig: Druckerei Fortrschritt Erfurt, 1984. Səh. 80-81.

119. Həmin mənbə, 83 səh.

120. Həmin mənbə, 85 səh.

## Fəsil 29 — Valdeslər

121. Torun G. və s. You Are My Witnesses. Torino, İtaly: Claudinia Editrice, 1989. 14 səh.

122. Həmin mənbə, 15 səh.

123. Həmin mənbə, 16 səh.

124. Həmin mənbə, 20 səh.

125. Həmin mənbə, 17 səh.

126. Həmin mənbə, 18 səh.

127. Həmin mənbə, 19 səh.

128. Həmin mənbə.

129. Həmin mənbə, 20 səh.

130. Həmin mənbə, 36 səh.

131. Həmin mənbə, 37 səh.

132. Erbstösser M. Heretics in the Middle Ages. Leipzig: Druckerei Fortrschritt Erfurt, 1984. 202 səh.

133. Torn, 54 səh.

134. Həmin mənbə, 51 səh.

135. Collins J. Heritage of the Waldensians: A Sketch [Elektron mənbə]. URL: http://www.wrs.edu/journals/jour896/waldensians.html.

136. Wylie J. A. The History of Protestantism, 1878. 485 səh. *Mənbə:* «Heritage of the Waldensians: A Sketch».

## Fəsil 30 — Başqa axın

137. Wycliffe Propositions Condemned at London // Documents Illustrative of English Church History / redaktə edən H. Gee, D. Hardy. London: MacMillan and Co., Ltd., 1910. Səh. 108-109.

138. «Konstans məclis» // 15-ci iclas, 6 iyul, 1415 [Elektron mənbə]. URL: http://www.dailycatholic.org/history/16ecume3.htm.

139. Gee, Hardy, 110 səh.

140. Həmin mənbə, 109 səh., Nəticə 10.

141. Həmin mənbə, Nəticə 16.

142. Həmin mənbə.

143. Həmin mənbə.

144. Thompson J. A. F. The Later Lollards 1414-1520. London: Oxford University Press, 1965. 247 səh.

145. Gee, Hardy, 128 səh., Nəticə 6.

146. Həmin mənbə, 131 səh., Nəticə 10

147. Thompson, Səh. 244-21.

148. Strype J. Ecclesiastical Memorials. London, 1822. Səh. 54-55.

## Fəsil 31 — Valdeslərin İsveçrə islahatçıları ilə görüşü

149. Lucas H. S. The Renaissance and the Reformation. New York: Harper & Row, 1960. 519 səh.

150. Həmin mənbə, 520 səh.

151. Grimm H. J. The Reformation Era 1500-1650. New York: The Macmillan Company, 1965. 188 səh.

152. Lukas, 526 səh.

153. Grimm, Səh. 321-324.

154. Tourn J. və s. You Are My Witnesses. Torino, İtaliya: Claudinia Editrice, 1989. 66 səh.

155. Həmin mənbə, Səh. 66-67.

156. Həmin mənbə.

157. Həmin mənbə, Səh. 66-69.

158. Həmin mənbə, 72 səh.

159. Həmin mənbə.

160. Həmin mənbə, 69 səh.

## Fəsil 32 — Cenevrədə yeni Sion

161. Grimm H. J. The Reformation Era 1500-1650. New York: The Macmillan Company, 1965. 338 səh.

162. Həmin mənbə, 325 səh.

163. Həmin mənbə, 342 səh.

164. Nand R. John Calvin: Not So Tyrannical [Elektron mənbə]. URL: http://oprfhs.org/division/history/interpretations/2000interp/.doc.

165. The Murder of Michael Servetus [Elektron mənbə]. URL: http://www.bcbsr.com/topics/servetus.html.

166. Fulton J. F. Michael Servetus Humanist and Martyr. : Herbert Reichner, 1953. 35 səh.

167. Schaff P. History of the Christian Church. Grand Rapids: Wm. B. Eerdmans Publishing Company, 1910. 768 səh.

168. Nigg W. The Heretics: Alfred A. Knopf, Inc., 1962. 328 səh.

169. The Murder of Michael Servetus.

170. Calvin J. On the Magistrate // Treatises against the Anabaptists and against the Libertines. Grand Rapids: Baker Bk. House, 1982. Səh. 77-78.

171. İkinci Helvet etirafı. fəsil XXX. Kitab Creeds of the Churches / redaktə edən J. H. Leith. Atlanta: John Knox Press, 1973. Səh. 190-191.

172. Calvin, 77 səh.

## Fəsil 33 — Padşahlığın bayrağı yenidən yüksəlir

173. Simler S. *Mənbə:* A History of the Baptists [Elektron mənbə]. URL: http://www.pbministries.org/History/John%20T.%20Christian/vol1/history_10.htm.

174. Həmin mənbə.

175. Simons M. Reply to False Accusations // The Complete Writings of Menno Simons. Skottdeyl: Herald Press, 1956. 96 səh.

176. Simons M. *Mənbə:* Rot D. D. The Mennonites' Dirty Little Secret // Christianity Today. 1996. 44 səh.

177. Denk H. *Mənbə:* What is Anabaptism? [Elektron mənbə]. URL: http://www.anabaptistnetwork.com/WhatIsAnabaptism.htm.

178. Simons M. Reply to False Accusations, 93 səh.

179. Həmin mənbə, 94 səh.

180. Bainton R. The Reformation of the Sixteenth Century. Boston: Beacon Press, 1952. 101 səh.

181. Rəbbin Qurbanı. Efrata: Grace Press, Inc., 2013. 31 səh.

182. The Journal of George Fox / redaktə edən N. Penni. London: J. M. Dent & Sons, 1924. http://www.geocities.com/quakerpages/fox17.htm

183. Edvards D. Christian England. Grand Rapids: Wm. B. Eerdmans Publishing Company, 1983. 341 səh.

184. Willoughby W. C. Counting the Cost. Elgin: The Brethren Press, 1979. Səh. 45-46.

185. Franklin B. The Autobiography and Other Writings. New York: Penguin Books USA Inc., 1783. 129 səh.

# MÜNDƏRİCAT

Azərbaycan dilində dərc olunmuş
bu kitab üçün naşirin müqəddiməsi . . . . . . . . . . . . . . . . 3

**I hissə: Fərqli dəyərlərə malik olan Padşahlıq . . . . . . . 5**

1. Müqəddəs müharibə? . . . . . . . . . . . . . . . . . . . . . . . 7
2. Allahın yer üzündə qurduğu Padşahlıq . . . . . . . . . .13
3. Fərqli bir Padşahlıq . . . . . . . . . . . . . . . . . . . . . . . .17
4. Bəs siz özünüzü Padşahlığa həsr etmisinizmi?. . . .25
5. Var-dövlətə münasibətimizi dəyişmək . . . . . . . . .35
6. Düzlüyün yeni standartı . . . . . . . . . . . . . . . . . . . .47
7. Padşahlığın nikah və boşanmaya aid qanunları . . .59

**II hissə: Böyük maneə . . . . . . . . . . . . . . . . . . . . . . . . .71**

8. Düşmənlərimi sevmək? . . . . . . . . . . . . . . . . . . . .73
9. Bəlkə...? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .83
10. Məgər Müqəddəs Yazılarda yazılmayıb...? . . . . . .97
11. Bu dünyanın padşahlıqları . . . . . . . . . . . . . . . . . .107
12. İki padşahlıqda yaşamaq . . . . . . . . . . . . . . . . . . .113
13. Mən «bu dünyadanam»? . . . . . . . . . . . . . . . . . . .121
14. Biz sülh və ədalət mübarizləri oluruqmu?. . . . . .129
15. Kimsə belə yaşayıbmı? . . . . . . . . . . . . . . . . . . . .133
16. Məsihçi kilsənin tarixi mövqeyi. . . . . . . . . . . . . .139

**III hissə: Padşahlığın Müjdəsi nədir? . . . . . . . . . . . . . . 147**
17. İsanın təlimlərində xilas yolu . . . . . . . . . . . . . . .149
18. Padşahlığa necə daxil olmaq olar . . . . . . . . . . . . .161
19. Fariseylərə orada yer yoxdur . . . . . . . . . . . . . . . .169
20. Padşahlıq haqqında danışmamaq olmur . . . . . .175

**IV hissə: «Hibrid»in yaranması . . . . . . . . . . . . . . . . . . . 179**
21. Padşahlıq Müjdəsi ilə nə baş verdi? . . . . . . . . . . .181
22. İlahiyyatın padşahlığı . . . . . . . . . . . . . . . . . . . . . . .189
23. Allah qaydaları dəyişdimi? . . . . . . . . . . . . . . . . . . .199
24. Məsihin təlimləri necə yox oldu . . . . . . . . . . . . .203
25. Qızıl əsr başlamadı . . . . . . . . . . . . . . . . . . . . . . . . .209
26. «Hibridin» müdafiəçisi Avqustin . . . . . . . . . . . . .219
27. Məsihin adından saxtalaşdırma . . . . . . . . . . . . . .231

**V hissə: Padşahlığın məsihçisi olmağı qanun qadağan edəndə . . . . . . . . . . . . . . . . . . . . . . . . 237**
28. Yeraltı Padşahlıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . .239
29. Valdeslər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .245
30. Başqa axın . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .257
31. Valdeslərin İsveçrə islahatçıları ilə görüşü . . . . .265
32. Cenevrədə yeni Sion . . . . . . . . . . . . . . . . . . . . . . .271
33. Padşahlığın bayrağı yenidən yüksəlir . . . . . . . . . .279
34. İndi bizim növbəmizdir . . . . . . . . . . . . . . . . . . . . .293
Kitabların siyahısı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 299
Kitabların istinadları . . . . . . . . . . . . . . . . . . . . . . . . . 303

# Mənim Padşahlığım

# bu dünyadan deyil

«İsanın təlimində ən əhəmiyyətli nədir?» sualına nə cavab verərdiniz? İnsanın xilasa ehtiyacı? Allahın bəşəriyyətə olan məhəbbəti? Yenidən doğulmanın zəruriyyəti?

Bəli, İsa bütün bunlar barədə vəz edirdi. Bunların hamısı çox əhəmiyyətli həqiqətlərdir. Lakin İsanın vəzində bunlar ən əhəmiyyətli deyildi. İsanın vəzində ən mühüm mövzu Allahın Padşahlığı idi. İsa haraya gedirdisə Allahın Padşahlığı haqqında vəz edirdi. Təəssüf ki, bu gün Allahın Padşahlığı haqqındakı xəbər Müjdə vəzindən çıxarılıb. Məsihçilərin bir çoxu Allahın Padşahlığının yer üzündə mövcudluğunu dərk etmirlər. Onlar hətta Padşahlığın nə olduğundan xəbərdar deyillər. Buna görə də, onlar özlərini Məsihin istədiyi kimi Padşahlığa həsr etmirlər.

«Mənim Padşahlığım bu dünyadan deyil» kitabında Devid Berkot oxuculara İsanın Padşahlıq haqqında unudulmuş təlimini açıqlayır, Padşahlığın qanun və prinsiplərini izah edir. Bunlar dünyəvi padşahlıqların prinsiplərindən tam fərqlidir. Məsihin Padşahlığında səthi imana yer yoxdur, çünki bu Padşahlıq son iki min il ərzində dəfələrlə bütöv cəmiyyətləri dəyişib.

Ümidvarıq ki, «Mənim Padşahlığım bu dünyadan deyil» kitabı imanda və Allah qarşısında yaşadığınız həyatınızı və həyat tərzinizi yenidən mənalandırmaqda sizə kömək göstərəcək.